# Türk dünyası gənc tədqiqatçılar dərnəyinin Araşdırmaları

№ 1(11)
2025

BAKI DÖVLƏT UNİVERSİTETİ
TARİX FAKÜLTƏSİ

№1(11) 2025

ISSN: 2708-3934 (Print)
ISSN: 2708-3942 (Online)

# Türk dünyası gənc tədqiqatçılar dərnəyinin Araşdırmaları

## Studies of the Turkic World Young Researchers Association

***Mahmud Kaşğari.***
***“Divanü Lüğat-it-türk” - 950***

# 1 (11)

**Bakı - 2025**

*Baş redaktor:* Sevinc Ruintən / Sevinj Ruintan
*Bakı Dövlət Universiteti / Baku State University, Azerbaijan*

*Redaktor müavini:* Səidə Quliyeva / Saida Quliyeva
*Bakı Dövlət Universiteti / Baku State University, Azerbaijan*

*Məsul katib*: Ülfər Məmmədli / Ulfar Mammadli
*Bakı Dövlət Universiteti / Baku State University, Azerbaijan*

*Redaksiya heyəti:*

Arzu Məmmədova /Arzu Mammadova
*Bakı Dövlət Universiteti / Baku State University, Azerbaijan*
Aytən Abbasova-Quliyeva / Aytan Abbasova-Guliyeva
*Bakı Dövlət Universiteti / Baku State University, Azerbaijan*
Aytən Nəsibova / Aytan Nasibova
*Saratov Dövlət Hüquq Akademiyası, Rusiya / Saratov Sate Law Academy, Russia*
Cavid Əlisgəndərli / Javid Alisgandarli
*Türk Dünyası gənc tədqiqatçılar dərnəyi / Turkic World Young Researchers Association Azerbaijan*
Elvira Lətifova / Elvira Latifova
*Bakı Dövlət Universiteti / Baku State University, Azerbaijan*
İqbal Ağayev / Igbal Agayev
*Bakı Dövlət Universiteti / Baku State University, Azerbaijan*
Kader Özlem / Kader Ozlem
*Uludağ Universiteti, Bursa, Türkiyə / Uludag University, Bursa, Turkey*
Kəmalə Nəcəfova / Kamala Najafova
*Bakı Dövlət Universiteti / Baku State University, Azerbaijan*
Kəmalə Ruintən / Kamala Ruintan
*Bakı Slavyan Universiteti / Baku Svavic University*
Qismət Davudov / Qismat Davudov
*Bakı Dövlət Universiteti / Baku State University, Azerbaijan*
Lalə Əliyeva / Lala Aliyeva
*Bakı Dövlət Universiteti / Baku State University, Azerbaijan*
Murat Jane / Murat Jane
*İstanbul Aydın Universiteti, Türkiyə / İstanbul Aydın University, Turkey*
Rövşən Hətəmov / Rovshan Hatamov
*Bakı Dövlət Universiteti / Baku State University, Azerbaijan*
Sevinc Qasımova / Sevinj Qasımova
*Bakı Dövlət Universiteti / Baku State University, Azerbaijan*
Talqat Moldabay / Talqat Moldabay
*L.N.Qumilyov adına Avrasiya Milli Universiteti, Qazaxıstan /*
*L.N. Gumilyov Eurasian National University, Kazakhstan*
Vladimir Redçenko / Vladimir Redchenko
*N.Q.Çernışevski adına Saratov Dövlət Universiteti, Rusiya /*
*Saratov State University, Russia*
Zərifə Nəzirli / Zarifa Nazirli
*Bakı Dövlət Universiteti / Baku State University, Azerbaijan*

Türk Dünyası Gənc Tədqiqatçılar Dərnəyinin Araşdırmaları, 2017
*Redaksiya ilə əlaqə:* txt_kaf@bsu.edu.az
*Jurnalın web-səhifəsi:* https://history.bdu.info.az/turk-dunyasi-genc-tedqiqatcilar-derneyi-nin-arasdirmalari

**MÜNDƏRİCAT / CONTENTS**


| | | |
|---|---|---|
| Ayxan İsgəndərzadə | *Beynəlxalq münasibətlərdə miqrasiya və qaçqın böhranlarının genişlənməsi* | 5-10 |
| Aysel Əliyeva | *Trabzon konfransında Cənubi Qafqaz xalqlarının diplomatik baxışları və mövqeləri* | 11-15 |
| Ceyhun Əmirov | *Şah İsmayıl (1501-1524) Uzun Həsən (1453/1468-1478) və Ağqoyunluların (1468-1503) varisi kimi* | 16-21 |
| Hüseyn Məmmədov | *XX əsrin 80-ci illərinin sonunda Azərbaycan xalqının milli oyanışı* | 22-25 |
| İlham Əhmədov | *Türkiyədə 1980-ci il çevrilişini doğuran səbəblər və çevriliş ərəfəsində siyasi vəziyyət* | 26-29 |
| Məryəm Rəhimova | *Şah I Abbasın hərbi islahatı* | 30-34 |
| Nərmin İmamverdiyeva | *Siyasi liderlər və beynəlxalq səviyyədə güc oyunları* | 35-39 |
| Nigar Əsgərova | *Şirvan dövlətinin yaranması: erkən Məzyədilər dövrü* | 40-44 |
| Pənah Xanlayev | *Gödək Əhmədin islahatları* | 45-53 |
| Rəmzi Səfərli | *Prezident İlham Əliyevin Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində fəaliyyəti* | 54-63 |
| Şaiq Mədətov | *Ekoloji şüurun formalaşdırılmasında ekoloji təhsil və tərbiyənin rolu* | 64-68 |
| Şehla Mahyaddinli | *Batı Trakya Türk Cumhuriyeti (1913)* | 69-75 |
| Şəfəq Əzimova | *Şah II İsmayılın dini islahat cəhdləri* | 76-80 |
| Tarlan Tahirzada | *The Shusha factor in the Karabakh war and its methodology of teaching in History* | 81-84 |
| Təranə Mütəllimova | *Türkiyə-Azərbaycan əməkdaşlığının Cənubi Qafqazın təhlükəsizliyinin təmin edilməsində rolu* | 85-90 |
| Zenfira Manafova | *Böyük Səlcuqlu dövlətinin idarə sistemi* | 91-95 |
| Zəhra Əsgərova | *Davamlı inkişaf üçün kosmik texnologiyalar və bu kontekstdə beynəlxalq əməkdaşlığın faydaları* | 96-100 |




# Divanü Lüğat-it-türk - 950

*Türk dünyası 2025 mədəniyyət paytaxtı*
**– Aktau, Qazaxıstan**

*Türk dünyası 2025 Turizm paytaxtı*
**– Cəlal-Abad, Qırğızıstan**

Türk dünyası gənc tədqiqatçılar dərnəyinin Araşdırmaları
Studies of the Turkic World Young Researchers Association

№1(11) 2025, 5-10

UOT 327

**AYXAN İSGƏNDƏRZADƏ**
*Bakı Dövlət Universitetinin magistrantı*
**ayxanisgender5@gmail.com**

# BEYNƏLXALQ MÜNASİBƏTLƏRDƏ MİQRASİYA VƏ QAÇQIN BÖHRANLARININ GENİŞLƏNMƏSİ

*Elmi rəhbər:*
siyasi elmlər doktoru Ramiz Sevdimalıyev

*İnsanların yaşadıqları yerləri tərk edərək daha yaxşı və alternativ bir məskunlaşma axtarışına yönəlməsi, onların özlərini təhlükəsiz hiss etmədikləri anlardan başlayaraq tarixin hər dövründə özünü göstərən əsas problemlərdən biridir. Xüsusilə, Son onilliklərdə miqrasiya və qaçqın böhranları beynəlxalq münasibətlərin əsas problemlərindən birinə çevrilmişdir. Qlobal iqlim dəyişiklikləri, silahlı münaqişələr, iqtisadi qeyri-sabitlik və siyasi təzyiqlər nəticəsində milyonlarla insan doğma yurdlarını tərk edərək təhlükəsiz və daha yaxşı həyat şəraiti axtarmağa məcbur olur. Bu proses təkcə ölkələrin deyil, həm də beynəlxalq təşkilatların və regional birliklərin təhlükəsizlik və siyasət gündəliyində prioritet məsələyə çevrilmişdir. Məqalədə miqrasiya və qaçqın böhranlarının beynəlxalq münasibətlərdə yaratdığı təhlükələr, ölkələrarası münasibətlərə təsiri və geosiyasi dinamikalara necə istiqamət verdiyi araşdırılacaqdır. Eyni zamanda, qlobal səviyyədə bu problemlərin həlli üçün çoxşaxəli və balanslaşdırılmış yanaşmalara ehtiyac olduğu vurğulanacaqdır. Məqalənin əsas nəticəsi olaraq göstəriləcəkdir ki, miqrasiya və qaçqın böhranlarının genişlənməsi yalnız milli dövlətlərin problemi deyil, eyni zamanda beynəlxalq təhlükəsizliyin və stabilliyin qorunması üçün qlobal əməkdaşlıq tələb edən bir çağırışdır.*

*Açar sözlər:* Beynəlxalq münasibətlər, miqrasiya böhranları, geosiyasi təsirlər.

***Giriş.*** Qloballaşmanın ən mühüm nəticələrindən biri də dünyada hər cür hərəkətliliyi artırmasıdır. Bu kontekstdə insan hərəkətliliyi tarixdə heç vaxt olmadığı qədər intensivləşmiş, problemli bölgələrdə yaşayan insanlar daha yaxşı həyat ümidi ilə firavan bölgələrə üz tutmuşlar. Dünyanın müxtəlif regionlarında baş verən silahlı münaqişələr, siyasi qeyri-sabitlik, iqtisadi çətinliklər və iqlim dəyişikliyi milyonlarla insanın öz ölkələrini tərk etməsinə səbəb olur. Bu proses təkcə miqrant və qaçqınların sosial-iqtisadi vəziyyətinə deyil, eyni zamanda qəbul edən və tranzit ölkələrin təhlükəsizliyinə, siyasi sabitliyinə və beynəlxalq əməkdaşlıq formatlarına da təsir edir. Miqrasiya axınlarının intensivləşməsi nəticəsində dövlətlər arasında münasibətlər mürəkkəbləşir, sərhəd təhlükəsizliyi məsələləri aktuallaşır və inteqrasiya siyasətləri yeni çağırışlarla üzləşir.

Bu tədqiqatın əsas məqsədi miqrasiya və qaçqın böhranlarının beynəlxalq münasibətlərə təsirini araşdırmaq və bu böhranların dövlətlərarası əlaqələrdə yaratdığı çağırışları və imkanları qiymətləndirməkdir. Xüsusilə, miqrasiya proseslərinin təhlükəsizlik, siyasi sabitlik və beynəlxalq əməkdaşlıq aspektlərinə təsiri təhlil ediləcəkdir.

Tədqiqatda beynəlxalq təşkilatların hesabatları, dövlətlərin rəsmi sənədləri, akademik məqalələr daxil olmaqla, bir çox sənədlərin təhlilindən istifadə edilib. Müxtəlif dövlətlərin miqrasiya siyasətləri və beynəlxalq təşkilatların yanaşmalarını qiymətləndirmək üçün müqayisəli təhlil tətbiq edilir. Miqrasiya və qaçqın axınlarının milli və qlobal təhlükəsizliyə təsiri müxtəlif risk faktorları nəzərə alınmaqla araşdırılır.

***Miqrasiya,*** insan tarixinin ən qədim dövrlərindən etibarən müxtəlif səbəblərə bağlı olaraq davam edən və daim mövcud olan bir prosesdir. Tarix boyu bir çox kütləvi miqrasiya hərəkatları qlobal miqyasda mühüm dəyişikliklərə səbəb olmuşdur. Bəzi miqrasiyalar dövlətlərin süqutuna gətirib çıxarmış, yeni siyasi quruluşların yaranmasına zəmin hazırlamışdır. Tarixdə kütləvi miqrasiyalara nümunə olaraq, Orta Asiya türklərinin başlatdığı Xalqların Böyük Köçü göstərilə bilər. IV əsrdə Böyük Hun İmperiyasının dağılması ilə qərbə doğru hərəkət edən türklər, Avropanın siyasi xəritəsini köklü

şəkildə dəyişdilər. Bu proses nəticəsində Roma İmperiyası iki hissəyə bölünmüş və Avropada feodal sistemin əsaslarını qoyan Orta Əsrlər dövrü başlamışdır. Avropa, qədim dövrlərdən bəri miqrasiya prosesləri ilə tanınsa da, xüsusilə son 300 il ərzində beş böyük qlobal miqrasiya dalğasının mərkəzində olmuşdur. Birinci dalğa – Avropa dövlətlərinin müstəmləkə siyasəti nəticəsində baş vermiş və I Dünya Müharibəsinin sonuna qədər davam etmişdir. İkinci dalğa – XVII-XVIII əsrlərdə Avropalı tacirlərin Şimali Afrikadan əsir götürüb, Cənubi Amerika, Karib adaları və Braziliyaya kölə kimi aparmaları ilə bağlı olmuşdur. Üçüncü dalğa – I Dünya Müharibəsindən sonra imperiyaların süqutu nəticəsində formalaşmışdır. Dördüncü dalğa – II Dünya Müharibəsindən sonra müstəmləkə dövlətlərinin dağılması ilə müşahidə edilmişdir. Beşinci dalğa – 1950-1960-cı illərdə Qərbi Avropa ölkələrinin iqtisadi inkişaf məqsədilə işçi qüvvəsi qəbul etməsi ilə bağlı olmuşdur (1).

XV əsrin sonlarında Yeni Dünyaya köç hərəkatları insanların miqrasiyasına okeanlararası bir miqyas qazandırdı. Avropada hökm sürən yoxsulluq və siyasi təzyiqlərdən xilas olmaq istəyənlər Amerika qitəsinə köç edərək yeni bir dövrün əsasını qoydular. Bununla yanaşı, XV-XVIII əsrlər arasında Avropalı tacirlər Şimali Afrikadan təxminən 15 milyon insanı toplayaraq kölə kimi çalışdırmaq üçün Cənubi Amerika, Karib adaları və Braziliyaya göndərdilər. Bu, miqrasiyanın həm coğrafi arealını, həm də intensivliyini artırdı. Amerika qitəsinin bu dövrdə formalaşan demoqrafik quruluşu, əsasən, bu miqrasiya proseslərinin nəticəsi olmuşdur. Müstəmləkəçi Avropa dövlətləri bu miqrasiya axınları nəticəsində iqtisadi baxımdan böyük qazanc əldə etmişdir. Beləliklə, bu köç dalğaları ABŞ, Kanada, Argentina, Braziliya və Avstraliya kimi "Yeni Dünya" ölkələrinin milli kimliklərinin formalaşmasında, eyni zamanda İngiltərə, Fransa, İspaniya, Portuqaliya, Belçika və Hollanda kimi Avropa dövlətlərinin zənginləşməsində mühüm rol oynamışdır.

XVIII əsrin ikinci yarısında İngiltərədə başlayan Sənaye İnqilabı, yeni enerji mənbələrindən istifadə etməklə istehsal sistemində köklü dəyişikliklər yaratdı. Bu yeni istehsal modeli, təkcə xammala deyil, həm də onu emal edəcək işçi qüvvəsinə olan tələbatı artırdı. Nəticədə, əhalinin bölgələr üzrə paylanması və miqrasiyası daha vacib məsələyə çevrildi. Sənayeləşmənin artan işçi qüvvəsi ehtiyacını qarşılamaq üçün kənd təsərrüfatı bölgələrində yaşayan insanlar sürətlə böyüyən şəhərlərə axın etdi. Bu proses şəhərlərdə əhali sıxlığının artmasına səbəb olmaqla yanaşı, sənayeləşən dövlətlərin yeni bazarlar axtarışına çıxmasına və nəticədə müstəmləkəçilik yarışının başlamasına gətirib çıxardı. Əvvəlcə, bu dövlətlər artan əhalisini müstəmləkə ərazilərinə yönəltdilər, lakin sonrakı dövrlərdə sənaye istehsalının sürətli inkişafı nəticəsində əmək qüvvəsi təmin etmək məqsədilə artıq öz müstəmləkələrindən işçi miqrasiyası qəbul etməyə başladılar (2).

Dünyada miqrasiya proseslərinin sürətlənməsinə təsir göstərən ən mühüm hadisələrindən biri də, şübhəsiz ki, I Dünya Müharibəsidir. Avropanın mərkəzində gedən müstəmləkəçilik mübarizəsinin nəticəsi olan bu müharibə, çoxmillətli imperiyaların dağılmasına səbəb olmuş və əhali tərkibi ilə siyasi sərhədləri bir-biri ilə uyğun gəlməyən yeni dövlətlərin yaranmasına yol açmışdır. Xüsusilə Şərqi Avropa və Balkanlarda hiss olunan bu vəziyyət, yeni formalaşan dövlətləri miqrasiya axınlarının mərkəzinə çevirdi. Çünki bir dövlətin qurulmasının əsas şərtlərindən biri, müəyyən bir ərazidə əhalinin mövcudluğu idi. Bu məqsədlə, yeni yaranan dövlətlər əhalinin miqrasiyasını idarə etməyə çalışmış və geniş miqyaslı məcburi köç proseslərinə yol açmışdır (10, s.201-209).

Tarixin ən dağıdıcı və genişmiqyaslı müharibəsi olan II Dünya müharibəsi, təkcə döyüş meydanlarında deyil, həm də milyonlarla insanın həyatında dərin izlər buraxdı. Müharibənin nəticələri, məhv olmuş şəhərlərlə yanaşı, kütləvi miqrasiya dalğalarının meydana çıxmasına da səbəb oldu. Savaş bitdikdən sonra Avropanın müstəmləkəsi olmuş Hindistan, Pakistan, Əlcəzair, Tunis, Misir və Liviya kimi ölkələr müstəqillik qazandı. Bu dəyişikliklər, xüsusilə Fransaya və Böyük Britaniyaya doğru böyük köç axını yaratdı. Məsələn, 1954-1962-ci illərdə Əlcəzairdə yaşayan 1 milyondan çox fransız və Fransanın nəzarətində çalışan 180 min Cəzayirli ailələri ilə birlikdə Fransaya köç etmək məcburiyyətində qaldı. Eyni dövrdə, Böyük Britaniyanın keçmiş müstəmləkələrindən geriyə dönüş edənlərin sayı sürətlə artaraq 1951-ci ildə 218 minə, 1961-ci ildə isə 514 minə çatdı. Bundan əlavə, müharibə milyonlarla insanı didərgin saldı və onların qonşu ölkələrə sığınmasına səbəb oldu. Bu humanitar böhranı həll etmək üçün 1949-cu ildə Cenevrə Konvensiyası imzalandı. Digər tərəfdən, II Dünya müharibəsindən sonra ən mühüm demoqrafik dəyişikliklərdən biri də Fələstin torpaqlarında

İsrail dövlətinin yaradılması idi. Dünyanın müxtəlif yerlərindən bura axışan yəhudi miqrantlarının gəlişi, paralel olaraq, milyonlarla fələstinlinin öz doğma torpaqlarından didərgin düşməsinə gətirib çıxardı. Bundan başqa, müharibə sonrası yenidənqurma prosesinə başlamaq istəyən Avropa ölkələri ciddi əmək qüvvəsi çatışmazlığı ilə üzləşdi. Bu səbəbdən, İtaliya, Yuqoslaviya, Yunanıstan, Fas, Əlcəzair və Türkiyə kimi Aralıq dənizi hövzəsi ölkələrindən Avropaya işçi miqrasiyası başladı. 1960-cı illərdən etibarən Qərbi Avropa ölkələri, ikitərəfli razılaşmalar çərçivəsində bu işçi qüvvəsini cəlb etməyə başladılar. 1970-ci illərin əvvəllərinə qədər bu dövlətlər "açıq qapı" siyasəti yürüdərək miqrasiyanı dəstəklədi. Lakin 1973-cü ildə baş verən neft böhranı iqtisadi durğunluğa səbəb oldu və Avropa ölkələri miqrasiya prosesini məhdudlaşdıran tədbirlər görməyə başladılar. Bununla belə, miqrasiya dayandırılmadı – sadəcə, xarakterini dəyişdi. 1974-cü ildə qəbul edilən "ailə birləşməsi" qanunu, Avropada yaşayan miqrantların ailə üzvlərini yanlarına gətirməsinə imkan yaratdı. Rəsmi icazələr azaldıqca, qeyri-qanuni yollarla Avropaya daxil olan miqrantların sayı artdı və beləliklə, yeni bir sosial və siyasi problem meydana çıxdı (8).

1989-cu ildə Berlin Divarının sökülməsi ilə başlayan proses Şərqi Avropanı Qərbdən ayıran "Dəmir Pərdə"nin aradan qalxmasına və kommunist blokunun dağılmasına gətirib çıxardı. SSRİ-nin süqutu nəticəsində yaranan siyasi və iqtisadi qeyri-sabitlikdən qaçmağa çalışan insanlar, xüsusilə də Qərbi Almaniya başda olmaqla, Qərbi Avropa ölkələrinə üz tutaraq yeni bir miqrasiya dalğasına səbəb oldular. 1992-ci ildə Yuqoslaviyanın parçalanması ilə başlayan müharibə və silahlı münaqişələr nəticəsində yüz minlərlə insan məhz eyni regiona doğru köç etməyə məcbur oldu. 1990-cı illər siyasi böhranlarla yanaşı, qloballaşmanın sürətləndiyi dövr kimi xarakterizə olunur. Bu dövrdə miqrasiya prosesləri daha da intensivləşərək mürəkkəb və idarəolunmaz bir vəziyyət aldı. Dünyanın coğrafi baxımdan bir-birindən uzaq regionları arasında rabitə və qarşılıqlı əlaqələrin genişlənməsi, köç yollarını və istiqamətlərini də dəyişdirdi. Xüsusilə, siyasi qeyri-sabitlik və silahlı münaqişələrdən qaçaraq daha firavan və təhlükəsiz bölgələrə getmək istəyən miqrantların əsas hədəfi Avropa ölkələri oldu. Bu dövrdə mühacirlərin uzaq məsafələr qət edərək Avropaya çatmağa çalışması, ölkələri "miqrasiya mərkəzinə çevrilən ölkələr," və ya "miqrant axınının mənbəyi olan ölkələr" kimi ayırmağı çətinləşdirdi. Bunun nəticəsində, Türkiyə kimi bəzi dövlətlər həm miqrasiya mənbəyi, həm də miqrant qəbul edən ölkələrə çevrildi. Eyni zamanda, Avropaya doğru uzanan miqrasiya yolları üzərində yerləşən ölkələr "tranzit dövlət" statusu qazandı. XX əsrin son rübündən etibarən Avropanın yaxın ətrafında yerləşən qeyri-sabit bölgələrin genişlənməsi, nizamsız miqrasiya axınlarını daha da artırdı. BMT-nin məlumatına görə, "1970-2010-cu illər arasında yoxsul ölkələrdən varlı ölkələrə doğru olan beynəlxalq miqrasiya nəticəsində dünyada miqrantların sayı 2,5 dəfədən çox artmışdır". Bu günə gəldikdə isə dünyanın müxtəlif regionlarından, xüsusilə də münaqişə və qeyri-sabitlik yaşayan ölkələrdən Avropaya doğru miqrasiya axınları davam edir. Məsələn, SSRİ-nin Əfqanıstana müdaxiləsindən sonra uzunmüddətli qeyri-sabitlik dövrünə düşən bu ölkə, 1979-cu ildən sonra isə İranda baş verən siyasi dəyişikliklər, həmçinin keçmiş sosialist bloku ölkələri, Yuqoslaviyanın parçalanmasından sonra Balkanlar, Körfəz müharibəsindən sonra İraq və nəhayət, "Ərəb Baharı" ilə xaosa sürüklənən Suriya başda olmaqla, Orta Şərq və Şimali Afrika ölkələri, eləcə də bəzi Asiya və Afrika dövlətləri Avropaya yönələn nizamsız miqrasiyanın əsas mənbələrinə çevrilmişdir. 2011-ci ildə başlayan Suriya böhranı, yalnız region ölkələri üçün deyil, eyni zamanda Avropa İttifaqı (Aİ) üçün də kritik bir mərhələni təmsil edir. İkinci Dünya Müharibəsindən sonra yaşanan ən böyük qaçqın axınlarına səbəb olan Suriyalı köçkünlər, Aİ ölkələrinə doğru hərəkət edərək orada yaşadıqları çətinliklərdən qurtulmağa çalışırlar. Lakin, bu köç dalğasının böyüklüyü və 11 sentyabr hadisələrindən sonra Qərb dünyasında yaranan təhlükəsizlik anlayışının dəyişməsi, böhranın idarə edilməsini çətinləşdirir (3).

2000-ci illərin əvvəllərindən etibarən, xüsusilə Beynəlxalq Miqrasiya Təşkilatı (IOM), Birləşmiş Millətlər Təşkilatının Qaçqınlar üzrə Ali Komissarlığı və BMT-nin digər aidiyyəti qurumları, qlobal miqyasda dəyişən miqrasiya tendensiyalarını və dinamiklərini müxtəlif statistik məlumatlar əsasında təhlil edən beynəlxalq hesabatlar yayımlamaqdadır. Bu hesabatların 2016 və 2017-ci illərdəki inkişaflara dair ümumi nəticələrindən biri, beynəlxalq miqrasiyanın idarə olunmasının qlobal yanaşmalar və ümumi həllər əsasında həyata keçirilməli olduğudur. Dünyada sürətlə artan qaçqın və miqrant hərəkətliliyi, xüsusilə böyük miqyasda miqrant qəbul edən və tranzit ölkə rolunu oynayan

dövlətləri qeyri-mütənasib şəkildə təsir altına salmaqdadır. Bununla yanaşı, bu əhali hərəkətliliyinin beynəlxalq münasibətlərə qlobal səviyyədə təsir edən siyasi, iqtisadi, sosial, humanitar, təhlükəsizlik aspektlərinə toxunan nəticələri də var. Bu kontekstdə, 2016-cı ilin sentyabr ayında BMT-yə üzv dövlətlər tərəfindən yekdilliklə qəbul edilən "Miqrantlar və Qaçqınlar üçün Nyu-York Bəyannaməsi" ilə miqrasiya artıq yalnız milli ictimai siyasət sahəsi olmaqdan çıxaraq, beynəlxalq ictimaiyyət tərəfindən qlobal prioritetlərdən biri kimi qəbul edilən yeni bir mərhələyə qədəm qoymuşdur. Gələcək fəsillərdə daha ətraflı müzakirə ediləcəyi kimi, bu proses çərçivəsində 2018-ci ilin sonuna qədər miqrasiya və qaçqınlarla bağlı qlobal prinsiplərin müəyyən edilməsi məqsədilə iki ayrı beynəlxalq razılaşma üzərində müzakirələr və hökumətlərarası danışıqlar aparılmışdır. BMT-nin 2017-ci il üzrə Beynəlxalq Miqrasiya Hesabatında göstərildiyi kimi, 2000-ci ildə 173 milyon olan beynəlxalq miqrantların sayı 2010-cu ildə 220 milyona, 2017-ci ildə isə dünya əhalisinin 3.4%-ni təşkil edərək 258 milyona çatmışdır. Bu göstəricinin təxminən 10%-ni qaçqınlar və sığınacaq axtaran şəxslər təşkil edir. 2005-2010 və 2010-2015 dövrləri ərzində beynəlxalq miqrant əhalisinin illik artım tempi sırasıyla 2,9%-dən 2,4%-ə enib, 2015-2017 arası isə 2%-ə geriləmişdir. Artım tempindəki bu azalma baxmayaraq, miqrasiyanın qlobal miqyasda bir çox regionlarda əhalinin artımına mühüm töhfə verdiyi və bəzi ərazilərdə azalan demoqrafik göstəricilərin tərs yöndə dəyişməsinə səbəb olduğu hesabatın əsas qeydlərindən biridir. 2017-ci ildə beynəlxalq miqrantların təxminən üçdə ikisi yüksək gəlirli ölkələrdə yaşamış, digər tərəfdən ümumi qaçqın və sığınacaq axtaranların 82,5%-i inkişaf etməkdə olan regionların dövlətlərində yerləşmişdir. Regionlara görə miqrasiya paylanmasına gəldikdə, beynəlxalq miqrantların təxminən 60%-i Asiyada (80 milyon) və Avropada (78 milyon) qeyd olunarkən, onları Şimali Amerika (58 milyon), Afrika (25 milyon), Latın Amerikası və Karib adaları (10 milyon) və Okeaniya (8 milyon) izləyir. Dünya üzrə ən çox miqrant qəbul edən ilk beş ölkəyə ABŞ (50 milyon), Səudiyyə Ərəbistanı (təxminən 12 milyon), Almaniya (təxminən 12 milyon), Rusiya Federasiyası (təxminən 12 milyon) və Böyük Britaniya (təxminən 9 milyon) daxildir. BMT-nin və digər beynəlxalq qurumların məlumatlarına görə, mövcud miqrasiya koridorlarının formalaşmasında iqtisadi şərtlər və coğrafi yaxınlıq kimi struktur amillərlə yanaşı, silahlı münaqişələr, insan təhlükəsizliyi, sosial və etnik əlaqələr, həmçinin miqrant qaçaqmalçılığı və insan alveri kimi faktorlar da mühüm rol oynayır. Bundan əlavə, yalnız regionlararası miqrasiyanı deyil, region daxilindəki miqrasiya hərəkətlərini də nəzərə almaq vacibdir. Məsələn, Asiyada miqrasiyanın böyük bir hissəsi qitə daxilində baş verərkən, Afrikada daxili miqrasiyaya yönələn axınlarla xarici miqrasiya demək olar ki, eyni səviyyədədir. Hər bir regionun özünəməxsus miqrasiya dinamikasını təhlil etmək, beynəlxalq miqrasiyanın idarə edilməsində düzgün strategiyaların hazırlanmasına şərait yaradır. BMT və digər beynəlxalq hesabatlara əsasən, inkişaf etmiş Avropa ölkələri, xüsusilə Almaniya və Böyük Britaniya, həm miqrant qəbul edən, həm də miqrasiyanın mənbəyi olan dövlətlər arasında yer tutur; eyni dinamikalar Sudan, Cənubi Sudan, Konqo və İraq kimi ölkələrdə də müşahidə olunur, hansılar ki, həm daxili, həm də xarici miqrasiya axınları ilə üz-üzə qalırlar (9).

Məcburi köç nəticəsində beynəlxalq sərhədləri aşan və ya öz ölkələrində məcburi şəkildə yerdən edilmiş şəxslərin sayı qlobal miqyasda artmağa davam edir. 2000-ci ildə təxminən 16 milyon olan qaçqın və sığınacaq axtaran əhalinin, 2016-cı ildə 25,9 milyona çatdığı bildirilir. BMT Qaçqınlar üzrə Ali Komissarlığının qeydlərinə görə, bu rekord artımın 2014-cü ildə 20%-ə yaxın yüksəldiyi, lakin 2016-cı ildə 7%-ə enərək azalma meylinə keçdiyi müşahidə olunub. Dünya üzrə ən çox qaçqına ev sahibliyi edən ölkələr arasında ilk beş yerə Türkiyə (3,5 milyon), Ürdün (2,9 milyon), Fələstin Dövləti/Fələstin Milli İdarəsi (2,2 milyon), Livan (1,6 milyon) və Pakistan (1,4 milyon) daxil olur. Qaçqın əhalisində ən diqqətəlayiq artımı yaşayan ölkə olan Türkiyə, 2000-ci ildə təxminən 3 min qaçqına ev sahibliyi edərkən, bu rəqəm bu gün 3,5 milyondan artıqdır.

2022-ci ilə qədər Əfqanıstandakı münaqişələr səbəbindən 3,4 milyondan çox insan məcburi köçkün vəziyyətinə düşmüşdür. Yəməndə uzun müddətdir davam edən silahlı toqquşmalar 4 milyondan artıq insanın ölkəsini tərk etməsinə gətirib çıxarmışdır. Ukraynadakı müharibə isə 6 milyondan çox insanın qaçqın düşməsinə səbəb olmuşdur. Ukraynadan köçən insanların əksəriyyəti qonşu ölkələr – Polşa, Rumıniya, Slovakiya, Macarıstan və Moldovaya sığınmışdır. Dünyada kütləvi miqyasda

məcburi köçkünlərin sayı davam edən münaqişələr, xüsusilə də Ukrayna müharibəsi ilə birlikdə 100 milyonu keçmişdir. Halbuki bu göstərici 2020-ci ilin sonunda təxminən 82,4 milyon idi (4).

***Nəticə.*** Yekun olaraq, günümüzdə qloballaşmanın çoxşaxəli prosesləri ilə birlikdə, dünya miqyasında artan beynəlxalq miqrasiya axınları yaşadığımız dövrün "köçlər dövrü" adlandırılmasına səbəb olur. Bu gün beynəlxalq miqrasiyanı xarakterizə edən beş əsas meyl müşahidə olunur. Birinci və ikinci meyl, qloballaşmanın təsiri ilə beynəlxalq miqrasiya fəaliyyətinin artması və getdikcə daha çox ölkənin, cəmiyyətin və fərdin köç hərəkətlərindən təsirlənməsini ifadə edir. Üçüncü meyl isə, ölkələrə təsir edən miqrasiya axınlarının məcburi və iqtisadi müxtəlifliyi özündə cəmləşdirən fərqli növlərə bölünməsi və qarışıq köç axınlarının ön plana çıxması şəklində özünü göstərir. Dördüncü meyl, beynəlxalq qadın miqrantların sayının sürətlə artması ilə miqrasiyanın cinsiyyət aspektinin daha da önəmli hala gəlməsini nəzərdə tutur. Nəhayət, beşinci meyl, həm milli, həm də beynəlxalq səviyyədə siyasət və strategiyaların formalaşmasına miqrasiyanın artan təsirini göstərir. Bu baxımdan, beynəlxalq miqrasiyanın qlobal siyasət gündəmində əhəmiyyətinin artdığı aydın olur.

## ƏDƏBİYYAT

1. Abadan-Unat N. Bitmeyen Göç Konuk İşçilikten Ulus-Ötesi Yurttaşlığa. İstanbul, İstanbul, Bilgi Üniversitesi Yayınları, 2017, 477 s.
2. Betts A. Zorunlu Göç ve Küresel Politika. Ankara, Hece Yayınları, 2017, 304 s.
3. Castles S., Miller M.J. The Age Of Migration International Population Movements in the Modern World. New York, Palgrave, 1998, XVI+336 p.
4. Castles S., Miller J.M. Göçler Çağı: Modern Dünyada Uluslararası Göç Hareketleri. İstanbul, İstanbul Bilgi Üniversitesi Yayınları, 2008, 500 s.
5. Council of the European Union. The Hague Programme: Strengthening Freedom, Security and Justice in the European Union, 13 December 2004. - https://www.refworld.org/legal/resolution/eu/2004/en/19952 [30.12.2024].
6. Faist T. Uluslararası Göç ve Ulusaşırı Toplumsal Alanlar. İstanbul, Bağlam Yayınları, 2003, 486 s.
7. Delegation of the EU to Turkey. The Schengen Area. 2019b.
8. Snyder L.D. The New 'Integration' Tests and Materials in the Netherlands, Germany, Baden-Wurttemberg, and the United Kingdom: The Muslim Other and The Change From Multiculturalism to Assimilation. Master Thesis. Bosphorus University, 2006.
9. Arab spring prompts biggest migrant wave since Second World war / The Guardian, 3 Ocak 2015.
10. Samuel Hantinqton.Sivilizasiyaların Toqquşması və Dünya Düzəninin Yenidən Təşkili. Bakı, Teas Press Nəşrləri, 396 s.

**AYKHAN ISGENDERZADE**
*Master student of Baku State University*

## EXPANSION OF MIGRATION AND REFUGEE CRISES IN INTERNATIONAL RELATIONS

The phenomenon of people leaving their homes in search of better and alternative settlement opportunities has been a recurring issue throughout history, especially when they no longer feel safe. In recent decades, migration and refugee crises have become one of the main challenges in international relations. Global climate change, armed conflicts, economic instability, and political pressures have forced millions of people to leave their homelands in search of safety and better living conditions. This process has not only affected individual countries but has also become a priority issue on the security and political agendas of international organizations and regional unions.

This article examines the threats posed by migration and refugee crises in international relations, their impact on inter-state relations, and how they shape geopolitical dynamics. Additionally, it highlights the necessity of a multifaceted and balanced approach to solving these issues at a global level. The main conclusion of the article is that the expansion of migration and refugee crises is not just a national problem but a global challenge that requires international cooperation to maintain security and stability.

*Keywords*: International relations, Migration crises, Geopolitical impacts.

*Daxil olma tarixi*: 30.12.2024-cü il.
*Çapa imzalanma tarixi*: 31.01.2025-ci il.

*Türk dünyası gənc tədqiqatçılar dərnəyinin Araşdırmaları*
*Studies of the Turkic World Young Researchers Association*

*№1(11) 2025, 11-15*

**UOT 94; UOT 94(479.24)**

**AYSEL ƏLİYEVA**
*Qərbi Kaspi Universitetinın II kurs magistrantı*
**ayseleliyeb2002@icloud.com**

# TRABZON KONFRANSINDA CƏNUBİ QAFQAZ XALQLARININ DİPLOMATİK BAXIŞLARI VƏ MÖVQELƏRİ

*Elmi rəhbər:*
tarix üzrə fəlsəfə doktoru Məleykə Əlizadə

*1918-ci il Trabzon konfransı Osmanlı İmperiyası ilə Cənubi Qafqaz xalqları arasında siyasi və diplomatik əlaqələrin müzakirə edildiyi mühüm tarixi hadisədir. Bu mövzunun tədqiqi bizə 20-ci əsrin əvvəllərində Cənubi Qafqazda baş verən milli azadlıq mübarizəsini, geosiyasi maraqları və diplomatik prosesləri daha yaxşı anlamağa imkan verir. Bugünkü geosiyasi müzakirələrdə də o dövrdə baş verən hadisələr öz əhəmiyyətini qoruyub saxlayır, ona görə də mövzu aktualdır.*

*Bu mövzunun öyrənilməsində əsas məqsəd Trabzon konfransı zamanı Cənubi Qafqaz xalqlarının siyasi və diplomatik mövqeyini təhlil etmək, onların öz milli maraqlarını necə müdafiə etdiklərini, Osmanlılarla münasibətlərini necə qurduqlarını öyrənməkdir. Zaqafqaziya Seymi Birinci Dünya müharibəsindən əvvəl Rusiya-Türkiyə sərhədlərinin bərpasını, Türkiyədə ermənilərə muxtariyyət verilməsi və s.-də israr etsə də, bu tələblər Türkiyə tərəfindən qəbul edilmədi. Türkiyə tərəfi Qars, Ərdəhan və Batumun dərhal boşaldılması və Zaqafqaziyanın müstəqilliyinin elan edilməsi şərti ilə Brest-Litovsk sülh müqaviləsinin imzalanmasını tələb edirdi. Tərəflər uzun müddət danışıqlar aparsalar da, razılığa gələ bilməyiblər. Zaqafqaziya Seyminin Azərbaycan fraksiyası münaqişəni sülh yolu ilə həll etməyə çalışsa da, aprelin 14-də Seymin qeyri-müsəlman əksəriyyəti Türkiyəyə müharibə elan etməyə səs verdi və Trabzon konfransı uğursuz başa çatdı.*

*Açar sözlər:* Osmanlı imperiyası, Zaqafqaziya Seymi, Trabzon konfransı, Çxenkeli, Brest-Litovsk müqaviləsi.

***Giriş***. 1917-ci il inqilabları Qafqazda yerli idarəetmə sistemində dəyişikliklərə və Qafqazın Rusiyadan tədricən ayrılmasına səbəb oldu. OZOKOM-un, sonra isə Qafqaz Komissarlığının yaradılması ilə region ölkələri ilə əlaqələr yeni mərhələyə qədəm qoydu. Osmanlı dövləti Qafqazda gedən siyasi prosesləri yaxından izləyir və onları yaxşı qiymətləndirməyin zəruriliyini dərk edirdi [7, s.2175]. Ənvər paşa 1917-ci il dekabrın 18-də və 20-də göndərdiyi teleqramlarda Qafqaz hökuməti haqqında məlumatların toplanmasını əmr etdi. Ənvər paşanın məqsədi Qafqaz hökumətinin sülh müqaviləsi ilə bağlı fikirlərini öyrənmək üçün Tiflisə bir heyət göndərmək idi [2, s.193-196]. Vehib Paşanın Qafqaz ordusunun komandanı general Odişelidzeyə 1918-ci il yanvarın 9-da göndərdiyi məktub yanvarın 14-də gəlib. Vehib Paşa bildirir ki, türk ordusunun baş komandanı Ənvər Paşa sülh münasibətləri qurmaq istəyir müstəqil Qafqaz hökuməti ilə birlikdə və ədalətli sülhə nail olmaq üçün Tiflisə nümayəndə heyəti göndərməyə hazır idi.

Yanvarın 12/25-də Tiflisə xəbər gəldi ki, Petroqraddakı Müəssislər Məclisi bolşeviklər tərəfindən darmadağın edilib. Belə bir şəraitdə komissar seçim qarşısında qaldı. Ya bolşevik hökumətini tanıyıb onunla danışıqlara başlayacaq, ya da Türkiyə ilə müstəqil danışıqlara başlayacaqdı. Komissarlıq ikinci yolu seçdi.

Fevralın 23-də Cənubi Qafqaz Komissarlığının iclası keçirildi. İclasda Türkiyə ilə danışıqların Tiflisdə deyil, Trabzonda aparılması qərara alındı [7, s.2175-2176]. Bunun bir neçə səbəbi var idi. Əvvəla, Tiflisdə Seym fəaliyyət göstərirdi. Millətlərarası və partiyalararası mübarizə parlamentin işində də özünü göstərə bilərdi. Bu, müzakirələrin gedişinə mənfi təsir göstərə bilər. Bundan əlavə, danışıqlar uğursuz olarsa, silahlı qüvvələrin hazır olması lazımdır və bu, həm də daxili sabitliyin şərtidir. Lakin bu vəziyyətdə silahlı qüvvələrin yaradılması fikir ayrılıqlarına səbəb olacaq və sülh danışıqlarına mane olacaqdı. Trabzon niyə seçildi? Çünki o zaman Cənubi Qafqaz nümayəndələri Trabzonu neytral

şəhər hesab edirdilər. Çünki Trabzonda hələ rus əsgərləri var idi və şəhər hələ türklər tərəfindən tutulmamışdı [2, s.295-296].

1918-ci il martın 3-də Brest-Litovsk sülh müqaviləsi imzalandı. Martın 10-da Qafqaz hökumətinə Türk Qafqaz Ordusunun komandanlığı tərəfindən göndərilmiş teleqram gəldi. Teleqram Qafqazdakı rus qoşunlarının baş komandanı general Lebedinskiyə göndərilmişdi. Teleqramda Türk Qafqaz Ordusunun komandanı Vehib Paşa Qars, Ərdahan və Batum bölgələrinin boşaldılmasını tələb edirdi. Vehib Paşa hərbi əməliyyatların bərpası və Trabzonun tutulması barədə Qafqaz hökumətinə məlumat verdi. Martın 7-də Cənubi Qafqaz Xalq Komissarlığının sülh nümayəndə heyəti Tiflisi tərk edərək Batumiyə yollandı. Nümayəndə heyəti axşam saat 08:30-da "Karol Karl" kreyseri ilə Batumdan Trabzona gəldi. Türk heyəti isə 1918-ci il martın 12-də Trabzona gəldi [7, s.2176-2177].

***Əsas mətn***. 1918-ci il martın 13-də sülh nümayəndə heyətlərinin bir-biri ilə tanışlıq mərasimi keçirildi və sülh konfransının rəsmi açılışının martın 14-də keçirilməsi qərara alındı.Trabzon konfransı 6 plenar iclas və 2 xüsusi iclas keçirdi [1, s.413].

Trabzon konfransında Cənubi Qafqaz nümayəndə heyətinin tərkibində olan Azərbaycan, Gürcüstan və Ermənistan nümayəndələri Türkiyə nümayəndə heyəti ilə gizli görüşlər keçirərək təmsil etdikləri xalqların mənafeyini qorumağa çalışırdılar. Bu gizli görüşlər əsasən Azərbaycan və Osmanlı nümayəndələri arasında baş verirdi.

İlk gizli görüş 1918-ci il martın 13-də Türkiyə nümayəndə heyəti ilə Cənubi Qafqaz müsəlman heyəti arasında baş tutdu. Görüş zamanı müsəlman nümayəndələri Qafqaz müsəlmanlarının Osmanlı ordusunun Qafqaza daxil olmasını arzuladıqlarını və gözlədiklərini bildirdilər. M.Y.Mehdiyev Osmanlı hökumətinə Seymi öz müstəqilliyini elan etməyə məcbur etməyi tövsiyə etdi. M.Y.Mehdiyev bəyan etdi ki, "Sülh danışıqları o zaman mümkün olacaq ki, Qafqaz hökuməti özünü rəsmən müstəqil hökumət elan etsin" [5, s.95-96].

Danışıqların təfərrüatları Gürcüstan mətbuatında "Sazavo Molaparakebebi Trapizonshi, Okmebidan" ("Trabzon Sülh Danışıqları, Protokollardan") xəbərində də dərc olundu. Məlumat verilirdi ki, birinci iclasda nümayəndə heyətinin üzvlərinin siyahısı qarşılıqlı surətdə təqdim edilmiş və onların səlahiyyətlərinin qiymətləndirilməsi xüsusi komissiyaya həvalə edilmiş və sonradan komissiya tərəfindən təsdiq edilmişdir [7, s.2186]. Bu görüşdə Osmanlı nümayəndə heyəti Qafqaz Respublikasının rəsmi statusunun elan edilməsini və dövlətin mahiyyəti, forması, siyasi və inzibati quruluşu haqqında mənalı bəyannamə verilməsini, habelə beynəlxalq hüququn tələblərinin yerinə yetirilməsini tələb edirdi [6, s.28]. İlk görüşdən sonra Azərbaycan nümayəndələri ilə daha bir gizli görüş keçirildi. Bu görüşdə əldə edilən məlumata görə, qafqazlılar ruslarla əlaqəni qırmamaq və gələcəkdə ruslardan yardım almaq üçün hələ öz idarə forması ilə bağlı qərar verməmişlər və müstəqilliklərini elan etmirlər [2, s.316].

İkinci iclasda danışıqlara sədrlik məsələsinə aydınlıq gətirildi. Cənubi Qafqaz nümayəndə heyəti Trabzonun neytral şəhər olduğunu və buna görə də iclaslara növbə ilə sədrlik etməyin daha məqsədəuyğun olduğunu iddia edirdi. Lakin danışıqlar təklifi Türkiyədən gəldiyi üçün, birinci sədrlik Türkiyə nümayəndə heyətinə həvalə edilə biləcəyi bildirilirdi. Türkiyə nümayəndə heyəti Trabzonun neytral şəhər olmasına və növbədənkənar sədrliyə etiraz etdi [7, s.2186-2187]. Rauf bəy bu etirazı onunla əsaslandırdı ki, konfrans Türkiyə ərazisində keçirildiyi üçün və Cənubi Qafqaz nümayəndələri qonaq olduğu üçün konfransa türklər sədrlik etməlidir. Vəziyyəti gərginləşdirməmək üçün Cənubi Qafqaz nümayəndə heyəti Türkiyə tərəfinin daimi sədrliyinə razılıq verdi [2, s.318-319].

Üçüncü görüşdə tərəflər Brest-Litovsk müqaviləsinə münasibətini müzakirə etdilər. Türkiyə nümayəndə heyəti Zaqafqaziyanın sərhədlərinin dəqiqləşdirilməsini tələb etdiyi halda, Cənubi Qafqaz nümayəndə heyəti Brest-Litovsk müqaviləsini özü üçün məcburi hesab etmədiyini bildirdi. Türkiyə nümayəndə heyətinin fikrincə, iki dövlət arasında bağlanan saziş üçüncü dövlət üçün məcburi olmasa da, Cənubi Qafqaz dövləti beynəlxalq səviyyədə tanınması üçün addımlar atmalıdır. Lakin Cənubi Qafqaz hökuməti Brest-Litovsk danışıqları zamanı bu addımı atmadı. Müstəqilliyinin hələ elan edilmədiyini vurğulayan Türkiyə, Zaqafqaziya bəyannaməsi ilə tanış olduqlarını və dövlət formasının beynəlxalq ictimai hüquqa uyğun olmadığı qənaətinə gəldiklərini bildirdi. Türkiyə Cənubi Qafqaz nümayəndə heyətindən ölkənin sərhədlərini, rəsmi dilini, dini statusunu və Türkiyə ilə əlaqələrini dəqiqləşdirməyi xahiş edir [7, s.2187].

Martın 16-da Osmanlılarla azərbaycanlılar arasında keçirilən gizli toplantıda gürcülərin və ermənilərin Osmanlı tələbləri ilə bağlı mövqeyi bəlli oldu. Bu görüşlə bağlı Rauf bəy Osmanlı Xarici İşlər Nazirliyinə göndərdiyi şifrəli teleqramda qeyd edir ki, Azərbaycan nümayəndələrinin verdiyi məlumata görə: ermənilər gürcüləri müzakirələri dayandırmağa və Tiflisə qayıtmağa çağırırlar; güman edilir ki, gürcülər Batum şəhəri və Batumun onlara verilməsi məsələsində həlledici mövqe tutacaqlar, lakin məsələni müharibəyə gətirməyəcəklər.

Gürcüstan nümayəndələri ilə Osmanlı nümayəndə heyəti arasında ilk gizli görüş martın 17-də oldu. Çxenkeli Cənubi Qafqaz nümayəndə heyətinin sülh konfransında irəli sürəcəyi şərtləri Osmanlı nümayəndə heyətinə çatdırdı. Çxenkeli qeyd edib ki, Seym üzvləri 1914-cü ildə Osmanlı İmperiyası ilə Cənubi Qafqaz arasında sərhədlərin bərpası və Şərqi Anadolu ermənilərinə muxtariyyət verilməsi tələblərini irəli sürəcəklər. Çxenkeli onu da vurğulayıb ki, biz konfransda Osmanlı erməniləri ilə bağlı tələb irəli sürməyə məcburuq, lakin bu tələbdə israrcı olmuyacayıq. Daha sonra Çxenkeli bildirib ki, Batum həm Qafqaz, həm də Gürcüstan üçün həyati əhəmiyyət kəsb edir və bu səbəbdən Osmanlı hökumətinin Brest-Litovsk müqaviləsinin Batumla bağlı maddəsindən imtina etməsi və şəhəri Gürcüstana güzəştə getməsini istəyirik. Rauf bəy cavabında bildirdi ki, Brest-Litovsk müqaviləsinə əsasən Qarsı, Ərdəhanı və Batumu Rusiyadan qaytarmaq hüququnu aldıqdan sonra Türkiyə dövləti və xalqının bu ərazini başqa dövlətə verməsi qəbuledilməzdir. Lakin Brest-Litovsk müqaviləsi qeyd-şərtsiz qəbul edilsəydi, ticarət müqaviləsi imzalanarkən gürcülərə müəyyən iqtisadi güzəştlər verilə bilərdi. Martın 19-da gürcülərlə osmanlıların ikinci gizli görüşündə də eyni məsələlər yenidən müzakirə olundu. Bu görüşdə Akaki Çxenkeli sadəcə olaraq gürcü maraqlarını qorumağa çalışdı [5, s.97-98].

Konfransın dördüncü iclasında Cənubi Qafqaz Seyminin nümayəndələri Brest-Litovsk müqaviləsinin Cənubi Qafqaza aid olmadığını təkid etdilər. Osmanlı İmperiyasının nümayəndəsi bəyan edib ki, yeni yaranmaqda olan dövlətin beynəlxalq akt olan Brest-Litovsk müqaviləsinə etirazının heç bir hüquqi qüvvəsi yoxdur. Eyni zamanda qeyd edib ki, hazırkı danışıqların məqsədi ticarət-iqtisadi əlaqələrin qurulmasına şərait yaratmaq, qurulan əlaqələrin praktiki və texniki detallarını müəyyən etməkdir. Martın 21-də keçirilən beşinci müşavirədə Rauf bəy bildirdi ki, Rusiya Qars, Ərdəhan və Batumi vilayətlərini boşaldandan sonra Türkiyə Qafqaz nümayəndələri ilə dostluq müqaviləsi bağlamaq və onlar arasında qarşılıqlı iqtisadi güzəştlər yaratmaq üçün danışıqlara başlamağa hazırdır [8, s.136-139].

Trabzon Sülh Konfransında danışıqların gedişi Cənubi Qafqaz Seymi Rəyasət Heyəti, Cənubi Qafqaz hökuməti və Seym fraksiyalarının martın 25-də baş tutan birgə iclasında müzakirə edilib. Gürcüstan və Ermənistan ərazi məsələlərində güzəştə getməmək şərti ilə Çxenkelinin səlahiyyətlərinin genişləndirilməsini təklif ediblər. Azərbaycan fraksiyasının üzvü M.Mehdiyev Cənubi Qafqazın öz müstəqilliyini elan etməsini, Şimali Qafqazın dağ xalqlarını təmsil edən A.Qantemir isə Brest-Litovsk müqaviləsini qəbul etməyi təklif etdi. Seym A.Çxenkeliyə fövqəladə səlahiyyətlərin verilməsi ilə bağlı qərarda razı qaldı [3, s.56].

Konfransın dayandırılması zamanı gürcülərlə türklər arasında gizli görüşlər keçirilirdi. Bunlardan birincisi 1918-ci il martın 25-də baş verdi. İclasın sonunda 3-cü ordu komandanlığına göndərilən raportdan belə çıxır ki, Zaqafqaziya hökuməti Şimali Qafqazın inquş və osetinlərinə birləşməyi təklif etsə də, onların hökuməti, qazaxlarla ittifaq bağlayan inquşlar və osetinlər bu təklifi qəbul etmədilər.

Bundan sonra martın 29-u və 30-da Zaqafqaziya nümayəndə heyətinin başçısı Çxenkeli ilə Rauf bəy arasında daha iki gizli görüş keçirildi. Bunlardan birincisində Çxenkeli Rauf bəyə Tiflisə göndərilən nümayəndə heyətlərinin Trabzona qayıtdığını və fövqəladə səlahiyyətlərinin genişləndirildiyini və danışıqları yaxşı şərtlərlə yekunlaşdırmaq istədiyini bildirdi. Bəyanatına davam edən Çxenkeli Türkiyə nümayəndə heyətinin 21 martda tərəflərə təqdim etdiyi bəyanata ancaq 30 martdan sonra cavab veriləbiləcəyini və bu müddət ərzində üç sancaq məsələsini müzakirə etməyə hazır olduğunu bildirib. Brest-Litovsk müqaviləsinin dördüncü maddəsi müzakirə olundu və Çxenkeli məsələnin mərkəzi güclərlə, xüsusən də Türkiyə ilə birgə həllini təklif etdi. Digər tərəfdən, Rauf bəy ermənilərin Sarıqamış və İrəvanda müsəlmanlara qarşı törətdikləri vəhşilikləri xatırladanda Çxenkeli hökumət daxilində lazımi tədbirlərə başlamağa söz verdi.

1918-ci il martın 30-da Çxenkelinin xahişi ilə növbəti məxfi iclas keçirilir. Çxenkeli Rauf bəyə Qars və Ərdəhan məsələsində razılaşa biləcəklərini, lakin hökumətinin Batum şəhərinin hərbi və

iqtisadi baxımdan onların nəzarətində qalmasını israr edəcəyini söylədi. Rauf bəy Türkiyə nümayəndə heyətinin 21-ci bəyanatına nə vaxt cavab veriləcəyini soruşduqda, Çxenkeli bir neçə gün vaxt istədi. Halbuki, bir gün əvvəl o, 21 mart bəyanatına martın 30-da cavab verilə biləcəyini bildirmişdi. Bu gizli görüş Cənubi Qafqaz nümayəndə heyətinin nəinki vaxt udmaq siyasətini üzə çıxardı, həm də onu göstərdi ki, Cənubi Qafqaz xalqları nə qədər "hörmətlə" bir-biri ilə rəftar edir. Bu görüşdə gürcülər Batumun alınması müqabilində ermənilərin tələb etdiyi Qarsı və Ərdahanı Türkiyəyə verə biləcəklərini açıq şəkildə bəyan etdilər [2, s.384-385].

Xatisovun məktubuna görə, Osmanlı İmperiyasından qaçan 400 min erməni erməni siyasətçilərinə təzyiq göstərir, onların taleyini müəyyən etmək və həll etməkdə israrlıdır. Xatisov Rauf bəyi inandırmağa çalışırdı ki, məsələ ermənilərin öz keçmiş vətənlərinə qayıdaraq Osmanlı idarəsi altında yaşamaq hüququ əldə etməklə həll olunacaq [5, s.102]. Xatisyan onu da əlavə edib ki, əgər bu baş versə, o, "Üç sancaq" məsələsində Türkiyəni dəstəkləyəcək və bu məsələdə Gürcüstana təsir göstərəcək. Rauf bəy belə şəraitdə Xatisovla görüşə bilmədi. Türkiyə bu məsələdə ermənilərin dəstəyinə ehtiyac duyduğunu düşünmürdü. Çünki "Üç sancaq" məsələsində bütün tərəflər razılığa gəlməli idi və yalnız bundan sonra sülh əldə olunacaqdı [2, s.386].

Mart soyqırımı xəbəri sülh danışıqlarında və Seymdə daha da gərginliyə səbəb oldu. Azərbaycan fraksiyası Bakıda bolşeviklərə qarşı təcili tədbirlər görülməsə, Seymi boykot edəcəyini bəyan etdi [3, s.57].

Aprelin 5-də Cənubi Qafqaz nümayəndə heyəti Batum istisna olmaqla, Qars və Ərdahan vilayətlərinin bir hissəsini Türkiyəyə təhvil verməyə razılaşaraq, Şərqi Anadoluda yaşayan əhaliyə, o cümlədən Türkiyə Ermənistanına öz taleyini müəyyənləşdirmək hüququnun verilməsi istəyindən imtina etdiyini bildirdi [8, s.154].

Aprelin 6-da Osmanlı İmperiyasının nümayəndələri Cənubi Qafqaz nümayəndələrinə ultimatum göndərdilər. Ultimatumda bildirilirdi ki, Cənubi Qafqaz hökuməti Brest-Litovsk müqaviləsinin şərtlərini tanıyıb-tanımamaq barədə 48 saat ərzində cavab verməlidir. Ultimatumda göstərilən müddət başa çatdıqdan sonra A.Çxenkeli cənab Raufla görüşdü və bildirdi ki, o, Brest müqaviləsini tanımaq üçün hökumətindən icazə istəyib; cavab hələ gəlməmişdi, amma fikri bu istiqamətə yönəlmişdi. Bu səbəbdən ultimatumun verilməsi müddəti aprelin 10-dək uzadıldı [4, s.133-134]. Bu müddət başa çatdıqdan sonra aprelin 10-da Çxenkeli Tiflisdən cavab gözləmədən Osmanlı İmperiyasının nümayəndələrinə belə cavab verir: "Zaqafqaziya nümayəndə heyəti Osmanlı nümayəndə heyətinin 6 aprel 1918-ci il tarixli məktubuna cavab olaraq bildirir ki, o, Brest-Litovsk müqaviləsi ilə razılaşır və bu istiqamətdə danışıqları davam etdirəcək". A.Çxenkeli Türkiyənin ultimatumunu qəbul etsə də, Seymdə ultimatumun müzakirəsi çox çətinləşdi. Seym 1918-ci il aprelin 13-də keçirdiyi iclasda müsavatçıların, demokratik bitərəf qrupun və müsəlman fraksiyasının tərkibindəki ittifaqçıların güclü müqavimətini nəzərə almadan Osmanlı dövləti ilə müharibə haqqında qərar qəbul etdi. Aprelin 14-də Trabzonlu heyət Trabzondan geri çağırıldı. Lakin bu tədbirlər türk qoşunlarının irəliləməsinə mane olmadı və səkkiz günlük müharibədən sonra Seym Türkiyənin sülh təklifi ilə razılaşmaq məcburiyyətində qaldı [9].

***Nəticə.*** Trabzon konfransı zamanı Cənubi Qafqaz nümayəndələri olan azərbaycanlılar, gürcülər və ermənilər arasında fikir ayrılıqları yarandı. Gürcülər və ermənilər Türkiyə tələblərini inadla rədd edərkən, azərbaycanlılar Batumidən başqa digər ərazilərin Türkiyəyə verilməsini tələb edirdilər. Azərbaycanlıların fikrincə, Qafqaz ölkələrinin gələcəyi və təhlükəsizliyi naminə Batumi Gürcüstana verilməlidir. Hər bir xalqın fərqli tələbləri və siyasəti, həmçinin Brest-Litovsk müqaviləsinin tanınmaması müzakirələr zamanı ziddiyyətlərin dərinləşməsi ilə nəticələndi. Bu şəraitdə tərəflər arasında heç bir razılıq əldə oluna bilmədi və Trabzon konfransı 1918-ci il aprelin 14-də Zaqafqaziya Türkiyəyə müharibə elan etdikdən sonra başa çatdı. Mövzunun təhlili göstərir ki, o zamanda baş verən hadisələr indiki geosiyasi müzakirələrdə də öz önəmini qoruyub saxlayır.

## ƏDƏBİYYAT

1. Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası. İki cilddə. II cild. Bakı, "Lider nəşriyyat", 2005, 472 s.

2. Enis Şahin. Trabzon və Batum Konferansları ve Antlaşmaları (1917-1918). Ankara, Türk Tarih Kurumu Basımevi, 2002, 815 s.
3. Həsənov C.P. Azərbaycan beynəlxalq münasibətlər sistemində (1918-1920). Bakı, Azərnəşr, 1993, 362 s.
4. Qafarov V.V. Azərbaycan Türkiyə-Rusiya münasibətlərində (1918-1922). Bakı, Mürtəcim, 2020, 472 s.
5. Milli Azərbaycan Tarixi Muzeyi 2022. Bakı, “Təhsil”, 2022, 418 s.
6. Nəsibzadə N.L. Azərbaycanın xarici siyasəti (1918-1920-ci). Bakı, Ay-Ulduz, 1996, 304 s.
7. Roin Kavrelishvili. Trabzon ve Batum Konferanslarının Gürcü Basınında Yansımaları, 34 s. - https://ttk.gov.tr/wp-content/uploads/2024/06/118-RoinKavrelishvili.pdf [17.10.2024].
8. Документы и материалы по внешней политике Закавказья и Грузии. Тифлис, Типография Правительства Грузинской Республики, 1919, 513 с.
9. Trabzon konfransı (1918) / Tarixdən səhifələr. ARPİİ Prezident kitabxanası. - https://eres.preslib.az/site/historical/page/az/cnFLue0 [17.10.2024].

**AYSEL ALIYEVA**
*2nd year Master's student at Western Caspian University*

## DIPLOMATIC PERSPECTIVES AND POSITIONS OF THE PEOPLES OF THE SOUTH CAUCASUS AT THE TRABZON CONFERENCE

The 1918 Trabzon Conference was an important historical event where political and diplomatic relations between the Ottoman Empire and the peoples of South Caucasus were discussed. Studying this topic helps us better understand the national liberation struggle, geopolitical interests, and diplomatic processes that took place in the South Caucasus during the early 20th century. The events of that period still retain their significance in today's geopolitical discussions, making the topic relevant.

The main goal of studying this topic is to analyze the political and diplomatic positions of the peoples of South Caucasus during the Trabzon Conference, to understand how they defended their national interests and how they established relations with the Ottomans. Before World War I, the Transcaucasian Sejm insisted on the restoration of the Russia-Turkey border, granting autonomy to Armenians in Turkey, and other demands, but these were not accepted by Turkey. Turkey demanded the immediate evacuation of Kars, Ardahan, and Batum, as well as the declaration of Transcaucasia's independence, as a condition for signing the Brest-Litovsk peace treaty. Although the sides held negotiations for a long time, they were unable to reach an agreement. The Azerbaijani faction of the Transcaucasian Sejm tried to resolve the conflict peacefully, but on April 14, the non-Muslim majority of the Sejm voted to declare war on Turkey, and the Trabzon Conference ended in failure.

*Keywords*: Ottoman Empire, Transcaucasian Sejm, Trabzon conference, Chkhenkeli, Treaty of Brest-Litovsk.

*Daxil olma tarixi*: 06.12.2024-cü il.
*Çapa imzalanma tarixi*: 31.01.2025-ci il.

Türk dünyası gənc tədqiqatçılar dərnəyinin Araşdırmaları
Studies of the Turkic World Young Researchers Association
№1(11) 2025, 16 -21

UOT 94(479.24)

**CEYHUN ƏMİROV**
*Bakı Dövlət Universitetinin II kurs tələbəsi*
**emirovceyhun2006@gmail.com**

# ŞAH İSMAYIL (1501-1524) UZUN HƏSƏN (1453/1468-1478) VƏ AĞQOYUNLULARIN (1468-1503) VARİSİ KİMİ

*Elmi rəhbər:*
tarix üzrə fəlsəfə doktoru Bəymirzə Şabiyev

*Şah İsmayıl Səfəvi özünü və qurduğu dövləti Əhəmənilərin, Sasanilərin deyil, Ağqoyunlu hökmdarı Uzun Həsənin varisi kimi görmüş və onun siyasi mirasını davam etdirmişdir. O, 1501-ci ilin payızında Azərbaycan tarixinin zirvəsi olan Səfəvi dövlətinin əsasını qoyaraq türklərin siyasi və hərbi üstünlüyünü qorumuş, qızılbaş tayfalarının birliyi və gücü hesabına böyük bir imperiya yaratmışdır. Tarixi mənbələr göstərir ki, Şah İsmayılın hakimiyyəti dövründə türk (Azərbaycan) dili sarayda, orduda və dövlət idarəçiliyində mühüm yer tutmuş, türklərin siyasi kimliyi ön plana çıxmışdır. Bu araşdırmada Səfəvi dövlətinin siyasi və mədəni əsaslarının Ağqoyunlu irsi ilə bağlılığı vurğulanır və bu mövzuda Səfəvilərin çağdaş İranın əsasını qoyması, İran dövlətçiliyini bərpa edərək Əhəmənilərlə Sasanilərin varisi olması ilə bağlı irəli sürülən iddialar tarixi faktlarla müqayisə edilir.*

*Açar sözlər:* Şah İsmayıl, İran, Sasani, Ağqoyunlu, Uzun Həsən.

***Giriş.*** Şah İsmayıl 17 iyul 1487-ci ildə Ərdəbil şəhərində anadan olmuşdur. Atası Ərdəbilin tanınmış və hörmətli şeyxi, "Səfəviyyə" təriqətinin başçısı Şeyx Heydər, anası da Ağqoyunlu dövlətinin (1468-1503) qurucusu Uzun Həsənin qızı Aləmşah bəyim idi. Şeyx Cüneyd kimi Şeyx Heydər də Şirvanda, şirvanşahlarla döyüşdə öldürülmüş, ailəsi bir müddət İstəxr qalasında məhkum həyatı sürmüşdür. Bərdə döyüşündən (1492) sonra Rüstəm Mirzə onları azad etmiş, Sultanəli təriqətin başına keçmişdir. Lakin Rüstəm Mirzə də sələfləri kimi Səfəvi sülaləsini təhlükə kimi görməyə başlamış və Şəməsi döyüşündə (1494) Sultanəlini öldürmüşdür. 7 yaşlı İsmayıl 5 il müridlər və Lahican hakimi Karkiya Mirzə Əli tərəfindən gizlədildi.

1499-cu ildə Lahicandan yola çıxıb Ərzincana gələn İsmayıl 7000 müridi ətrafında cəmləyərək ilk zərbəni Şirvanşahlara vurmuşdu, Cabanı döyüşündə (1500) qızılbaşlar qalib gələrək Fərrux Yasarı öldürdülər. Öncə Şamaxı, sonra da Bakı fəth edildi. Həsən bəy Rumlu "Əhsənüt-Təvarix", İsgəndər bəy Münşi Türkman "Tarix-i Aləmara-yi Abbasi I cild" əsərlərində yazırlar ki, Gülüstan qalası mühasirədə ikən Əlvənd pahşahın Şeyx İsmayıla qarşı yürüşə çıxdığı xəbəri gəlir və Şeyx İsmayıl "Sizə Gülüstan qalası lazımdır, yoxsa Azərbaycan taxtı?" deyə əmirlərinə sual vermiş, hamı da "Əlbəttə, Azərbaycan taxtı!" deyə cavab vermişdirlər. Şərur döyüşündə (avqust, 1501) Əlvənd məğlub edildi, Şah İsmayıl Təbrizə girərək Səfəvi dövlətini qurdu və Almabulağı (Almaqulağı) döyüşündə Muradı məğlub etdi, Ağqoyunlu dövlətinə son qoydu. 1507-1508-ci illərdə də İran, İraq və Şərqi və Cənub-şərqi Anadolu Səfəvi dövlətinin tərkibinə keçdi. Mərv döyüşündə (2 dekabr 1510) Şeybani xan məğlub edilərək öldürüldü, beləliklə, Xorasan Səfəvilərin əlinə keçdi, Ceyhun çayı sahili döyüşündə (1513) 200 minlik qazax-özbək ordusu 30 minlik qızılbaş ordusu tərəfindən məğlub edildi və bu Şah İsmayılın ən böyük nailiyyəti idi. Lakin Çaldıran döyüşündə (23 avqust 1514) say çoxluğu və odlu silah hesabına Sultan Səlim Şah İsmayıla qalib gəldi. Sultan Səlim Təbrizdə ancaq 6 gün qala bildi ki, qış yaxınlaşır, yeniçərilər üsyan edir və Şah İsmayıl ordusu ilə Təbrizə yaxınlaşırdı. Çaldırandan sonra Şah İsmayıl daha çox dövlətin daxili işləri və ərazi bütövlüyünün qorunmasına diqqət ayırmış, hətta Osmanlı imperiyasına qarşı strateji müdafiə qurmaq üçün Şərqi Gürcüstandakı Mesxetiya, Kartli və Kaxetiya çarlıqlarını tabe etmişdi. Şah İsmayıl 23 may 1524-cü ildə Sərabda, Mənqutay adlı yerdə vəfat etmişdir.

Şah İsmayıl təkcə hərb sahəsində yox, mədəni sahədə də öz sözünü demişdir. O, türk dilinin, ədəbiyyatının özləşməsinə ayrıca diqqət ayırmışdır, heca vəznini yazılı ədəbiyyata gətirmişdir.

Şeirlərini daha çox türkcə yazardı, farscanı az işlədərdi. Lakin təəssüflər olsun ki, Azərbaycanın bu böyük və rəqibsiz şəxsiyyətinə qarşı sələfilər, vəhhabilər, neo-osmanistlər tərəfindən qarayaxma kampaniyası aparılır, Şah İsmayılı təkcə Azərbaycan xalqının yox, bütün türk xalqlarının gözündən salmağa çalışırlar və hər dəfə cılız, əsassız və çirkin iftiralar atmaqdan zərrə çəkinmir və utanmırlar. Ən pisi də bu yalanlara və böhtanlara bəzi həmvətənlərimiz ya məlumatsızlıqdan, ya da Şah İsmayıla nifrətdən inanır, Şah İsmayılı pisləmək üçün həmin "arqumentlərə" söykənirlər. Bunlardan biri də guya Şah İsmayılın İranda türk hökmranlığına son qoyub Qədim İran dövlətçiliyini dirçəldib özünü və qurduğu dövləti Sasani imperiyasının (226-651) varisi elan etməsidir. İndi isə aşağıda bu böhtana cavab verəcəyik.

***Əsas.*** Şah İsmayılın Qədim İran dövlətçiliyini, Sasani imperiyasını dirçəldib özünü Sasanilərin varisi elan etməsi haqqında çox danışırlar, lakin, əslində, belə deyil. Şah İsmayıl heç də Qədim İran dövlətçiliyini, Sasani imperiyasını diriltməyi düşünməyib. Heç özünü Sasanilərin varisi belə elan etməyib, əksinə, özünü Uzun Həsənin varisi elan edib, hansı ki, Uzun Həsən Şah İsmayılın ana babası və Ağqoyunlu dövlətinin (1468-1503) qurucusu idi. Şah İsmayıl Ağqoyunlu dövlətini süquta uğramasına baxmayaraq, təzəcə qurduğu dövlətin Ağqoyunlu dövlətinin bütün torpaqlarında ağalıq etməsini istəyirdi. Şah İsmayılın özünü Sasanilərin varisi elan etməsinə dair hər hansı bir bilgiyə, qaynağa rast gəlməmişik. Səfəvi qaynaqları bunun əkini isbat edir.

İlk olaraq Xacə Zeynalabidin Əli Əbdi bəy Şirazinin "Təkmilətül-Əxbar" əsərinə baxaq. Müəllif həmin əsərində Fərrux Yasarı *"Yezid ibn Cəvnin nəslindən olduğuna görə Müaviyənin oğlu Yezidə iqtida edib, Hüseyni Sultan Heydərə qəsd etmiş dövlətin gözəl xoşbəxtliyini əldən verib, şükümsüzlük bədbəxtliyinə düçar olmuş yaramaz Fərrux Yəsar"* adlandırır və şirvanşahları *"Şirvanın Sasani nəsilli yezidləri"* deyə təhqir edir [8, 24]. Səfəvilər Sasanilərə söykənirdilərsə, niyə Səfəvi tarixçisi durub Şirvanşahları sasani yezid adlandırıb aşağılasın? Əgər Səfəvilər Sasanilərə söykənsəydilər, onların dirçəlişini etsəydilər, türklərə dəyər verməzdilər, türk dilini yox fars dilini dövlət dili edib hətta sarayda fars dilini özül, yəni, əsas dilə çevirərdilər, beləliklə, fars şairləri Hindistana köçməz, fars mədəniyyəti inkişaf edər, sasanilər təriflənərdi. Amma bunu görmürük, çünki yoxdur, olmayan şeyi də görməyimiz mümkünsüzdür. İtaliyan tarixçi A.Bauzaniyə görə, *"kiçik zaman fasilələri istisna olmaqla miladın 1000-ci ilindən 1925-ci ilinə qədər İranın taleyi ardıcıl türk sülalələri tərəfindən idarə olunmuşdur"* [1, 129]. Namiq Musalı "I Şah İsmayılın hakimiyyəti ("Tarix-i Aləmara-yi Şah İsmayıl" əsəri əsasında)" kitabında C.M.Smitin Səfəvi hökmranlığını "İran üzərindəki min illik türk ağalığı dövrünün ən möhtəşəm və ən effektiv hakimiyyəti" hesab etdiyini yazır [9, 291]. Əlavə olaraq deyim ki, Avropa tarixşünaslığında Səfəvilərin İranda türkman hökmranlığının 3-cü mərhələsi olduğu fikri güclüdür [2, 106; 17, 375; 25, 331; 27, 30].

Yenə Namiq Musalının adı çəkilən kitabında yazdığına görə, XIII əsrdən bəri bir çox imperiyaların metropoliyası olan Azərbaycan artıq XVI əsrdə Səfəvi imperiyasının metropoliyası idi. Müəllif məhz buna görə "Aləmara"da I Şah İsmayılın aldığı digər vilayətlərin "zəmime-yi məmləkət-i Azərbaycan" ("Azərbaycan məmləkətinin əlavəsi") adlandırıldığını vurğulayır. Şah Abbasın (1587-1629) paytaxtı Qəzvindən İsfahana köçürməyinə baxmayaraq, yenə də Səfəvi imperiyası türk imperiyası olaraq qalırdı. Müəllif "Aləmara" müəllifinin timsalında məmləkətin sıravi təbəələrinin XVII əsrin ikinci yarısında da Səfəvi sülaləsini türk sülaləsi, onların idarə etdikləri dövləti isə Ağqoyunluların birbaşa varisi olan türk dövləti hesab etmələrinin təsadüfi olmadığını söyləyir. Kitabda 1683-1684-cü illərdə Azərbaycana və İrana səfər etmiş alman səyyahı E.Kempferin *"Padşahın hərbçiləri Şah İsmayıl zamanında Səfəvi xanədanını səltənətə yüksəltmiş türkdilli qövmlərdəndirlər. İranın hər yerində bu türk hərbçiləri hökmrandırlar."* dediyi qeyd olunur [9; 292, 293]. İsgəndər bəy Münşi Türkmanın "Tarix-i Aləmara-yi Abbasi", Sadıq bəy Əfşarın "Məcməül-xəvas", R.M.Savorynin "Iran under the Safavids" əsərlərində Səfəvi imperiyası onu qurub inkişaf etdirən qızılbaş oymaqlarına görə "qızılbaş ölkəsi", "qızılbaş dövləti", Səfəvi şahı da "qızılbaş padşahı" adlandırılır [6, 134, 149, 153, 284, 365, 409, 441, 769, 791, 846, 854, 923, 932, 936, 943; 23, 41; 22, 34]. Türk (Azərbaycan) dili Səfəvi imperiyasında dövlət dili səviyyəsində işlədilirdi [1, 146; 4, 140; 11, 73; 13, 552; 15, 15; 19, 7].

Əlavə olaraq da vurğulamaq gərəkdir ki, Azərbaycan Xalq Cümhuriyyətinin banisi Məhəmməd Əmin Rəsulzadə türkdilli şairlərin Şah İsmayıla "Türki-tacdar" deyə xitab etdiklərini vurğulayır [7,

53]. Hətta Səfəvilər haqqında geniş araşdırmalar aparmış Oqtay Əfəndiyev "Azərbaycan Səfəvilər dövləti" kitabında qüdrətli Azərbaycan Səfəvilər dövlətinin yaranmasının orta əsrlər tariximizdə böyük əhəmiyyətə malik olan hadisələrdən biri olduğunu. Şah İsmayılın çox gənc yaşlarında hakimiyyət uğrunda döyüşlərə atılıb sonda geniş və qüdrətli bir dövlət yaratmasının Şeyx Cüneyddən bəri başlayan mübarizənin uğurlu nəticəsi və yekunu olduğunu yazır. Yenə müəllif qeyd edir ki, bu dövrdə Azərbaycan dövlətinin sərhədləri Qaraqoyunlular və Ağqoyunlular dövründəki sərhədləri aşıb keçsə də, çoxmillətli bir imperatorluğa çevrilsə də, qaynaqlarda yazıldığı və araşdırmalarda etiraf olunduğu kimi, "Qızılbaş məmləkəti" kimi tanınırdı. Qonşu dövlətlər də Səfəvi-Qızılbaş dövlətini Azərbaycan Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin qanuni varisləri hesab edirdilər [19, 327]. Mehman Süleymanov da Şah İsmayılın özünü Sasanilərin yox, Uzun Həsənin və onun dövləti Bayandurluların (Ağqoyunluların) varisi saydığını yazır. Belə ki, 1501-1502-ci illərdə Səfəvilərin Təbrizdə olması onların qışlaq dövrü kimi dəyənləndirilir. Həmin vaxt da orduya ciddi diqqət ayrılır, ordu quruculuğu inkişaf etdirilirmiş. Yəni ki, Şah İsmayıl təkcə dövlət quruculuğu ilə məşğul olmur, hətta ordu quruculuğu ilə də məşğul olurdu. Çünki yerdə qalan Bayandurlu (Ağqoyunlu) torpaqlarını tutmaq üçün Şah İsmayılın güclü qoşuna ehtiyacı var idi. Uzun sözün qısası, Şah İsmayıl özünü Bayandurluların (Ağqoyunluların) varisi bilirdi və Ağqoyunluların bütün torpaqlarına iddia edirdi [10, 169].

Namiq Musalı "I Şah İsmayılın hakimiyyəti ("Tarix-i Aləmara-yi Şah İsmayıl" əsəri əsasında)" kitabında Şah İsmayıl beynəlxalq münasibətlər sistemində də Uzun Həsənin qanuni varisi kimi çıxış etdiyini yazır. Nə vaxt hansısa qonşu dövlətlə sərhəd və ərazi anlaşılmazlığı olsa, həmin anda Ağqoyunlu sülaləsindən olduğuna istinad edərdi. Məsələn, Şah İsmayıl Sultan Səlimin Çaldıran döyüşündən qabaq Ağqoyunluların doğma diyarı və keçmiş paytaxtı Diyarbəkrə olan iddialarının əsassız olduğunu və həmin bölgənin vaxtilə Uzun Həsən və Ağqoyunluların olduğunu irəli sürərək, oraya Sultan Səlimin yox, özünün haqqı çatdığını bildirir və *"Sizin hüququnuz çatmır ki, zati-alilərimizlə Həsən padşahın vilayətinin davasını edəsiniz."* demişdi. Eyni zamanda müəllif Şeybani xanın keçmiş Ağqoyunlu ərazisi olan Kirman bölgəsinə hücumunu pisləyən məktubunda Şah İsmayılın Kirmanın *"öz irsi torpaqlarının bir hissəsi olduğunu"* qeyd etdiyini yazır. Mirzə Abbaslının "Şah İsmayıl Xətayinin ömür yolu miniatürlərdə" kitabında Şeybani xanın məktubunda Şah İsmayılı *"tərəkəmə Ağqoyunlularla qohumluq əlaqələrinə arxalanaraq hakimiyyət iddiasına düşməkdə"* ittiham etdiyi yazılır [9, 301-302].

Yenə Namiq Musalının "I Şah İsmayılın hakimiyyəti ("Tarix-i Aləmara-yi Şah İsmayıl" əsəri əsasında)" kitabında Səfəvi sarayında xarici dövlətlərin elçilərinin rəsmi qəbulu zamanı Şah İsmayılın Uzun Həsənin padşahlıq taxtına ("təxt-i padişahi-yi Həsən padişah") əyləşərək, əcnəbi qonaqları qəbul etməsinin mühüm protokol qaydalarından hesab edildiyi yazılır. Şah İsmayıl belə edərək xarici dövlətlərə özünün Uzun Həsənin varisi olduğunu göstərmək istəyirdi. Bununla da bir çox sülalələrin və qonşu dövlətlərin nümayəndələrinin Şah İsmayılı Ağqoyunlu dövlətinin qanuni varisi kimi qəbul etdikləri vurğulanır. Bu baxımdan zülqədər tayfasının başçısı, Məraş və Əlbistan hökmdarı Əlaüddövlə Bozqurdun Şah İsmayıla göndərdiyi məktub diqqəti xüsusilə cəlb edir: "Eşitmişik mərdlikdən və mərdanəlikdən bir paya sahibsən və xüruc etmək iradəsi göstərib, İranı Həsən padşahın övladlarından almışsan. Lakin sən biganə(yad) deyilsən və elə həmin sülalədənsən" [9, 302].

Bu yazılan məktubdan öyrənmiş oluruq ki, Şah İsmayıl ömrünün sonuna kimi özünü babası Uzun Həsənin hüquqi varisi hesab etmiş və onun Uzun Həsənin nəvəsi olması onun hakimiyyətinin və dövlətinin qonşu dövlətlər və hökmdarlar tərəfindən tanınmasına kömək etmişdir.

Yenə Namiq Musalı "I Şah İsmayılın hakimiyyəti ("Tarix-i Aləmara-yi Şah İsmayıl" əsəri əsasında)" kitabında anonim müəllifin öz əsərində Səfəviləri Ağqoyunluların varisi kimi təqdim etməsinin Səfəvi dövlətinin sıravi təbəələrinin XVII əsrin ikinci yarısında da bu dövləti Ağqoyunlu dövlətinin bir davamı hesab etdiklərinin göstəricisi olduğunu yazır. Müəllif bu amilin Səfəvilərlə onlardan əvvəlki türk sülalələri arasındakı varislik münasibətlərini inkar edən müasir İran tarixşünaslığındakı konsepsiyanın kökündən yanlış olduğunu sübut etdiyini qeyd edir [9, 292; 20, 126].

Gördüyümüz kimi, Səfəvilər beynəlxalq aləmdə özlərini Ağqoyunlu varisi hesab edir və qonşu ölkələr də Səfəviləri Ağqoyunlu varisi kimi qəbul edirdi. Üstəlik, Şah İsmayıl dəfələrlə türk hökmdarlarına məxsus "xaqan" titulu ilə anılır. Üstəgəl, İsgəndər bəy Münşi Türkmanın "Tarix-i Aləmara-yi Abbasi I cild" əsərində Şah İsmayıldan "Süleyman şanlı xaqan" deyə bəhs olunur [5, 57, 58, 60, 63-

72, 75, 77-78, 80, 82, 84-89, 91, 93-98, 100, 107 və s.]. Zülqədəroğulları bəyi Əlaüddövlə Bozqurd bəy məktubunda Şah İsmayılı yad bilmir və onu Ağqoyunlulardan biri sayır. Hətta Sultan Səlimin yürüşü vaxtı Şah İsmayıl Doğu və Güneydoğu Anadolunun babası Uzun Həsənin vilayəti olduğunu xatırladaraq Sultan Səlimin iddialarının əsassız olduğunu vurğulayır. Bunu da vurğulayım ki, Şah İsmayıl xarici ölkələrin elçilərini qəbul edərkən babası Uzun Həsənin taxtında əyləşirdi. Yəni, bununla elçilərə çatdırmaq (mesaj vermək) istəyirdi ki, mən Ağqoyunlu Uzun Həsənin varisiyəm. Şeybani xan öz məktubunda Şah İsmayılı tərəkəmə Ağqoyunlularla qohumluğundan sui-istifadə edib şahlıq eşqinə düşdüyünə görə ittiham edirdi və Şah İsmayıla dərvişlik etməyi buyururdu [18, 5]. Vladimir Minorskinin qeyd etdiyi kimi, Səfəvi imperiyası öz tarixinin ilkin mərhələsində İranda türkmən hökmranlığının üçüncü mərhələsi hesab olunurdu [27, 30]. Rudi Metiyə görə, XVI əsrin əvvəllərində İrana nəzarəti ələ keçirən sülalə olan Səfəvilər dövrü çox vaxt müasir İran tarixinin başlanğıcı hesab olunur, necə ki, onların yaratdığı dövlət fars milli dövlətinin yaranmasına işarə edir. Səfəviləri İranın müasir milli dövlət adlandırmaq anaxronizm olardı və başa düşmək lazımdır ki, Səfəvi cəmiyyəti bir çox cəhətdən monqol və Teymuri nümunələri və təcrübələrini–sikkələrin istehsalından tutmuş inzibati quruluşa qədər davam etdirmişdir [28]. Martin Dikson da hesab edirdi ki, Səfəvilər dövləti Qaraqoyunlu və Ağqoyunluların varisidir [12, 18].

Fleischer C.H. “Bureaucrat and Intellectual in the Ottoman Empire” kitabında yazır: *“İstənilən ümumbəşəri imperiya idealı faktiki olaraq hamısı müsəlman və hamısı türk olan dörd regional imperiyanın (Osmanlı, Özbək, Səfəvi və TeymuriMoğol), qurulması və birləşməsi ilə başa çatdı”* [16, 287].

Təkcə Avropa tarixçiləri deyil, hətta türk tarixçiləri də Səfəvilərin Sasanilərin varisi olmadıqlarını, İran dövlətçiliyindən uzaq olduqlarını deyir. Məsələn, Türk tarixçisi Lale Uluça görə, 16-cı əsrdə Osmanlılar Sasani irsinə iddia edirdilər, Səfəvilər isə sonrakı müsəlman imperiyalarının Asiyadaxili köklərinə daha yaxın idilər. Osmanlı müəllifləri Qərbi Asiyanın çağdaş dövlətlərini “Şahnamə” ilə xarakterizə edərək özlərini əfsanəvi İranın, Səfəvilər isə Turanın nümayəndələri kimi qələmə verirlər [26, 176]. Professor Duqlas Stroysand qeyd edir ki, Səfəvi İmperiyası nə Əhəmənilərin və Sasanilərin qədim imperiyalarının dirçəlişi, nə də müasir İran dövlətinin başlanğıcı idi. Səfəvilər öncəki imperiyaların farsdilli ərazilərinin əksəriyyətini birləşdirsələr də, onların varisi və ya qanuni xələfi olduqlarını iddia etmirdilər. Teymuri və Türkman sələflərindən az və ya daha çox iranlı deyildilər [14, 137; 29].

**Sultan Səlimin Şah İsmayıla birinci məktubu:**

*“Bağışlayan və mehriban Allahın adı ilə!*

*“Allah qatında din, İslamdır...”*

*“Kim İslamdan başqa bir din ardınca gedərsə heç vaxt ondan qəbul olmaz və o şəxs axirətdə zərər çəkənlərdən olar...”.*

*“İndi hər kəs Rəbbi tərəfindən gələn nəsihəti qəbul etməklə (bu işə) son qoyarsa, keçmişdə aldığı onundur. Onun işi Allaha aiddir. Amma qayıdanlar cəhənnəmlikdirlər və orada həmişəlik qalacaqlar”*

*İlahi, bizi hidayət edən və hidayət olunmuşlardan qərar ver, yol azdıran və yolunu azanlardan etmə. Aləmlərin ağası, əmin [ləqəbli] peyğəmbər Məhəmməd Mustafaya, ailəsinə və bütün səhabələrinə Allahın salamı olsun.*

*Amma bu bəyanilən xitab bizim böyük hökmdarımız, kafir və müşriklərin qatili, din düşmənlərini məğlub edən, fironların (zülmkarların) burunlarını yerə sürtən, xaqanların dəbilqəsi (qoruyucusu), mücahid və qazilərin sultanı, Firudin kimi şərəfli, İskəndər kimi cahangir (fateh, yırtıcı, xeyirli), ədalətin Keyxosrovu, ali irqə (tayfa, qəbilə, millət) mənsub olan Sultan Məhəmmədin nəvəsi Sultan Bayazidin oğlu Sultan Səlimdən Əcəm hakimi, ən yüksək qoşun başçısı, böyük rəhbər, zəmanənin Zəhhaki Zöhhakı, müharibəyə meylli Dara, dövrün Əfrasiyabı sən “Əmir İsmayıl”a göndərilir”* [24, 74].

Araz Şəhrili “Səfəvilər: paralellər, ehtimallar, həqiqətlər” kitabında Şah İsmayılın titulunun həm Turanın xaqanı (xanlar xanı), həm də İranın şahənşahı (şahlar şahı) formasında olduğunu vurğulayır [3, 34]. Və yenə adı çəkilən müəllif kitabında Şah İsmayılın 1501-ci ildə Təbrizə daxil olaraq özünü Azərbaycan şahı elan etdiyini yazır [3, 35].

***Nəticə.*** Paradoksa baxın ki, neo-osmanistlər Şah İsmayıla qarşı hər gün qarayaxma kampaniyası aparırlar ki, Şah İsmayıl qədim İran dövlətçiliyini dirçəldib, özünü Sasanilərin varisi elan edib. Amma dönüb türk dövləti kimi təriflədikləri Osmanlıya baxmaları gərəkdir, çünki özünü Sasanilərin varisi

elan edən Səfəvi imperiyası yox, Osmanlı imperiyası idi. Özünü əfsanəvi İran şahları Firudinə, Keyxosrova, Daraya oxşadıb Şah İsmayılı da əfsanəvi Turan hökmdarı Alp Ər Tonqaya (Əfrasiyaba) oxşadan Sultan Səlim idi. Bizim məqsədimiz burda Osmanlı imperiyasını aşağılamaq deyil, bizim Osmanlıya qarşı qərəzimiz yoxdur, ancaq doğruları da demək gərəkdir, çünki bizim işimiz tarixi olduğu kimi qəbul etməkdir. Azərbaycanın böyük siyasi xadimi, cümhuriyyətimizin qurucusu, müstəqilliyimizi borclu olduğumuz Məhəmməd Əmin Rəsulzadə demişkən, "Şübhəsizdir ki, bir gün həqiqət parlayacaq!".

## ƏDƏBİYYAT

1. Bausani A. The Persians from the Earliest Days to the Twentieth Century. London, St. Martin's Press, 1971, 240 p.
2. Lambton A. Landlord and Peasant in Persia. London, Oxford University Press, 1953, xxxi+459 p.
3. Şəhrili A. Səfəvilər: paralellər, ehtimallar, həqiqətlər. "Tohybam", Bakı, 2019, 352 s.
4. Крымский А.Е. История Персии, ее литературы и дервишской теософии, т. III. "Типографія Х. Улицкаго и А. Голованевскаго (бывшая Я. Ниренберга) въ Звенигородкѣ Кіевской губ. И „Крестнаго Календаря А. Гатцука" въ Москві, Долгоруковская 33.", Москва, 1914-1917, 504 s.
5. İsgəndər bəy Münşi Türkman. Tarix-i aləmara-yi Abbasi (Abbasın dünyanı bəzəyən tarixi). I cild. Bakı, 2009, «Təhsil», 792 s.
6. İsgəndər bəy Münşi Türkman. Dünyanı bəzəyən Abbasın tarixi (Tarixe-aləmaraye-Abbasi). Bakı, "Şərq-Qərb" Nəşriyyat evi, 2010, 1144 s.
7. Rəsulzadə M.Ə. "Bolşeviklərin Şərq siyasəti" – Bakı "Sabah", 1994, 134 s.
8. Xacə Zeynalabidin Əli Əbdi bəy Şirazi, Təkmilətül-Əxbar. Bakı: "Elm", 1996, 162 s.
9. Musalı N.S. I Şah İsmayılın hakimiyyəti ("Tarix-I aləm-ara-yi Şah İsmayıl" əsəri əsasında). Bakı: "Nurlan", 2011, 481 s.
10. Süleymanov M. Şah İsmayıl Səfəvi. Bakı, "Elm və Təhsil", 2018, 824 s.
11. Baranowski B., Baranowski K. Historia Azerbejdzanu. Wrocław, "Ossolıneum", 1987, 263 s.
12. Dickson M.B. Shah Tahmasp & the Uzbeks (The Duel for Khurasan with Ubayd Khan: 930-940/1524-1540), Princeton, New Jersey, Princeton University Press, 782 s.
13. Prof.Dr. H.D.Yıldız. Doğuştan Günümüze Büyük İslam Tarihi. IX.C. İstanbul, "Çağ yayınları", 1992, 629 s.
14. Streusand D.E. Islamic Gunpowder Empires. Ottomans, Safavids, and Mughals. Boulder, Colorado, Westview Press, 2011, 390 s.
15. Browne E.G. A Literary History of Persia, Modern Times (A.D.1500-1924). Volume 4. Cambridge, Cambridge University Press, 1959, 530 s.
16. Fleischer C.H. Bureaucrat and Intellectual in the Ottoman Empire. Prınceton, New Jersey, Princeton University Press, 363 s.
17. Roux J.P. Türklerin tarihi. İstanbul. "Kabalcı Yayınevi", 2007, 598 s.
18. Abbaslı M. Şah İsmayıl Xətainin ömür yolu miniatürlərdə. Bakı, "İşıq", 1981, 91 s.
19. Cavadova M. Şah İsmayıl Xətainin leksikası. Bakı, "Elm", 1977, 141 s.
20. Эфендиев О.А. К освещению некоторых вопросов истории Сефевидов в современной иранской историографии // Против буржуазных фальсификаторов истории и культуры Азербайджана (сборник статей). Баку, "Елм", 1978, 140 s.
21. Oqtay Əfəndiyev. Azərbaycan Səfəvilər dövləti. Bakı, "Şərq-Qərb", 2007, 407 s.
22. Savory R.M. Iran under the Safavids. Cambridge, Cambridge University Press, 1980, 277 s.
23. Sadiq bəy Əfşar. Məcməül-xəvas. Bakı, "Elm", 2008, 411 s.
24. Şah İsmayıl Səfəvi. Tarixi-diplomatik sənədlər toplusu. Bakı, "Şərq-Qərb", 2014, 400 s.
25. The Cambridge "History of Iran, vol. VI (ed. By P.Jackson and L.Lockhart)". Cambridge, Cambridge University Press, 1986, 1138 s.
26. Melville C.G. van den Berg, Sharma S. Shahnama Studies II The Reception of Firdausi's Shahnama, Leiden, Boston, Brill, 316 s.

27. Minorsky V. Tadhkirat al-muluk: A Manual of Safavid Administration. London, E.J.W. Gibb Memorial Trust, 1943, 349 s.
28. Rudi Matthee. Safavid Dynasty - Encyclopædia Iranica. - https://www.iranicaonline.org/articles/safavids [30.12.2024].
29. Qızılbaş dövlətinə fars-İran dövləti deyirsiz? Dünya tarixçilərinin bundan xəbəri varmı? / Milli kimlik, 20.07.2023. - https://millikimlik.az/2023/6753 [30.12.2024].

**JEYHUN AMIROV**
*2nd year student at Baku State University*

## SHAH ISMAIL (1501-1524) AS THE SUCCESSOR OF UZUN HASAN (1453/1468-1478) AND THE AQ QOYUNLU (1468-1503)

Shah Ismail Safavi saw himself and the state he founded not as the successors of the Achaemenids or the Sasanians, but as the heir to the Aq Qoyunlu ruler Uzun Hasan, continuing his political legacy. In the autumn of 1501, he established the Safavid state, which became the pinnacle of Azerbaijani history, preserving the political and military dominance of the Turks. Through the unity and strength of the Qizilbash tribes, he built a vast empire. Historical sources indicate that during Shah Ismail's reign, the Turk (Azerbaijani) language held a significant place in the court, military, and state administration, bringing Turk political identity to the forefront. This study emphasizes the political and cultural foundations of the Safavid state in connection with the Aq Qoyunlu heritage and critically examines the claims that the Safavids laid the foundation of modern Iran and restored Iranian statehood as the successors of the Achaemenids and Sasanians by comparing them with historical facts.

*Keywords:* Shah Ismail, Iran, Sasanian, Aq Qoyunlu, Uzun Hasan.

*Daxil olma tarixi*: 30.12.2024-cü il.
*Çapa imzalanma tarixi*: 31.01.2025-ci il.

UOT 94(479.24)

**HÜSEYN MƏMMƏDOV**
*Azərbaycan Universitetinin II kurs magistrantı*
**huseynilgaroghlu@gmail.com**

# XX ƏSRİN 80-Cİ İLLƏRİNİN SONUNDA AZƏRBAYCAN XALQININ MİLLİ OYANIŞI

*Elmi rəhbər:*
tarix üzrə fəlsəfə doktoru Nüşabə Quliyeva

*1985-ci ildə M.Qorbaçovun SSRİ-də hakimiyyətə gəlməsi ilə ölkədə "aşkarlıq" və "yenidənqurma" siyasətinə start verildi. İttifaqda, bəlkə də, hakimiyyətin nəticəsini görə bilmədiyi proseslər həyata keçirilməyə, siyasi plüralizmin ilk əks-sədası eşidilməyə başladı. Erməni daşnak partiyası tərəfindən uzun illər ərzində hazırlanaraq dünyada təxribatçılıq təbliğati ilə müşahidə olunan, XX əsrin, demək olar ki, hər onilliyində ortaya atılan DQMV-nin Azərbaycanın tərkibindən çıxarılaraq Ermənistana verilməsi tələbi 80-ci illərin sonunda yenidən alovlandı. 1988-ci ilin fevral və mart ayları Ermənistanda tətillərin başlanması və davam etməsi Dağlıq Qarabağda erməni əhali tərəfindən vətəndaş itaətsizliyi ilə müşayiət olundu. Ermənistan ərazisində yaşayan azərbaycanlıların öz dədə-baba yurdlarından deportasiya edilməsi, Sumqayıtda təxribatın törədilməsi, Azərbaycana gələn qaçqınlara artıq Ermənistanla yanaşı Dağlıq Qarabağdan qovulan azərbaycanlı əhalinin də (yəni Azərbaycandan Azərbaycana gələn) əlavə olunması Azərbaycan xalqının kükrəyən qəzəbini son həddə çatdırdı.*

*Kremlin Dağlıq Qarabağda baş verən hadisələrə biganə münasibəti, bu dövrdə Azərbaycan rəhbərliyində yalnız şəxsi maraqlarını güdən, ölkədə baş verən siyasi canlanmaya göz yuman, Azərbaycanın milli gəlirinin çox böyük bir hissəsini ümumittifaq fondlarına sərf edən, (digər sovet respublikaları ilə müqayisədə bu rəqəmlər həddindən artıq çox idi) xalqın yenidənqurma siyasətindən kənarda qalması üçün var qüvvəsi ilə çalışan xəyanətkar şəxslərin qərar tutması Azərbaycan cəmiyyətində Qarabağ probleminin yalnız milli mübarizə yolu ilə həll oluna biləcəyi qənaətini yaratdı.*

*Açar sözlər*: Dağlıq Qarabağ problemi, erməni iddiası, terror aktları, mitinqlər, Meydan hərəkatı.

***Giriş.*** 80-ci illərin ortalarında yenidən "Böyük Ermənistan" xəyalını gerçəkləşdirməyə çalışan ermənilərin bu yolda bu dəfəki ən böyük stimulu M.Qorbaçov hakimiyyətinin sovet vətəndaşlarına ünvanlanmış siyasi təşəbbüskarlıq çağırışları oldu. Ermənistan tərəfdən Azərbaycana qarşı ilk ərazi iddiası 1984-cü ildə Qazax rayonunun Kəmərli kəndinin 1675 ha ərazisinə qarşı oldu. Kəmərli kənd camaatının kəskin etirazına baxmayaraq, (respublika rəhbərliyi bu etiraza məhəl qoymadı, kənd əhalisi Sov.İKP MK-ya 3 nəfərlik nümayəndə heyəti göndərdi) Azərbaycan rəhbərliyi Moskvanın "bu məsələni geniş planda həll etmək" tələbini yerinə yetirdi, ərazini Azərbaycandan qoparıb Ermənistana verdi [4, s.53].

"Daşnaksütyun"un XXIII qurultayında (1985-ci ilin sonları, Afina) Azərbaycan torpaqları yenidən hədəfə alındı, Naxçıvan və Qarabağ kimi əzəli Azərbaycan ərazilərində ermənilər tərəfindən yaradılması nəzərdə tutulan "Böyük Ermənistan" ideyası uğrunda "əsaslı işlər" görüldü. 1986-ci ildən Ermənistan rəhbərləyinin xaricdə yaşayan ermənilərin Ermənistana "repatriasiya" məsələləri ilə əlaqədar daşnakların və separatçıların əraziyə gətirilməsinə başlanıldı [1, s.4].

Erməni tarixçiləri S.Mikoyanın Dağlıq Qarabağ iddiasını irəli sürən və sovet mətbuatının ən oxunaqlı qəzeti olan "Literatunaya qazeta"nın 2 sentyabr 1987-ci il sayında dərc edilmiş məqaləsi kimi, akademik A.Aqanbekyanın Fransanın "Hümanite" qəzetinin 18 noyabr 1987-ci il tarixli sayında dərc edilmiş, Dağlıq Qarabağın Ermənistanın tərkib hissəsinə qatılmasının məqsədəuyğunluğunu irəli sürən məqaləsi də heç bir tutarlı cavab reaksiyası ilə qarşılaşmadı. Nəticədə, "Qarabağ" erməni komitəsi artıq Ermənistan hökumətini büsbütün nəzarətə götürdü, mitinqlər dalğası Yerevanı öz çənginə aldı.

***Əsas hissə.*** Dağlıq Qarabağın erməni əhalisinin keçirdiyi ilk mitinq 1988-ci ilin fevral ayının 12-də Stepanakertdə (Xankəndi) baş tutdu. Fevralın 13-də Azərbaycanın tərkibində olan Dağlıq Qa-

rabağ Muxtar Vilayətinin erməni əhalisi vilayətdəki inzibati idarələrin üzərinə Ermənistan və Sovet Sosialist Respublikasının bayraqlarını asdı. Təxminən üç il müddətində həm dünyadakı erməni lobbisinin, həm də SSRİ-də Siyasi büronu bütün təbliğat və təşviqat kampaniyası ilə silahlandıran erməni separatizminin fəaliyyəti 1988-ci ilin 21 fevralına hazırlıq mərhələsi məqsədi daşıyırdı. Artıq fevralın 21-də vilayət xalq deputatları Sovetinin növbədənkənar sessiyasında Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi haqqında təsdiq olunmuş qərar hazır idi və bu müraciət həm Azərbaycan, həm də Ermənistan Ali Sovetlərinin Rəyasət Heyətlərinə təsdiq edilmək üçün göndərilmişdi [1, s.6-9].

1988-ci ilin fevralın sonlarında Ermənistandan qovulan ilk qaçqın dəstəsinin Azərbaycana gəlişi və fevralın 24-də Qarabağ konfliktinin ilk qurbanları olan iki azərbaycanlının Ağdam-Əskəran yolunda öldürülməsi ilə Dağlıq Qarabağ münaqişəsi Ermənistan tərəfindən əməli şəkildə öz təsdiqini tapmış oldu. Faciənin başlandığı gün kimi aydın idi. Azərbaycan rəhbərliyi isə öz qətiyyətsiz mövqeyini nümayiş etdirməkdə davam edirdi. Moskvanın ətəyindən yapışan Azərbaycan hökuməti Kremlin ikili siyasətini, söz yox ki, başa düşürdü. Bir tərəfdən müstəqil respublikaların ərazilərində dəyişikliklərin yolverilməzliyini bəyan edən SSRİ hökuməti, digər tərəfdən göz görə-görə münaqişənin qızışdılması üçün ocağa yağ tökürdü: guya DQMV- də həyat şəraiti acınacaqlı, sosial-iqtisadi və mədəni gerilik "miatsum" ideoloqlarının haqlı narazılığına səbəb olacaq şəkildə kritik idi. Halbuki bütün göstəricilərə görə DQMV həm Azərbaycandan, həm də Ermənistandan daha yüksək sosial-iqtisadi səviyyəyə malik idi [6, s.54-55].

Azərbaycan hökuməti xalqın öncül ziyalılarının bu problemi gündəmə gətirməsinin qarşısını ciddi cəhdlərlə alırdı. İş o yerə çatmışdı ki, Zori Balayanın qan qoxuyan, əzəli Azərbaycan torpaqlarını Ermənistanın tərkib hissəsi kimi qələmə verən, türklüyə və türkçülüyə lənət və nifrət aşılayan "Ocaq" kitabının təhlil və tənqidi, müəllifə əsaslı arqumentlərlə cavab vermək, dünya ictimaiyyətinin diqqətini bu məntiqsiz və tarixə istinad olunmayan kitabın cəfəngiyyatdan başqa bir şey olmadığına yönəltməyə çalışan həqiqi tarixçilərin, vətənpərvər Azərbaycan ziyalılarının istəkləri qadağan olunmuşdu.

Hadisələrin sonrakı gedişində heç bir məhdudiyyətlə qarşılaşmayan ermənilər azərbaycanlıların ermənilərə qarşı qətillər törətdiklərini dünya ictimaiyyətinin nəzərinə çatdırmaq üçün fevralın 28-də planlı şəkildə Sumqayıtda böyük təxribat törətdilər. 26-sı erməni 6-sı azərbaycanlı olmaqla 32 nəfərin qətli ilə nəticələnən "Sumqayıt hadisə" sinin ən qəddar təşkilatçılarından biri 5 nəfər ermənini öldürmüş Eduard Qriqoryan idi. Sumqayıt hadisələrin törədilməsinin əsas məqsədi məlum idi. Bu hadisələr vasitəsilə ermənilər Ermənistanda yaşayan azərbaycanlıların qətlinə və qovulmasına haqq qazandırmaq, eyni zamanda DQMV-nin Ermənistana birləşdirilməsinə nail olmaq istəyirdilər [2, s.29].

Hadisələrin Sumqayıtda baş verməsinin çox sadə səbəbləri vardı. Sumqayıt Azərbaycanın böyük sənaye şəhəri idi və burada müxtəlif millətlərin nümayəndələri yaşayırdılar. Qarabağda yaşanan hadisələr, təbii ki, sumqayıtlıları da narahat edirdi. Hətta bu hadisələrə laqeyd qalmayan azərbaycanlıların intiqam hissi ilə yaşadıqları da sirr deyildi.

Ziya Bünyadov "Niyə Sumqayıt ?" adlı məqaləsində Sumqayıt hadisəni analitik cəhətdən təhlil edir. Z.Bünyadova görə, hadisələrə hazırlıq çox ciddi şəkildə planlaşdırılmış, əvvəlcədən erməni çəkiliş qrupu və müxbirlər Sumqayıt şəhərində lazımı mövqeyi tutmuşdular. "*Daşnaklar bütün dünyaya rəssam Vereşşaginin "Müharibənin apofeozu" əsərini yeni variantda "erməni kəllələrilə" təqdim etməyə çalışmışdılar*". Özünü azərbaycanlı kimi qələmə verən cani Qriqoryan ilk həmlədə beş ermənini qətlə yetirməklə qırğına başlamışdır. Ziya Bünaydov erməni emissarlarının Bakıya və Sumqayıta gəlişini daha mötəbər faktlarla sübur edərək göstərir ki, xaricdəki ermənilər Azərbaycana gəlmək üçün məhz fevral ayında banklardan öz əmanətlərini çıxarmışdılar [8]. Ən maraqlısı da bu idi ki, hadisələr başlayan zaman Sumqayıtda dünyanın müxtəlif ölkələrindən gələn fotomüxbirlər, repartyorlar cəmləşmişdir. Bu, şübhəsiz ki, hələ Azərbaycanın SSRİ-nin tərkibində olduğu və dünya mediasına qapalı şəraitdə yaşadığı bir dönəmdə ermənilər tərəfindən hazırlanmış xüsusi bir ssenari idi [5, s.22].

Azərbaycanda xalq kütlələri respublikanın ərazi bütövlüyünün təmin olunması üçün kortəbii nümayişlər keçirir və respublika rəhbərliyindən mövcud vəziyyətlə əlaqəli tədbirlər görülməsini tələb edirdi. 1988-ci ilin mayın 18-də Bakının indiki Azadlıq meydanında təşkil olunan izdihamlı mitinqdən sonra Moskva mövcud vəziyyəti nəzarətdə saxlamaq üçün Azərbaycanda hakimiyyət dəyişikliyi etmək məcburiyyətində qaldı. Lakin Kamran Bağırovu əvəz edən Əbdürrəhman Vəzirov öz uğursuz

və ikiüzlü siyasəti ilə xalqın coşmaqda olan təəssübkeşlik və vətənpərvərlik ideyalarını göz görə-görə boğmağa çalışdı.

Getdikcə alovlanan münaqişə hər gün daha da dərinləşməkdə davam edirdi. Vəzirov hökumətinin 18 iyul 1988-ci il tarixli DQMV-nin Azərbaycanın tərkib hissəsi olmasını bir daha təsdiqləyən qərarı yalnız kağız üzərində qaldı, heç bir işə yaramadı. Azərbaycana gələn qaçqınlara artıq Ermənistanla yanaşı Dağlıq Qarabağdan qovulan azərbaycanlı əhali də (yəni Azərbaycandan-Azərbaycana gələn) əlavə olundu. Sentyabr ayında Qarabağda erməni ekstremistləri azərbaycanlıları öz doğma ocaqlarından - Xankəndindən qovmağa, hətta Xocalını yandırmağa (18 sentyabrda) cəhd etdilər, nəticədə bir nəfər azərbaycanlı öldürüldü. Ermənilər azərbaycanlı əhaliyə qarşı qanlı toqquşmalar törətməkdən əsla çəkinmirdilər. Azərbaycan vətəndaşı olan ermənilərin bu cür hərəkətləri SSRİ hakimiyyəti və Azərbaycan hökuməti tərəfindən yalnız seyirçi mövqe ilə müşahidə olunur, cinayətkarlar cəzasız qalırdı [1, s.13].

Ərazi bötövlüyümüzün təmin olunması, suverenliyimizə zərər verəcək hər bir əməlin qarşısının alınması üçün tədbirlər görmək zərurəti yaranmışdı. Bu məqsəd naminə bəzi qeyri-formal qurumların yarandığı məlum idi ("Bakı alimlər klubu", "Varlıq", “Azərbaycanın müdafiə təşkilatı” və s.). Baltik respublikalarının öz suverenliyini qazanmaq üçün yaratdıqları təşəbbüs qruplarının təcrübəsini öyrənən və Azərbaycanda Xalq Cəbhəsi təşkilatı yaratmaq təşəbbüsü ilə ortaya atılan “Bakı alimlər klubu”nün üzvləri əməli fəaliyyətə keçmək üçün AXC adlı bir təşkilatın proqramını və nizamnaməsini hazırladılar. İlk dəfə qeyri-formal qrupların konfransı keçirildi. Minlərlə azərbaycanlı Topxana meşəsinin qırılmasına, yerində alüminium zavodunun sexi və istirahət kompleksinin tikintisinə başlanmasına, azərbaycanlıların Ermənistandan deportasiyası və SSRİ rəhbərliyinin ermənipərəst mövqeyinə, eyni zamanda Azərbaycan rəhbərliyinin xalqa xəyanət yolunu tutmasına qarşı kütləvi etiraz mitinqləri keçirdilər [3, s.31].

Bakının Azadlıq meydanında (o vaxtkı Lenin adına meydan) 17 noyabr - 5 dekabr tarixlərini əhatə edən və 18 gün fasiləsiz davam edən kütləvi, izdihamlı mitinqlər dövründə AXC fəallarının meydandakı çıxış və təşəbbüsləri nəticəsində respublikanın ən nüfuzlu idarə və təşkilatlarında AXC-nin müdafiə qrupları yaradıldı, bu qrupların sayı az müddət ərzində 200-ü ötdü. Ə.Elçibəy 22 noyabrdakı çıxışında bütün günahın Moskva administrasiyasının üzərinə düşdüyünü, 26 noyabrdakı çıxışında “Azərbaycan dövləti müstəqillik hüququnu itirib”, - deyərək mövcud vəziyyətin mahiyyətini dəyərləndirdi [5, s.55].

Ə.Elçibəyin rəhbərliyi ilə keçirilən mitinqlər “Meydanı hərəkatı” adlandırılmağa başladı və bu hərəkatla Azərbaycanda sovet quruluşunun əsasları sarsıldı. Lakin həmişəki kimi Azərbaycan xalqının mənfur sovet rejiminə, səriştəsiz, xəyanətkar yerli hökumətə, ermənilərin əsassız ərazi iddialarına, günahsız insanların öz yurd-yuvalarından didərgin salınmasına qarşı ucalan haqq səsi boğuldu. “Meydan hərəkatı” 1988-ci il dekabrın 5-də səhər saatlarında sovet xüsusi təyinatlıları tərəfindən meydanı boşaltmaqla yatırıldı [7, s.39].

***Nəticə.*** Mitinq təşkilatçıları və natiqlərinin kütləvi təqiblərinə başlandı, xalq hərəkatının təşkilatlanmasında durğunluğun yaradılmasına nail olundu. Sovet ordusu başda Ə. Elçibəy olmaqla hərəkatın liderlərini həbs etdi. Bütün bu hadisələrdən sonra xalq hərəkatının daha da alovlanacağından ehtiyatlanan mərkəzi sovet rəhbərliyi bəzi tədbirlər görməyə başladı. Böyük ictimai hərəkatın qarşısını almaq üçün 1988-ci il dekabrın 24-də Bakıda və Respublikanın on yeddi rayonunda fövqəladə vəziyyət elan etdi.

“Meydan hərəkatı”nın başlandığı tarix “Milli Dirçəliş Günü” kimi Azərbaycan tarixinin şərəfli səhifələrinə çevrilib. Bu aksiya Dağlıq Qarabağ böhranına qarşı Azərbaycan rəhbərliyinin cəsarətsizliyinə etiraz olmaqla yanaşı, 70 il ərzində susmağa məcbur edilmiş milyonlarla Azərbaycan vətəndaşının həmin dövr üçün misli görünməmiş azadlıq hayqırışı, haqsız və ədalətsiz sovet hakimiyyətinin, qudurğan və şərəfsiz erməni separatizminin iç üzünü göstərən Azərbaycan xalqının kükrəyən qəzəbinin ən parlaq nümayişi idi.

ƏDƏBİYYAT

1. Balayev Aydın, Mirzə Rasim. 20 Yanvar hadisələri. Sənədlər, mövqelər, şərhlər (1990-2000). Bakı, Çaşıoğlu, 2000, 242 s.

2. Əhmədov Elçin. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi. Dərslik. Bakı, "Zərdabi Nəşr" MMC, 2019, 632 s.
3. İmanov Rəftar. Azərbaycanın ərazi bütövlüyünə qəsd - qondarma Dağlıq Qarabağ Muxtar Vilayəti. Bakı, "Adiloğlu" , 2005, 260 s.
4. Qasımlı Musa. Azərbaycan Respublikasının tarixi (1991-2021): 2 cilddə. I cild (1991-2003). Bakı, Bakı Dövlət Universiteti, 2021, 384 s.
5. Tahirzadə Ədalət. Prezident Elçibəy. "Yeni Müsavat" qəzetinin nəşri, Bakı, 2001, s, 295 s.
6. Ağar Adem Azerbaycan'da Bağımsızlık Mücadelesi ve Elçibey Dönemi. Yüksek Lisans Tezi, Karabük, 2017, 155 s.
7. Cafersoy Nazım. Elçibey Dönemi Azerbaycan Dış Politikası. Ankara, Asam Yayınları,2001,164 s.
8. Балаев Айдын Азербайджанское национальное движение: от "Мусавата" до Народного Фронта. Баку, Элм, 1992, 104 s.
9. Буниятов Зия, Почему Сумгаит? // Журнал "İrs-Наследие", 2003, №5, с.24-27. - http://irs-az.com/new/pdf/090622145425.pdf [27.12.2024].

**HUSEYN MAMMADOV**
*Second year master's student of Azerbaijan University*
*on "The new and newest history of Azerbaijan"*

## NATIONAL AWAKENING OF AZERBAIJAN IN THE LATE 1980s

With the rise of Mikhail Gorbachev to power in the USSR in 1985, the policies of "openness" (glasnost) and "restructuring" (perestroika) were initiated. Processes began to unfold across the Soviet Union that perhaps even its leadership could not fully foresee, and the first echoes of political pluralism were heard. During this period, the long-standing demand of the Armenian Dashnak Party to remove the Nagorno-Karabakh Autonomous Oblast (NKAO) from Azerbaijan and incorporate it into Armenia - an issue that had been raised in nearly every decade of the 20th century and was accompanied by widespread propaganda and subversive efforts - resurfaced with renewed intensity by the late 1980s. In February and March of 1988, strikes broke out and continued in Armenia, accompanied by acts of civil disobedience by the Armenian population in Nagorno-Karabakh. The deportation of Azerbaijanis from their ancestral lands in Armenia, the provocation in Sumgayit, and the arrival of refugees in Azerbaijan - who now included not only those fleeing from Armenia but also Azerbaijanis expelled from Nagorno-Karabakh (i.e., displaced within their own country) - brought the Azerbaijani people's simmering anger to a breaking point.

The Kremlin's indifference to the events unfolding in Nagorno-Karabakh, which was a part of Azerbaijan, compounded by the presence of treacherous individuals in the Azerbaijani leadership who prioritized personal interests, ignored the political awakening in the country, and funneled a disproportionately large share of Azerbaijan's national income into all-Union funds (far exceeding the contributions of other Soviet republics), created widespread dissatisfaction. This discontent gave rise to the conviction among the Azerbaijani people that the Karabakh issue could only be resolved through a national struggle.

*Keywords:* Nagorno-Karabakh problem, Armenian claim, terrorist acts, rallies, Maidan movement.

*Daxil olma tarixi*: 27.12.2024-cü il.
*Çapa imzalanma tarixi*: 31.01.2025-ci il.

UOT 94

**İLHAM ƏHMƏDOV**
*Bakı Dövlət Universtieti Türk xalqları tarixi kafedrası*
*Türk dünyası tarixi ixtisası üzrə II kurs magistrant*
**ilhamrasul19@gmail.com**

# TÜRKİYƏDƏ 1980-Cİ İL ÇEVRİLİŞİNİ DOĞURAN SƏBƏBLƏR VƏ ÇEVRİLİŞ ƏRƏFƏSİNDƏ SİYASİ VƏZİYYƏT

*Elmi rəhbər:*
tarix elmləri doktoru Əsməd Muxtarova

*Türkiyədə 1980-ci il 12 sentyabr çevrilişi uzun müddət davam edən siyasi böhran, iqtisadi çətinliklər və silahlı qarşıdurmaların nəticəsi idi. Kənan Evrənin rəhbərliyi altındakı ordu ölkədə sabitliyi bərpa etmək məqsədilə hakimiyyəti ələ keçirdi. Bu çevriliş Türkiyədə hələ də mübahisəli mövzu olaraq qalmaqdadır. Bir qism çevriliş dövrünü xilaskarlıq, digərləri isə repressiya dövrü kimi qiymətləndirir.*

*Açar sözlər*: Kənan Evrən, 12 sentyabr, çevriliş, silahlı qarşıdurma, ordu, 12 mart notası, Konstitusiya, Tariş hadisələri.

> *"Bizə qarşı səsləndirilən tənqidlərin çoxu yanlışdır. Biz ölkəni xaosdan qurtarmaq üçün hərəkətə keçdik. İnsan haqları məsələsində həssasıq, lakin dövlətin birliyi və təhlükəsizliyi hər şeydən önəmlidir. Terrora və anarxiyaya göz yuma bilməzdik".*
>
> Kənan Evrən

***Giriş.*** 1980-ci il 12 sentyabr çevrilişi Türkiyə tarixində dərin iz buraxan hərbi müdaxilələrdən biri oldu. Uzun illər davam edən siyasi qeyri-sabitlik, iqtisadi böhran, sağ-sol qruplaşmalar arasındakı silahlı qarşıdurmalar və hökumətlərin idarəetmədə uğursuzluğu ordunun müdaxiləsini qaçınılmaz etdi. General Kənan Evrənin rəhbərliyi altında Türk Silahlı Qüvvələri hakimiyyəti ələ keçirdi və ölkədə fövqəladə vəziyyət elan olundu.

***Kənan Evrən şəxsiyyəti. Çevrilişi doğuran səbəb kimi Kənan Evrən xarakteristikası.*** 1980-ci il 12 sentyabr çevrilişini zəruri edən bir sıra amillər vardı. Bunlardan biri Kənan Evrən şəxsiyyətinin xarakteristikasıdır. Birinci Dünya Müharibəsinin gedişində, 1917-ci ildə doğulması onun hərb həyatını seçməsinin təməl səbəblərindən biri kimi qeyd etmək olar. 1919-cu ildə yunanlar İzmirə doğru hərəkət edərkən Kənan Evrənin ailəsi köç etmək məcburiyyətində qalmışdı. İki yaşında savaşdan qaçan ailəsi ilə birlikdə köç sırasında tutulduğu xəstəlik nəticəsində anası Kənanın sağalacağına olan ümidini itirərək onu yolda ölümünə tərk etməyi belə düşünmüşdü. Lakin nə anası onu ölümə tərk etdi, nə iki yaşlı Kənan ölümə əsir oldu. Tarixlər irəlilədikcə, Kənan Evrən həvəskar rəssamlıqla məşğul olmaqdan əlavə, hərbçilik arzusunu reallaşdırmaq üçün hərbi məktəbə yönəlmişdi. 1930-cu ildə baş verən "Menemen olayı" ona dərindən təsir etdi. Cümhuriyyət əleyhdarı bir qrup şəxs ehtiyatda olan əsgər və müəllim Mustafa Fəhmi Kubilay ilə birlikdə ona yardım etmək istəyən iki nəfəri qətlə yetirdi. Gənc Kənanın ilk potrtet işi də Mustafa Fəhmi Kubilayın rəsmi oldu. Kənan Evrənin uşaqlıqdan rəssamlığa və hərbçiliyə marağı onu dönəmin bir başqa ismi - Adolf Hitlerlə müqayisə etməyə rəvac verir. Hər iki şəxsiyyətin bənzər həyat yolu dünya tarixində əsaslı rol oynamışdı. Yuxarıda çevrilişi zəruri edən bir amilin Kənan Evrən şəxsiyyəti ilə əlaqəli olduğunu qeyd etmişdik. Gənc Kənanın yaşadığı hadisələrin onun həyatına etdiyi təsirləri qeyd etməklə mövcud fikri əsaslandırdıq. Çevrilişin digər səbəbi isə daha çox 1971-ci ildən sonrakı dövrün Türkiyəsinə dayanır.

***12 mart notası.*** 1971-ci il 12 martında Türk Silahlı Qüvvələrindən 4 üstün vəzifəli isim dönəmin Prezidenti Cövdət Sunaya nota verərək 32-ci Türkiyə Hökumətini istefaya səslədi. 12 mart notasının əsas bəyanlarından biri də Konstitusiyada dəyişikliyin edilməsi idi. *"Bu qanunla konstitusiyanın bəzi maddələrinə qanunvericilik, icra, məhkəmə, iqtisadi və maliyyə müddəaları, əsas hüquq və azadlıqlar-*

*la bağlı dəyişikliklər edilib. Bu dəyişikliklər nəticəsində konstitusiyanın 35 maddəsinə dəyişiklik edilmiş və konstitusiyaya 9 müvəqqəti maddə əlavə edilmişdir"* [1, s.1555].

***12 mart notasından 12 sentyabra.*** Ordunun başlıca rol aldığı bu nota mahiyyət etibarilə xunta səciyyəsi daşıyırdı. Nota sonrasında Türkiyədə irəliləyən dövlərdə Fövqəladə vəziyyət elan edildi, radikal solçu və sağçı qruplara qarşı hərəkat başladıldı, reform hökuməti quruldu, Süleyman Dəmirəl istefa verdi, Türkiyədə böyük bir dövrü əhatə edən sağ-sol qruplaşmaların anarxiyavari davranışları nəzarət altına alındı. Skandal yaradan bir hadisə də Dəniz Gəzmiş, Yusif Aslan və Hüseyin İnan isimli üç solçu-kamalist gəncin edam edilməsi oldu. Yalnız 14 oktyabr 1973-cü ildə keçirilən seçkilərdə Cümhuriyyət Xalq Partiyası səs çoxluğu ilə qalib gəlmiş, yeni Baş Nazir Bülənd Əcəvit olmuşdur. 1974-cü ildə Bülənd Əcəvit hökumətinin "Kipr əməliyyatı" ilə Lefkoşaya daxil olmasının ardından BMT və Avropa Şurası bunu işğal kimi qiymətləndirdi. Bu konfliktə işğal münasibətinin bir başqa səbəbi də ABŞ-nin o dövr Soyuq müharibədə SSRİ ilə yaşadığı problemlər idi. *"Əslində, NATO üzvləri arasında Kiprin Sovet təsir dairəsinə düşməsi ilə bağlı narahatlıq hələ Kipr Respublikası yaranmazdan əvvəl yaranmışdı. Nümunə üçün, Britaniya Koloniya İdarəsinin 1957-ci il sənədində yazılıb ki, Kiprin böyük strateji əhəmiyyəti var və SSRİ-yə yaxın olan hökumət tərəfindən idarə edilməməlidir"* [2, s.2170].

Münasibətlərin nə cür olmasından asılı olmaraq, xalq qərarını verməşdi. 1977-ci il seçkilərində Bülənd Əcəvit ən çox səs toplamış solçu partiyanın rəhbəri kimi yenidən iqtidar olmuşdu. ABŞ-nin Türkiyəyə tətbiq etdiyi embarqo, embarqonun gətirdiyi inflyasiya, xalq protestləri və küçə anarxiyası Əcəvit hakimiyyətini olduqca zəiflətmişdi. Bunun nəticəsidir ki, 1979-cu ilin oktyabrında ara seçkilərdə uğursuzluğa uğradığı üçün Əcəvit vəzifəsini Süleyman Dəmirələ təslim etdi. Dəmirəlin idarəetmə sistemi də Türkiyəni qaranlıqdan qurtara bilmədi. Hökumət böhranı dərinləşir, hökumət zəiflədikcə küçələr güclənirdi. İdeoloji davalar silahlı mübarizələrə çevrilirdi. 1979-cu ilin sonlarına yaxın Türk Silahlı Qüvvələrinin Generalı Kənan Evrən hakimiyyətə nota verdi. Nota mahiyyət etibarilə 1971-ci il 12 mart notasını xatırladırdı. Notaya əsasən, Ordunun hərbi qiyamı qaçınılmaz idi və Kənan Evrən dönəmin ana müxalifəti olan Bülənd Əcəvitin terror əleyhinə birgə mübazirə təklifini geri çevirmişdi. Prezident Fəxri Qorutürkün vəzifə müddətini tamamlamasından sonra bu post 1980-ci ilin 12 oktyabrına qədər boş qaldı.

***Silsilə hadisələr.*** 1980-ci ilin fevralında Tariş hadisələri baş verdi. O dövrdə Türkiyədə solçu və sağçı ideoloji qarşıdurmalar zirvəyə çatmışdı. Tariş fabriklərində işləyən işçilərin əksəriyyəti sol meyilli həmkarlar ittifaqları ilə bağlı idilər və onların təşkilatlanması sağçı hökumət tərəfindən təhlükə kimi görülürdü. İzmirdə Tariş əməkçi ittifaqının binasında silah və partlayıcı maddələrin olması barədə məlumat alan Türk polisi binaya əməliyyat tərtib etdi. "Türk polisinə açılan atəş nəticəsində əməliyyatın seyri dəyişdi. 50 civarında polis və işçi yaralandı, 600-ə qədər dirənişçi həbs olundu" [3].

Tarixlər 11 apreli göstərdikdə yazıçı Ümid Kaftançıoğlu "Müsəlman qardaşlar birliyi" tərəfindən qətlə yetirildi. 5-10 iyul tarixləri arasında Çorumda ələvi və sünnilər arasında çaxnaşmada 25 nəfər həyatını itirdi. ASALA terror təşkilatının hücumlarının da qarşısı alınmaz vəziyyətə gəlmişdi. Ölkədəki çaxnaşmaların və sui-qəsdlərin ardı-arası kəsilmirdi. Dəmirəlin mühafizəkar siyasəti, "İmam Hatip" məktəblərinin açılması Kənan Evrənin istəkləri ilə üst-üstə düşmürdü. Kənan Evrənə görə, Türkiyəyə Atatürk inqilabı səviyyəsində Ordu nizamı lazım idi. Dəmirəlin çabaları boşuna idi. Kənan Evrən Türkiyəni qaranlıqdan özü xilas etmək niyyətində idi artıq. Bu niyyətin pərdə arxasında ABŞ kəşfiyyatının da adı çəkilməkdə idi [8].

***Çevriliş haqqında fikirlər.*** "Bu hərbi çevriliş sentyabrın 12-də səhər TRT radiosunda səsləndirilən İstiqlal və Hərbi marşların ardından Türkiyə Silahlı Qüvvələri Baş Qərargahının rəisi general Kənan Evren tərəfindən imzalanan "Bir nömrəli bəyannamə"nin oxunmasından sonra başlayıb. "Bayraq hərəkatı" kimi tanınan hərbi çevriliş zamanı 1970-ci ildən sonra dəyişdirilən 1961-ci il Konstitusiyasının tətbiqi dayandırılıb və Türkiyə Böyük Millət Məclisi ləğv olunaraq antidemokratik fəaliyyətlər davam etdirilib" [4]. Çevrilişin əsas məqsədi ölkədə sabitliyi bərpa etmək və demokratiyanı yenidən qurmaq kimi təqdim olunsa da, nəticədə minlərlə insan həbs olundu, edamlar həyata keçirildi və sərt hərbi idarəetmə dövrü başladı. ABŞ-nin çevrilişdən əvvəlki mövqeyi və ordunun planları ilə bağlı müxtəlif iddialar da ortaya atıldı. Bu hadisə Türkiyə cəmiyyətində ikili yanaşmaya səbəb oldu: bəziləri

Evrəni ölkəni xaosdan xilas edən lider kimi görsə də, digərləri onu diktator və repressiya simvolu hesab edir. 12 sentyabr çevrilişi, Türkiyədə hərbçilərin siyasətə təsirinin güclü olduğunu bir daha göstərdi və sonrakı illərdə də siyasi proseslərə təsir etməyə davam etdi.

***Kənan Evrənin şərhi.*** Türkiyənin 32.Gün adlı araşdırma proqramının "1980-ci il çevrilişi necə edildi? Kənan Evrən izah edir" başlıqlı arxiv materialına əsasən, 12 Sentyabr günü Kənan Evrən çevrilişin planlarını düşünüb daşınmaqdan yorğun düşmüşdü. Əmrində olan bir əsgərə onu gecə saat 3-də oyandırmasını tapşırmışdı. Lakin saat 2-ə doğru otağının qapısı döyüldü. Əsgər Amerikalılardan (Paul Henze) ona bir mesaj olduğunu bildirdi. Qərargah Rəisi Kənan Evrən öz müsahibəsində qeyd edirdi ki, mesajda bir tank taborunun Türkiyədəki Amerikan bazasına doğru gəlməsi barədə məlumat verilmişdi. Amerikanlara cavab olaraq, General narahatlığa əsas olmadığını bildirərək bir neçə saata taborun çevriliş üçün hərəkətə keçəcəyini xəbər etdi. Belə də oldu. Saar 4-ə doğru Ordu mühüm dövlət binalarını ələ keçirdi. Televiziya və Radio stansiyası nəzarətə götürüldü. Fövqəladə vəziyyət elan edildi, küçəyə çıxma qadağası tətbiq olundu (7). Həmin gün xalqın Kənan Evrənin TRT-də xalqa müraciətini səssiz-səmirsiz dinləməkdən başqa çıxış yolu qalmamışdı: *"Əziz vətəndaşlarım! Bir daha bildirirəm ki; Silahlı Qüvvələr əziz Türk Millətinin firavanlığını və xoşbəxtliyini, vətən və millətin bütövlüyünü, nüfuzu getdikcə azaldılmağa çalışılan Atatürk prinsiplərini bərpa etmək üçün hakimiyyəti ələ keçirməli, özü-özünü idarə edə bilməyən demokratiyanı möhkəm təməllər üzərinə oturtmalı və dövlət müstəqilliyini yenidən təsis etmək üçün idarəetməni ələ almaq məcburiyyətində qalmışdır. Biz komandirlər, zabitlər, gizirlər və sıravi əsgərlər olaraq vətənin, millətin rifahı, səadəti yolunda canımız da daxil olmaqla, hər şeyimizi qurban verməyə hazırıq. Ölkədə hər zaman rast gəlinən və xüsusilə son dövrlərdə artan bir çox bədxah adamlar və təşkilatlar sizə yalan danışa, əksini söyləyə, mənfi təbliğata əl ata bilərlər. Bunlara heç vaxt inanmayın. Bütün tətbiqatalr millətin gözü qarşısında həyata keçiriləcəkdir"* (6).

***Nəticə.*** Nəticə etibarilə, baş verən bu silsilə olaylar 1980-ci il 12 sentyabr çevrilişini zəruri edən əlamətləri özündə cəmləyirdi. Kənan Evrən şəxsiyyətinə günümüzdə də ikili yanaşmalar mövcuddur. Bir qism onu "xilasedici Paşa" olaraq görsə də, digər qism "əliqanlı cəllad" olaraq görməkdədir. Çevriliş nəticəsində, Türkiyədə xaotik vəziyyət qismən də olsa, qaydasına düşdü. Lakin, çevrilişin acı nəticələrini və dirənişçi qurbanlarını yad edənlərin sayı da az deyil.

## ƏDƏBİYYAT

1. Bilal Tunç, Eren Akarçay. 12 Mart Muhtırası Sonrası 1961 Anayasası'nda Yapılan Değişiklikler Üzerine Bir Değerlendirme // İnsan ve Toplum Bilimleri Araştıemaları Dergisi, Yıl: 2022, Cilt: 11, Sayı: 3, s.1543-1571. - https://dergipark.org.tr/tr/download/article-file/2416748 [30.12.2024].
2. Günal Altuğ. ABD'nin 1974 Kıbrıs Askeri Darbesindeki Rolü // OPUS Uluslararası Toplum Araştırmaları Dergisi, Yıl: 2019, Cilt:10, Sayı: 17, s.2168-2207. - https://dergipark.org.tr/tr/pub/opus/article/521229 [30.12.2024].
3. TARİŞ'te işçi-polis çatışması: 50 yaralı / Cumhuriyet Gazetesi. 23 Ocak 1980.
4. Türkiye'nin 70 yılı. Gün Gün Cumhuriyet tarihi. İstanbul, Tempo, 1998, 254 s.
5. 12 Mart Belgeseli [Elektron resurs] / 32.Gün Arşivi, videofilm. - https://www.youtube.com/watch?v=UcCKCx5G0dM [20.12.2024].
6. Kenan Evren Darbe Konuşması. 12 Eylül 1980: [Elektron resurs] / 32.Gün Arşivi, videofilm. - https://youtu.be/4adzh1z_rUQ?si=Ouv8clRiI5Tz7Jhj [30.12.2024].
7. 12 Eylül 1980 Darbesi Nasıl Yapıldı? Kenan Evren Anlatıyor: [Elektron resurs] / 32.Gün Arşivi, videofilm. - https://youtu.be/lWsz5Q6OvA4?si=SowvjkuVB5BBtcZ6 [30.12.2024].
8. The boys in Ankara did it – Paul Henze / 32. Gün Arşivi: [Elektron resurs] videofilm. - https://youtu.be/TX7nAsbSsqo?si=pYOhDf-BnX-tS6_3 [30.12.2024].

**ILHAM AHMADOV**
*2nd year master student of Department of History of the Turkic World of Baku State University*

## THE REASONS THAT BROUGHT THE 1980 COUP IN TURKEY AND THE POLITICAL SITUATION ON THE EVE OF THE COUP

The 1980 military coup in Turkey was a result of growing political chaos, economic instability, and failed governance. The country was at the center of deep polarization between leftist and rightist factions and widespread armed conflict. Citing the need to restore order, the military seized power on September 12, 1980, dissolved political parties, and established a dictatorship under Kenan Evren. The coup had a lasting impact on Turkey's political and social structure, including increased state control and restrictions on freedoms.

*Keywords:* Kenan Evren, September 12, military coup, armed conflict, army, March 12 note, Constitution, Tarish events.

*Daxil olma tarixi*: 30.12.2024-cü il.
*Çapa imzalanma tarixi*: 31.01.2025-ci il.

№1(11) 2025, 30-34

UOT 94(479.24); UOT 94

**MƏRYƏM RƏHİMOVA**
*Azərbaycan Universiteti*
*"Azərbaycanın qədim və orta əsrlər tarixi" ixtisası üzrə magistrant*
***mryam.rahmova@gmail.com***

# ŞAH I ABBASIN HƏRBİ İSLAHATI

*Elmi rəhbər:*
tarix elmlər doktoru, akademik Yaqub Mahmudov

*Şah I Abbas (1587-1629) Səfəvi imperatorluğunun ən qüdrətli hökmdarlarından biri olmuşdur. Onun dövründə imperiya, siyasi, iqtisadi və hərbi gücünü yenidən bərpa etmiş, eyni zamanda dövlətin müstəqilliyini təmin etmək üçün mühüm addımlar atmışdır. Xüsusilə, hərbi sahədə həyata keçirdiyi islahatlar, ordunun təşkilatında etdiyi yeniliklər və müasir müharibə strategiyalarının tətbiqi, onun ən böyük uğurlarından hesab olunur. I Abbas Səfəvi ordusunun zəifliyini aradan qaldırmaq məqsədilə müntəzəm və peşəkar bir ordu yaradaraq, ordu strukturlarında fundamental dəyişikliklər etdi. Hərbi islahatların mahiyyəti, ordunun təlimi, döyüş taktikalarının müasirləşdirilməsi, yeni silahların tətbiqi və fərqli etnik qrupların bir araya gətirilməsi ilə bağlı idi.*

*Bu məqalədə, Şah I Abbasın hərbi islahatlarının səbəbləri, mahiyyəti və nəticələri ətraflı şəkildə müzakirə olunacaq. İslahatların Səfəvi dövlətinin tarixindəki rolunu, ordunun güclənməsinə və müstəqilliyinin qorunmasına verdiyi töhfələr araşdırılacaq.*

*Açar sözlər:* Səfəvi imperatorluğu, Şah I Abbas, Ordu təşkilatı, Hərbi strategiya.

***Giriş.*** 1587-ci ildə Qəzvində taxta çıxan Şah I Abbasın (1587-1629) əsas vəzifəsi xarici işğallara məruz qalan, daxildən parçalanan dövləti məhv olmaqdan xilas etmək idi. Bu zaman ərazilərimizin böyük hissəsi osmanlıların, Xorasan isə özbəklərin işğalı altına düşmüşdü. Belə ağır vəziyyətdə O, Osmanlılarla sülh bağlamağa məcbur oldu və diqqətini daxili sabitliyi bərqərar etməyə yönəltdi. Şah I Abbas qızılbaş əyanlarının itaətsizliyinə son qoymaq və itirilmiş əraziləri geri qaytarmaq məqsədilə idarə sistemi, hərbi və iqtisadi-sosial sahələrdə islahatlar keçirdi [1, s.274].

Şah I Abbasın hakimiyyəti dövründə Səfəvi dövlətinin əzəmətinin zirvəyə çatması onun uğurlu hərbi siyasəti ilə sıx bağlı idi. O, yalnız ənənələri izləməkdən ibarət olmayan, eyni zamanda dövrün reallıqlarını nəzərə alaraq yeni bir hərbi strategiya hazırlamağı bacardı. Bu siyasətin əsas məqsədi Səfəvi dövlətinin qorunması, daxili və xarici təhlükəsizliyin təmin edilməsi və səltənət daxilində dinc və inkişaf etdirici fəaliyyət üçün əlverişli şəraitin yaradılması idi.

Səfəvi imperatorluğunun hərbi siyasətinin əsas prinsipləri, hələ Şah İsmayılın dövründə formalaşmışdı. Bu prinsiplər dövlətin möhkəmləndirilməsi, Səfəvi hakimiyyətinə qarşı hərbi təhdidlərin aradan qaldırılması və sərhədlərin toxunulmazlığının qorunması kimi vəzifələri əhatə edirdi. Bu vəzifələrin həyata keçirilməsi üçün xüsusi qabiliyyət, təşkilatçılıq və idarəetmə bacarığı tələb olunurdu.

Şah İsmayıl və Şah Təhmasib dövründə səmərəli hərbi siyasət formalaşmışdı, lakin Şah Təhmasibin dövründə strateji əhəmiyyət kəsb edən Bağdad şəhəri və digər ərazilərin itirilməsi dövlətin hərbi gücünü zəiflətdi. Bu itkilər Şah Təhmasibin müvəffəqiyyətini kölgədə qoydu. Şah I Abbas ordunun müntəzəm və peşəkar olmasını təmin edərək, döyüş taktikasını müasirləşdirdi, yeni müharibə texnologiyalarını tətbiq etdi və müxtəlif etnik qrupları orduda birləşdirdi. Bu dəyişikliklər Səfəvi ordusunun döyüş qabiliyyətini artırdı və müasir müharibə standartlarına uyğunlaşmasını təmin etdi.

Nəticədə, Şah I Abbasın hərbi siyasəti Səfəvi dövlətinin güclənməsində və uzunmüddətli müstəqilliyinin qorunmasında əhəmiyyətli rol oynadı. Onun rəhbərliyi altında həyata keçirilən islahatlar, döyüşlərdə müvəffəqiyyət qazanmaqla yanaşı, daxili siyasi sabitliyin təmin edilməsinə də kömək etdi. Bu yolla Səfəvi dövlətinin əzəmətinin bərpası və güclənməsi mümkün oldu [6, s.107].

Şah I Abbasın qoşun islahatları zamanı formalaşdırdığı yeni qoşun qisimlərinin ilkin elementləri, əslində, onun sələfi olan Səfəvi şahlarının dövründə də mövcud idi. Bu dövrdə qorçular, qulamlar,

topçular və tüfəngçilər kimi müxtəlif qoşun tərkibləri vardı. Lakin Şah Abbas, bu mövcud qüvvələrin əsasında ciddi islahatlar həyata keçirərək, yeni qoşun strukturlarını formalaşdırmağa başladı.

O, ordunun təşkilatını yeniləyərək, daha müntəzəm və peşəkar bir ordu yaratmağa yönəldi. Bu islahatlar, müasir müharibə standartlarına uyğun olan döyüş taktikasını və yeni silah sistemlərinin tətbiqini əhatə edirdi. Şah Abbasın rəhbərliyi altında həyata keçirilən bu dəyişikliklər, Səfəvi ordusunun döyüş qabiliyyətini artırdı və dövlətin müstəqilliyini qorumaqda mühüm rol oynadı [7, s.416-417].

Şah I Abbasın həyata keçirdiyi islahatlar arasında ordu quruculuğu sahəsindəki yeniliklər xüsusi əhəmiyyət kəsb edirdi. Səfəvi şahı bu islahatlara hələ 1592-ci ildə başlamışdı. Xorasana edilən uğursuz yürüşdən sonra Qəzvinə qayıdan Şah Abbas, etimadüddövlə Hatəm bəy Ordubadiyə, qorçubaşıya və digər yüksək rütbəli əyanlara xüsusi tapşırıqlar verdi. Bu tapşırıqlar əsasən qoşunun maddi təminatının gücləndirilməsi və döyüş qabiliyyətinin artırılmasına yönəlmişdi.

Qərara alındı ki, Qızılbaş tayfaları döyüşçülərin el və oymaqlarının dəqiq araşdırılması ilə məşğul olsunlar. Məvacib alan hər bir əsgər və digər şəxslər müəyyən edilməli idi ki, süvarilik və yasağa (dövlət xidmətinə) cəlb olunsunlar. Eyni zamanda, Xorasan yürüşündə iştirak etməyən və ya xəyanət edən şəxslər cəzalandırılmalı, cərimələr tətbiq edilməli idi. Bu tədbirlər ordu sıralarını nizam-intizamla təmin etmək və döyüş qabiliyyətini artırmaq məqsədi daşıyırdı.

Bu islahatlar Şah I Abbasın ordunu müntəzəm və güclü bir quruma çevirmək istəyinin göstəricisi idi. Ordunun maddi ehtiyaclarının qarşılanması, döyüşçülərin dəqiq uçotunun aparılması və xəyanətin qarşısının alınması, onun hərbi siyasətində əsas prinsiplərdən biri olmuşdur. Bu islahatlar sayəsində Şah Abbas, Səfəvi ordusunun zəifliklərini aradan qaldıraraq, güclü və müasir bir ordu qurmağı bacardı [4, s.84].

XVI əsrin 90-cı illərinin əvvəllərində başlanılan və Şah I Abbas tərəfindən həyata keçirilən hərbi yenidənqurma prosesləri, xüsusilə 1598-ci il Xorasan yürüşü ərəfəsində əsasən yekunlaşdırıldı. Bu islahatlar Səfəvi ordusunun müasirləşdirilməsi və Avropa tərzli hərbi strukturların tətbiqini hədəfləyirdi [5, s.337].



*Səfəvi döyüşçüləri*

***Qızılbaşlar (Qorçilər)***. P.Delavella, Şah Abbasın fəaliyyəti ilə bağlı yazılarında qorçuların Səfəvi ordusunun ən güclü siniflərindən biri olduğunu vurğulayır. Onlar birbaşa şahın tabeçiliyində idilər və başqa liderlərə xidmət etmirdilər. Qorçuların sayı təxminən 12 min nəfər təşkil edir və onların maaşları şahın xəzinəsindən ödənilirdi.Eyni zamanda, qorçuların başına qoyduğu qızılbaş tacı onların şahın xüsusi etibarına malik olduğunu göstərə bilirdi. Bu tac həm də onları digər qoşunlardan ayıran bir simvol idi. Qorçuların etiqadına dair bu simvollar, onların ordu içindəki xüsusi statuslarını daha da vurğulayırdı. Delavellanın verdiyi məlumata görə, bu dövrdə qorçubaşı vəzifəsini Şah Abbasın damadı olan İsa xan yerinə yetirirdi [7, s.421].

I Şah Abbasın dövründə həyata keçirilən qoşun islahatları çərçivəsində qorçular yeni bir müstəqil qoşun sinfi halına gəldilər və sayı əhəmiyyətli dərəcədə artdı. Bu dövrdə qorçular, şahın xüsusi mühafizə qüvvələri kimi, onun və ailəsinin təhlükəsizliyini təmin etməklə yanaşı, müxtəlif hərbi tapşırıqları icra edirdilər. Müasir silahlarla, xüsusən də tüfənglə silahlanmış qorçular, müstəqil döyüş əməliyyatlarını həyata keçirmək qabiliyyətinə malik idilər. Qorçuların lideri olan qorçubaşı, şahın etibarlı adamları

arasından seçilirdi və bu, onların nüfuzunu artırırdı. Müxtəlif mənbələrdə qorçuların sayı ilə bağlı fərqli rəqəmlər var: bəziləri 12 min, bəziləri isə 60-70 min olduğunu bildirir. Bu rəqəmlərin ortalaması, I Şah Abbasın dövründə qorçuların sayının təxminən 20 min nəfər olduğu qənaətini yaradır. Beləliklə, qorçular, strateji vəzifələri müstəqil şəkildə icra edə bilən bir qoşun strukturu kimi ön plana çıxdılar [4, s.843].

***Qulamlar.*** Şah I Abbasın apardığı qoşun islahatları nəticəsində yaradılan qoşun siniflərindən biri qullar (qulamlar) sinfi idi. Bu sinif, qeyri-müsəlman döyüşçülərdən və Azərbaycanın, eləcə də İranın xaricində yaşayan müsəlmanlardan ibarət idi. Şah Abbasdan əvvəl də bu cür dəstələrin mövcudluğuna rast gəlinsə də, onun dövründə bu elementi toplamaq, yetişdirmək və hərbi gücə çevirmək prosesi xüsusi bir inkişaf mərhələsinə çatdı. Bu dövrdə gürcülər, ermənilər, çərkəzlər və digər xalqlara mənsub döyüşçülərin bu sinfə daxil olduğu qeyd edilir. Şah Abbasın hərbi islahatları nəticəsində bu kontingent ayrıca bir struktur halına gəldi və Səfəvi ordusunun gücünün əhəmiyyətli bir hissəsini təşkil etməyə başladı. Bu islahatlar, həm də dövlətin müstəqilliyi və hərbi qüvvəsinin gücləndirilməsi baxımından əhəmiyyətli rol oynadı [7, s.436].

Qullar dəstəsi, yalnız əsir götürülmüş insanlardan ibarət deyildi; bu dəstə, pul qarşılığında satın alınan gəncləri də əhatə edirdi. Müxtəlif bölgələrdən, o cümlədən xarici ölkələrdən gənclər saraya gətirilir və burada saray xacələrinin nəzarəti altında tərbiyə olunurdular. Gənclər müəyyən yaşa çatdıqdan sonra qullarağası tərəfindən qəbul edilərək qullar dəstəsinin tərkibinə daxil edilirdi.

Bundan əlavə, Qafqaz xalqlarının rəhbərləri və Osmanlı sarayı da gənc oğlanları Səfəvi sarayına hədiyyə edirdilər. Bu gənclər də Səfəvi ordusunun strukturuna əlavə edilərək orada müvafiq şəkildə tərbiyə olunurdular. Bu yanaşma, Səfəvi ordusunun gücünü artırmaq və müxtəlif etnik qruplardan ibarət müstəqil bir döyüş qüvvəsi yaratmaq məqsədini güdürdü.

Qulamların da sayı kifayət qədər idi. Şah Abbasın hakimiyyəti illərində onların sayı 30 min nəfərə çatmışdı. Onlardan 15 min nəfəri döyüşçü idi və ayrıca bir qoşun strukturunu təşkil edirdi. Qulamlar dəstəsi də ən məsuliyyətli hərbi tapşırıqların icrasına vəzifələndirilirdilər. Digər 15 min nəfər isə xidməti vəzifələrə təyin edilmişdilər. Qoşun tərkibində olan qulamların hamısı at belində idilər və ən yaxşı silahlara malik idilər. Ox, kaman, nizə kimi silahlardan başqa onların tüfəngi də var idi. Xarici səyyahlar qulamların çox sağlam və möhkəm bədən quruluşuna malik olduqlarını bildirirdilər. Bu da onu göstərir ki, qulamlar müəyyən seçimə məruz qalırdılar və bu dəstəyə ən sağlamları və boylu-buxunlu olanları qəbul edilirdilər. Bəzi məlumatlara görə, Şah Abbas qulamlar sinfinə mənsub olan döyüşçüləri "atlı yeniçərilər" adlandırırdı [7, s.443]. Bununla Şah Abbas həmçinin döyüşçülərə olan rəğbətli münasibətini ifadə edirdi.

***Tüfəngiçlər.*** Şah Abbasın dövründə aparılan qoşun islahatlarından biri tüfəngçilər dəstəsinin yaradılması oldu. Bu islahat, ordunun döyüş gücünü artırmaq və müasir silahların tətbiqini effektivləşdirmək məqsədini güdürdü. Tüfəngçilərin ayrıca dəstə şəklində təşkil edilməsi, onlara xüsusi vəzifələr icra etmək üçün imkan tanıdı və ordunun strateji gücünü genişləndirdi.Tüfəngçilərin döyüş meydanında müasir silahların istifadəsi, ordunun taktiki imkanlarını artırdı və düşmənlə mübarizədə yeni yanaşmaların tətbiqinə yol açdı. Beləliklə, tüfəngçilər, ordunun müasir müharibə anlayışında mühüm rol oynamağa başladılar.

Şah Abbasın hakimiyyəti dövründəki qoşun islahatları, xüsusən odlu silahların istifadəsi və yeni hərbi birləşmələrin yaradılması ilə bağlı bir sıra mühüm addımlar atıldı. Bu islahatlar nəticəsində, orduda tüfəngçilərin sayının artırılması və onların döyüş qabiliyyətinin gücləndirilməsi məqsədilə beynəlxalq əlaqələr genişləndirildi. Məsələn, Şah Abbas Rusiyaya tüfənglərin alınması üçün öz səfirini göndərdi və İtaliyadan mütəxəssis topçuların gətirilməsi təşviq edildi. Eyni zamanda, Şərqi Hind şirkəti vasitəsilə 1500 tüfəng alındı.

Avropa dövlətlərinin Səfəvi qoşunlarının güclənməsinə dəstək verməsi, onların Osmanlı İmperiyası üzərindəki təsirini azaltmaq məqsədini güdürdü. XIII Qrequar tərəfindən 1590-cı ildə təqdim ediləcək 2 min tüfəng və 500-600 tapança, bu münasibətlə atılmış addımlardan biridir. 1603-cü il üçün təqdim edilən məlumatlara görə, Səfəvi ordusunda 300-dən çox top və 10 min tüfəng olduğu bildirildi, eyni zamanda 1590-cı ildə qoşunlarda 70 min tüfəngçi iştirak edirdi [5, s.86].

***Topçular.*** Şah Abbasın qoşunlarda apardığı islahatlardan sonra müstəqil və güclü zərbə qüvvəsi kimi formalaşan dəstələrdən biri də topçular dəstəsi idi. Bu dəstəyə xüsusi diqqət yetirilməsi də Şah Abbasın hərb aləmində baş verən dəyişikliklərdən yetərincə xəbərdar olmasının bir göstəricisi sayıla bilər. Qonşu dövlətlərin, xüsusilədə Osmanlı qoşunlarının təcrübəsi göstərirdi ki, dövrün hərb məharətinin inkişafında toplarsız keçinmək mümkün deyil. Başlıcası isə uzun müddət davam edən qala mühasirələrinin uğurla sona çatdırılmasında toplar faydalı rol oynaya bilirdilər. Toplar həm də dağıdıcı zərbə imkanlarına malik idi və onların tətbiq edilməsi ilə qarşı tərəfin atlı dəstələrinə və digər hərbi obyektlərinə qarşı uğurlu mübarizə aparmaq mümkün idi.

Şah Abbasın hakimiyyəti dövründə topların istifadə üsulları ilə yanaşı, onların istehsal texnologiyasında da əhəmiyyətli irəliləyişlər müşahidə olunmuşdu. Mənbələrə görə, topların hazırlanması sahəsində bacarıq hələ Ağqoyunlu dövləti zamanında qazanılmışdı. Səfəvi dövləti qurulduqdan sonra isə bu biliklər daha da inkişaf etdirildi və geniş miqyasda tətbiq edildi [7, s.451].

Şah Abbasın hakimiyyəti illərində top istehsalının daha da inkişaf etdirilməsində ingilis mütəxəssislərin mühüm töhfəsi olmuşdur. Bildirilir ki, topçuların ayrıca bir hərbi bölük şəklində təşkil edilməsi təklifi də Robert və Antoni Şerli qardaşları tərəfindən irəli sürülmüşdür. Onlar tüfəngçilər birliyinin yaradılmasından sonra Şah Abbasa topçular bölüyünün formalaşdırılması barədə fikir təqdim etmişlər. Şah Abbas bu təklifi məqsədəuyğun hesab edərək dəstəkləmişdir. İngilis mütəxəssislər həmçinin dövlət daxilində top istehsalını təşkil etməkdə də mühüm rol oynamışlar. Onların rəhbərliyi ilə İsfahanda top tökmə sexi yaradılmış və burada topların hazırlanmasına başlanılmışdır.

Ümumilikdə, topların istehsalının təşkil olunması, topçu dəstəsinin yaradılması və bu işlərə nəzarət Şah Abbas tərəfindən Allahverdi xana tapşırıldı. Allahverdi xan da ona verilən bu vəzifələri yerinə yetirməkdə xüsusi fəallıq göstərdi və nəticədə, Şah Abbasın ordusunda topçuları müstəqil bir hərbi birlik kimi formalaşdırmaq mümkün oldu. Şübhəsiz ki, bu prosesdə avropalı mütəxəssislərin tövsiyələrindən də geniş şəkildə istifadə edilmişdir. Avropalı mütəxəssislərin yazdıqlarında qeyd olunur ki, top istehsalında Osmanlı ordusundan müxtəlif səbəblərlə ayrılmış bəzi mütəxəssislər də iştirak edirdi [2, s.123].

Şah Abbasın hakimiyyəti dövründə dövlət daxilində həm top istehsalını təşkil edə biləcək peşəkar ustalar və mütəxəssislər mövcud idi, həm də texnologiya baxımından ciddi çətinliklər yaşanmırdı. Bununla yanaşı, avropalı səyyahlar və mütəxəssislər vurğulayırdılar ki, Şah Abbasın ordusundakı topların istifadəsi digər ölkələrdə, o cümlədən Osmanlı dövlətində olan maraq qədər deyildi. Onların iddiasına görə, bəzi qala darvazalarının qarşısında bu toplar sadəcə görüntü üçün yerləşdirilirdi.

Şah Abbasın ordusunda topçu dəstəsinin müəyyən bir struktur forması var idi. Bütün topçular sinfinə topçubaşı rəhbərlik edirdi. Topçu dəstəsi yüz nəfərlik qruplara ayrılmışdı və bu qruplara yüzbaşılar başçılıq edirdi. Topçuların qeydiyyatını aparan məsul şəxslər də mövcud idi. Hər birinin konkret məbləğdə maaşı var idi. Məsələn, topçubaşının illik maaşı 2 min tümənə yaxın idi, digər vəzifə sahiblərinin maaşları isə onunkundan bir az az idi. Şah Abbasın hakimiyyəti dövründə topçu dəstəsinin heyətinin sayı 12 min nəfərə çatmışdı. Qoşunlarda topların sayı isə 500 ədədə yüksəlmişdi [3, s.93].

***Nəticə***. Şah Abbasın həyata keçirdiyi hərbi islahatlar Səfəvi dövlətinin gücünü artırmaqla yanaşı, onun siyasi və hərbi sabitliyini də təmin etmişdir. Topçu dəstələrinin yaradılması, peşəkar ordu qurulması və müasir texnologiyaların tətbiqi nəticəsində Səfəvi ordusu regionda rəqabət qabiliyyətli güc halına gəlmişdir. Avropa mütəxəssislərindən alınan bilik və təcrübənin ordunun strukturunda tətbiqi təkcə hərbi sahədə deyil, həm də sənaye və texnologiyanın inkişafında əhəmiyyətli rol oynamışdır. Bu islahatlar Səfəvi dövlətinin sərhədlərinin qorunmasını təmin etmiş, onun xarici təhdidlərə qarşı dayanıqlığını artırmış və daxili idarəçiliyi möhkəmləndirmişdir.

Şah Abbasın dövründə həyata keçirilən bu yeniliklər təkcə qısa müddətli uğurlar deyil, həm də dövlətin gələcəkdəki davamlı inkişafı üçün möhkəm bir təməl yaratmışdır. Onun siyasəti Səfəvi dövlətini yalnız hərbi baxımdan deyil, həm də siyasi və iqtisadi sahələrdə bölgənin lider gücü halına gətirmişdi.

ƏDƏBİYYAT

1. Azərbaycan tarixi yeddi cilddə. III cild. Bakı, Elm nəşriyyatı, 2007, 590 s.
2. Andrew J.N. Safavid Iran: Rebirth of a Persian Empire. London and New York, I.B. Tauris, 2006, 288 p.

3. Aydoğmuşoğlu C. Şah Abbas ve zamanı. Doktora tezi. Ankara, Ankara Üniversitesi, 2011, 320 s.
4. İsgəndər B.M. Dünyanı bəzəyən Abbasın tarixi: Tarixe-aləmaraye-Abbasi. II cild. Bakı, Şərq-Qərb, 2011, 1109 s.
5. Qurbanov C.X. Səfəvi hökmdarı I Şah Abbas (1587-1629). Bakı, Zərdabi LTD, 2011, 175 s.
6. Parsadust M. Şah Abbas-e əvvəl. C.I. Tehran, 1388, 512 s.
7. Süleymanov M.S. Səfəvilər. VIII cild: I Şah Abbas. Bakı, Maarif nəşriyyatı, 2023, 832 s.

**MARYAM RAHIMOVA**
*First-year graduate student of Azerbaijan University*

## MILITARY REFORM OF SHAH ABBAS I

Shah I Abbas (1587-1629) was one of the most powerful rulers of the Safavid Empire. During his reign, the empire restored its political, economic, and military strength, while also taking significant steps to ensure the independence of the state. Notably, the military reforms he implemented, innovations in the organization of the army, and the application of modern warfare strategies are considered his greatest successes.In order to eliminate the weaknesses of the Safavid army, Shah I Abbas established a regular and professional army, making fundamental changes to the army's structure. The essence of these reforms was related to the training of the army, modernization of battle tactics, introduction of new weapons, and the integration of different ethnic groups. He prioritized the training of professional soldiers to align the Safavid army with modern warfare standards.

The innovations he made in the organization of the army allowed for successful military campaigns and strengthened the empire's resilience against external threats. This article will thoroughly discuss the reasons, essence, and consequences of Shah I Abbas's military reforms, aiming to explore the role of these reforms in the history of the Safavid state and their contributions to the strengthening of the army and the preservation of its independence.

*Keywords*: Safavid Empire, Shah Abbas I, Army organization, Military strategy.

*Daxil olma tarixi*: 27.12.2024-cü il.
*Çapa imzalanma tarixi*: 31.01.2025-ci il.

UOT 327

**NƏRMİN İMAMVERDİYEVA**
*Bakı Dövlət Universitetinin magistrantı*
**imamverdiyevan1@gmail.com**

# SİYASİ LİDERLƏR VƏ BEYNƏLXALQ SƏVİYYƏDƏ GÜC OYUNLARI

*Elmi rəhbər:*
siyasi elmlər doktoru Ramiz Sevdimalıyev

*Məqalədə siyasi liderlərin beynəlxalq münasibətlərdəki güc oyunlarında oynadığı rolu araşdırılır. Xüsusilə, liderlərin strateji qərarlarının, diplomatik manevrlərinin və güc balansını formalaşdırmaq üçün istifadə etdikləri vasitələrin beynəlxalq siyasətə necə təsir etdiyini təhlil edilir. Bundan əlavə məqalə, beynəlxalq münasibətlərin sadəcə dövlətlərarası münasibətlərdən ibarət olmadığını, əksinə, siyasi liderlərin fərdi qərarları və strateji yanaşmalarının qlobal siyasətə necə təsir etdiyini öyrənmək üçün elmi əsas yaradır.*

*Açar sözlər:* Siyasi liderlər, beynəlxalq münasibətlər, güc oyunları, xarici siyasət, diplomatik strategiyalar, qlobal güc balansı.

***Giriş.*** Beynəlxalq münasibətlərdə güc oyunları dövlətlərarası əlaqələrdə və qlobal siyasətdə mühüm bir rol oynayır. Bu oyunlarda siyasi liderlər, yalnız öz dövlətlərinin maraqlarını qorumaqla kifayətlənmirlər, eyni zamanda regiondakı və dünya miqyasında hegemonluq uğrunda mübarizə aparırlar. Siyasi liderlər, beynəlxalq əlaqələrdə strateji qərarlar qəbul edərək, diplomatik manevrlər həyata keçirərək və müxtəlif güc vasitələrindən istifadə edərək, güc balansını formalaşdırmağa çalışırlar. Bu proseslər, həmçinin beynəlxalq təşkilatların fəaliyyətini, təhlükəsizlik məsələlərini və iqtisadi əlaqələri də əhatə edir. Liderlərin xarici siyasətindəki qərarlar, yalnız daxili amillərlə deyil, həm də beynəlxalq sistemdəki dəyişikliklərlə sıx əlaqəlidir. Liderlər, öz ölkələrinin global güc mövqeyini möhkəmləndirmək məqsədilə diplomatik təzyiq, iqtisadi vasitələr və bəzən hərbi güc tətbiq edirlər. Bu güc oyunları, qlobal siyasətdəki münaqişələrin, ittifaqların və əməkdaşlığın əsasını təşkil edir. Həmçinin, bu prosesdə siyasi liderlərin fərdi xüsusiyyətləri, ideologiyaları və liderlik tərzləri də mühüm rol oynayır.

***Liderlərin siyasi şahmat taxtası: strateji qərarlar, diplomatik manevrlər və güc balansı.*** Liderlərin strateji qərarları, diplomatik manevrləri və güc balansını formalaşdırmaq üçün istifadə etdikləri vasitələr beynəlxalq siyasətin əsas formalaşdırıcı amillərindən biridir. Bu qərarlar və manevrlər beynəlxalq münasibətlər sistemində dövlətlərin mövqeyini müəyyənləşdirir, onların regional və qlobal proseslərdəki təsir gücünü artırır və ya zəiflədir. Liderlərin qəbul etdiyi strateji qərarlar çox zaman geosiyasi maraqlara əsaslanır və beynəlxalq təhlükəsizlik arxitekturasını formalaşdıran əsas mexanizmlərdən birinə çevrilir. Məsələn, böyük dövlətlərin xarici siyasətində müəyyən dövrlərdə ortaya çıxan əsas strategiyalar – ABŞ-ın "Pivot to Asia" siyasəti və ya Rusiya ilə NATO arasında güc balansını qorumağa yönəlmiş müdafiə strategiyaları – beynəlxalq siyasətin formalaşmasına mühüm təsir göstərir. Bu qərarlar təkcə dövlətlərin maraqlarını müdafiə etməklə kifayətlənmir, həm də qlobal güc münasibətlərini tənzimləyən amillərdən biri kimi çıxış edir.

Diplomatik manevrlər liderlərin beynəlxalq siyasətdə təsir dairəsini genişləndirmək və xarici siyasət hədəflərinə nail olmaq üçün istifadə etdiyi əsas alətlərdən biridir. Bu manevrlər müxtəlif taktiki vasitələrlə həyata keçirilir. Bəzi liderlər koalisiyalar və alyanslar yaratmaq yolu ilə regional və qlobal proseslərdə aparıcı rol oynayır, digərləri isə iqtisadi və siyasi rıçaqlardan istifadə edərək öz təsir dairələrini genişləndirirlər. Məsələn, Çin lideri Si Cinpinin "Bir Kəmər, Bir Yol" təşəbbüsü vasitəsilə müxtəlif ölkələrə iqtisadi təsir imkanlarını artırması, eyni zamanda Rusiya-Ukrayna müharibəsində digər dövlətlərin vasitəçilik missiyası diplomatik manevrlərin beynəlxalq siyasətdə necə mühüm rol oynadığını nümayiş etdirir. Liderlərin apardığı diplomatik proseslər həm də münaqişələrin idarə olunmasında mühüm əhəmiyyət daşıyır. Bu baxımdan, bəzi dövlət başçılarının regional və qlobal konfliktlərin həllində vasitəçi kimi çıxış etməsi onların beynəlxalq sistemdə rolunu daha da gücləndirir.

Güc balansının formalaşdırılması isə liderlərin beynəlxalq siyasətdə tətbiq etdiyi strateji yanaşmalardan biridir. Dövlətlər arasında güc balansının qorunması qlobal təhlükəsizlik arxitekturasının sabitliyini təmin edən əsas amillərdən biri hesab olunur. Liderlər bu balansı qorumaq üçün müxtəlif vasitələrdən istifadə edirlər. Hərbi gücün artırılması və regional təhlükəsizlik strategiyalarının gücləndirilməsi bu vasitələr arasında mühüm yer tutur. Məsələn, ABŞ-ın Hind-Sakit okean regionunda hərbi mövcudluğunu artırması Çinin güc balansına təsir göstərməyə yönəlmiş strateji addım kimi qiymətləndirilir. Digər tərəfdən, iqtisadi təsir mexanizmləri də beynəlxalq siyasətdə güc balansının formalaşmasında əsas amillərdən biridir. Sanksiyalar, ticarət müqavilələri və investisiya layihələri dövlətlərin güc münasibətlərini dəyişdirmək üçün istifadə etdiyi effektiv vasitələrdən hesab olunur. Bu mənada, ABŞ və Avropa İttifaqının Rusiyaya qarşı tətbiq etdiyi sanksiyalar, eləcə də müxtəlif dövlətlərin enerji siyasəti üzərindən həyata keçirdiyi təsir strategiyaları beynəlxalq güc balansının formalaşdırılmasına nümunə kimi göstərilə bilər.

Nəticə etibarilə, liderlərin qəbul etdiyi qərarlar və həyata keçirdiyi diplomatik manevrlər beynəlxalq siyasətin dinamikasını formalaşdıran əsas amillərdən biridir. Onların strateji yanaşmaları yeni güc balanslarının yaranmasına, mövcud alyansların transformasiyasına və beynəlxalq münasibətlərin trayektoriyasının dəyişməsinə səbəb olur. Bu baxımdan, liderlərin xarici siyasətdə oynadığı rol və onların qəbul etdiyi qərarların nəticələri qlobal siyasətdə baş verən proseslərin düzgün şərh olunması baxımından mühüm əhəmiyyət kəsb edir.

***Siyasi liderlik, diplomatiya və qlobal güc dinamikası.*** Hər bir dövlətin xarici siyasətində siyasi liderlərin qəbul etdiyi qərarlar və bu qərarları reallaşdırmaq üçün tətbiq olunan diplomatik strategiyalar ölkənin beynəlxalq arenadakı mövqeyini formalaşdırır. Liderlərin şəxsi xüsusiyyətləri, ideoloji baxışları və xarici siyasətə yanaşmaları, ölkənin gücünü artırmağa və ya zəiflətməyə yönəlmiş strateji addımlarını müəyyən edir. Diplomatiya isə, bu strateji qərarların icrasında əsas rol oynayır. Diplomatik manevrlər ölkələr arasında əməkdaşlıq və münaqişələrin həllində əhəmiyyətli yer tutmaqla yanaşı, güc balansının qorunması və ya dəyişdirilməsi prosesində də mühüm rol oynayır. Qlobal güc dinamikası isə beynəlxalq müstəvidə ölkələrin iqtisadi, hərbi və siyasi gücünü nümayiş etdirmələri ilə bağlıdır.

Siyasi liderlik, bir siyasi hərəkatın və ya partiyanın məqsədlərinə çatmaq üçün tərəfdar qazanmaq və bu tərəfdarları məqsədin həyata keçirilməsi üçün təşkil etmək, motivasiya etmək və yönəltmək prosesidir [8, s.201]. J.Blondel, liderliyi millətin üzvlərini fəaliyyətə yönəltmək məqsədilə bir və ya bir neçə fərd tərəfindən həyata keçirilən hakimiyyət kimi təyin edir. V.Kats və L.Gdinker isə liderliyi başqalarına təsir göstərmək qabiliyyəti kimi qiymətləndirirlər. V.Puqaçev və A.Solovyev isə liderliyi idarəetmə statusu və sosial mövqe kimi izah edirlər. Liderlik və lider anlayışlarından yola çıxaraq, siyasi liderlik və siyasi lider anlayışının əlaqəsini nəzərdən keçirək. Güclü və dahi siyasi lider, sadəcə olaraq siyasi prosesləri yönləndirən, cəmiyyətin idarə olunmasında iştirak edən, siyasi təşkilatları və hərəkatları rəhbərlik edən bir şəxs deyil. O, eyni zamanda tarixin istiqamətini dəyişdirməyə və siyasi prosesləri formalaşdırmağa qadirdir. Siyasi liderlik, siyasi lider anlayışı ilə sıx bağlıdır və hakimiyyətin həyata keçirilmə mexanizmi və üsullarını əks etdirir. Siyasi liderlik, siyasətin subyekti və obyekti arasında hakimiyyət münasibətlərini müəyyən edir. Bu anlayış çoxcəhətli olmaqla yanaşı, liderin şəxsi keyfiyyətləri, qarşılaşdığı şərait və istifadə etdiyi vasitələr kimi əsas xüsusiyyətlərə əsaslanır [11, s.83].

Diplomatiya, beynəlxalq münasibətlər sahəsində bir dövlətin xarici siyasi məsələlərini və məqsədlərini həyata keçirmək üçün istifadə etdiyi üsullar və tədbirlər toplusudur. Bu, dövlətin xarici siyasətini yerinə yetirməkdə ona dəstək olan müxtəlif strateji və taktiki yanaşmaları əhatə edir [3, s.4]. Diplomatiyanın əsas məqsədi, dövlətlərin xarici siyasət məqsədlərinə nail olmaq, münaqişələrin qarşısını almaq, qarşılıqlı anlaşmanı təmin etmək və sülhü qorumaqdır. Diplomatiya, rəsmi danışıqlar, müqavilələrin bağlanması, beynəlxalq təşkilatlarla əməkdaşlıq, konsulluq xidmətləri və müxtəlif beynəlxalq məsələlərdə tərəflər arasında əlaqələrin təşkili kimi fəaliyyətləri əhatə edir. Diplomatiya həmçinin dövlətlər arasında iqtisadi, mədəni və siyasi əlaqələrin inkişafını təmin edən bir vasitədir. Dövlətlər, diplomatiya vasitəsilə müxtəlif problemləri müzakirə edir, razılaşmalar əldə edir və mövcud münaqişələrə həll yolları axtarırlar.

Qlobal güc dinamikası, dünya səviyyəsində dövlətlərin, beynəlxalq təşkilatların və digər aktorların güc və təsir sahələrini formalaşdıran qarşılıqlı əlaqələr sistemidir. Bu sistem, iqtisadi, hərbi, siyasi və mədəni güc amillərinin qarşılıqlı təsiri ilə inkişaf edir və zamanla müxtəlif dövlətlər arasında yeni güc mərkəzləri yaradır. Qlobal güc dinamikası daima dəyişən və mürəkkəbləşən bir prosesdir ki, bu dəyişikliklər həm regional, həm də beynəlxalq səviyyədə əhəmiyyətli nəticələrə səbəb olur. Qlobal güc dinamikasının başlıca tendensiyalarından biri, inkişaf etməkdə olan ölkələrin güc mərkəzlərində artan təsiridir. 20-ci əsrin sonlarından bəri, dünyanın iqtisadi və siyasi mərkəzləri əsasən Şimali Amerika və Avropada yerləşirdi. Lakin, xüsusilə Çin, Cənubi Koreya və Yaponiya kimi Asiya ölkələrinin sürətli inkişafı ilə bu mərkəzlər dəyişməyə başlayıb [10].

ABŞ və Çin arasında artan rəqabət, qlobal güc dinamikasında əsas dəyişikliklərdən biridir. Çin iqtisadiyyatı, ABŞ iqtisadiyyatına yaxınlaşır və bəzən onu əvəzləyəcək gücdə olduğu təxmin edilir. ABŞ isə bu inkişafı özünə birbaşa təhdid kimi qəbul edir və bu rəqabət, ticarət müharibələri və geopolitik qarşıdurmalar şəklində özünü göstərir. Həmçinin, ABŞ və Çin arasındakı mübarizə, hərbi sahədə də öz təsirini göstərir: Çin, Cənubi Çin dənizindəki adalarda hərbi gücünü artırarkən, ABŞ bu bölgədəki müttəfiqləri ilə əməkdaşlığını gücləndirir [5]. Qlobal güc dinamikasında beynəlxalq təşkilatların, o cümlədən G20 və BRİKS kimi platformaların rolu artmışdır. BRİKS (Braziliya, Rusiya, Hindistan, Çin və Cənubi Afrika) ölkələri, inkişaf etməkdə olan iqtisadiyyatların gücünü birləşdirərək, Qərbin hegemon olduğu beynəlxalq maliyyə institutlarına qarşı alternativlər təklif edir. G20, həmçinin qlobal iqtisadi məsələlərdə daha inklüziv qərar qəbuletmə prosesləri təklif edir. Bu təşkilatlar, güc balansının dəyişməsində mühüm rol oynayır və yeni qlobal idarəetmə strukturlarının yaranmasına səbəb olur [10].

Beynəlxalq münasibətlərdə liderlərin güc oyunlarında oynadıqları rol, yalnız diplomatik bacarıqlarına deyil, həm də onların qlobal siyasətə necə təsir etməyə çalışdıqlarına əsaslanır. Bununla yanaşı, siyasi liderlərin qərarları yalnız strateji məqsədlərə deyil, həm də qlobal iqtisadi və texnoloji inkişafların təsirlərinə əsaslanır. Bu inkişaflar, liderlərin xarici siyasətini formalaşdırarkən diqqət etməli olduğu yeni parametrləri ortaya çıxarır. Məsələn, texnologiyanın sürətlə inkişaf etməsi və qlobal ticarətin yeni istiqamətləri, dövlətlərin diplomatik mövqelərini dəyişdirir və yeni güc mərkəzlərinin meydana gəlməsinə şərait yaradır. Beləliklə, liderlər yalnız hərbi və iqtisadi güc deyil, həm də texnoloji və informasiya gücünü də nəzərə alaraq, diplomatik manevrlərini planlaşdırmağa məcbur olurlar. Son olaraq, beynəlxalq münasibətlərin gələcəyi, liderlərin qlobal güc dinamikasında yaratdıqları dəyişikliklərdən asılıdır. Bu dəyişikliklər, çox zaman ənənəvi güc ölçülərini aşaraq, yeni diplomatik alətlərin ortaya çıxmasına və qlobal siyasətin daha çox qarşılıqlı asılılıq və əməkdaşlıq üzərində qurulmasına səbəb olur.

***Güc balansını dəyişdirən liderlər.*** Tarix boyu müxtəlif liderlər öz siyasətləri ilə dünya güc balansını dəyişmiş və xalqlarının taleyini formalaşdırmışdır. Hər bir liderin ortaya qoyduğu siyasətlər, xalqlarının taleyini və beynəlxalq əlaqələrini dərin şəkildə təsir etmişdir. Bu liderlərdən bəziləri öz ölkələrinin sərhədlərini genişləndirərək böyük imperiyalar yaratmış, digərləri isə müstəqil dövlətlər quraraq yeni siyasi reallıqların yaranmasına səbəb olmuşdur. Güc balansını dəyişdirən liderlər arasında aşağıdakı şəxsləri qeyd etmək olar:

- Heydər Əliyev – Heydər Əliyev, Azərbaycan Respublikasının müstəqilliyini qorumaq və inkişaf etdirmək üçün müstəsna bir liderlik nümayiş etdirdi. Onun siyasətləri və Azərbaycanın xarici siyasətindəki uğurları, ölkənin dünya siyasətindəki yerini müəyyənləşdirdi. Azərbaycanın regionda və beynəlxalq aləmdə daha güclü bir mövqe əldə etməsinə şərait yaratdı [1].
- Mustafa Kamal Atatürk – Atatürk, Osmanlı İmperiyasının çöküşündən sonra Türkiyəni müasir və güclü bir dövlətə çevirdi. Onun islahatları və ölkəni modernləşdirməsi, xüsusilə sekulyarizm və demokratik prinsiplərə yönəlməsi, yalnız Türkiyədə deyil, ümumilikdə Yaxın Şərqdə və İslam dünyasında güc balansını dəyişdirdi. Atatürk, həmçinin Cənubi Qafqazda və Balkanlarda əhəmiyyətli təsir yaratdı [9].
- İlham Əliyev – İlham Əliyev, Azərbaycanın xarici siyasətini, xüsusilə Ermənistanla münaqişəni və bölgədəki digər geopolitik məsələləri həll etməkdə mühüm addımlar atmışdır. Onun liderliyi

altında Azərbaycan, beynəlxalq müstəvidə güc balansını dəyişdirərək, daha müstəqil və güclü bir mövqe qazandı. Bu, həm regiondakı, həm də dünya siyasətində əhəmiyyətli təsirə malik oldu [7].

- Adolf Hitler (1889-1945) – Faşist Almaniyasının lideri olan Hitler, İkinci Dünya Müharibəsinin başlanmasına səbəb olaraq dünya siyasətində əsaslı dəyişikliklər yaratdı. O, Avropanın siyasi xəritəsini dəyişdirdi və həmçinin Holokost kimi insanlıq tarixində böyük faciələrə yol açdı. Hitler beynəlxalq güc balansını pozdu və yeni bir dünya müharibəsinin başlanmasına səbəb oldu [2; 12].
- Otto fon Bismark – Bismark, Almaniyanı birləşdirərək Avropada yeni güc balansı yaratdı. Onun "realpolitik" siyasəti, Avropadakı digər güclərlə əlaqələri dəyişdirərək Almaniyanı dünya səhnəsində böyük bir oyunçuya çevirdi. O, həmçinin müharibələrin qarşısını almağa çalışaraq, Avropada yeni bir sabitlik yaratdı [13].
- Franklin Delano Ruzvelt – ABŞ prezidenti olan Ruzvelt, İkinci Dünya Müharibəsi zamanı müttəfiqlərin qalib gəlməsinə əsaslı təsir göstərdi. Onun rəhbərliyi altında ABŞ, qlobal güc mərkəzinə çevrildi və müharibə sonrası beynəlxalq iqtisadi və siyasi sistemin qurulmasına liderlik etdi [6, s.63-67].
- Uinston Çörçill – İkinci Dünya Müharibəsinin qələbə ilə nəticələnməsində mühüm rol oynayan Çörçill, 1940-1945 və 1951-1955-ci illərdə Böyük Britaniyanın baş naziri vəzifəsini icra etmişdir. Siyasi həyatında yazdığı əsərləri ilə 1953-cü ildə Nobel Ədəbiyyat Mükafatına layiq görülmüşdür. Çörçill, həmçinin dövlət müstəşarı, millət vəkili, ticarət komitəsinin sədri və dəniz qüvvələrinin birinci lordu kimi müxtəlif yüksək vəzifələrdə çalışmışdır [6, s.102-107].

Bu liderlər öz dövrlərində siyasi, hərbi və iqtisadi gücü öz lehinə dəyişdirərək, dünya siyasətində və beynəlxalq münasibətlərdə əhəmiyyətli təsirlər yaratmışdır. Hər biri fərqli dövrlərdə və coğrafi bölgələrdə, həm müharibələr, həm diplomatiya, həm də daxili islahatlar vasitəsilə güc balansını dəyişdirərək tarixə adlarını yazdırmışdır.

***Nəticə.*** Beynəlxalq münasibətlərdə siyasi liderlərin rolu və onların həyata keçirdiyi güc oyunları qlobal siyasətin əsas müəyyənedicilərindən biridir. Liderlərin qəbul etdiyi strateji qərarlar və diplomatik manevrlər dövlətlərarası münasibətləri formalaşdırmaqla yanaşı, yeni güc balanslarının yaranmasına və mövcud sistemin yenidən qurulmasına səbəb olur. Onların xarici siyasətdə istifadə etdikləri vasitələr iqtisadi, hərbi və ideoloji faktorlarla sıx bağlıdır və beynəlxalq arenada sabitlik və ya qeyri-sabitlik yaradaraq siyasi proseslərə yön verir. Tarixi təcrübə göstərir ki, güclü siyasi liderlər beynəlxalq münasibətlər sistemini dəyişdirə və qlobal nizamın yeni çalarlarını formalaşdıra bilirlər. Nəticə etibarilə, siyasi liderlərin fərdi qərarları və strateji yanaşmaları beynəlxalq münasibətlərin gələcək inkişaf trayektoriyasını müəyyən edən əsas amillərdən biri olaraq qalmaqdadır.

## ƏDƏBİYYAT

1. Əhmədova S. Tarix yaradan əbədiyaşar lider / Respublika.- 2021.– 9 may.– S.4. - https://www.anl.az/down/meqale/respublika/2021/may/745273.htm [30.12.2024].
2. Encyclopaedia Britannica, Inc. (n.d.). Adolf Hitler. https://www.britannica.com/biography/Adolf-Hitler [30.12.2024].
3. Eyyubov A. Diplomatiyanın əsasları. Dərs vəsaiti. Bakı: "İqtisad Universiteti" Nəşriyyatı? 2010, 86 s.
4. Gürbüz O. (n.d.). Dünyaca ünlü politikacılar. - https://orhangurbuz.com/siyasi-danismanlik/dunyaca-unlu-politikacilar [30.12.2024].
5. Han Z. & Paul T.V. China's rise and balance of power politics // The Chinese Journal of International Politics, 2020, Vol.13, No.1, p.1-26.
6. Mustafayeva S. ABŞ və Böyük Britaniyanın ən yeni tarixi (1918-2007). Bakı: ADPU-nun nəşriyyatı, 2009, 350 s.
7. Nəsirov E. Tarix yazan, adını tarixə yazdıran / Xalq qəzeti, 14.10.2023. - https://www.xalqqazeti.az/az/siyaset/143929-tarix-yazan-adini-tarixe-yazdiran [30.12.2024].

8. Özgül B. Medyanın Siyasi Liderlik Beklentilerine Etkisi // Gümüşhane Üniversitesi İletişim Fakültesi Elektronik Dergisi, Yıl: 2017, Cilt: 5, Sayı: 1, s.201-229. - https://doi.org/10.19145/gumuscomm.286205 [30.12.2024].
9. Republic of Turkey Ministry of Culture and Tourism. (n.d.). Biography of Atatürk. - https://www.ktb.gov.tr/EN-103908/biography-of-ataturk.html [30.12.2024].
10. Ravenhill J. (Ed.). Global political economy (6th ed.). Oxford University Press, 2020, 536 p.
11. Şirinov A., İbadov N. Politologiya. (Dərs vəsaiti). Bakı, AzTU, 2015, 312 s.
12. United States Holocaust Memorial Museum. (n.d.). Introduction to the Holocaust. - https://encyclopedia.ushmm.org/content/tr/article/introduction-to-the-holocaust [30.12.2024].
13. BBC. (n.d.). Otto von Bismarck (1815 – 1898). - https://www.bbc.co.uk/history/historic_figures/bismarck_otto_von.shtml [30.12.2024].

**NARMIN IMAMVERDIYEVA**
*Master student of Baku State University*

## POLITICAL LEADERS AND POWER GAMES AT THE INTERNATIONAL LEVEL

This article examines the role of political leaders in power games in international relations. In particular, it analyzes how leaders' strategic decisions, diplomatic maneuvers, and the tools they employ to shape the balance of power influence international politics. Furthermore, the article provides a scientific basis for studying how international relations are not merely interstate interactions but rather the product of political leaders' individual decisions and strategic approaches that shape global politics.

*Keywords:* Political leaders, international relations, power games, foreign policy, diplomatic strategies, global balance of power.

*Daxil olma tarixi*: 30.12.2024-cü il.
*Çapa imzalanma tarixi*: 31.01.2025-ci il.

UOT 94(479.24)

**NİGAR ƏSGƏROVA**
*Azərbaycan Universitetinin magistrantı*
**nigar.asgarzadeh@gmail.com**

# ŞİRVAN DÖVLƏTİNİN YARANMASI: ERKƏN MƏZYƏDİLƏR DÖVRÜ

*Elmi rəhbər:*
tarix elmləri doktoru, akademik Yaqub Mahmudov

*Orta əsrlər Azərbaycan xalqının tarixində çətin, eyni zamanda çox mühüm bir dövr olmuşdur. Ərəb Xilafətinin təsiri altında olan Azərbaycan, İslam dünyasının bir hissəsi kimi öz mədəniyyətini və dövlətçilik ənənələrini qorumağa çalışırdı. Bu dövrün sonrakı inkişafı Azərbaycanda müstəqil dövlətçilik ənənələrinin bərpasına və zəngin mədəni irsin qorunmasına gətirib çıxardı. Şirvanşahlar dövlətinin yaradılması Azərbaycan dövlətçiliyi tarixində mühüm rol oynadı. Bu dövr, həmçinin xalqın sosial və iqtisadi həyatında əhəmiyyətli dəyişikliklərə səbəb oldu və Azərbaycanın inkişafında mühüm mərhələ oldu.*

*Açar sözlər:* Ərəb xilafəti, sosial-siyasi vəziyyət, Şirvanşahlar, Məzyədilər.

***Giriş***. IX əsrdə Ərəb xilafətinin tərkibində olan ölkələrdə, xüsusən Şərqdəki (İran və Orta Asiya) və qərbdəki (Şimali Afrika) ərazilərdə iqtisadi və siyasi baxımdan geriləmənin baş verməsi Abbasilər imperiyasının zəifləməsinə və parçalanmasına səbəb olurdu. Eyni zamanda bu dövrün sonlarına yaxın, xilafət daxilindəki sosial və iqtisadi gərginliklər və siyasi qeyri-sabitlik, müxtəlif üsyanların və azadlıq hərəkatlarının yayılmasına təkan verdi. Bu da göstərir ki, IX əsr ərzində azadlıq uğrunda mübarizə həm sosial, həm də siyasi dəyişikliklərin təzahürü kimi ortaya çıxmışdır. Bu prosesin nəticəsində IX-XI əsrlərdə Azərbaycan ərazisində də xilafətə tabe olmayan müstəqil feodal dövlətlər yaranmış və fəaliyyət göstərmişdir. Bu dövlətlər, əsasən yerli mənşəli olmuş və əvvəlki ərəb hakimiyyətindən ayrılmağa çalışan feodallar tərəfindən idarə olunurdu. Bu dövlətlərin idarəçiləri, zaman keçdikcə ərəb mənşəli olmaqları ilə əlaqəli kimliklərini itirdilər və yerli mədəniyyətə daha sıx inteqrasiya etdilər. Bu da asimlyasiya prosesinin bir hissəsi olaraq təhlil edilə bilər.

İslamla başlanan ən böyük uğurumuz dirçəlişimiz oldu. Xilafətə qarşı azadlıq hərəkatımızın qanunauyğun nəticəsi olaraq IX yüzilliyin ortalarında Azərbaycanda yeni siyasi oyanış baş verdi. Belə ki, Şirvanşahlar, Sacilər, Salarilər, Rəvvadilər və Şəddadilər sülalələrinin və Şəki hakimlərinin idarə etdikləri yeni dövlətlər meydana gəldi. Bu siyasi dirçəliş idi. Lakin siyasi birlik deyildi. Ölkənin çoxlu dövlətlərə parçalanması siyasi dağınıqlıq yurdumuzu Qərbi Avropa feodallarının Şərq xalqlarına qarşı Səlib yürüşləri ilə bir vaxtda başlanan Bizans, erməni və gürcü feodallarının qarətkar basqınları qarşısında aciz qoyurdu [3, s.4].

Xüsusilə, IX əsrin 60-cı illərindən sonra Ərəb Xilafətinin parçalanma prosesi sürətlənmişdir. Bu dövr Azərbaycan üçün mürəkkəb və dinamik bir mərhələ olmuşdur. Ərəb xilafətinin zəifləməsi ilə əlaqədar olaraq, Azərbaycan və onun ətrafında müxtəlif yerli hakimiyyətlər formalaşmağa başladı. Bu, həm siyasi müstəqilliyin, həm də yeni dövlətçilik ənənələrinin yaranmasına gətirib çıxardı.

Bu dövr Azərbaycan üçün həm siyasi, həm də iqtisadi baxımdan yeni bir inkişaf mərhələsi idi. Ərəb xilafətinin parçalanması ilə müstəqil və yarımmüstəqil dövlətlər formalaşmağa başladığı halda, hər bir dövlətin öz idarəetmə forması, iqtisadiyyat və mədəniyyət sahəsində fərqli xüsusiyyətləri vardı. Həmçinin, Azərbaycandakı bu dövlətlər, ətraf bölgələr və xalqlarla ticarət əlaqələri qurmuş, həm də İslam mədəniyyətini inkişaf etdirmişlər.

İslamın təsiri altında, Azərbaycanın mədəni həyatı da zənginləşmişdir. Yeni qurulmuş dövlətlərdə saray mədəniyyəti, ədəbiyyat və elm inkişaf etmiş, eləcə də mühüm memarlıq abidələri tikilmişdir. Şairlər, alimlər və filosoflar yetişmiş, Azərbaycan mədəniyyəti öz yerini daha geniş İslam dünyasında tapmışdır [5, s.28].

V.V.Bartold, Azərbaycan tarixini tədqiq edərkən, IX-XI əsrlərdə meydana gəlmiş yerli dövlətləri və onların inkişafını geniş şəkildə nəzərdən keçirmişdir. O, bu dövrdə Azərbaycanın müxtəlif dövlətlərinin siyasi, iqtisadi və mədəni baxımdan əhəmiyyətli inkişaflar keçirdiyini vurğulamışdır. Bartold, həmçinin Azərbaycanın bu dövrdəki yerli dövlətlərinin İslam mədəniyyəti ilə olan əlaqələrini və özünəməxsus xüsusiyyətlərini araşdırmışdır.

Azərbaycanın müxtəlif bölgələrində, o cümlədən Şirvan, Arran və digər ərazilərdə idarəçilik etməyə davam edən bəzi ərəb mənşəli əmirlər, zamanla yerli xalqların içərisində asimlyasiyaya uğradılar. Bu əmirlər, artıq sadəcə ərəb xəlifəsinin nümayəndələri olaraq deyil, yerli feodallar kimi fəaliyyət göstərirdilər. Onlar, həm də öz müstəqilliklərini qorumağa və yerli mədəniyyəti əks etdirən idarəçilik siyasətini tətbiq etməyə çalışırdılar. Nəticədə, bu dövrdə Azərbaycan və digər bölgələrdə yeni siyasi və mədəni formalar yaranmağa başladı [4, s.17].

Xürrəmilər hərəkatının məğlubiyyətindən sonra, Azərbaycanın bir çox bölgəsində müstəqil və yarımmüstəqil feodal dövlətlər ortaya çıxdı. Bunlardan biri Şirvanşahlar dövləti idi ki, bu dövlətin başçısı Şirvanşah, ərəb xilafətinin idarəçiliyindən müstəqil olmaq istəyirdi. Şirvanşahlar həm yerli feodalların dəstəyi ilə gücləndilər, həm də zamanla daha da müstəqil bir dövlətə çevrildilər. Bu dövr, yerli feodal hakimiyyətlərin gücləndiyi və Abbasilər xilafətinin zəifləmiş mərkəzi hakimiyyətinə qarşı daha sərt mübarizə apardıqları bir dövr idi.

Abbasilər xilafətinin dağılması ərəfəsində Azərbaycanda yaranmış ilk müstəqil feodal dövləti Şirvanşahlar oldu (861-1080). Bəzi tarix kitablarında bu dövləti idarə edənləri "Məzyədilər, Şeybanilər və ya Yezidilər" də adlandırırlar.

Şirvanşahlar dövlətinin yaranması Azərbaycanın tarixi dövlətçilik ənənəsinin bərpası demək idi. Bundan sonra bir-birinin ardınca Azərbaycanda yaranmaqda olan feodal dövlətləri ərəb xilafətinin hakimiyyətindən imtina edərək özlərinin istiqlaliyyətinə nail olurdular [2, s.34].

Bəlazuri, Yəqubi və əl-Kufinin məlumatlarına əsasən bu nəticəyə gəlmək olar ki, Şirvanın ilk istilası dövründən IX əsrin birinci yarısınadək ərəblər Şirvanşahları xəlifəyə xərac verən və onun xəzərlərə qarşı yürüşlərində iştirak edən vassallar kimi hakimiyyətdə saxlamışlar. Bəlazuri 797/8-ci ildə Ərminiyyənin valisi olan Səid ibn Səlm əl-Bəhili ilə bir dövrdə hakimlik etmiş əş-Şəmax ibn Şücanın adını Şirvanın məliki kimi çəkir. Ehtimal ki, o, ərəblərin hakimiyyətdə saxladıqları islam dinini və ərəb adını qəbul etmiş şirvanşah olmuşdur [1, s.50].

Şirvanşahlar dövləti, IX-X əsrlərdə Azərbaycanda yaranmış və uzun müddət mövcud olmuş bir feodal dövlətidir. Bu dövlətin tarixi, Şirvan bölgəsindəki siyasi və mədəni həyatın inkişafı ilə sıx bağlıdır. Şirvanşahlar dövləti əsasən Şirvan bölgəsini əhatə edir, amma zaman-zaman daha geniş əraziləri də öz tərkibinə qatıb. Bu dövləti və onun tarixini daha yaxşı anlamaq üçün, bir neçə mühüm məqamı qeyd etmək vacibdir.

Orta əsrlərdə Azərbaycanda əvvəlki müstəqil dövlətçilik ənənələrinin dağılmasına baxmayaraq, Ərəb xilafətinin tərkibində Azərbaycan xalqı hələ də yerli hakimiyyətlərə sahib olmuş və öz müstəqilliklərini qorumağa çalışmışdır. Bu dövrdə yerli hakimlər, müxtəlif xalqlarla və digər müsəlman dövlətləri ilə əlaqələr quraraq öz ərazilərində idarəetməni həyata keçirmişlər. Məsələn, Şirvanşahlar dövləti və digər yerli feodal dövlətlər, özlərini müstəqil dövlətlər olaraq təqdim etməyə çalışmışdır. Həmçinin, bu dövrün sonunda Azərbaycanın müxtəlif bölgələrində yerli türklərin dövlət quruluşlarını formalaşdırmaları, müsəlman dünyanın bir hissəsi kimi Azərbaycanı özünəməxsus bir dövlətçilik ənənəsi ilə tanıtmışdır.

Şirvanşahlar dövlətinin yaranışı və inkişafı ilə bağlı məlumatlar, "Tarix əl-Bab" kimi mənbələrdə mühüm əhəmiyyət kəsb edir. Bu mənbələr, Şirvan ərazisində baş verən hadisələri və Məzyədilər sülaləsinin fəaliyyətini ətraflı şəkildə işıqlandırır. Mənbələrdə Heysəm ibn Məzyəd haqqında məlumatlar çox az olsa da, onun Səzirdə kafirlərlə vuruşması barədə məlumatlar vardır. Bu, Heysəmin həyatında xarici qüvvələrə qarşı mübarizəni və daxili gücünü qorumağa yönəlmiş fəaliyyətini göstərir. Lakin Heysəmin ölüm ili məlum deyil, bu da onun hakimiyyətinin nisbətən qısa olmasına işarə edir [9, s.33].

Şirvanşahlar dövləti VII əsrin ortalarından, ərəb istilalarının başladığı dövrlərdə formalaşmağa başladı. Məzyədilər (Şeybanilər tayfasından) bu dövləti idarə edən ilk ailə oldu. Məzyədilər, xüsusən də Yezid ibn Məzyəd, Abbasilər xilafətinin mərkəzi hakimiyyəti ilə mübahisələrə və qarşıdurmalara

girərək, Cənubi Qafqazda əhəmiyyətli bir mövqe tutmuşdular. Yezid ibn Məzyəd 786-809-cu illərdə Cənubi Qafqazın və Şirvanın hakimi olmuş, mərkəzi idarəçiliyi Bərdə şəhərində qurmuşdu. Bu dövr, Şirvanın Ərəb xilafətinin təsirindən azad olub, öz müstəqil idarəçiliyini formalaşdırdığı dövr idi [6, s.19].

Məzyədilər sülaləsinin mənsub olduğu qəbilə, uzun müddət ərzində Xilafətin əyalətlərində köçəri həyat keçirərək, Mesopotamiya (indiki İraq ərazisi) bölgəsinə yerləşmişdi. Bu tayfa, əvvəlcə Bəsrə ilə Kufə arasında, yəni Cənubi Mesopotamiya bölgəsində məskunlaşmışdır. Bu ərazi, Xilafətin dövründə strateji və ticarət baxımından mühüm əhəmiyyətə malik idi. Tarixçilərin məlumatlarına görə, Məzyədilər sülaləsinin ilk nümayəndəsi olan Yəzid ibn Məzyədin dayısı Məan bu tayfanın başçısı olmuşdu. Məan, Məzyədilər sülaləsinin əsasını qoyan və bu qəbilənin cəmiyyətdəki mövqeyini müəyyənləşdirən şəxs kimi tarixə düşmüşdür. Məzyədilər, əsasən Bəsrə və Kufə arasında yerləşən ərazilərdə güclü bir yerli nüfuz qazanmış və Xilafətin idarəçilik sistemində mühüm rol oynamışdılar. Məzyədilərin mənsub olduğu qəbilə, ərəb dünyasında öz dövründə tanınan və sayılan bir qüvvə halına gəlmişdi. Onlar, kənd təsərrüfatı, ticarət və hərbi xidmətlər sahələrində xüsusilə aktiv idilər. Bu xüsusiyyətlər sayəsində Məzyədilər sülaləsi Xilafətin müxtəlif əyalətlərində mühüm vəzifələrə sahib olmuşdular. Yəzid ibn Məzyədin dayısı olan Məanın rəhbərliyi dövründə, Məzyədilərin siyasi və sosial mövqeyi möhkəmlənmişdi və bu, onların daha sonra Şirvanda siyasi hakimiyyət qurmasına zəmin yaratmışdı. Məzyədilər, həmçinin, yerli xalqlarla yaxşı münasibətlər quraraq, zamanla daha geniş bir əraziyə təsir etməyə başlamışdılar [9, s.61].

V.F.Minorskinin qeyd etdiyi kimi, Yəzidilər sülaləsinin tarixi, Xilafətin əyalətlərindəki vəziyyətin dəyişməsi ilə əlaqədar olaraq öz xarakterini dəyişmişdir. Əvvəlcə Bağdaddan təyin edilən əmirlər vəzifəsi ilə çıxış edən Yəzidilərin nümayəndələri, zaman keçdikcə öz iqta torpaqlarında müstəqil idarəçilik qurmağa başlayaraq irsi vassallara çevrilmişdilər. Bu, onların artıq mərkəzi xilafətə olan bağlılığını azaldaraq yerli idarəetməyə keçdiklərinin və müstəqil idarəçiliklə əlaqədar yeni mərhələyə qədəm qoyduqlarının göstəricisidir.

Yezid ibn Məzyədin ölümündən sonra, oğlanları Əsəd, Xalid və Məhəmməd bu ərazidə hakimiyyətə gəlmişdilər. Onlar öz növbəsində bölgədəki siyasi vəziyyəti sabit saxlamağa və mərkəzi xilafətə qarşı müstəqilliklərini qorumağa çalışırdılar. Xüsusilə Xalid ibn Yezid, 844-cü ildən başlayaraq, 20 il ərzində Azərbaycan, Arran və Ərməniyyə ərazilərinin hakimi olmuşdu.

Xalid ibn Yezid, uzun müddət ərzində bu əraziləri idarə edərək, həm daxili işlərdə, həm də xarici siyasətdə müstəqil qərarlar qəbul edirdi. O, Abbasilərin hakimiyyətinə qarşı davamlı olaraq müstəqil siyasət yeridirdi və öz ərazisində mərkəzi hakimiyyətdən çox da asılı olmayan bir idarəetmə modelini tətbiq edirdi.

851-ci ildə, Xalid ibn Yezidin oğlu Məhəmməd ibn Xalid, ərəb istilasına qarşı baş qaldırmış bir hərəkatı yatıraraq hakimiyyətini davam etdirmişdi. Məhəmmədin başçılığı altında, Şirvanşahlar dövləti ərəb istilasına qarşı müqavimət göstərmiş, beləliklə, yerli hakimiyyətin müstəqilliyini qorumağa çalışmışdır. Bu dövr, həmçinin göstərir ki, Şirvan və ətraf ərazilərdəki yerli feodal hakimlər, mərkəzi xilafətə qarşı müqavimət göstərərək, müstəqillik meyllərini artırırdılar [10, s.74].

861-ci ildə Heysəm ibn Xalidin xəlifə əl-Mütəvəkkilin öldürülməsi və Bağdadda yaranmış ixtişaşlardan istifadə edərək, özünü Şirvanşah elan etməsi, Şirvanın müstəqil dövlət olaraq yaranmasına səbəb oldu. Bu hadisə, Azərbaycan tarixində mühüm dönəmi simvolizə edir və Şirvanşahlar dövlətinin təsis edilməsini qeyd edir. Məzyədilər sülaləsi, bu dövləti 861-ci ildən 1027-ci ilə qədər idarə edərək, Cənubi Qafqazda müstəqil bir feodal dövlətin möhkəmlənməsinə yol açmışdır. Heysəm ibn Xalidin 861-ci ildə Şirvanşah titulunu qəbul etməsi ilə Şirvanın müstəqil bir dövlət olaraq fəaliyyətə başlaması, eyni zamanda Məzyədilər sülaləsinin gücünü artırmışdı. Bu dövr, Şirvanın əvvəllər Ərəb xilafətinə bağlı bir əyalət olmasından, tamamilə müstəqil bir feodal dövləti kimi inkişaf etməsinə doğru gedən yol idi. Heysəm ibn Xalid, Bağdadın zəifləmiş vəziyyətindən faydalanaraq, yerli hakimiyyətin tamamilə mərkəzi idarəçilikdən ayrılmasını təmin etmişdi [8, s.9].

Şirvanşahlar dövləti müxtəlif mərhələlərdə öz paytaxtını dəyişmişdir. İlk olaraq, Şirvan şəhəri paytaxt olaraq seçilmişdi, lakin 918-ci ildən etibarən paytaxt Şamaxı şəhərinə köçürülmüşdür. Şamaxı, dövrün hərbi-strateji mövqeyi və coğrafi əhəmiyyəti ilə Şirvanın idarə mərkəzi kimi ideal bir yer idi.

Bu zaman, iqtisadi və siyasi inkişafı gücləndirmək üçün müxtəlif tədbirlər həyata keçirilmişdi, o cümlədən ordunun ərzaq təminatını təmin edən anbarların tikilməsibuna missal ola bilər.

Daha sonra hakimiyyətdə olan II Heysəm ibn Məhəmməd, Heysəm ibn Xalidin oğlu olaraq, dövlətin sərhədlərini möhkəmləndirməyə çalışmışdı. O, Şirvanın iqtisadi və siyasi qüdrətini artırmaq məqsədilə bir sıra mühüm tədbirlər həyata keçirmişdi. Onun dövründə, həmçinin ordunun gücləndirilməsi və dövlətin daxili sabitliyinin qorunması üçün ciddi addımlar atılmışdı. II Heysəm, Şirvanın sərhədlərini möhkəmləndirərək, müstəqil bir dövlətin daha da güclənməsinə səbəb olmuşdur.

I Heysəmin oğlu Əli ibn Heysəmin hakimiyyəti daha az uğurlu olmuşdu. 913-914-cü illərdə, rusların Abşeron sahillərinə və Bakıya hücumları, çoxlu sayda müsəlman əhalisinin ölümünə və qarət olunmasına səbəb olmuşdu. Bu hadisə, Əli ibn Heysəmin nüfuzunu zəiflətdi. Bundan istifadə edərək, Layzan hakimi Əbu Tahir Əli ibn Heysəmə qarşı çıxaraq Şirvanda hakimiyyəti ələ keçirmişdi.

Əbu Tahir (917-948) dövründə, Şirvanşahlar dövləti ərazisini əhəmiyyətli dərəcədə genişləndirmişdi. Onun rəhbərliyi altında, dövlətin sərhədləri cənubda Kür çayına, şimalda isə Dərbəndə qədər çatmışdı. Bu dövr, həm də Lahicanşahlıqın Şirvanşahlar dövlətinə birləşdirildiyi bir zaman idi. 918-ci ildən başlayaraq, paytaxtın Şamaxıya köçürülməsi, dövlətin mərkəzinin daha da güclənməsinə səbəb olmuşdu [7].

Şirvan şahı Məhəmmədin hakimiyyəti dövründə dövlətin sərhədləri daha da genişləndi. O, 981-982-ci illərdə Qəbələ, 982-983-cü illərdə Bərdə, 983-984-cü illərdə Şabran və 988-ci ildə Haşimilər sülaləsinin idarə etdiyi Dərbənd əmirliyini Şirvan dövlətinə birləşdirmişdi. Bu ərazilərin birləşdirilməsi, Şirvanın və ümumilikdə Azərbaycanın siyasi xəritəsinin dəyişməsinə və Şirvanşahlar dövlətinin regionda əhəmiyyətli bir güc halına gəlməsinə səbəb olmuşdur.

Məhəmməd ibn Xalidin hakimiyyəti dövründə, Şirvanın sərhədləri artıq yalnız Şirvanın öz ərazisi ilə məhdudlaşmırdı. Onun dövründə, Şirvanın cənub sərhədləri Kür çayına qədər uzanırdı və bu ərazi, sonrakı Şirvanşahların hakimiyyət dövrlərindən daha geniş idi. Minorski qeyd edir ki, Məhəmməd ibn Xalidin nəsil şəcərəsinin davam edib-etmədiyi, yəni Arranda onun varislərinin olub-olmaması hələ də naməlumdur. Bu, Arranın gələcəkdəki siyasi və idarəetmə vəziyyətini qaranlıq saxlayır [10, s.74].

***Nəticə***. Bu dövr, Azərbaycan xalqının tarixi üçün çox mühüm bir mərhələ olmuşdur. Ərəb xilafətinin zəifləməsi və parçalanması ilə Azərbaycanın müxtəlif bölgələrində müstəqil və yarımmüstəqil dövlətlərin yaranması, həm siyasi, həm iqtisadi, həm də mədəni baxımdan yeni bir inkişaf dövrü yaratmışdır. Şirvanşahlar dövləti və Məzyədilər ailəsinin idarəçiliyi, ərəb xilafətinin təsirinə qarşı mübarizə və müstəqil dövlət qurma istiqamətində mühüm rol oynamışdır. Məzyədilər dövrünün sonrasında, yerli feodal dövlətlər, Şirvanşahlar da daxil olmaqla, tədricən müstəqil idarəetmə formalarını daha da möhkəmləndirərək, Azərbaycanın siyasi və mədəni həyatında əhəmiyyətli dəyişikliklər yaratmışlar.

## ƏDƏBİYYAT

1. Aşurbəyli S. Şirvanşahlar dövləti. Bakı, Əbilov, Zeynalov və oğulları, 2006, 712 s.
2. Əhmədov R. Azərbaycan dövlətçilik fəlsəfəsi. Bakı, Nurlan, 2008, 358 s.
3. Mahmudov Y. Azərbaycan tarixi. Erkən intibah dövrü (IX əsrin ikinci yarısı-XIII əsrin əvvəlləri). Bakı, Aspoliqraf, 2008, 128 s.
4. Mahmudov Y. Azərbaycanın qısa dövlətçilik tarixi. Bakı, Təhsil, 2005, 140 s.
5. Mahmudov Y. Heydər Əliyev ideyalarının zəfər yürüşü. Bakı, Təhsil, 2011, 608 s.
6. Mürselov C. İslami dönəmdə Şirvan tarihi (hicri ilk üç asr). İstanbul, Marmara Üniversitesi Sosyal Bilimler Enstitüsü, 2007, 175 s.
7. Mustafa R. Azərbaycan IX-XI əsrlərdə: [Electron resurs] / - 30 yanvar, 2025. - https://tarixinstitutu.az/Web/finder_upload/21.%20Reshad_Mustafa%2B.pdf [23.12.2024].
8. Süleymanov N. Azərbaycan IX-XIII əsrin əvvəllərində. Bakı, ADPU, 2020, 60 s.
9. Şərifli M. IX əsrin ikinci yarısı – XI əsrlərdə Azərbaycan feodal dövlətləri. Bakı, Turxan NPB, 2013, 398 s.
10. Vəlixanlı N. Azərbaycan VII-XII əsrlərdə: tarix, mənbələr, şərhlər. Bakı, Elm və təhsil, 2016, 480s.

**NIGAR ASGAROVA**

## THE FORMATION OF THE SHIRVAN STATE: THE EARLY MAZYADID PERIOD

In the history of the Azerbaijani people, the Middle Ages represent a challenging and significant period. Despite being a part of the Islamic world, Azerbaijan attempted to maintain its culture and statehood traditions under the influence of the Arab Caliphate. As a result of this period's continued progress, Azerbaijan was able to preserve its rich cultural legacy and restore its autonomous statehood traditions. In the history of Azerbaijani statehood, the rise of the Shirvanshahs state was significant. In addition to bringing about major changes in the people's social and economic lives, this era was crucial to Azerbaijan's development.

*Keywords*: Arab Caliphate, sociopolitical situation, Shirvanshahs, Mazyadids.

*Daxil olma tarixi*: 23.12.2024-cü il.
*Çapa imzalanma tarixi*: 31.01.2025-ci il.

Türk dünyası gənc tədqiqatçılar dərnəyinin Araşdırmaları
Studies of the Turkic World Young Researchers Association

№1(11) 2025, 45-53

UOT 94(479.24); UOT 94

PƏNAH XANLAYEV
*Bakı Dövlət Universiteti Tarix ixtisası III kurs tələbəsi*
**penahxanlayev@gmail.com**
ORCID ID: 0009-0001-7167-653X

# GÖDƏK ƏHMƏDİN İSLAHATLARI

*Elmi rəhbər:*
tarix üzrə fəlsəfə doktoru Arzu Məmmədova

*Gödək Əhməd şəxsiyyəti baxımından Ağqoyunlu və Osmanlı dövlətləri kimi iki rəqib dövlətin və sülalənin ortaq nöqtəsi, Ağqoyunlu soyundan, Osmanlı təlim-tərbiyəsi görmüş şəxs idi. Şəxsiyyəti, ailəsi, hakimiyyətə gəlmə şəraiti, bir ildən az olan qısamüddətli hakimiyyəti ərzində hərtərəfli radikal islahatlar keçirmiş biri olaraq Gödək Əhməd nadir tarixi simalardandır. Bu cəhətlər fonunda Gödək Əhmədin islahatçılıq fəaliyyətinin araşdırılması Azərbaycan tarixinin həm maraqlı, həm də aktual məsələlərindən biridir. Təqdim olunan məqalədə Ağqoyunlu və Osmanlı qaynaqlarının müqayisəli təhlili və mövzunun tarixşünaslıq bazasına müraciət edilməklə Gödək Əhmədin hakimiyyəti və islahatçılıq fəaliyyəti araşdırılmışdır.*

*Açar sözlər:* Gödək Əhməd, islahat, soyurqal, Ağqoyunlular, Həsən Padşah.

***Giriş.*** XV əsrin sonlarında Ağqoyunlu dövləti siyasi, sosial-iqtisadi cəhətdən ağır vəziyyətdə idi. Yaqub Padşahın 1490-cı ildəki vaxtsız ölümündən sonra ölkədə iki taxt namizədi - Baysunqur Mirzə və Rüstəm Mirzə arasında səltənət mübarizəsi gedirdi. Bu mübarizə nəticəsində ölkə daxili xaos, həmçinin xarici müdaxilə təhlükəsi ilə üz-üzə idi. Baysunqur Mirzə qısa müddət ərzində taxtı ələ keçirsə də güclü Ağqoyunlu əmiri Eybə Sultanın səyləri ilə məğlub edildi və 1492-ci ildə Rüstəm Mirzə taxta oturdu. Rüstəm Padşahın hakimiyyətə gəlməsi ilə daxili vəziyyət bir qədər stabilləşsə də Ağqoyunlu əmirlərinin çıxışları, Baysunqur Mirzənin tərəfdarlarının müxalifləti Rüstəm Padşahın iqtidarını və ölkənin birliyini təhdid edirdi. Müxalif əmirlər, o cümlədən Rüstəm Padşahın hakimiyyətini tanımayan Nur Əli Bayandur (Eybə Sultanın Diyarbəkir hakimi olan qardaşı) və s. güclü əmirlər ya sürgün edilmiş, ya da özləri ölkəni tərk etmişdilər. Nur Əli Bayandur Misirdəki hamisi Əl-Əşrəf Qayıtbay öldükdən sonra 1496-cı ildə Ağqoyunlu müxalifətinin başına keçmək üçün Diyarbəkirə qayıtdı. Onun qayıtmasından sonra ölkədə əmirlərin Rüstəm Padşaha itaətsizlik meylləri gücləndi [11, s.253-58]. Nur Əli bəy Osmanlı sultanı II Bəyazidə məktub yazaraq, Rüstəm padşahın bacarıqsızlığından əhalinin əziyyət çəkdiyini, 6 min müsəlmanın gürcülər əlində əsir olduğunu və bu problemlərin həlli üçün ondan Əhmədin Ağqoyunlu taxtına çıxmasına icazə verməsini xahiş etdi [12, s.207]. Bundan əlavə, Həsənəli bəy Tərcani adlı Ağqoyunlu bəyi İstanbula gələrək Sultan II Bəyazidə Ağqoyunlu dövlətinin zəif olduğunu, müdafiəsiz olduğunu və Əhmədə qoşun verərək onu Azərbaycana göndərərsə ölkəni ələ keçirməyin mümkün olduğunu söylədi. Bu təklif Bəyazidin xoşuna gəlir, o Əhmədi bir miqdar qoşunla Azərbaycana göndərir [4, s.52-53; 7, s.347; 8, s.340; 20, s.132]. Əhməd Həsən Padşahın böyük oğlu Uğurlu Məhəmməd Mirzənin Fateh Sultan Mehmetin qızı Gövhərxan sultandan olan iki oğlundan biri idi. Gödək Əhmədin atası Uğurlu Məhəmməd Mirzə İsfahan valisi idi. 1473-cü ildəki Otluqbeli döyüşündəki məğlubiyyətdən sonra Həsən Padşah xəstələnir, buna görə də vəliəhd təyin etmək qərarına gəlir. Qaynaqların verdiyi məlumata görə Həsən Padşah sevimli arvadı Səlcuqşah bəyimin təsiri ilə oğlu Sultan Xəlili vəliəhd təyin etmək üçün paytaxta çağırır. Uğurlu Məhəmməd isə bu səbəblə hakimiyyəti öz əlinə keçirmək üçün üsyan qaldırıb İsfahan ətrafı vilayətləri tutub Şiraza yürüşə başladı. Lakin Həsən Padşahın dəstək verdiyi qardaşı Sultan Xəlilin qüvvələri qarşısında şansı olmadığını anlayan Uğurlu Məhəmməd Mirzə əvvəlcə Misir Məmlük sultanlığına, sonra isə Osmanlı sultanı Fateh Sultan Mehmetə sığınır [8, s.330-31]. Fateh Sultan Mehmet onu yaxşı qarşılamış, qızı Gövhərxan sultanla evləndirmiş və onu Sivas valisi təyin etmişdi [5, s.344-46; 8, s.331]. 1478-ci ildə Uğurlu Məhəm-

məd Mirzə Həsən Padşahın ölümü ilə bağlı məlumat alaraq taxta sahib olmaq üçün Azərbaycana doğru hərəkət edir. Əslində Həsən Padşah bu zaman sağ idi, sadəcə olaraq Səlcuqsah bəyim Uğurlu Məhəmmədə Həsən Padşahın ölümü ilə bağlı məktub yazıb, onu aldadaraq paytaxta çağırır, buna inanan Uğurlu Məhəmməd Mirzə Ərzincana çatan zaman Şəlcuqşah bəyimin adamı olan Bayandur bəy tərəfindən öldürülür, başı kəsilib Həsən Padşaha aparılır [8, s.207; 4, s.302; 5, s.331-32]. Uğurlu Məhəmmədin Gövhərxan sultanla olan nikahından Mahmud və Əhməd adlı iki oğlu olmuşdu. Uğurlu Məhəmmədin öldürülməsindən sonra Fateh Sultan Mehmet qızı və nəvəsi Əhmədi İstanbula gətirtmişdi [10, s.104-105]. Əhməd bəy İstanbulda Fateh Sultan Mehmet və sonra II Bəyazidin himayəsində yaşayır və mükəmməl təhsil alır [5, s.346, 12, s.207]. Qaynaqların verdiyi məlumata görə onun boyu balaca olduğu üçün ona "Gödək" Əhməd deyirdilər [1, s.275; 4, s.52-53; 13, s.199-200].

Yuxarıda qeyd etdiyimiz kimi, Ağqoyunlu əmirlərinin Sultan II Bəyazidə məktublarıdan, həmçinin Əhmədin özünün Azərbaycan taxtını ələ keçirmək üçün Bəyazidlə görüşüdən sonra II Bəyazid Əhmədə qoşun verərək onu Azərbaycana göndərmişdi. Əhmədin Ərzincana çatdığını öyrənən Rüstəm padşah Əhmədi qabaqlamaq üçün Təbrizdən yola çıxıb Araz çayı vadisi boyunca irəlilədi. Ağqoyunlu əmirlərindən, Əhmədin qohumu olan Hüseyn bəy Əlixani Sultaniyyədə Rüstəm padşahın yaxın adamı Əbdülkərim bəy Ləlıni öldürür, bundan sonra Təbrizə girərək Əhmədin adına xütbə oxutdurub, pul kəsdirir. Rüstəm padşah bundan sonra Əhmədlə döyüşə girmək qərarına gəlir [7, s.347-48]. Rüstəm padşah Araz çayına çatana qədər onun ordusundan əsgərlər və bəylər tez-tez ordudan qaçaraq Əhmədin tərəfinə keçirdi. Çoban körpüsü adlı yerdə körpü dağıldığı üçün qoşun çayı keçə bilmədi və qoşun bir neçə gün burda dayandı. Bu günlər ərzində də hər gecə Rüstəmin ordusundan qaçan əsgərlərin Əhmədin ordusuna qatılması halları baş verirdi [8, s.340-341]. Rüstəm Padşah Araz çayı vadisində Əhmədin qüvvələri ilə döyüşə girsə də, Eybə sultan və digər Ağqoyunlu bəylərinin döyüş əsnasında tərəf dəyişdirib Əhmədin tərəfinə keçməsi nəticəsində məğlub olub Gürcüstana qaçdı. O, hakimiyyəti geri almaq üçün cəhd etsə də məğlub oldu, tutulub edam edildi. Əhməd bu qələbədən sonra Təbrizə gəlib özünü hökmdar elan etdi [4, s.53; 7, s.348; 12, s.208; 13, s.200]. Gödək Əhməd Ağqoyunlu bəylərinin həlledici məqamda Rüstəmə xəyanət etmələrindən, şəriət qaydaları və hüquqlarını unutmalarından bərk təsirlənmişdi. Ağqoyunlu feodalları yeni hökmdardan iltifat və tərif gözləyərkən, Əhməd onlara gözucu belə baxmaz olmuşdu [8, s.341] Gödək Əhməd taxta çıxar-çıxmaz onun taxta çıxmasında böyük rol oynamış Eybə sultan adı ilə tanınan İbrahim sultanı Rüstəm padşaha xəyanət etməsi səbəbilə edam etdirmək istəmişdi. Lakin dövlət ərkanından əksər şəxslər buna qarşı çıxdı, onların səyləri nəticəsində Eybə Sultan edamdan xilas olub Kirman valisi təyin edildi. Şübhəsiz ki, Gödək Əhməd belə həlledici məqamda asanlıqla tərəf dəyişdirə bilən Ağqoyunlu sərkərdərinin qeyri-müəyyənliyindən təşvişə düşmüşdü. Onun bu xəyanətin özünə qarşı da çevrilə biləcəyindən qorxması barədə qaynaqlar da məlumat verir [8, s.342]. Beləliklə, Gödək Əhmədlə Rüstəm Padşah arasında gedən mübarizə nəticəsində 1497-ci ilin mayında Gödək Əhməd Ağqoyunlu taxtına oturdu.

***İslahatın keçirilmə səbəbləri.*** XV əsrin sonlarına doğru Ağqoyunlu dövləti siyasi və sosial-iqtisadi cəhətdən ağır vəziyyətdə idi. Sultan Yaqubun 1490-cı ildə ölümündən sonra ölkə müxtəlif taxt namizədlərini dəstəkləyən nüfuzlu hərbi əyanların, əsasən, Mosullu, Bayandur və Bicanlı tayfalarının mübarizə meydanına çevrildi. Əvvəlcə Sufi Xəlil digər əmirləri məğlub edib azyaşlı Baysunquru taxta oturtsa da (1490-92) Süleyman bəy Bicanoğlu ilə mübarizə nəticəsində Sufi Xəlil öldürüldü [3, s.10]. 1490-92-cı illərdə azyaşlı Baysunqur hakimiyyətdə olduqdan sonra Rüstəm Padşah 1492-97-ci illərdə hakimiyyətdə oldu [3, s.3, 10]. Rüstəm Padşah və Eybə sultanın ittifaqı daxili çəkişmələrə son qoyub dövləti möhkəmləndirmək üçün axırıncı, həmçinin mühüm fürsətlərdən idi. Lakin onlar sabitliyi bərpa edə bilmirlər. Ölkədə Baysunqurun tərəfdarlarının çıxışları baş verir. Bundan sonra isə Nüfuzlu Bayandur hərbi əyanların tabe olmaması fonunda Rüstəm Padşah onları ələ almaq üçün saysız-hesabsız Soyurqal mülkləri paylayır. Bu isə dövlətin həm siyasi, həm də iqtisadi cəhətdən daha da zəifləməsinə gətirib çıxarır [21, s.210-13]. Ağqoyunlu dövlətinin zəifləməsinin səbəblərini həm dövlət quruluşu, həm də torpaq mülkiyyəti forması soyurqalın xüsusiyyətlərində axtarmaq lazımdır. Bir sıra tarixçilərin fikrincə, Ağqoyunlu dövləti sistemi Cəlari və Elxani, dolayısıyla Böyük Moğol dövlətinin dövlət quruluşu əsasında formalaşmışdı. Ağqoyunlu dövlətinin bir sıra idarəçilik institutları Elxani dövründə mövcud olan institutların inkişaf etmiş forması idi [21, s.231]. Soyurqal İqta torpaq sahibliyi formasının

son təkamül variantı idi. Ağqoyunlu ordusunun özəyini nüfuzlu əmirlərin başçılıq etdiyi tayfaların hərbi qüvvələri təşkil edirdi. Qoşun başçıları və əmir-əl-ümərələr da bu nüfuzlu hərbi əyanlar arasından təyin edilirdi [19, s.36]. Ağqoyunlu dövlətində əyalətləri bu əyalətləri iqta və ya soyurqal kimi almış əmirlər tərəfindən idarə olunurdu [21, s.235]. Qeyd etdiyimiz kimi Ağqoyunlu ordusu nüfuzlu hərbi əyanların əmrində olan dəstələrdən təşkil olunurdu. Bu əmirlərə müharibə zamanı orduda xidmət əvəzində soyurqal mülkü verilirdi. Hərbi əməliyyatlar zamanı hökmdar nüfuzlu tayfa başçılarına və onların dəstələrinə ehtiyac duyduğu üçün dinc vaxtı onları təmin etməli idi. Ağqoyunluların bəylik dönəmində bu cür idarəçilik, kiçik coğrafiyada effektiv idi. Lakin 1468-ci ildən sonra Ağqoyunlu əraziləri dəfələrlə genişləndikdən sonra ölkəni əvvəlki qaydalarla idarə etmək çətinləşir. Buna görə də ilk dəfə Həsən Padşah iqtisadi islahatlar keçirmiş, qanunnamə vermiş, bəzi vergiləri ləğv etmiş, soyurqalları azaltmağa çalışmışdır. Bunlar bir növ hərbi köçəri sistemdən gəlmiş Ağqoyunlu bəyinin geniş ərazilərə malik dövləti idarə etmək üçün oturaq sistemə əsaslanan yeni institutlar yaratma cəhdi idi. Həsən Padşahdan sonra oğlu Sultan Yaqub da soyurqalların azaldılmasına, bir sıra vergilərin ləğv edilməsinə cəhd etsə də əmirlərin ciddi müqaviməti ilə qarşılaşmışdı. Soyurqal sistemini Osmanlı dövrlərində geniş yayılmış Timarla müqayisə etmək olar. Hər ikisi hərbi xidmət qarşılığında verilirdi, Timar və Soyurqal sahibləri həmin bölgənin vergisini yığıb mənimsəmək hüququna sahib idi. Lakin Timardan fərqli olaraq soyurqal sahibinin çox geniş səlahiyyətləri var idi. Həmçinin Soyurqal çox böyük nüfuza sahib tayfa başçısı olan əmirlərə verildi, bu isə onu daha da gücləndirirdi. Timar isə dövlət vəzifəsi daşıyan sipahilər və ya digər dövlət qulluqçularına verilirdi. Soyurqal sistemi ilə bağlı aşağıda ətraflı bəhs olunacaqdır. Göründüyü kimi Osmanlı və Ağqoyunlu dövlətinin torpaq sistemləri bənzəsə də bəzi fərqlər vardır. Həmçinin, Ağqoyunlu dövlətində böyük nüfuza malik, dövlətin hər sahəsində gücə malik hərbçi əmirlər, bir növ - hərbi aristokratiya mövcud idi. Osmanlıda isə hərbçilərə imtiyaz və timar verilməsi geniş yayılsa da bu cür aristokratiya, ümumiyyətlə aristokratiya mövcud olmamışdır [22, s.217; 26, s.14-15]. Bu cür dövlət quruluşu - hərbi aristokratiyanın mövcudluğu, soyurqal sistemi şəraitində dövlətin daxili sabitliyinin qorunmasının yeganə təminatı güclü idarəetmə və hərbi bacarıqlara sahib hökmdar ola bilərdi. Bunu Həsən Padşah nümunəsində görə bilərik. Şəxsiyyətdən asılılıq Ağqoyunlu dövlətinin zəifləməsinin daha bir səbəbdir. Beləliklə, göstərilən səbəblər Ağqoyunlu dövlətinin mərkəzləşdirilmiş dövlətə çevrilməsinə mane olmuşdur. Dövlətin mərkəzləşdirilməsi üçün edilən cəhdlər isə uğursuzluqla nəticələnmişdir. Belə bir vəziyyətdə Gödək Əhmədin idarəetmə və torpaq mülkiyyəti sistemində islahatlar keçirərək sabitliyi bərpa etməsi ölkənin süqutunun qarşısının alınması üçün edilməli olan real, zəruri addımlar idi.

a) İslahatların ideoloji əsasları. XV əsrin II yarısında Ağqoyunlu dövləti ilə qonşuluqda yerləşən Osmanlı dövləti dövlət idarəetmə sisteminə görə şərqin digər türk dövlətlərindən daha üstün səviyyədə idi. Bu ilk növbədə Osmanlının Ağqoyunlu dövlətindən xeyli əvvəl yaranması və buna görə də formalaşması üçün kifayət qədər zamanın keçməsi ilə bağlıdır. Ağqoyunlu dövləti isə hələ yeni yaranmış dövlət olduğu üçün mərkəzləşmiş dövlət deyildi. XV əsrin II yarısında Osmanlı dövlətində Fateh Sultan Mehmet bir sıra sahələrdə yeniliklər həyata keçirmiş və ölkəni tam hökmdara tabe olan mərkəzləşdirilmiş imperiya halına gətirmişdir [6, s.154]. Nəticə etibarilə, Ağqoyunlu dövlətində keçiriləcək hər hansı islahat üçün Osmanlı idarəetmə və inzibati sisteminin əsas alınması labüd idi. Yuxarıda qeyd etmişdik ki, Gödək Əhməd İstanbulda çox mükəmməl Osmanlı təhsil və tərbiyə sistemindən keçmişdi. Buna görə də Osmanlı hüquq, idarəetmə sisteminə dərindən bələd idi. Bu biliklərin islahatların forması və məzmununa təsir göstərdiyi şübhəsizdir. Həmçinin, onun İstanbuldan yanında gətirdiyi Şeyx Fazil Nöqtəcioğlu adlı bir şeyx islahatlar zamanı ona xüsusən təsir edərək onu daim ədalətə sövq edirdi [1, s.275]. Gödək Əhməd yeni qərarlar verməzdən əvvəl tanınmış alim və ruhanilərlə müzakirələr edir, xüsusən Cəlaləddin Dəyyani və Mir Sədrəddin Məhəmmədə islahatlar barədə məktublar yazırdı [21, s.427]. Beləliklə, Gödək Əhmədin islahatları üçün əsas, Ağqoyunluya nəzərən oturuşmuş sistem və mərkəzləşmiş quruluşa malik Osmanlı inzibati-idarəetmə və hüquq sistemi olmuşdur. Bu sistemin Ağqoyunlu dövlətinə tətbiqi ilə bağlı məsələlərdə Gödək Əhməd yerli - Ağqoyunlu alim və ruhaniləri ilə müzakirələr aparmışdır.

b) İslahatların sosial-ictimai dayaqları. Şübhəsiz ki, böyük iqtisadi və hərbi gücə malik köçəri feodalları qarşısına alan Gödək Əhmədə onların qarşısında duruş gətirmək üçün güclü sosial-ictimai

dayaq lazım idi. Gödək Əhməd bu məsələdə özündən əvvəlki Ağqoyunlu hökmdarlarının təcrübələrindən istifadə etdi. Belə ki, Həsən Padşah köçəri hərbçi əyanlara qarşı mübarizədə oturaq əhaliyə arxalanırdı. Həsən Padşah oturaq kənd və şəhər əhalisinin sosial-iqtisadi vəziyyətinin yaxşılaşdırılmasına yönəlmiş bir sıra tədbirlər gördü, bir sıra vergiləri ləğv etdi [21, s.420-21]. Bundan əlavə, Həsən Padşah ruhani sinfi arasında rəğbət qazanmaq və özünə dayaq tapmaq üçün bu sinfin görkəmli nümayəndələri, ad-sanlı şəxslərinə soyurqal mülkləri paylanmış, üləma, Şeyx və Seyidlərə hədiyyələr vermiş, onları özü ilə yürüşlərə aparmışdır [21, s.422; 23, s.25]. Din xadimləri ilə bağlı bu siyasət Sultan Yaqub dövründə də davam etmişdir [23, s.25]. Gödək Əhməd də bu siyasəti davam etdirərək şəriət qaydalarını tətbiq etmiş, ruhani təbəqəsinin soyurqal mülklərinə toxunmamış, ruhani təbəqəsini arasında hörmət qazanmaq üçün şərabın və digər haram işlərin qadağan olunması barədə fərman vermişdi [1, s.275; 21, s.427-28]. Bundan əlavə, yuxarı qeyd etdiyimiz kimi Gödək Əhməd islahatlar barədə ruhani və üləma sinfi ilə söhbətlər apararaq onları özün yaxın tutmuşdur [21, s.427]. Ağqoyunlu dövlətində hüququn əsasını şəriət qaydaları təşkil etdiyindən, Gödək Əhməd ruhani və üləma sinfindən olan alimlərlə islahat barədə söhbətlər apararaq, onları özünə yaxın tutaraq, bir növ islahatlarını şəriət hüququ aspektindən legitimləşdirməyə çalışmışdır. Oturaq əhali arasında dayaq tapmaq üçün isə şəriətdə olmayan bir çox vergilər ləğv edilmişdir. Beləliklə , Gödək Əhməd yürütdüyü düzgün siyasət nəticəsində düşündüyü islahatları reallaşdırmaq üçün lazım olan ideoloji əsasları formalaşdırmış, eləcə də onu bu islahatlar zamanı dəstəkləyəcək kütləni, sosial-ictimai dayaqları müəyyənləşdirmişdi.

**İslahatların keçirilməsi**

**a) İdarəçilik islahatı.** Gödək Əhmədin idarəçilik sistemində həyata keçirdiyi islahatlar digər sahələrdəki islahatlarla paralel və əlaqələli şəkildə həyata keçirilmişdir. Rüstəm Padşaha xəyanət edib Əhmədin tərəfinə keçənlərin Əhmədi marionet hökmdar etmək istəkləri baş tutmadı. Əhməd həlledici məqamda tərəf dəyişdirən Ağqoyunlu əmirlərinə etibar etmirdi. Onun idarəçilik sahəsindəki islahatlarına ilham qaynağı Osmanlıda gördüyü idarəçilik sistemi və bu sistemə dərindən bələd olan Şeyx Fazil Nöqtəcioğlu idi. Göründüyü kimi Əhməd ölkədə Osmanlı idarəçilik sistemini tətbiq etmək istəyirdi [11, s.261]. Gödək Əhməd Təbrizə gəldikdən sonra ruhanilərə və mülki əyanlara arxalanmaqla türk hərbi elitasını zəiflətməyə, onları şəriət qaydalarına tabe etməyə çalışdı. Hərbi elita böyük siyasi və iqtisadi qüdrətə malik olduğundan hər iki cəhətdən dövlət üçün daima təhlükə mənbəyi idi. Əhmədin idarəçilik islahatları onların qüdrətinin zəiflədilməsi və əhali üzərindəki təsirlərinin aradan qaldırılması məqsədilə həyata keçirilirdi. O, taxta çıxar-çıxmaz taxta çıxmasında böyük rol oynamış Eybə sultan adı ilə tanınan İbrahim sultanı Rüstəm padşaha xəyanət etməsi səbəbilə edam etdirmək istəmişdi. Lakin dövlət ərkanından əksər şəxslər buna qarşı çıxdı, onların səyləri nəticəsində Eybə Sultan edamdan xilas olub Kirman valisi təyin edildi. Şübhəsiz ki, Gödək Əhməd belə həlledici məqamda asanlıqla tərəf dəyişdirə bilən Ağqoyunlu sərkərdərinin qeyri-müəyyənliyindən təşvişə düşmüşdü [8, s.342]. Gödək Əhmədin tədbirləri nəticəsində Bayandur-Pörnak əmirlərinin idarəetmə sisteminə təsirləri azaldıldı, Pörnak tayfasının saraydakı əsas lideri Müzəffər bəy Pörnak edam edildi, yeni təyin olunmuş fars hakimi Qasım bəy Pörnak geri paytaxta çağırıldı. Gödək Əhməd bu tədbirlərə qarşı çıxan bacısının əri Hüseynəli xanı da edam etdirdi [11, s.261; 21, s.427-428]. Gödək Əhməd ilk növbədə hərbi əyanlara hökmdar tərəfindən bağışlanan bəxşişləri ləğv edərək onların qüdrətinin iqtisadi təməlinə ağır zərbə vurdu. Onlara əvvəlki hökmdarlar zamanı verilmiş təltif, imtiyazlar ləğv edildi, əvvəlki imtiyaz nişanları təsdiq edilmədi, onların üzərinə şəriətə uyğun vergilər qoyuldu. Gödək Əhməd verdiyi fərmanla bürokratiyanın vergi sisteminə təsirini aradan qaldırmağa çalışdı. Hərbi elitanın əsas güc mənbəyi olan soyurqallar mülklərinin ləğv edilməsi ilə bağlı Gödək Əhmədin fərmanı onları hökmdarın düşməninə çevirdi (bu barədə aşağıda ətraflı bəhs ediləcəkdir). Hərbi əyanların birləşib hökmdara qarşı çıxmasına səbəb olan növbəti tədbir imtiyazların ləğvi oldu. Əhməd sələflərinin hərbi-feodal əyanlara vermiş olduqları imtiyaz fərmanlarını qanunsuz elan etdi. O, bununla xəzinəni zənginləşdirməyə çalışır, vergiləri azaltmaq üçün zəmin yaratmaq istəyirdi [12, s.208-09; 21, s.425-27].

**b) Vergi islahatı.** Buna Ağqoyunlu dövlətinin vergi islahatı təcrübəsi var idi. Həsən Padşahın göstərişi ilə hazırlanmış və mənbələrdə "Qanunnaməyi-Həsən bəy", "Dəsturi-Həsən bəy" adlanan qanunnamə keçmişdən gələn və o zaman bölgədə mövcud olan vergilərin, maliyə sisteminin nizama salındığı, örf hüququ praktikasının qeydə alındığı qanunlar toplusu idi [17, s.92-93; 24, s.863-864]. Qa-

nunnaməyə əsasən tamğa vergisi 20 dirhəmdə 1 dirhəmə qədər azaldıldı, meyxanələr, qumar və s. bağlandı, xərac əl-mal vergisi dəqiqləşdi [24, s.864-865]. Şərəf Bidlisi bu qanunların bölgədə müəllifin dövrünə qədər, yəni 1596-cı ilə qədər qüvvədə olduğunu hazır [27, s.177]. Burdan bəlli olur ki, yerli şəraitə uyğun xüsusi hazırlanmış bu qanunlar uzun müddət işlək və legitim olmuşdur. Gödək Əhmədin vergi islahatının mahiyyətini anlamaq üçün Həsən Padşahın Qanunaməsinə nəzər yetirmək və müqayisələr aparmaq gərəklidir. Həsən Padşahın Qanunnaməsi sadəcə vahid qanunlar toplusu deyildir. Bu Qanunamə qədimdən mövcud olan vergilərin ümumiləşdirilməsi və uyğunsuz, dəyişikliyə ehtiyac olan yerdə yeni vergi qaydalarını özündə ehtiva edir. Qanunamə mövcud vergilərin bürokratlar tərəfindən özbaşına artırılmasının və əlavə vergilərin tətbiq olunmasının qarşısını aldığından məşhurlaşmışdır və uzun müddət işlək qalmışdır [27, s.179]. Digər ərazilərlə bağlı konkret məlumat olmasa da Qanunnamənin Ərzurum, Ərzincan, Tərcan, Bayburt, Kəmah, Urfa, Mardin, Diyarbəkir, Hani, Tərcil, Xarput, Ərəbgir, Sincar və s. bölgədə uzun müddət işlək vəziyyətdə olduğu məlumdur [2, s.181]. Həsən Padşah Moğollardan qalma tamğa vergisini ləğv etmək istəsə də buna nail olmamış, sadəcə vergini 20 dirhəmdə 1 dirhəmə qədər azalmışdır. Sultan Yaqubun dövründə isə hacılar tamğa, bac kimi vergilərdən azad edilmişdilər [2, s.178; 19, s.64-66; 27, s.177]. Ümumiyyətlə, Ağqoyunlu dövlətində vergilər Qaraqoyunlular və Şirvanşahlara nisbətən daha çoxdur. 1474-cü il Şirvan sənədində isə cəmi 5 vergi növünə işarə olunmuşdur. 1488-ci ilə aid Sultan Yaqubun imzaladığı Şiraz vəqfi nizamnaməsində 27, Qasım Ağqoyunlunun verdiyi 1498-ci ilə aid Soyurqal sənədində 31 vergi adına rast gəlinir [9, s.135-136; 19, s.60]. Şahin Fərzəliyevin tədqiqatlara görə Həsən Padşahın Qanunnaməsində 44 növ vergi və mükəlləfiyyətə rast gəlinir [19, s.69]. Yuxarıda qeyd etdiyimiz kimi Ağqoyunlu dövlətində vergi növləri Şirvanşahlar və Qaraqoyunlularla nisbətdə daha çox olmuşdur. Belə bir sual ortaya çıxır: Bu Ağqoyunlu dövlətində vergi siyasətinin daha ağır olması deməkdirmi? Nəzərə alaq lazımdır ki, Qanunamədə 44 növ vergi adının çəkilməsi, Sultan Yaqubun vəqf fərmanında 27 verginin olması, Qasım Ağqoyunlunun soyurqal fərmanında 31 növ vergi olması heç də Ağqoyunlu vergi sisteminin qeyri-müəyyən və mücərrədliyindən xəbər vermir. Həsən Padşahın Qanunnaməsi yerli xüsusiyyətlər nəzərə alınmaqla hər əyalətdəki istehsal sahələrinə görə xüsusi olaraq hazırlanmışdı. Yəni bir əyalətdə olan vergi digərində olmaya da bilərdi. Həmçinin, vəqflər, dini müəssisələr, din nümayəndəsi bir sıra vergilərdən azad olduqları üçün bu şəxslər və müəssisələrlə bağlı vergi sənədlərində daha az vergiyə rast gəlinir. Həsən Padşahın Qanunnaməsinin XVI əsrin sonlarına qədər işlək olması onun ərazi üçün uyğun sistem olmasından xəbər verir. Lakin bu ideal bir vergi sistemi deyildi. Qeyd etdiyimiz kimi Həsən Padşah Tamğa və başqa vergiləri ləğv etməyə çalışmış, lakin buna nail ola bilməmiş, əvəzində verginin miqdarını azaltmışdır. Gödək Əhməd hakimiyyətə gəldiyi zaman şəriətdə göstərilməyən 20-ədək vergini ləğv edir. Bu tədbirlər, əsasən, köçəri hərbçi feodallarla mübarizədə oturaq əhalinin dəstəyini almaq üçün həyata keçirilirdi. Gödək Əhməd vəzirlərin və digər məmurların əhali üzərinə vergi qoymasını, əhalidən şəriətdə nəzərdə tutulandan artıq vergi alınmasını qadağan edən, əhalinin divan və digər bürokratik vergilərdən azad olunması barədə bir fərman vermişdi [12, s.208-209; 24, s.876]. İxracat, şiltiqat, biyar, bikar, fərdi vergilər, tamğa, müsəlmanlardan adambaşına, ev hesabına alınan vergi və mükəlləfiyətlər, ləğv edildi. Ümumilikdə, şəriət hüququnda qanuni göstərilən xərac, üşr, cizyə, zəkat kimi vergilər saxlanılmaqla digər vergilər ləğv edilmişdi [21, s.426-427; 24, s.876]. Gödək Əhmədin 1497-ci ilə aid fərmanında ləğv edilən mükəlləfiyyətlər arasında Xərc-i xurcun və ya Çuvallıq adlı mükəlləfiyyətin də adı keçir [16, s.222]. Diyarbəkir hökmdarı Qasım bəy Cahangirin 1498-ci ildə İsfəndiyar adlı bir feodala verdiyi soyurqal mülkü ilə bağlı sənəddə ora aid bir çox vergi və mükəlləfiyyət adları çəkilir: İxracat, Xəlisat, Əvəridat, Şənaqis, Şiltiqat, Tucihat, Qəsəmat, Tuziyat, Künəlgə, Ələfə, Ülüfə, Ulağ, Ulam, Təğar, Tərx, Şikar, Bikar, Səvari, Daruğki, Rüsum-ümmal, Rüsum əl-vizarə, Həqq əl-səyi mübaşir, Rüsum əl-sədarə, Novruzi, Eydi (İdi), Pişkəş, Vanilik, Səlamənə, Qəpiyilik [25, s.930-933]. Əlvənd Mirzənin 1499-cu ilə aid fərmanında Rəsm-i mühdisə (ihdas), Qəlle-yi ibtiyai, Bəhay-i Morq kimi vergi və mükəlləfiyyət adlarına da rast gəlmək mümkündür [16, s.222]. Güman etmək olar ki, bunlar Gödək Əhməd dövründə ləğv edilən vergilərdir. Zənnimizcə, Gödək Əhmədin vergi siyasəti Həsən Padşahın Qanunnaməsi kimi maliyə sisteminin nizamlanması yox, sadəcə müvəqqəti tədbir idi. Yuxarıda qeyd etdiyimiz kimi, hökmdar şəriət hüququnda nəzərdə tutulan xərac, üşr, cizyə və zəkat kimi vergilər istisna olmaqla digər bütün vergilər ləğv edilmişdi. Gödək Əhmədin təlim-tərbiyə aldığı

Osmanlı maliyə sistemində belə bu qədər az vergi olmamışdır. Ümumiyyətlə, bu cür vergi siyasəti İslam xəlifəliyinin ilk dönəmləri üçün səciyyəvidir. Osmanlı dövlətinin əksər şərq əyalətində Həsən Padşahın Qanunnaməsinin tətbiq edildiyi və işlək olduğu məlumdur. Elə isə Gödək Əhmədin şəriət vergilərindən başqa bütün vergiləri ləğv etməsinin səbəbi nə idi? Bunun cavabını Gödək Əhmədin hərbi əyanlara qarşı mübarizəsində axtarmaq lazımdır. Qeyd etdiyimiz kimi böyük nüfuza malik hərbi əyanların mərkəzi hakimiyyətə tabe olunması prosesində hökmdar ruhani sinfinə və oturaq və yarımköçmə əhaliyə arxalana bilərdi. Gödək Əhməd onları öz tərəfinə çəkmək üçün sadəcə olaraq müvəqqəti vergi islahatı keçirmiş, əhali və ruhani sinifdən özünə dayaq yaratmağa çalışmışdır. Çox güman ki, Gödək Əhmədin hərbi əyanlara qarşı mübarizəsi və dövlətin mərkəzləşdirilməsi prosesi uğurla başa çatsa idi ləğv olunan vergilərin əksəriyyəti pilləli şəkildə bərpa olunacaqdı. Təbriz-Həşərxan, İran körfəzi-Təbriz-Trabzon, Təbriz-Bursa-İstanbul kimi ən mühüm ticarət yollarının üstündə yerləşən Ağqoyunlu dövləti əsas gəlirlərini gömrük vergi və rüsumlarından əldə edirdi [29, s.13]. Qanunnamələr və vergi fərmanlarında da vergilərin bir çoxu gömrük vergi və rüsumlarıdır. Osmanlıda təhsil almış Gödək Əhmədin bütün bu iqtisadi üstünlükdən imtina edərək dövlətin gəlirlərini sıfıra endirməsi ağlasığan deyildir. Bu səbəblə, fikrimizcə Gödək Əhmədin sadəcə özünə hərbi əyanlara qarşı mübarizədə dayaq yaratmaq məqsədilə vergi və mükəlləfiyyətlərin əksəriyyəti ləğv etməsi tədbiri müvəqqəti xarakter daşımışdır.

**c) Torpaq islahatı.** Gödək Əhmədin torpaq islahatı soyurqal torpaq mülkiyyət forması ilə bağlıdır. XIV əsrin ortalarında yaranmış Soyurqal torpaq mülkiyyəti XV əsrin II yarısında kimi müəyyən inkişaf yolu keçmişdir [14, s. 24]. Soyurqal torpaq mülkiyyəti xaraktercə şərti torpaq mülkiyyəti olub, zaman keçdikcə hökmdar icazəsi ilə irsən keçirdi. İrsi soyurqalların paylanması Ağqoyunlu hökmdarları zamanında, xüsusən Rüstəm padşah dövründə geniş yayılmışdı [18, s.52]. Sovet şərqşünası Petruşevskiyə görə, soyurqal sahiblərinin irsi torpaq mülkiyyəti hüququndan başqa onlara soyurqal kimi verilən ərazinin vergisini yığıb mənimsəmək və bu torpaqdan vergi verməmək, yəni vergi toxunulmazlığı, hökmdar məmurlarını belə soyurqal ərazisinə buraxmamaq - inzibati toxunulmazlıqları var idi [14, s.196; 15, s.86]. Ağqoyunlu hökmdarları tayfa başçıları olan və böyük hərbi qüdrətə malik hərbi köçəri feodallar arasında özlərinə dayaq yaratmaq üçün soyurqal paylanılması sistemindən istifadə edirdilər. Bundan əlavə, hərbi səfərlər və müharibələr zamanı Ağqoyunlu hökmdarları hərbi köçəri feodallara məktub göndərərək onlardan hərbi qüvvə tələb edir, əvəzində isə mükafat, torpaq, imtiyaz bir sözlə, soyurqal vəd edirdilər [21, s.252]. Bu cür imtiyazlara malik olan soyurqal sahibləri zaman keçdikcə böyük iqtisadi gücə və hərbi qüdrətə malik olurdu. Soyuqal sahibliyi nəticəsində dövlət xəzinəsi geniş əhali qrupundan yığılan vergilərdən məhrum olur, hökmdar hakimiyyəti soyurqal torpaqlarında faktiki olaraq zəifləyirdi. Böyük iqtisadi və hərbi qüdrətə malik soyurqal sahibi olan hərbi köçəri feodallar böyük siyasi nüfuza malik olduqları üçün hökmdar onlarla hesablaşmadığı zaman hökmdarın hakimiyyəti üçün ciddi təhlükə törədirdilər. Soyurqal sistemi Ağqoyunlu dövlətinin mərkəzləşdirilmiş dövlətə çevrilə bilməməsinin əsas səbəblərindəndir [12, s.210; 14, s.207; 21, s.427-428]. Gödək Əhməddən əvvəl Həsən Padşah və Yaqub Padşah hərbi köçəri əyanlara verilən soyurqalları məhdudlaşdırmağa çalışmışdılar. Həsən Padşah özünə dayaq yaratmaq üçün ruhani təbəqəsinə soyurqal paylamış və onların rəğbətini qazanmağa çalışmışdır. Gödək Əhməd də bu siyasəti davam etdirərək ruhani təbəqəsinin soyurqal mülklərinə toxunmamış, ruhani təbəqəsini arasında hörmət qazanmaq üçün şərabın və digər haram işlərin qadağan olunması barədə fərman vermişdi [21, s.427-428] Yuxarıda qeyd etmişdik ki, Gödək Əhməddən əvvəlki hökmdar Rüstəm padşah dövründə geniş soyurqal paylanmışdı və bunun əsas məqsədi hərbi köçəri feodallar arasında dayaq yaratmaq idi. Lakin bu siyasət özünü doğrultmadı. Rüstəm padşahla Gödək Əhməd arasındakı Araz çayı yaxınlığında döyüşdə həmin feodalların əksəriyyəti Rüstəm Padşaha xəyanət edərək Əhmədin tərəfinə keçmişdilər. Bununla da Gödək Əhməd soyurqal paylamaqla hərbi köçəri feodallar arasında dayaq yaratmaq siyasətinin nə qədər uğursuz olduğunu öz gözü ilə görmüşdü. Gödək Əhmədin soyurqal islahatının əsasında xəzinəni artırmaq, hərbi köçəri feodalların nüfuzunu sarsıtmaq, dövləti mərkəzləşdirmək və siyasi cəhətdən etibarsız olan bu təbəqənin təsirindən azad olmaq idi. Bu əyanlar əhali üzərində böyük təsirə malik olduğundan hökmdarın əhali ilə birbaşa əlaqəsinə və hakimiyyətinə mane olurdular. Gödək Əhməd buna mane olmaq üçün hərbi köçəri əyanların əhali üzərindəki hüquqlarını ləğv edən fərman verdi, əyyələr vergidən azad

olan əyanların üzərinə şəriətə uyğun vergilər qoyuldu. Hərbi köçəri feodalların nüfuzunu sarsıtmaq və onların özbaşınalığına son qoyub dövləti mərkəzləşdirmək üçün Hərbi köçəri əyanlara əvvəlki hökmdarların verdiyi təltif, hüquqlar və imtiyaz fərmanları ləğv edildi [12, s.209-22; 21; s.425-26; 24, s.876-877]. Soyurqal sisteminin məhdudlaşdırılması sahəsində Gödək Əhməd sələflərindən daha kəskin hərəkət edərək bütün soyurqalları ləğv etdi. Qəti addımlar nəticəsində hökmdar Cənubi Azərbaycandakı hərbi köçəri feodalları itaət altına almağı bacardı. Lakin Əcəm İraqı və Fars vilayətlərində müqavimət xüsusilə güclü idi [12, s.210-211; 14, s.207].

***Nəticə.*** Beləliklə, Gödək Əhməd dövləti və öz hakimiyyətini möhkəmləndirmək məqsədilə ən vacib istiqamətlərdə islahatlar həyata keçirmişdi. Bu islahatlar cəmiyyətdə birmənalı qarşılanmamış, özlərinin bu vaxta qədərki qeyri-məhdud hüquq və imtiyazlarından məhrum olan yuxarı təbəqə, xüsusilə hərbi-köçəri feodallar islahatlara ciddi müqavimət göstərmişdilər. Soyurqalları, imtiyazları, bir sıra hüquqlarından məhrum olan hərbi köçəri feodallar bu islahatlara qarşı müqavimət göstərirdilər. Gödək Əhməd bu müqaviməti qırmaq və digərlərinin gözünü qorxutmaq üçün tez-tez güclü əmirləri edam etdirməyə başladı. Hərbi köçəri əyanlar, xüsusilə Bayandur və Pörnak tayfalarının gücünün zəiflədilməsi üçün müəyyən tədbirlər görüldü [12, s.209-211; 21, s.425-26; 24, s.876-877]. Bir sıra iri feodallar Gödək Əhmədi Osmanlı qanunlarını tətbiq etməkdə günahlandıraraq ona qarşı çıxırdılar. Hökmdar hətta özünə qarşı çıxan bacısının əri Hüseyn bəy Əlixani və Müzəffər bəy Pörnək kimi nüfuzlu əmirləri də edam etdi [1, s.275; 20, s.133]. Gödək Əhməd Pörnak tayfasının Fars əyalətində olan nüfuzunu azaltmaq üçün Şiraz hakimi Qasım bəy Pörnakı paytaxta çağırdı. Qasım bəy Pörnək həm də qardaşı Müzəffər bəy Pörnakın edam olunması səbəbilə müxaliflik edirdi. Qasım bəy bundan təşvişə düşdü, çünki əgər paytaxta gedərsə edam oluna bilərdi. O paytaxta getməkdən boyun qaçıraraq Gödək Əhməd tərəfindən paytaxtdan uzaqlaşdırılaraq Kirman hakimi təyin edilən Eybə sultanla əlaqəyə keçdi. Onlar qüvvələrini birləşdirərək üsyana başladılar və müxalif qüvvələri öz ətraflarında toplamağa başladılar. Onlar Sultan Yaqubun Şirvanşahın himayəsindəki oğlu Muradı hökmdar elan etməyi düşünürdülər. Muradın bu zaman yeddi yaşı var idi. Eybə sultan və Qasım bəy onun azyaşlı olmasından istifadə edib, onun əli ilə əsl hakimiyyəti ələ almaq istəyirdilər [7, s.349-50; 11, s.261; 21, s.213-214]. Eybə sultan və digəriləri Gödək Əhmədin islahatları ilə əvvəlki gəlirlərindən məhrum olmuşdular. Onların əsas üsyan səbəbi bu idi. Onlar əhalidən və hökmdarın müşavirləri olan Mövlana Məhəmməd Dəvyani və Əmir Sədrəddindən xeyli qızıl toplayaraq Muradın özü olmadan Şirazda onun adına xütbə oxutdurub, pul kəsdirdilər. Gödək Əhməd bu hadisələri öyrəndiyi zaman qış fəsli olmasına baxmayaraq böyük qoşun, həmçinin Osmanlıdan gətirdiyi mühafizə dəstəsi ilə onlara qarşı hərəkətə keçdi. İki ordu İsfahan yaxınlığında, Xoca Həsən Mazi adlanan yerdə döyüşə başladı. Gödək Əhmədin qoşunu sayca çox idi və döyüşün əvvəlində üstünlüyü əlinə almışdı. Ancaq Gödək Əhmədin qoşunundakı bəzi Ağqoyunlu dəstələri öz soydaşları ilə vuruşmaqdan imtina etdi və döyüşə girmədi. Bu üstünlüyün digər tərəfə keçməsinə səbəb oldu. Döyüş əsnasında baş verən qarışlıq zamanı Eybə sultan Gödək Əhmədi öldürdü. Gödək Əhmədin qoşunu məğlub edildi [8, s.342; 11, s.261; 20, s.133]. Gödək Əhməd öz sağlığında yuxarı siyasi elitanın hüquqlarını məhdudlaşdırmış və bu islahatlar nəticəsində xalqla yaxınlaşmışmağı bacarmışdır. Lakin bu bütün təbəqələrinin xoşuna gəlməmiş, nəticədə Gödək Əhməd öldürülmüşdü. Padşahın ölümündən sonra onun həyata keçirdiyi islahatlar qüvvədən düşdü, ləğv olunmuş vergilər, imtiyazlar və soyurqallar yenidən bərpa olundu. Ağqoyunlu dövləti 1499-cu ildə Əlvənd Mirzə və Murad Mirzə tərəfindən bölündü. İslahat tədbirlərinin ləğv olması, ölkədəki ikihakimiyyətlilik və güclənən Qızılbaş siyasi iddiaları yaxın zamanda Ağqoyunlu dövlətinin süqutundan xəbər verirdi.

## ƏDƏBİYYAT

1. Ahmet Korkmaz. Būdāk Münşi-yi Kazvini'nin Cevahirü'l-Ahbar Adlı Eserinde Ak-Koyunlu Devleti Tarihi // Ortacağ dan Cumhuriyete Tarih Araştırmaları, I, 2023, s.251-280.
2. Ahmet Özcan. Uzun Hasan Kanunları ve Osmanlı Dönemine yansımaları // OTAM Ankara Üniversitesi Osmanlı Tarihi Araştırma ve Uygulama Merkezi Dergisi, c.29, sy.29, 2011, ss.173-192.

3. Ayşe Atıcı Arayancan. Akkoyunlu yönetiminde aşiret kavgası: Musullular ve Sufi Halil bey örneği üzerinden tarihi sürecin incelenmesi // Avrasya Uluslararası Araştırmalar Dergisi, 6(13), 2018, s.1-12.
4. Buket Gündüz. Kadı Ahmed Gaffârî'nin Târîh-i Cihân-âra isimli esrinde Türk hanedanları (Osmanlılar, Karakoyunlular, Akkoyunlular, Safeviler). Yüksek Lisans Tezi, Kastamonu, 2019, 219 s.
5. Hadidi. Tevârih-i Al-i Osman. / Hazırlayan Necdet Öztürk, İstanbul, Marmara Üniversitesi yayınları №484, Fen-Edebiyat fakültesi yayınları №18, Edebiyat fakültesi Basımeyi, 1991, 488 s.
6. Halil İnalcık. Devlet-i Aliyye. Osmanlı İmparatorluğu Üzerine Arastırmalar. I. Cilt, Klasik Dönem (1302-1606) Siyasal. Kurumsal ve Ekonomik Gelişim. İstanbul, Türkiye İş Bankası Kültür Yayınları, 2009, 377 s.
7. Həsən bəy Rumlu. Əhsənüt-təvarix. Tərcümə: Oqtay Əfəndiyev, Namiq Musalı. Kastamonu, Uzanlar, 2017, 661 s.
8. Hoca Sadettin Efendi. Tacü't-Tevarih. 3. Cilt. İstanbul, Kültür Bakanlığı yayınları, Milli Eğitim Basımevi, 1979, 400 s.
9. Илья Петрушевский. Очерки по истории феодальных отношений в Азербайджане и Армении в XVI-начале XIX вв. Ленинград, Изд-во Ленинградского Государственного Ордена Ленина Университета им. А.А.Жданова, 1949, 382 с.
10. İsmail Hakkı Uzunçarşılı. Osmanlı tarihi. 2. Cilt, Ankara, TTK Basımevi, 1988, 794 s.
11. John Woods. Akkoyunlular. Çev. Sibel Özbudun. İstanbul, Milliyet Yayınları, 1993, 412 s.
12. Kazım Paydaş. Akkoyunlu Ahmed bey ve onun Osmanlı idare sistemini Akkoyunlu devletinde uygulama çabası//AÜDTCF Tarih Araştırmları Dergisi, c. XXIII, sayı 36, (Ekim 2004), 205-212 s.
13. Kazım Paydaş. Hvândmîrin Târîh-i Habîbü's-Siyer adlı eserinde Ak-Koyunlu devleti tarihi. Farsça ve Arapça Kaynaklarda Türk ve Moğol Devleti Tarihi I, Efeakademi yayınları, İstanbul, 2023, s.176-208.
14. Kazım Paydaş. Moğol ve Türk-İslam devletlerinde suyurqal uygulaması // Bilig, 2006, sayı 39, s.195-218.
15. Маис Амрахов. Возникновение государственности и формы землевладения у Тюрков. Баку, Мутарджим, 2011, 120 с.
16. Oqtay Əfəndiyev. Azərbaycan Səfəvilər dövləti. Bakı, "Şərq-Qərb", 2007, 344 s.
17. Ömer Lütfü Barkan. Osmanlı devrinde Akkoyunlu hükümdarı Uzun Hasan beye ait kanunlar // Tarih vesikaları, sayı 2, cilt I, 1941, s.91-111.
18. Şahin Fərzəliyev. Azərbaycan XV-XVI əsrlərdə (Həsən bəy Rumlunun "Əhsənüt-təvarix" əsəri üzrə". Bakı, "Elm" nəşriyyatı, 1983, 108 s.
19. Şahin Fərzəliyev. XV əsr Azərbaycan dövlətlərinin quruluşu. Bakı, "Elnur-P", 2003, 118 s.
20. Şeref Han. Şerefname. 2.Cilt, çev.Mehmet Emin Bozarslan. İstanbul, ANT yayınları, 1971, 312s.
21. Tofiq Nəcəfli. Azərbaycan Qaraqoyunlu və Ağqoyunlu dövlətləri. Bakı, Çaşıoğlu, 2012, 604 s.
22. Umut Karadoğan. Osmanlı Hanedanının Aile Yapısı ve Güncel Yaşamı // 21. Yüzyılda Eğitim Ve Toplum, 1(1), 2014, s.213-225.
23. Ülviyyə Ağayeva. XIV-XV əsrlərdə Azərbaycanda şərti torpaq mülkiyyəti (Fəsih Xəvafinin «Mücməli Fəsihi» əsrinə əsasən) // Tarix və onun problemləri, №4, 2010, s.24-26.
24. Vladimir Minorsky. Akkoyunlular ve torpaq reformaları. Çeviren Cüneyt Kanat // TTK Belleten, c. LXII, sayı 235. Ankara, 1998, s.863-880.
25. Vladimir Minorsky. A Soyürghāl of Qasim b. Jahangir Aq-qoyunlu (903/1498) // Bulletin of the School of Oriental and African Studies, Volume 9, Issue 4, February 1939, p.927-960.
26. Veysel Dinler. Osmanlı Devleti'nin Klasik Dönem İdari Yapısı Ve İşleyişi // Telakki Sosyal Bilimler Dergisi 1, sy. 1 (Mart 2023), p.11-44.
27. Walter Hinz. Das Steuerwesen Ostanatoliens im 15.und 16.Jahrhundert // ZDMG, Wiesbaden 1950, p.177-201.
28. Walter Hinz. Uzun Hasan ve Şeyh Cüneyd, çev. Tevfik Bıyıklıoğlu. Ankara, Türk Tarih kurumu yayınları, 1992, 165 s.
29. Yaqub Mahmudov. Azərbaycanın Avropa ölkələri ilə əlaqələri (XV əsrin II yarısı). Bakı, "Təhsil", 2007, 116 s.

**PENAH KHANLAYEV**
*Baku State University, Faculty of History, 4th year student*

## GODEK AHMAD'S REFORMS

From the perspective of his personality, Godek Ahmad is a figure that connects two rival states and dynasties: the Aq Qoyunlu and the Ottoman Empire. He was of the Aq Qoyunlu lineage and had received an Ottoman education. His personality, family background, the circumstances of his rise to power, and his short reign of less than a year, during which he implemented comprehensive radical reforms, make Godek Ahmad one of the rare historical figures in history. Against this background, the study of Godek Ahmad's activities is one of the interesting and relevant issues in Azerbaijani history. The presented article analyzes the comparative sources of Aq Qoyunlu and the Ottoman Empire and examines the historiographical base of the subject, investigating his rule and reformist activities.

*Keywords*: Gödek Ahmed, reform, Soyurgal, Aq qoyunlu, Hasan Padshah.

*Daxil olma tarixi*: 30.12.2024-cü il.
*Çapa imzalanma tarixi*: 31.01.2025-ci il.

Türk dünyası gənc tədqiqatçılar dərnəyinin Araşdırmaları
Studies of the Turkic World Young Researchers Association

№1(11) 2025, 54-63

UOT 94(479.24); UOT 32:93/94

**RƏMZİ SƏFƏRLİ**
*Bakı Dövlət Universiteti*
*Tarix fakültəsinin "Tarix" ixtisası üzrə IV kurs tələbəsi*
**ramzisafarli@gmail.com**

# PREZİDENT İLHAM ƏLİYEVİN ERMƏNİSTAN-AZƏRBAYCAN DAĞLIQ QARABAĞ MÜNAQİŞƏSİNİN HƏLLİ İSTİQAMƏTİNDƏ FƏALİYYƏTİ

*Elmi rəhbər:*
tarix üzrə fəlsəfə doktoru Mətanət Məmmədova

*Azərbaycan Respublikası öz müstəqilliyini elan etdiyi ilk anlardan etibarən səngiməyən Qarabağ münaqişəsi tariximizin bir çox dövrünü özündə əhatə etdiyi kimi, prezident İlham Əliyevin də hakimiyyəti dönəminə təsirsiz ötüşməmişdir. Ulu Öndər Heydər Əliyevin güclü siyasətini uğurla davam etdirməyə çalışmış qüdrətli sərkərdə fəaliyyəti boyu daima dünya ölkələrinin bu hadisəyə düzgün siyasi qiymət verilməsi yönündə addımlar atmışdır. Belə ki, bunların böyük bir qismi ATƏT-in Minsk Qrupu fəaliyyətləri ilə bağlıdır. Bununla yanaşı Avropa Şurası Parlament Assambleyası ilə keçirilmiş görüşlərdə də Cənab İlham Əliyev dəfələrlə Qarabağ münaqişəsini işıqlandırmış, problemin həlli üçün sülh yolu ilə danışıqların aparılmasının tərəfdarı olduğunu bildirmişdir. Həmçinin onu da qeyd etməliyik ki, BMT-nin dəstəyi ilə keçirilən görüşlərdə də öz mövqeyini dəfələrlə ifadə edən prezidentimiz bir çox hallarda məsələnin həll ediləcəyinə dair Avropa dövlətlərindən müsbət rəy alsa da bunların heç biri öz nəticəsini göstərməmişdir. Əliyevin uğurlu siyasətin əsasını həm də müxtəlif ölkələrin dövlət başçıları ilə həyata keçirilən görüşlər təşkil edirdi. Müxtəlif illərdə keçirilmiş bu rəsmi görüşlər sırasında İsrail, Türkiyə, Rusiya, Gürcüstan, Pakistan və s. kimi dövlətlərin rəsmiləri iştirak etmişdir. Bu görüşlər nəticəsində qonşu, həmçinin region dövlətlərinin məsələyə olan münasibəti öz əksini tapmaqla yanaşı mübarizə zamanı bizlərə dəstək olacaq qüvvələrin də kim olması məlum olmuşdur. Eyni zamanda Ermənistan Baş Naziri Nikol Paşinyanın iştirakı ilə baş verən görüşlər açıq-aydın siyasi meydanın qızışmasından xəbər verirdi. Bütün bunların nəticəsi olaraq döyüş meydanında qələbə qazanan Azərbaycan Ordusu Müzəffər Komandanımızın siyasətini uğurla həyata keçirdi. Məqaləmizin yazılmasında məqsəd təkcə prezident İlham Əliyevin siyasi liderliyini əks etdirmək deyil, həm də Qarabağ problemi ilə bağlı bir çox məsələlərin təfərrüatlarına varmaqdan ibarətdir.*

*Açar sözlər:* İlham Əliyev, Qarabağ münaqişəsi, ATƏT, Aprel döyüşləri, Tovuz döyüşləri,Vətən Müharibəsi, Antiterror əməliyyatı.

***Giriş***. Azərbaycan tarixinin ən böyük salnamələrindən biri məhz Qarabağ müharibəsi ilə bağlıdır. İllər boyu davam edən bu savaş tarixin bir çox sınağını görmüş, bir çox çətinliklərlə üzləşmişdir. Tökülən qanlar hesabına yazılan bu səhifələrin hər biri bizlər üçün önəmli dərəcədə əhəmiyyət kəsb edir. Belə bir sınaq respublikamızın prezidenti cənab İlham Əliyevin siyasətinin də başlıca məqamına çevrilmişdir.

Ümumilli Lider Heydər Əliyevin siyasi liderliyinin başa çatması yeni seçkilərin həyata keçirilməsi Ulu Öndər Heydər Əliyevin siyasətini davam etdirəcək qüdrətli bir prezidentin hakimiyyətə gəlməsini zəruri edirdi. Bunun əsas səbəblərindən biri də məhz Dağlıq Qarabağ münaqişəsi ilə bağlı idi. 1994-cü il də Bişkek müqaviləsinin imzalanması ilə əlaqədar olaraq atəşkəs bağlansa da Ermənilərin əraziyə olan iddiaları səngimək bilmir, müqavilənin imzalanmasına baxmayaraq dəfələrlə atəşkəsin pozulması halları baş verirdi. Bütün bunlar Qarabağ münaqişəsinin həlli məsələsini öz növbəsində zəruri etməklə yanaşı prezident İlham Əliyevin siyasətinin əsas xəttini təşkil edirdi. Bu məsələ ilə bağlı planlarının olmasını Əliyev dəfələrlə öz nitqində vurğulamışdır. Onlardan birincisi məhz prezident seçilməsi ilə bağlı keçirilmiş andiçmə nitqində əks olunur. Cənab prezident deyirdi: "Əgər Azərbaycanda sabitliyin pozulmasına kimsə can atarsa, biz buna imkan verməyəcəyik. Azərbaycan xalqının rahat, təhlükəsiz, sabitlik şəraitində yaşamasını təmin edəcəyik. Bu sabitlik bizə imkan verəcək ki,

gələcəkdə Azərbaycanı daha da sürətlə, hərtərəfli inkişaf etdirək. Bu barədə bizim çoxlu planlarımız vardır. Azərbaycanın hər bir sahəsi inkişaf etməlidir" [1, s.28]. Bütün bunlar bir daha onu deməyə əsas verir ki, prezident fəaliyyətinin əsas istiqamətini məhz Qarabağ məsələsi təşkil edir.

***II Qarabağ müharibəsinə qədər tarixə baxış.*** Məsələ ilə bağlı ATƏT-in Minsk Qrupunun sədrləri ilə dəfələrlə görüşlər keçirilmiş, bu görüşlərin hər birində Dağlıq Qarabağ münaqişəsini doğuran səbəblərə, həmçinin həlli yollarının formalaşdırılması kimi məsələlərə toxunulmuşdur. Prezident seçkilərinin keçirilməsindən sonra ATƏT-in Minsk Qrupu həmsədrləri ilə baş tutmuş görüşdə İlham Əliyev bu məsələyə toxunaraq bildirmişdir: "Biz heç kimin torpağını işğal etməmişik, heç kimin ərazi bütövlüyünü pozmamışıq. Əksinə, bizim torpaqlarımız işğal altındadır, ərazi bütövlüyümüz pozulmuşdur. Biz sadəcə olaraq, öz ərazimizdə beynəlxalq hüquq normalarına əməl olunmasına çalışırıq. Biz bundan sonra da bu istiqamətdə əməkdaşlığımızı davam etdirməliyik. Ümidvaram ki, Minsk Qrupunun fəaliyyəti öz nəticələrini verəcəkdir" [2, s.153]. Buradan bir daha aydın olur ki, sülhsevər siyasəti ilə məsələni beynəlxalq danışıqlar səviyyəsində həll etməyə çalışan İlham Əliyev ATƏT-in Minsk Qrupunun sədrlərinə hörmət və ehtiram bəsləmiş, Qarabağ probleminin həll edilməsi fonunda sədrlərlə dəfələrlə danışıqlar aparmışdır.

Münaqişənin həllinə dair danışıqlar 2009-cu ilin dekabrında Minsk qrupu həmsədrləri tərəfindən təqdim edilmiş - yenilənmiş Madrid prinsipləri əsasında yenidən aparıldı. Rusiya Prezidenti, Dmitri Medvedevin vasitəçiliyi ilə Azərbaycan Respublikasının Prezidenti və Ermənistan Respublikasının prezidenti 2010-cu il yanvarın 25-də Soçidə, iyunun 17-də Sankt-Peterburqda və oktyabrın 27-də Həştərxanda görüşdülər. Tərəflər hərbi əsir və girovların, həmçinin, atəşkəs rejiminin pozulması nəticəsində həlak olmuş şəxslərin cəsədlərinin qaytarılmasına dair birgə bəyanat qəbul etdilər. Danışıqlardan sonra işğalçı Ermənistan Azərbaycanın qəhrəman hərbçilərimiz Mübariz İbrahimov və Fərid Əhmədovun nəşini geri qaytardı [1, s.196]. Minsk Qrupu həmsədr dövlətləri başçılarının 2010-cu il iyunun 26-da Kanadanın Muskoka şəhərində qəbul etdikləri bəyanatda işğal altındakı ərazilərin azad edilməsi, məcburi köçkünlərin öz doğma torpaqlarına qayıtması kimi addımları nəzərdə tutan mərhələli həll modelinin əhəmiyyəti qeyd olunurdu. İşğal edilmiş ərazilərdə Ermənistanın davam edən qeyri-qanuni fəaliyyətləri, o cümlədən qanunsuz məskunlaşdırma, bu ərazilərin iqtisadi istismarı və viran edilməsi barədə Azərbaycanın müraciəti əsasında Minsk Qrupu həmsədrləri işğal edilmiş ərazilərdə ümumi vəziyyətin qiymətləndirilməsi məqsədilə həmin ilin oktyabrın 7-12-də Sahə Qiymətləndirmə Missiyasını həyata keçirdilər [1, s.196]. Lakin qeyd etməliyik ki, Minsk Qrupunun fəaliyyəti bu dəfə də öz nəticəsini göstərməmiş oldu. Minsk Qrupu həmsədrlərinin, Azərbaycan və Ermənistanın xarici işlər nazirlərinin və ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin iştirakı ilə 2013-cü il mayın 17-də Polşanın Krakov şəhərində keçirilən görüşdə danışıqlar prosesinin irəliləməsi üçün mümkün yollar müzakirə edildi [1, s.198]. Buna baxmayaraq müzakirələr bir daha öz nəticəsini verməmiş oldu. Beləliklə, 2014-cü ildə də ATƏT-in Minsk Qurpunun həmsədrləri ilə yenidən görüşlər təşkil edildi. Belə görüşlərdən biri də 2015-ci ildə də baş tutmuşdur. Prezident İlham Əliyevin göstərişləri əsasında dövrünün Azərbaycan Respublikası Xarici İşlər naziri Elmar Məmmədyarov da bu görüşlərdə iştirak etmişdir. Ancaq bir daha onu qeyd etməliyik ki, Minsk Qrupu həmsədrlərinin fəaliyyətləri uzun zaman ərzində həyata keçirilməsinə baxmayaraq öz faydasını verməmişdir.

Burada meydana çıxan əsas məsələlərdən biri də ondan ibarətdir ki, dövlətimizin başçısı özü də ATƏT-in Minsk qrup sədrləri ilə olan danışıqların nəticə vermədiyinin fərqində idi. Bütün bunlara baxmayaraq 1 qarış torpağımızı belə güzəştə getməyəcəyimizi dəfələrlə vurğulamışdır.İ. Əliyev problemlə bağlı aparılan danışıqlar zamanı bu məsələni ATƏT-in Minsk Qrup sədrlərinə bildirməklə yanaşı, 2003-cü ildə Cenevrədə keçirilmiş Zirvə görüşündə Birləşmiş Millətlər Təşkilatının baş katibi Kofi Annana da bildirmişdir: "Münaqişənin həllində vasitəçilik edən ATƏT-in Minsk qrupunun fəaliyyətinin heç bir nəticə vermədiyini təəssüflə xatırlayaraq bildirirəm ki, BMT, digər beynəlxalq təşkilatlar münaqişəyə son qoyulması ilə bağlı qəti sözlərini deməlidir" [2, s.162].

Qeyd etmək lazımdır ki, 2010-cu ildə də ATƏT-in Minks Qrupu həmsədrlərinin rəhbərliyi altında beynəlxalq dəyərləndirmə missiyasının səfəri təşkil edilmişdir. Görüş zaman Missiya üzvləri Azərbaycan da baş verən siyasi vəziyyəti dəyərləndirməklə yanaşı işğal olunmuş ərazilərdə erməni təcavüz-

karlığı ilə də yaxından tanış olmuşlar. Yuxarıda vurğuladığımız məqamlar hüquqi cəhətdən düzgün qiymətin verilməsi üçün atılan addımların bir qismini əhatə etməkdədir.

Toxunduğumuz məsələlərin hər birinə müxtəlif illərdə keçirilmiş sammitlərdə, zirvə görüşlərində, eyni zamanda beynəlxalq cəbhədə aparılan digər görüşlərdə bir daha münasibət göstərilmişdir. Bunların bir qismi Avropa Şurası Parlament Assambleyası ilə keçirilmiş görüşlərdə də əks olunur. Belə ki, 26 yanvar 2016-cı il tarixdə Assambleyanın plenar iclasında Azərbaycanın işğal olunmuş ərazilərinə dair iki hesabat müzakirə edilmişdir:

Siyasi Məsələlər və Demokratiya Komitəsinin məruzəçisi, britaniyalı parlamentari Robert Walter tərəfindən hazırlanmış "Dağlıq Qarabağda və Azərbaycanın işğal olunmuş digər ərazilərində zorakılığın artması" mövzusunda hesabatı, Sosial Məsələlər, Sağlamlıq və Davamlı İnkişaf Komitəsinin məruzəçisi, Bosniya və Herseqovina nümayəndə heyətinin üzvü Milisa Markoviç tərəfindən hazırlanmış "Azərbaycanın sərhədyanı bölgələrinin sakinləri qəsdən sudan məhrum edilir" mövzusunda hesabatı ilə çıxışlar edilmişdir [11]. Bunların hər biri prezidentimiz tərəfindən müsbət qiymətləndirilmişdir.

Bu sahədə atılan addımlar sırasında dövlət başçılarının məsələ ilə bağlı təkbətək görüşləri də önəmli yer tutur. Bunlardan biri kimi 2004-cü il də Rusiya Federasiyasının prezidenti Vladimir Putinlə olan görüşü misal göstərə bilərik. Görüş zamanı Putinin nitqindən: "Şübhə etmirəm ki, biz ikitərəfli, regional və beynəlxalq planda səylərimizi birləşdirsək, insanların təhlükəsizliyini təmin edə biləcəyik" [2, s.354]. Görüşdə müzakirə edilmiş əsas məsələrdən biri terror aktlarının qarşısının alınması ilə bağlı mübarizə olsa da, qeyd etmək lazımdır ki, Dağlıq Qarabağda baş verənlər Cənubi Qafqaz bölgəsinin ən böyük terror aktlarından biri hesab edilə bilər. Məhz bu səbəbdən Putinin çıxışında qeyd olunan bu məqamları nəzərə alaraq bildirməliyik ki, məsələ Rusiya prezidentinin də diqqət mərkəzindədir. Eyni zamanda bu görüşdə dövlət başçıları hər iki tərəfi maraqlandıran beynəlxalq və regional məsələlər ətrafında da fikir mübadiləsi aparmış, siyasi dialoqun bundan sonra da davam etdirilməsinin vacibliyini vurğulamışdırlar.

Dağlıq Qarabağ münaqişəsinə düzgün siyasi rəyin verilməsi ilə bağlı prezidentin 2004-cü il martın 9-da ABŞ Dövlət katibi müavininin Avropa və Asiya məsələləri üzrə köməkçisi Linn Pasko ilə görüşündə də toxunulmuş, bu zaman Prezident İlham Əliyev: "Dağlıq Qarabağ münaqişəsinin öz həllini tapmasının vacibliyini vurğulayıram" [3, s.83] deyə məsələyə sərt mövqeyini bildirmişdir.

Ali Baş Komandanımız - İlham Əliyevin beynəlxalq cəbhədə Dağlıq Qarabağ problemini vurğulaması uzun illər boyu davam etmiş və indi də öz aktuallığını qoruyan əsas mövzulardan biri kimi tarixə keçmişdir. Belə ki, münaqişənin həlli ilə bağlı məsələlər Türkiyə cümhuriyyət başçıları ilə olan görüşlərdə də müzakirə edilmişdir. Bu danışıqlardan biri kimi 2014-cü ildə Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanla keçirilmiş görüşü qeyd etmək olar. "Report.Az"-ın verdiyi məlumata əsasən, danışıqlar zamanı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli yolları ilə bağlı məsələləri müzakirə edib, Azərbaycan ilə Türkiyə arasında dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə bundan sonra da uğurla inkişaf edəcəyinə əmin olduqlarını bildiriblər.

Bununla yanaşı digər dövlət başçıları ilə görüşlərində də İlham Əliyev Dağlıq Qarabağ məsələsinin qaldırmasına nail olmuşdur. Belə ki, İsrailə səfəri zamanı baş tutan danışıqlıqlar əsnasında da bu məsələyə toxunulmuşdur. Bu zaman İsrail - Fələstin münaqişəsini müzakirə edilməklə yanaşı prezident Dağlıq Qarabağ məsələsini də gündəmə gətirmişdir. İsrail prezidenti isə öz növbəsində hər cür yardıma hazır olduğunu bildirmişdir. Hansı ki, bu da Azərbaycan – İsrail arasında əlaqələrin qurulması ilə yanaşı Dağlıq Qarabağ münaqişəsi zamanı Azərbaycana dəstək verici güclərinin formalaşdığını bir daha sübut edir.

Burada qeyd etməli olduğumuz əsas məqamlardan biri də prezidentimizin Ermənistan Baş naziri Nikol Paşinyanla olan görüşləri haqqındadır. Belə ki, 2019-cu ildə Vyanada Ermənistan Baş naziri Nikol Paşinyanla Azərbaycan Respublikası prezidenti İlham Əliyevin görüşü keçirilir. Hətta bu haqda məlumatlar dövrünün Prezident Administrasiyasının xarici siyasət məsələləri şöbəsinin müdiri olan Hikmət Hacıyev öz "Twitter" səhifəsində də paylaşıb. [5]Bu görüşdə Ermənistan Baş naziri ilə Qarabağ münaqişəsinin sülh yolu ilə həll edilməsi nəzərdə tutulsa da, Ermənistan Baş naziri ilə aparılan danışıqlıqlar təkcə bununla kifayətlənmir. Siyasi çıxışlarından birində: "Məsələn, mənə maraqlıdır, Azərbaycan prezidentinin Qarabağ xalqına deyəsi hər hansı bir sözü varmı ki, birbaşa onlarla danışsın?

Məsələn, mənim Azərbaycan ictimaiyyətinə deyəsi çox sözüm var. Və çox məmnun olardım ki, danışıqlar prosesi çərçivəsində bizim belə mükaliməyə dair bir-birimizlə danışmaq imkanımız olsun" – deyə Paşinyan bildirib [6]. Onun bu mövqeyi Prezident İlham Əliyev tərəfindən layiqincə cavabını almış, həmçinin çıxışla bağlı daha sonra keçirilən görüşlərdə də Ali Baş Komandan bu məsələyə toxunaraq öz mövqeyini, eyni zamanda Azərbaycan xalqının tarix boyu ermənilərə qarşı göstərmiş olduğu münasibəti vurğulamışdır.

Qarabağ münaqişəsinin həlli ilə bağlı formalaşan siyasi proseslər nəinki xarici dövlətlərlə olan münasibətlərdə eyni zamanda daxili siyasətinin də əsas istiqamətini təşkil edirdi. Məhz bu sahədə atılan addımlar zamanı qarşıya qoyulmuş əsas məsələlərdən biri də məhz ordu quruculuğu ilə bağlı idi. Xüsusən, İlham Əliyevin siyasi fəaliyyətə başladığı dövrlərdə Azərbaycan ordusu hələ indiki qədər qüdrətli deyildi. Bu səbəbdən ordunun imkanlarının artırılması fonunda bir sıra addımlar atıldı. Bu addımlar sırasında məsələ təkcə silah-sursat ehtiyatının artırılması ilə bağlı deyildi. Azərbaycan gənclərinin hərbi-strateji bacarıqlarının gücləndirilməsi məqsədi ilə həm ölkə daxilində, həm də qonşu dövlətlərdə keçirilən təlimlərdə iştirakına şərait yaradıldı. Beləliklə, öz döyüş bacarığını gücləndirmiş olan Azərbaycan ordusu daha müasir silah- sursat vasitələri ilə təmin edildi. Silah vasitələrinin alınması öz növbəsində böyük maliyyə tələb edirdi. Bu baxımdan prezidentimiz özü nitqində məsələyə yanaşmış, öncəki dövrlərdə Azərbaycanın iqtisadi vəziyyətinin yaxşı olmadığını vurğulamış, lakin "Mən bunu edəcəyəm" deyərək, məsuliyyəti dərk etdiyini bildirmişdir. Azərbaycan xalqının səadəti və təhlükəsizliyini hər şeydən üstün tutan Cənab İlham Əliyev 2010-cu ildən etibarən vəziyyəti daha da yaxşılaşdıraraq ordunu yeni texnologiyalar - müasir tələbatlara cavab verən texniki vasitələrlə, həmçinin müxtəlif silah aparatları eyni zamanda hərbi maşınlarla təmin etmişdir. Onun ordu quruculuğu siyasəti yalnızca bir dövrü əhatə etmədiyini də vurğulamalıyıq. Belə ki, hər daim Azərbaycan ordusunu diqqət mərkəzində saxlayan Ali baş komandan bu məsələyə də hər zaman yaxından münasibət bəsləmiş, lazımi büdcənin ayrılmasında təşəbbüs göstərmişdir. Məsələ ilə bağlı Prezident İlham Əliyev Müdafiə Nazirliyində ordu quruculuğu məsələlərinə həsr olunmuş müşavirəsindəki nitqi zamanı bildirmişdir: "Bizim hərbi xərclərimiz son 5-6 il ərzində 10 dəfədən çox artıb. Orduya ayrılan vəsait 10 dəfədən çox artıb. Hərbi hazırlıq yüksək səviyyədədir. Orduda və bütün Silahlı Qüvvələrdə ruh yüksəkliyi vardır. Son illər ərzində çoxlu texnika, silah-sursat alınmışdır. Bu proses davam edir və bu, bizim təbii haqqımızdır" [8]. Məhz Ali Baş Komandan İlham Əliyevin apardığı ardıcıl siyasətin, diqqət və qayğısının məntiqinin nəticəsidir ki, Azərbaycan Ordusu müasir silah-sursat, döyüş texnikası, onların keyfiyyəti, şəxsi heyətin sayı və döyüş əzmi baxımından düşmən ordusunu dəfələrlə qabaqlayır və ordumuz dünyanın aparıcı 50 ordusu sırasındadır [7]. Ordu quruculuğu siyasətinin öz nəticəsini verməsi Azərbaycan xalqını yeni günlərə səsləyirdi.

Cənab İlham Əliyevin daxili siyasətində Qarabağ münaqişəsi ilə bağlı atdığı addımlar təkcə bunlarla kifayətlənmirdi. Belə ki, Müzəffər Ali Baş Komandanımız işğal edilmiş ərazilərimizdən qaçqın və köçkün düşmüş şəxslərin həyatlarının yaxşılaşdırılmasına çalışırdı. Bununla bağlı olaraq sərəncamlar vermişdir. Qaçqın və köçkün əhaliyə yardım məqsədi ilə dəfələrlə respublikamızda yardım kompaniyalarının həyata keçirilməsi ilə bağlı göstərişlər verilmiş, eyni zamanda lazımı dəstəyin göstərilməsi üçün maliyyə ayırmışdır. "Qarabağ Azərbaycandır" deyən dövlət başçısı qaçqın və köçkün əhalini daim qələbənin baş verəcəyinə ruhlandırırdı. Çünki o bilirdi ki, şanlı günlərimiz heç də uzaqda deyil.

***II Qarabağ müharibəsini doğuran səbəblər və müharibənin baş verməsi.*** Daha öncə də qeyd etdiyimiz kimi atəşkəs rejiminin mövcud olmasına baxmayaraq mənfur qüvvələr öz niyyətlərindən əl çəkmirdilər. Bu illər ərzində səs doğurmuş hərbi əməliyyatlardan biri də 2014-cü ilin avqust ayında baş vermiş döyüşlərlə bağlı idi. Avqustun 8-dən etibarən başlayan bu döyüşlər 12 gün müddətində davam etmiş, I Qarabağ münaqişəsindən sonra formalaşan uzun müddətli mübarizələrdən biri kimi tarixə keçmişdir. Döyüşlər zamanı Azərbaycan tərəfindən 13 nəfər şəhid olsa da Ermənistan rəsmiləri itirdiyi qüvvələrin sayını dəqiqliklə açıqlamaqdan çəkinmişlər. Bu da onu deməyə əsas verir ki, 12 gün ərzində davam edən bu döyüşlərdə Ermənistan tərəfi çoxlu sayda itkilərə və yaralıya məruz qalmışdır. Bütün bu hadisələr azərbaycanlıların döyüş əzmini daha da qüvvətləndirən əsas amillər kimi hesab edilə bilər.

Beləliklə qarşısında duran əsas məqsədlərdən biri məhz Ermənistan Silahlı Qüvvələri tərəfindən işğal edilmiş ərazilərimizin yenidən bizlərə geri verilməsini təmin etmək olan Ali Baş Komandan bu sahədə planların işlənib hazırlanmasında xüsusi nümayəndələrlə çalışmağa başladı. Daha öncə də qeyd etdiyimiz kimi müqavilənin imzalanmasına atəşkəs xəttininin yaradılmasına baxmayaraq Erməni silahlı qüvvələri bu qaydaları pozaraq təmas xətti boyu ərazilərimizi atəşə tuturdu. Baş vermiş münaqişələrdən bir digəri də 2016-cı ilin aprel ayı ilə bağlı idi. Aprelin 1-dən 2-ə keçən gecə hərbi təxribat əməliyyatlarına başlayan Ermənistan Silahlı Qüvvələri cəbhə xəttində yerləşən ərazilərimizi silahlı artileriyalardan atəşə tutmaqla iki nəfər dinc sakinin həyatına son qoydular. Beləliklə Aprelin 2-də Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ali Baş Komandanı Prezident İlham Əliyevin sədrliyi ilə Təhlükəsizlik Şurasının iclası keçirildi. İclas zamanı bildirirdi: “Ermənistan sülh istəmir. Ermənistan işğal edilmiş torpaqlardan geri çəkilmək istəmir və bütün səyləri ona yönəlib ki, status-kvonu saxlaya bilsin” [1, s.151]. Bütün bunların nəticəsi olaraq Azərbaycan silahlı qüvvələri cəbhə xətti boyu ərazilərimizdə Erməni təxribatçı qüvvələrini susdurmaq üçün əməliyyatlara başladılar. Qızğın əməliyyatlar Füzuli, Cəbrayıl, Tərtər rayonları istiqamətində davam etdirildi. Ordu quruculuğu sayəsində gücləndirilmiş ordumuz qısa zaman kəsiyi ərzində bir sıra ərazilərimizdə Azərbaycan bayrağınının yenidən dalğalandırlmasına nail oldu. Beləliklə 2 min hektardan çox ərazimiz azad edildi, hansı ki, onların sırasında Cəbrayıl rayonunun ərazisində yerləşən Çocuq Mərcanlı kəndi bizlər üçün xüsusi önəm daşıyırdı. Belə bir müharibəyə hazır olmayan erməni qüvvələri, atəşkəs imzalanmasının tərəfdarı idilər. Məhz bu səbəbdən aprelin 5-i Rusiya Federasiyasının da vasitəçiliyi ilə Azərbaycan - Ermənistan cəbhə boyu təmas xətləri arasında atəşkəsin bərpası baş tutdu. Atəşkəsin imzalanması ilə ATƏT-in Minsk qrupunun yenidən fəaliyyətini canlandıraraq “Madrid prinsipi”ni irəli sürdü. Qeyd edək ki, bu prinsipin şərtlərinə, əsasən, yalnız ərazilər Azərbaycana geri verildikdən sonra ərazilərin hüquqi statusu beynəlxalq səviyyədə müəyyənləşməli idi. Ancaq yuxarıda da bildirdiyimiz kimi ATƏT-in Minks Qrupu həmsədrlərinin bu fəaliyyətləri də uğursuzluqla nəticələndi.

2016-cı ilin yaz aylarında baş verən bu proseslər Birləşmiş Millətlər Təşkilatının da diqqət mərkəzindən yayınmadı. Qanlı döyüşlərin gedişində BMT Baş katibi hər iki tərəfləri hərbi əməliyyatlara son qoymağa, atəşkəs rejiminə tam əməl etməyə və vəziyyətin sabitləşməsindən ötrü addımlar atmağa çağırdı. Prezident İlham Əliyev Azərbaycana təzyiq etmək istəyən dövlətlərə açıq və qəti şəkildə xəbərdarlıq edərək dedi: “Biz öz torpağınızda vuruşuruq. Ermənistan torpağını işğal etməmişik. Əgər erməni ölmək istəmirsə Azərbaycan torpaqlarından rədd olsun” [1, s.152] Bununla da sərt mövqeyini açıq şəkildə ifadə etmiş Ali Baş Komandan bir daha beynəlxalq ictimaiyyətə bu ərazilərin bizlərə xas olduğunu bildirmişdir. Bütün bunlara baxmayaraq hər zaman olduğu kimi əldə edilmiş atəşkəs razılaşmasını dəfələrlə pozan erməni qüvvələri aprelin 5-indən etibarən yenidən fəallaşaraq cəbhə boyu ərazilərimizi yenidən silahlı atəşə tutmağa başladılar. Azərbaycan silahlı qüvvələrinin həyata keçirmiş olduğu lazımi əməliyyatlar nəticəsində xeyli itki verən düşmən tərəfi Azərbaycan ordusunun bu qələbəsinə qatlanmalı oldu. Qısa zaman ərzində baş verən bu müharibədə işğalçı ordunun” 30-dək tankı sıradan çıxarıldı, 320 hərbçisi məhv edildi və 500-dən çoxu yaralandı” [1, s.154].

Bir daha qeyd edək ki, bu müharibə yalnız təmas xəttində deyil eyni zamanda dövlətlərin apardığı siyasətin və Azərbaycana qarşı olan baxışların hansı bucaqdan formalaşdığını üzə çıxarmış oldu. Məhz 4 gün davam edən Aprel döyüşləri zaman Türkiyə cümhuriyyəti bir gün belə olsun dəstəyini bizlərdən əsirgəmədi. Hadisə baş verdikdən dərhal sonra Prezident Rəcəb Tayyib Ərdoğan Prezident İlham Əliyevə zəng edərək vəziyyətlə maraqlandı, ölkəsinin Azərbaycanın haqq işinin yanında olduğunu bildirdi [1, s.153].

Aprel döyüşlərinin başa çatması ilə Cənab İlham Əliyev döyüşlərdə igidlik göstərmiş, qəhrəman oğulların mükafatlandırılmasını həyata keçirdi. Ölkə başçısının 2016-cı il 19 aprel tarixli müvafiq sərəncamları ilə silahlı qüvvələrin 3 hərbçisi Azərbaycanın Milli Qəhrəmanı, 7 hərbçisi “Azərbaycan bayrağı: 1 hərbçisi 2-ci dərəcəli və 4 hərbçisi 3-cü dərəcəli “Vətənə xidmətə görə” ordeni, 19 hərbçisi “Vətən uğrunda” medalı, 43 hərbçisi “İgidliyə görə” medalı, 45 hərbçisi “Hərbi xidmətlərə görə” medalı, 2 nəfər isə general-mayor ali hərbi rütbəsi ilə təltif edildilər [1, s.155].

Beləliklə, “Aprel döyüşləri” tariximizə daha bir qızıl səhifə olaraq yazıldı. Xalqımız bu tarixi qələbənin bizlərə vermiş olduğu ruh yüksəkliyi ilə daha sonrakı illərdə formalaşacaq halların öhdəsin-

dən igidliklə gəlməyi bacardı. Bu da öz növbəsində Ali Baş Komandanımızın hərbi, həmçinin mənəvi qələbəsi idi.

Aprel qələbəsinin bizlərə yenidən bəxş etdiyi ərazilərimizdə bərpa-quruculuq işlərinin görülməsini həyata keçirmək məqsədi ilə Prezident İlham Əliyev sərəncam verdi. Beləliklə, xüsusi layihə hazırlanmış, işğaldan azad edilmiş ərazilərimizdə yenidən həyatın dirçəldilməsi fonunda önəmli addımlar atılmışdır. Sərəncama əsasən Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinin bərpası üçün görüləcək işlər çərçivəsində birinci mərhələdə 50 fərdi yaşayış evinin, məktəb binasının və müvafiq infrastrukturun tikintisi üçün Azərbaycan Respublikasının 2017-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan Azərbaycan Respublikasının Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinə ilkin olaraq 4 milyon manat vəsait ayrıldı [1, s.156]. Bu da ölkəmizin başçısının "Böyük Qayıdış" siyasəti üçün atmış olduğu addımların kiçik bir hissəsini təşkil edirdi.

Qarabağ münaqişəsi ilə bağlı məsələlər daha sonrakı dövrlər üçün də xüsusi əhəmiyyət kəsb edirdi. Uğurlu siyasətinin bir parçası olaraq Azərbaycan Ordusu hər zaman müharibəyə hazır vəziyyətdə idi. Hər il dəfələrlə atəşkəsin pozulması hallarını aradan qaldıran Azərbaycan əsgəri 2019-cu ildə də bunun qarşısını almalı oldu. Lakin yuxarıda da bildirdiyimiz kimi müharibə təkcə döyüş meydanında getmirdi. Siyasi cəbhədə özünə inamlı mövqe qazanmağa çalışan Nikol Paşinyan bölgədə separatçılıq fəaliyyətini törətməkdən əl çəkmir, Erməni xalqının mənfur niyyətlərini özündə cəmləməklə müxtəlif addımlar atırdı. Bunlardan ən hərəkət verici qüvvə isə 2019-cu ildə Dağlıq Qarabağa etdiyi qanunsuz səfərlə bağlı idi. N.Paşinyanın Azərbaycanın işğal altındakı torpaqlarına qanunsuz səfər etməsi Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı aparılan sülh danışıqlarının ruhuna ziddir [9]. Paşinyanın "Qarabağ Ermənistandır və nöqtə" ifadəsi və buna dünya birliyinin cavabsız qalması göstərdi ki, Azərbaycan Respublikası Dağlıq Qarabağ münaqişəsi haqqında BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi qətnamələri özü reallaşdırmalıdır. Səfər çərçivəsində Dağlıq Qarabağın Ermənistana aid olduğunu vurğulayan baş nazir Cənab İlham Əliyev tərəfindən lazımi cavabını da aldı. "Qarabağ Azərbaycandır!" Bütün bunlar bölgədə baş verən siyasi addımları alovlandırmaqla yanaşı hər iki ölkənin müharibəyə olan hazırlıqlarının gücləndirilməsinə gətirib çıxarmışdı. Açıq - aydın müxtəlif ölkələrdən silah yardımı məqsədi güdən Nikol Paşinyan dəfələrlə ölkələrlə əlaqələr saxlamışdır. Hanı ki, onlardan biri məhz regionda yerləşən Rusiya Federasiyası idi. Bununla yanaşı Erməni mənfurlarına dəstək çıxan bir sıra ölkələr də münaqişə zamanı köməklərini əsirgəməyəcəklərini açıq şəkildə bildirmişdilər. Sözsüz ki, bunların hər biri müzəffər komandirimizin diqqət mərkəzindən yayınmamışdır. Belə ki, Ermənistan tərəfinin atmış olduğu bu addımları siyasi cəbhədən izləyən İlham Əliyev məsələ ilə bağlı beynəlxalq qurumlarla keçirilən konfranslar zamanı bildirmişdir: "Biz Ermənistanda artmaqda olan silah təchizatından ciddi narahatıq. İyulun 17-dən etibarən sentyabr ayına qədər biz hərbi yük təyyarələri ilə Ermənistana min tondan artıq hərbi avadanlığın daşınmasının şahidi olduq. Ermənistanın dünyanın ən yoxsul ölkələrindən biri olduğunu və silahlara milyardlarla dollar xərcləmək imkanına malik olmadığını nəzərə alsaq, silahların ona pulsuz verildiyi qənaətinə gələ bilərik. Etnik təmizləmə aparmış işğalçı ölkənin silahlarla təchiz edilməsi sülh danışıqlarını ciddi şəkildə sarsıdır və işğalçı dövləti yeni hərbi təxribatlara əl atmağa həvəsləndirir. Bu mənada biz bütün ölkələri Ermənistana silah təchizatından çəkinməyə çağırırıq" [4]. Bütün bunlar bir daha onu deməyə əsas verir ki, özlüyündə silah-sursat toplamağa çalışan mənfur qüvvələr müharibəyə hazırlaşır. Belə bir zamanda Prezident İlham Əliyev də baş verən siyasi proseslərə göz yuma bilməzdi. Elə bu səbəbdən xarici ölkələrlə edilən beynəlxalq konfranslar zamanı öz mövqeyimizi ifadə etməyin bir nəticə verməyəcəyini nəzərə alan İ.Əliyev müharibə astanasında olduğumuzun fərqində idi.

Ermənistan rəhbərliyinin sülhü pozan addımları səngimək bilmir və bu da öz Azərbaycan ordusunun səbrinin daşmasına gətirib çıxarırdı. Belə ki, 2020-ci ilin iyul ayından etibarən təxribat xarakterli addımları ilə baş qaldıran Ermənistan ordusu təmas boyu ərazilərimizi yenidən ağır artilleriya vasitələri ilə silahlı atəşə tutmağa başladı. Döyüşlər Tovuz istiqamətində həyata keçirilərək 11 gün ərzində davam etdirildi. Azərbaycan ordusunun qüvvəti və 11 gün aparılan şiddətli döyüşlər nəticəsində separatçı qüvvələr yerində oturduldu. Döyüşlər zamanı general-mayor Polad Həşimov başda olmaqla Azərbaycan ordusunun 12 hərbçisi qəhrəmancasına həlak oldu. Döyüşlərdən sonra Prezident həlak olmuş Azər-

baycan igidlərinin ailələrinə başsağlığı bildirərək dərin hörmət və ehtiram hiss ilə onları yad etdi. Həmçinin şəhid olmuş hərbçilərin ailələrinə xüsusi diqqət göstərilməsi məqsədi ilə lazımı vəsaitin ayrılması fonunda göstərişlər verdi. Tovuz döyüşlərinin baş verməsi Qarabağda baş verən bu proseslərin daha da alovlanmasına gətirib çıxarırdı. İlham Əliyevin apardığı güclü ordu quruculuğu siyasətinin davam etdirilməsi bu dövrlərdə də intensiv hal aldı. Beləliklə Ermənistan ordusunun döyüşə hazırlaşdığının fərqində olan Ali Baş Komandan Azərbaycan ordusunun qüvvətləndirilməsi üçün bir daha əsaslı addımlar atdı. Xüsusilə də ordununun təchiz edilməsi ilə bağlı geniş addımlar atdı, hansı ki bunların nəticəsi kimi” Bayraktar” və “Harop” kimi pilotsuz uçuş aparatları əldə edildi.

Siyasi proseslərin gücləndiyi dövrdə Ermənistan havadarlarına səslənməkdən çəkinməyən İlham Əliyev məsələnin yalnız döyüş meydanında həll edilə biləcəyinin fərqində idi. Bu səbəbdən də Ermənistan ordusu tərəfindən açılmış kiçik bir atəşə belə göz yummadan əks hücum əməliyyatlarına keçməyi qarşısına məqsəd qoyaraq silahlı qüvvələrimizin komandirlərinə bununla bağlı məlumat verdi.

Beləliklə, sentyabrın 27-si səhər saatlarında təxribata başlayan Ermənistan Silahlı Qüvvələri Tərtər, Füzuli, Cəbrayıl, Ağdam istiqamətlərində mövqelərimizi atəşə tutmağa başladı. Bu zaman lazımi igidliyi göstərən Azərbaycan ordusu dərhal təxribatçılara qarşı əks hücum əməliyyatlarına başladı. 28 sentyabrdan etibarən isə ölkə ərazisində prezidentin fərmanı ilə qismən səfərbərlik və hərbi vəziyyət elan edildi. Bütün bunların nəticəsi olaraq qızğın əməliyyatlar həyata keçirildi və nəticədə ordumuz bir sıra ərazilərimizi döyüşlərin başladığı ilk günlərdən etibarən geri qaytarmağa müvəffəq oldu. Beləliklə, Cəbrayıl şəhəri və rayonun 80 kəndi, Füzuli şəhəri və rayonun 53 kəndi, Zəngilan şəhəri və rayonun 52 kəndi, Qubadlı şəhəri və rayonun 41 kəndi, həmçinin Hadrut qəsəbəsi, Laçın və Tərtər rayonlarının 3 kəndi işğaldan azad edildi. Bütün bunlar haqqında məlumatları prezident öz rəsmi “Twitter” səhifəsində bölüşərək xalqa elan etmişdir.

Müharibə gedişində formalaşan əsas məsələlərdən biri də Ermənistan tərəfinin atəşkəs danışıqlarının aparmasına cəhd göstərməsi ilə bağlı idi. Müharibə zamanı atəşkəs danışıqlarının həyata keçirilməsinə cəhd göstərən Ermənistan nümayəndəsi oktyabr ayının əvvəlində Moskva vasitəsi ilə bu danışıqlara nail olsa da daha sonradan verdikləri vədləri yenidən xələf çıxmış,atəşkəsi pozmuşdular. Həmçinin ABŞ-la da danışıqlar aparan N. Paşinyan bir daha atəşkəs razılıqlarına nail olsa da bu sükutu özü pozaraq müharibəyə davam etmiş və Azərbaycan Silahlı Qüvvələri tərəfindən layiqincə susdurulmuşdur.

Müharibə zamanı nəzərə çarpan əsas məqamlardan biri də müxtəlif ölkələrin media nümayəndələri ilə keçirilmiş görüşlərlə bağlı idi. Kütləvi informasiya vasitələrinin üzvlərini bir araya toplayan dövlət başçısı erməni rəhbərlərindən fərqli olaraq baş verən siyasi hadisələri öz reallığı ilə media nümayəndələrinə çatdırmışdır. Media nümayəndələri ilə görüşlər zamanı ona ünvanlanan sualları tam sərbəstlik, həmçinin tarixi dəqiqlikləri ilə əks etdirməsi bir daha onun bacarıqlı bir sərkərdə olduğunu bizlərə, həmçinin xarici dövlət nümayəndələrinə sübut etmiş oldu. Məhz bunun nəticəsidir ki, düşmən mövqeyindən məsələyə yanaşan Qarabağı hər zaman qondarma Dağlıq Qarabağ kimi qələmə verən xarici media nümayəndələri, cənab prezidentimizin göstərdiyi faktlar və realıqlar qarşısında aciz qaldılar. Media nümayəndələrinin bir qismi münaqişə zonasına yollanaraq burada baş verənləri canlı yayımlar vasitəsi ilə dünya ölkələrinə çatdırdılar. Belə müxbirlərdən biri də məhz Fulya Öztürk olmuşdur. Daha sonrakı dövrlərdə verdiyi açıqlamasında Fulya xanım bildirmişdir: “İnsanlar o qədər inanırdılar ki, bu zəfərin əldə olunacağına, əslində, bu inanc qələbəyə səbəb oldu. Azərbaycan Ordusu çox güclü idi. Amma Prezident İlham Əliyevin inancı “Nə oldu Paşinyan?”, “Dəmir yumruq” kimi sözləri bütün dünyada yaddaşlara həkk olundu. Mən insanların bunu unudacağına inanmıram” [13]. Eyni zamanda digər müxbirlər tərəfindən hazırlanan xəbər bloqları dünyanın müxtəlif ölkələrində yayımlanaraq dünya ictimaiyyətinə çatdırıldı. Azərbaycanın hərb meydanında tarixi qələbəsini yüksək dəyərləndirən dünyanın bir sıra hərbi-siyasi ekspertlərinin fikirlərini Ukraynanın “İnter” telekanalının müxbiri də təsdiq etdi: “Azərbaycanın işğal olunmuş rayonlarının azad edilməsi üçün xüsusi əməliyyat mənim fikrimcə həm hərbi texnologiyaların tətbiqi baxımından, ən başlıcası, dinc əhali və hərbçilər arasında təléfatın minimuma endirilməsi, həm də yeni hərbi texnologiyaların tətbiqi baxımından nümunəvi əməliyyat idi. Azərbaycan bütün dünyaya göstərdi ki, səngər müharibəsi artıq keçmişdə qalıb və mən əminəm ki, bu bir çox hərbi məktəblərin dərsliklərinə daxil ediləcək” [12]. Bütün bunların hər biri

beynəlxalq aləmdə formalaşmış Qarabağla bağlı olan yanlış stereotiplərin qırılmasına səbəb olmuşdur. Diplomatik mübarizənin əsas qollarından olan informasiya müharibəsi zamanı da prezidentimizin göstərdiyi şücaət nəticəsində Azərbaycan xalqı bir daha qələbə qazandı.

"Dəmir Yumruq" siyasətinin uğurla davam etdirilməsi, döyüş meydanında qazanılan qələbələr ardıcıl olmasına gətirib çıxarmışdı. Oktyabr ayının sonlarından etibarən qarşıya qoyulmuş əsas məqsədlərdən biri Şuşanın azad edilməsini təmin etmək idi. Beləliklə, Şuşa istiqamətində igidlik göstərən ordumuz şanlı tariximizin əsas səhifələrindən birini yazmış oldu. Şuşanın azad edilməsi ilə bağlı məlumatı gecə saatlarında xalqa efir vasitəsi ilə çatdırmış müzəffər komandanımız "Twitter" hesabındakı paylaşımında belə deyirdi: "Əziz Şuşa, sən azadsan! Əziz Şuşa biz qayıtmışıq! Əziz Şuşa, biz səni dirçəldəcəyik! Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!".

Şuşanın azad edilməsi müzəffər komandanımızın uzun illər boyu apardığı siyasi mübarizənin qələbə ilə nəticələndiyini açıq-aşkar sübut etmiş oldu. Nəhayət yenidən sülh danışıqlarına başlanıldı. Nəticədə noyabrın 9-dan 10-a keçən gecə 3 dövlətin rəsmiləri arasında (İlham Əliyev, N.Paşinyan və. V.Putinlə birgə) üçtərəfli bəyanat imzalandı. Bəyanatın şərtlərinə əsasən, Dağlıq Qarabağ streotipi qırılmış, həmçinin Qarabağın bir sıra şəhərləri müharibə aparılmadan Azərbaycan Respublikası ərazilərinə geri qaytarılmışdır. Beləliklə 44 gün davan etmiş İkinci Vətən müharibəsi müdrik dövlət xadimi Prezident İlham Əliyevin prinsipial mövqeyi vasitəsi ilə hərb, həmçinin diplomatiya meydanında uğurla qələbə qazanmış oldu.

Müharibənin bitməsinin ardından işğaldan azad edilmiş ərazilərdə quruculuq işlərinin həyata keçirilməsi fonunda mühüm addımlar atılmağa başladı. Məhz bu sahədə fəaliyyətlərin aparılması üçün 2021-ci ildə "Qarabağ Dirçəliş fondu" yaradıldı. Fondun əsas məqsədi işğaldan yenicə azad edilmiş ərazilərdə təhlükəsizliyi təmin etmək eyni zaman da erməni mənfurlarının burada törətdikləri vəhşiliyin nəticəsi olaraq dağıdılmış ərazilərdə yenidən həyat fəaliyyətini təmin etmək üçün şərait yaratmaq idi. Qalib komandanın qarşısına qoyduğu əsas məqsədlərdən biri də Qarabağımızda yenidən həyatın canlanmasını təmin etmək idi. Bununla bağlı dövlət büdcəsindən ayrılmış müəyyən vəsait hesabına yeni yollar, işıq və su xətləri çəkilmiş oldu. Quruculuq işlərində yüksək texnologiyanın tətbiq edildiyi layihələr ("ağıllı şəhər" va "ağıllı kənd" konsepsiyalarının birləşdirilməsi, "yaşıl enerji zonaları və s.) icra edilməkdədir. İşğaldan azad edilmiş şəhər və rayonların ölkə rəhbəri tərəfindən ziyarət olunması və oradakı quruculuq işlərinə daim nəzarət edilməsi Qarabağın yenidən abadlaşdırılmasının ölkə üçün xüsusi əhəmiyyət daşıdığını göstərir [4]. Bütün bunlar Azərbaycan xalqının uzun illlik Qarabağ həsrətinə son qoyan İlham Əliyevin "Böyük Qayıdış" siyasətinin əsasını təşkil edirdi.

Müharibə sonrasında atılmış bir digər addım da, müharibə zamanı iştirak edərək igidlik göstərən, Azərbaycan Ordusunun qüdrətli oğullarının müxtəlif medallarla təltif edilməsi idi. Beləliklə prezidentin göstərişi ilə, "Zəfər", "Qarabağ" ordenləri, "Vətən Müharibəsi Qəhrəmanı" fəxri adı həmşinin işğaldan azad edilmiş hər bir ərazi adlarına əsasən xüsusi medallar təsis olundu.

Dillərə dastan olmuş bu şanlı günlər daha sonrakı illərdə də öz qüdrətini davam etdirirdi. Müharibənin ilk günlərindən bizlərə dəstək olan Türkiyə Respublikasının Prezidenti Ərdoğan ilə 2021-ci ildə Qarabağa səfər etmiş İlham Əliyev bu iki ölkənin dostluq və qardaşlıq münasibətlərini bir daha özündə əks etdirən "Şuşa bəyannaməsi"nin imzalanmasına nail oldu. Bəyannamənin şərtlərinə əsasən: "Tərəflərdən hər hansı birinin fikrincə, onun müstəqilliyinə, suverenliyinə, ərazi bütövlüyünə, beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığına və ya təhlükəsizliyinə qarşı üçüncü dövlət və ya dövlətlər tərəfindən təhdid və ya təcavüz edildiyi təqdirdə, tərəflər birgə məsləhətləşmələr aparacaq və bu təhdid və ya təcavüzün aradan qaldırılması məqsədilə BMT Nizamnaməsinin məqsəd və prinsiplərinə müvafiq təşəbbüs həyata keçirəcək, bir-birinə zəruri yardım göstərəcəklər" [4]. Bununla da Azərbaycan və Türkiyə Respublikaları arasında illər boyu formalaşmış dostluq və qardaşlıq siyasəti daha da gücləndirilmiş oldu.

***Antiterror əməliyyatı.*** Qarabağda baş verən siyasi proseslər təkcə bununla bitmirdi. Erməni təxribatlarının bir qismi müharibənin səngiməsindən və atəşkəsin əldə edilməsindən sonra yenidən görünməyə başlamışdı. Müxtəlif zaman kəsiyində həyata keçirilən təxribat aktları Azərbaycan ordusunun nəzərindən yayınmırdı. İmzalanan müqavilələrə məhəl qoymayaraq öz işğalçı siyasətini davam etdirən düşmən qüvvələrinin ən kəskin addımlarından biri 2023-cü ilin sentyabr ayından etibarən yenidən can-

lanmağa başladı. BBC Azərbaycanın verdiyi məlumata görə, sentyabrın 19-u, günün birinci yarısında Qarabağda dördü polis əməkdaşı, ikisi mülki şəxs olmaqla altı nəfər Xocavənddə eyni istiqamətdə mina partlaması nəticəsində həlak olduqdan sonra Azərbaycan bunu "terror aktı" adlandıraraq elə həmin gün hərbi əməliyyatlara başlayıb. Beləliklə, bu silahlı münaqişə 24 saat ərzində davam edərək Azərbaycan qüvvələrinin qələbəsi ilə başa çatmışdır. Qısa zaman ərzində baş verən bu əməliyyatlar Ali Baş Komandanın göstərişi ilə öz layiqli məqamına çatır. Nəticədə Azərbaycanın dilbər guşələrindən olan Xocavənd, Xocalı, Ağdərə əraziləri də düşmən tapdağından xilas edilir. Bu ərazilərimizdə də Azərbaycan bayrağı ucaldılır. Hərbi əməliyyatların baş verdiyi ilk gündən etibarən bunu etnik təmizləmə adlandırsalar da, Prezident İlham Əliyev bildirib ki, əməliyyat zamanı yalnız hərbi infrastruktur hədəfə alınıb [14]. Antiterror əməliyyatı kimi tariximizə yazılan bu səhifələr bir daha Cənab İlham Əliyevin uğurlu siyasətinin olduğunu sübut edirdi.

***Nəticə***. Ordusuna və xalqına daim xüsusi hörmətlə yanaşmış qalib ölkənin prezidenti İlham Əliyev bu gün də Qarabağla bağlı siyasətlərinin həyata keçirilməsinə davam edir. Məsələ ilə bağlı həm ölkə daxilində eyni zamanda xarici dövlətlərlə də müzakirələr aparılır. Müxtəlif layihə və tədbirlərin həyata keçirilməsi üçün planlar tərtib edilir, təhsil müəssisələrində uşaqların maarifləndirilməsi sahəsində böyük addımlar atılır. Qarabağ münaqişəsi ilə bağlı məsələlərin müzakirə olunduğu tədbirlərdən birində İlham Əliyev demişdir: "Regionda vəziyyət dəyişir və böyük dərəcədə dəyişikliklərin təşəbbüskarı Azərbaycandır. Bu təbiidir, çünki biz Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazisinin üzərində suverenliyini tam bərpa etməli idik. Biz bunu sülh yolu ilə etmək istəyirdik, eyni şəkildə biz təqribən 30 il ərzində Ermənistan ilə münaqişəni dinc yolla həll etmək istəyirdik. Lakin təəssüflər olsun ki, bu mümkün olmadı. Bunun bir çox səbəbi var idi və biz onları ötən görüşlərimizdə ətraflı şəkildə müzakirə etmişik". Buradan da bir daha aydın olur ki, bu mürəkkəb siyasəti uğurla davam etdirmiş ölkə rəhbəri Qarabağ məsələsinə hər zaman xüsusi həssaslıqla yanaşmışdır. Məhz bu siyasətin nəticəsidir ki bu gün Qarabağ Bizimdir! Qarabağ Azərbaycandır!

## ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasının tarixi. 1991-2021. II cild. Bakı, BDU, 2021, 520 s.
2. Əliyev İ. İnkşaf məqsədimizdir. II kitab. Bakı, Azərnəşr, 2009, 432 s.
3. Əliyev İ. İnkişaf məqsədimizdir. III kitab. Bakı, Azərnəşr, 2009, 209 s.
4. Məmmədov K.H., Bayramov A.C., Qulusoy R.E. Qarabağ uğrunda vətən müharibəsi (İkinci Qarabağ müharibəsi) // Tələbə qəbulu-2022, Abituriyentlər üçün elmi-metodiki məqalə, №2, s.86-95. - https://www.academia.edu/75776436/TAR%C4%B0X%C4%B0_V%C9%99t%C9%99n_M%C3%BCharib%C9%99si [30.12.2024].
5. İlham Əliyev və Nikol Paşinyanın Vyanada görüşü keçirilib // BBC News Azərbaycanca, 29 Mart 2019. - https://www.bbc.com/azeri/azerbaijan-47737281 [30.12.2024].
6. Nikol Paşinyan erməni və azərbaycanlılar arasında birbaşa dialoq tərəfdarı olduğunu bildirib // BBC News Azərbaycanca, 19 Mart 2019. - https://www.bbc.com/azeri/region-47632404 [30.12.2024].
7. Ali Baş Komandan İlham Əliyev: Azərbaycan Ordusu dünyanın ən güclü orduları sırasındadır // Azərbaycan Respublikası Müdafiə Nazirliyi, 22 iyun 2018. - https://mod.gov.az/az/pre/23115.html [30.12.2024].
8. Prezident İlham Əliyevin Müdafiə Nazirliyində ordu quruculuğu məsələlərinə həsr olunmuş müşavirədə nitqi // Prezident.az, 23 aprel 2010. - https://president.az/az/articles/view/226 [30.12.2024].
9. Paşinyanın Qarabağa qanunsuz səfəri: idman üzərindən siyasi oyunlar / Oxu.az, 05 avqust 2019. - https://oxu.az/siyaset/pasinyanin-qarabaga-qanunsuz-seferi-idman-uzerinden-siyasi-oyunlar [30.12.2024].
10. Azərbaycan və Türkiyə prezidentləri Dağlıq Qarabağ münaqişəsinin həlli yollarını müzakirə edib / Report İA, 1 dekabr 2014. - https://report.az/qarabag/azerbaycan-ve-turkiye0112201444/ [30.12.2024].

11. Avropa Şurası və keçmiş Ermənistan-Azərbaycan münaqişəsi / AR-nın Avropa Şurası yanında daimi nümayəndəliyi, 16.05.2022. - https://coe.mfa.gov.az/az/content/51/avropa-surasi-ve-kecmis-ermenistan-azerbaycan-munaqisesi [30.12.2024].
12. Azərbaycanın Vətən müharibəsində hərbi-diplomatik və tarixi Qələbəsini reallaşdıran müdrik dövlət xadimi / Yeni Azərbaycan, 18.04.2012. - https://yeniazerbaycan.com/SonXeber_e82193_az.html [30.12.2024].
13. Fulya Öztürk: "İlham Əliyevin sözləri bütün dünyada yaddaşlara həkk olundu" / Baku News, 9-11-2023. - https://bakunews.az/gundem/10201-fulya-ozturk-lham-eliyevin-sozleri-butun-dunyada-yaddaslara-hekk-olundu-.html [30.12.2024].
14. 19-20 sentyabr hərbi əməliyyatlarından bir il sonra: Azərbaycanda ilk dəfə Dövlət Suverenliyi Günü qeyd olunur // BBC News Azərbaycanca, 27 Sentyabr 2023. - - https://www.bbc.com/azeri/articles/cv20l7njnlvo [30.12.2024].

**RAMZI SAFARLI**
*Baku State University*
*4th year student of the Faculty of History*

## PRESIDENT ILHAM ALIYEV'S ACTIVITIES TOWARDS RESOLVING THE ARMENIA-AZERBAIJAN NAGORNO-KARABAKH CONFLICT

From the moment the Republic of Azerbaijan declared its independence, the ongoing Karabakh conflict has remained a defining issue throughout various periods of its history, leaving a significant impact on President Ilham Aliyev's administration. Striving to successfully continue the strong policies initiated by Heydar Aliyev, this resolute leader consistently worked towards ensuring the global community's accurate political assessment of the conflict. Much of these efforts were connected to the activities of the OSCE Minsk Group.

In addition, during meetings held with the Parliamentary Assembly of the Council of Europe, President Ilham Aliyev repeatedly highlighted the Karabakh conflict, emphasizing the need for peaceful negotiations to resolve the issue. Furthermore, in meetings conducted with the support of the United Nations, the president consistently expressed Azerbaijan's stance. Despite receiving positive feedback from European countries on resolving the issue, these promises often failed to yield concrete results.

A pivotal aspect of President Aliyev's successful diplomacy involved meetings with heads of state from various nations. These official meetings, held over the years, included representatives from countries such as Israel, Turkey, Russia, Georgia, and Pakistan. Through these discussions, the attitudes of neighboring and regional states towards the conflict were clarified, and potential allies in the struggle were identified.

Meetings involving Armenian Prime Minister Nikol Pashinyan also underscored the intensity of the political climate, signaling an escalating diplomatic confrontation. Ultimately, the victorious Azerbaijani Army, under the guidance of its commander-in-chief, implemented President Aliyev's policies successfully on the battlefield.

This article aims not only to reflect on Ilham Aliyev's political leadership but also to delve into various aspects of the Karabakh conflict, offering detailed insights into its complexities and resolutions.

*Keywords:* Ilham Aliyev, Karabakh conflict, OSCE, April battles, Tovuz battles, Homeland War, Anti-terrorist operation.

*Daxil olma tarixi*: 30.12.2024-cü il.
*Çapa imzalanma tarixi*: 31.01.2025-ci il.

UOT 32:93/94

**ŞAİQ MƏDƏTOV**
*Azərbaycan Respublikasının Prezidenti yanında*
*Dövlət İdarəçilik Akademiyası, "Gənclərlə iş ixtisası" üzrə II kurs magistrantı*
**saiqmedet@gmail.com**

# EKOLOJİ ŞÜURUN FORMALAŞDIRILMASINDA EKOLOJİ TƏHSİL VƏ TƏRBİYƏNİN ROLU

*Elmi rəhbər:*
siyasi elmlər üzrə fəlsəfə doktoru Cahangir Cahangirli

Gənclik illərində Səfəvi ordusunun Osmanlı üzərindəki qələbələrində çox böyük rolu olan, xalq arasında sevilən, dövlətdə özünə daha çox tərəfdarlar tapan (20 ilə yaxın zindan həyatı yaşamasına rəğmən) Şah II İsmayıl hakimiyyətə gəlişinin ilk aylarından etibarən dini təmayüllə əlaqəli ikibaşlı qərarlarla çıxış etməsi ilə də diqqət çəkirdi. Səfəvi sarayında hələ Şah I Təhmasib dövründə sünniliyə rəğbəti ilə damğalanmış Mirzə Məxdum Şərifi II İsmayılın hakimiyyətə gəlişi ilə sədr məqamına gətirildi, dini məsələlərlə bağlı qərarların qəbul edilməsinə rəhbərlik ona tapşırıldı.

Xalq arasında gəzən şayiələr şahın sünni təriqətinə keçdiyinə şübhə yaradırdı. Təbii ki, qızılbaş əyanlar bu işdən narazılıqlarını öz aralarında müzakirə edir, şaha qarşı çıxmağa cəsarət etmirdilər [1, s.214].

Şahın sünnilik lehinə çıxışlarından istifadə edən Mirzə Məxdum əvvəlki üç xəlifənin (Əbubəkr, Ömər və Osmanın) lənətlənməsi məsələsinin ləğvini ortaya atdı. Şah II İsmayıl şiə ruhanilərinin etirazına baxmadan sünni üləmalarını (Mirzə Məxdum Şərifini, Mir Məxdum Laləni, Mövlana Mirzə-

can Şirazini) öz ətrafına cəm edib üç xəlifənin lənətlənməsini qadağan etdi. Şahın sünni əqidəsinə meyilliliyi Mirzə Məxdumun şikayətinə əsasən məscidə göndərdiyi qorçilərin cümə xütbəsindən sonra "Əli düşmənlərinə lənət olsun" sözlərini deyən dərviş Qəmbərin əvvəl Mirzə Məxdum tərəfindən ədəbsizlikdə suçlanması, sonra da qorçilər tərəfindən başının yarılması nəticəsində tamamilə isbatlandı [1, s.134].

***Əsas hissə.*** Mənbələrə əsasən, Şah II İsmayılın sünni əqidəsinə yönəldiyini göstərən hadisələrə nəzər yetirək:

*1.Qeyd etdiyimiz kimi şah sünni əqidəli ruhaniləri öz ətrafına cəm etdi, onların düşüncələrinə uyğun olaraq xəlifələrin - Əbubəkr, Ömər və Osmanın lənətlənməsini qadağan edən tədbirlər gördü.*

*2. Şiə ilahiyyatçılar - Mir Seyid Əli Xətib, Mir Seyid Hüseyn Müctəhid saraydan uzaqlaşdırıldı. Hətta Mir Seyid Hüseynin kitabları möhürlənib müsadirə olundu və evi dağıdıldı.*

*3. Mirzə Məxdum şahın göstərişi ilə peyğəmbər silahdaşlarını lənətləməyən müsəlmanlara (Məxdum səhabələrə ömrüboyu lənət etməyən həmin dəstəni müəyyən və təsdiq etdikdən sonra) 200 tümən pul payladı. Yoxsul Qəzvin əhalisinin bəzisi həmin məbləği almaq xatirinə keçmişdə sünniliyin Şafi təriqətinə aid olduğunu dilə gətirdilər.*

*4. Şahın göstərişi ilə məscidlərin divarlarından İmam Əliyə rəğbət ifadə edilən yazılar pozuldu. Həm də bu işə şiə əqidəsinə mənsub Möhtəsib Mir Zeynalabdin Kaşi rəhbərlik etdi* [1, s.215].

Şiə icması başçıları, ağsaqqallar sarayın önündə - Səadabad bağında toplaşdılar. Sarayın qarşısındakı camaat öz əcdadlarının əqidəsinə zidd hərəkət edən II İsmayıldan şəxsən nəyin baş verdiyini öyrənmək istədiklərini dilə gətirdilər. Uzun məşvərətdən sonra şahdan etiqad məsələlərinə cavab almaq üçün Ərdoğdu Xəlifə Təkəli və Əmir xan Türkman nümayəndə olaraq seçildi.

Satqın əmirlərdən bir qismi tez şaha məlumat çatdırdı ki, təkəli və türkman tayfaları şahın əleyhinə birləşərək Tehranda iqamət edən şahzadə Həsəni hakimiyyətə gətirmək niyyətindədilər [3, s.330].

Qəzəblənən şah Əmir xanı çağırıb ona sərt şəkildə öz etirazını bildirdi, xalq içində şahın etiqad dəyişdirdiyi şayiəsini yaymaqla onu rüsvay etdiklərini söylədi. Əmir xan da xalqda belə düşüncənin yaranmasına səbəb olan Mirzə Məxdumu günahlandırdı. Əmir xan bütün belə şayiələrin yayılmasında Mirzə Məxdumun rolunun olduğunu və onun şiə üləmaları ilə mübahisələr edərək sünni təriqətinin üstünlüklərindən bəhs etdiyini, şahın da bu fikirlə razı olduğunu söylədiyini nəzərə çatdırdı. II İsmayıl bunun əvəzində Əmir xanın qarşısına şərt qoydu: madam ki, onun əqidəsi haqqında şübhələr mövcuddur, madam ki, qızılbaşlar onu özlərinə layiq şah hesab etmirlər, o zaman Tehrandan Sultan Həsəni gətirib onu şah etsinlər. Sonra şah Ərdoğdu Xəlifə Təkəlini zindana saldırdı, Əmir xanın qarşısına isə başqa bir təklif qoydu. Əgər o, şahzadə Həsəni şah kimi görmək istəmirsə, Hüseyn xan Təkəli ilə birgə bunu sübut etməlidirlər. Şahın söylədiyi məsələ Əmir xana aydın idi. Bir müddət sonra şahzadə Həsən Tehranda qətlə yetirildi və II İsmayıl təkəlilər və türkmanlardan uzaqlaşmağa, ustaclı əyanları ilə daha yaxın əlaqələr qurmağa başladı [1, s.381; 3, s.331].

Şah ehtiyatı əldən verdiyini anlayıb daha dini islahatları dərinləşdirməyi lazım bilmədi. Xalqın təkrar etimadını qazanmaq üçün Mirzə Məxdumu hamının önündə çox sərt şəkildə danladı və onu zindana saldırdı [1, s.383].

Şah II İsmayılın sünniliyə olan səmimi münasibəti sikkə zərbində də özünü büruzə verirdi. Adətən, hakimiyyətə yeni gələn şahın adına sikkə zərb olunurdu. Lakin II İsmayıl müəyyən müddət bu məsələnin üstünə düşmədi. Zərbxananın gəlirlərinə ziyan dəydiyi üçün zərrablar şahlıq sikkəsinin dəyişdirilməsi üçün şaha müraciət etdilər.

İsgəndər bəy Münşi Səfəvi sikkəsinin bir üzündə yazılan kəlimeyi-şəhadəti - "Allahdan başqa Allah yoxdur, Məhəmməd Allahın qulu və rəsuludur" sözləri ilə yanaşı, həm də "Əli Allahın dostudur" cümləsinin də yazıldığını (Sonuncunun, şiə əqidəsində olanların kəlimeyi-şəhadət gətirərkən söylədiyi cümlədir) xatırladaraq II İsmayılın adına zərb olunan sikkələrdə, ümumiyyətlə, kəlimeyi-şəhadətin olmadığını yazır. II İsmayıl sikkə üzərində kəlimeyi-şəhadətdən imtina etməsini belə izah edirdi ki, Allahın adı ilə zərb edilən sikkələr qeyri-müsəlmanlarla ticarət zamanı işləndiyindən kafirlərin əlinə keçir, bu da etiqada ziddir. Münşiyə görə əslində şahı narahat edən kəlimeyi-şəhadətdəki son cümlə idi [1, s.383].

Şah II İsmayılın bu qərarı şiə ruhaniləri tərəfində ixtilafa səbəb olsa da, şah fikrini dəyişdirmədi. Xalis qızıldan və gümüşdən zərb olunan yeni sikkələrin bir üzündə şahın adı, ünvanı və sikkənin zərb olunduğu yer, digər üzündə Şeyx Əttarın bir beyti yer almışdı [4, c.198]. Beyt belə idi:

Bürüyərsə imamlar bu cahanı,
Bizə bəsdir Əli və xanədanı [1, s.384].

Şah II İsmayılın dini siyasətinin mahiyyətinə qiymət verən tarixçilər bəzi faktlara istinad edirlər.

Şərəf xan Bidlisi (şahın müasiri və onun hakimiyyəti illərində Kürdüstan hakimi vəzifəsini icra etmiş tarixçi) II İsmayılın dini islahatları ölkədə yaşayan şiə və sünni etiqadlı müsəlmanların qarşıdurmasını aradan qaldırmaq və bir-birlərinin işinə qarışmamaq üçün həyata keçirdiyini yazır [4, c.377].

V.Hinz üç əvvəlki Rəşidi xəlifəsinin şiələr tərəfindən lənətlənməsinin qadağan edilməsini Amasiya sülh müqaviləsinin şərtlərində qeyd edildiyini xatırladır [5, s.113-115]. "Osmanlı tarixi"ndə də bu məsələ II Şah İsmayılın Osmanlılarla olan Amasiya sülhünün şərtlərini yerinə yetirməsi kimi qiymətləndirilir [6, s.56]. O.Əfəndiyev öz əsərində: "1555-ci il Amasiya sülhünün şərtlərinə əsasən Səfəvilər Osmanlılarla sülh şəraitində yaşamaq istəyirlərsə birinci üç xəlifəni də tanımalı idilər", – fikri ilə şərik olduğunu bildirərək qeyd edir ki, Osmanlı sultanı III Muradla münasibətlərin qaydaya qoyulmasında Amasiya sülhünün şərtlərini yenidən gözdən keçirməyi lazım bilən şah, çox güman ki, öz qısamüddətli hakimiyyəti dövründə iki dövlət arasında sakitliyin hökm sürməsini istəyirdi [2, s.137].

Mehman Süleymanov bu məsələdə fars tədqiqatçısı S.H.Ağacərinin "Müqəddimə bər münasibat-e din və dövlət" adlı əsərinə istinad edərək II Şah İsmayılın məzhəb yanaşmasındakı yeni münasibətini qızılbaş əmirlərinin, tayfa başçılarının, eyni zamanda şiə ruhanilərinin güclərini zəiflətmək məqsədi güddüyünü ifadə edir [7, s.143].

Dilavər Əzimli II Şah İsmayılın həyata keçirdiyi dini islahatın islamda vəhdət yaratmaq məqsədi daşıdığından bəhs edərək Tofiq Nəcəflinin Türkiyə tarixşünaslığında II Şah İsmayılın dini islahatına obyektiv yanaşılmadığı fikirlərinə istinad edir [8, s.83; 9, s.228]. Adları çəkilən tədqiqatçıların fikrincə, Türkiyə tarixçiləri II Şah İsmayılın şiəlikdən sünniliyə meyil etməsini nümayiş etdirməyə çalışırlar. Yalnız Faruk Sümer "Şah II İsmayılın şiəliyi mötədil bir hala gətirərək sünniliyə xoş münasibət bəsləməyi nümayiş etdirməyə çalışdığını, dörd xəlifənin və Həzrəti Aişənin lənətlənməsini doğru hesab etmədiyini" ifadə edir [10, s.116-117].

S.A.Arjomand isə öz məqaləsində bu məsələni "XVI yüzilliyin sonlarında İranda şiəliyin çox böyük üstün gücə malik olması" ilə əlaqələndirir və sünni tarixçi Şərəf xan Bidlisinin, şiə tarixçiləri Qazi Əhməd Qumri və İsgəndər bəy Münşinin bu məsələni şahın məzhəb dəyişimi ilə izah etmədiklərini bir daha ifadə etmiş olur [11, p.184-185].

Cihat Aydəmiroğlu II Şah İsmayılın Şafiliyə meyilli olmasını və bu məqsədlə şiə üləmalarını saraydan uzaqlaşdırıb əvəzinə sünni alimləri gətirdiyini yazır. Bu barədə İsgəndər bəy Münşinin şahın "məzhəbi-şiə əqidəsinə bağlılığının zəifliyi və əhli-sünnət vəl cəmaatə meyilliliyini", Oruc bəy Bayatın "şahın şiəliyi tərk etmək niyyətində olduğunu" [12, c.108] vurğuladığı fikirlərini əsas gətirir [13, s.63].

Ş.Qolsorxi Şah II İsmayılın sünniliyə meyilliliyində ilk növbədə Mirzə Məxdum Şərəfinin rolu olduğunu qeyd edir. Məhz Mirzə Məxdumun təlqinləri nəticəsində fanatik şiə alimlərinin gəlirləri kəsilmiş və Mirzə Məxdum mütə nikahını (siqəni) qadağan edən bir risalə yazmışdır [14, s.477-482].

Mustafa Eravçı şahın Şərqi Anadoludakı şiələrlə əlaqəyə girəcək adamlar göndərərək Anadoludakı xəlifələr vasitəsilə sünniliyə uyğun siyasət yeritdiyini diqqətə çatdırır, II İsmayılın Osmanlı və özbəklərlə (sünni dövlətlərlə) əlaqələrini qaydaya qoymaq naminə hərəkətlər nümayiş etdirdiyini yazır. Tarixçiyə görə, əslində bu radikal siyasət sayəsində Səfəvi hökmdarı bir tərəfdən də Anadoluda unudulmaqda olan Səfəvi davasını təkrar alovlandırmışdır. Çünki şah kürdlər üzərində böyük nüfuza malik olan sünni Şərəf xan Bidlisini Kürdüstan bəylərbəyliyi təyin etməklə kürd bəylərinin bir qismini öz tərəfinə çəkməyə nail olmuşdur. Bir tərəfdən Osmanlı dövləti ilə dini ayrımçılığı barışdırmaq

mövqeyini sərgiləyən Şah II İsmayıl, digər tərəfdən Osmanlı kimi rəqibini zəiflətmək məqsədi güdən bütün vasitələrdən yararlanmışdır [15, s.296-300].

Tahsin Yazıçı Şah II İsmayılın Anadolu qızılbaşları arasında təhriklərə meydan verməsi və Şərqi Anadoluda Osmanlı dövlətinə bağlı əmirləri öz tərəfinə çəkməsini şahın ölümündən sonra Osmanlı dövlətinin Səfəvilərə qarşı müharibəyə başlamasına səbəb olacaq amil kimi qiymətləndirir [16, s.55].

***Nəticə.*** Beləliklə, ümumi nəticəyə gəlmək olar ki, II Şah İsmayılın dini islahat cəhdləri Amasiya sülh anlaşmasının şərtlərinə əməl etmək baxımından həyata keçirilirdisə, şübhəsiz ki, bu, Səfəvi dövlətinin Osman dövləti qarşısında öhdəsinə götürdüyü şərtin icrası kimi böyük tarixi əhəmiyyət daşıyırdı. Bu siyasət hər iki dövlətin qarşılıqlı anlaşma nümayiş etdirməsinin vacibliyini xatırlaması baxımından da zəruri idi. Əgər dini islahatlar, həqiqətən, islamda vəhdətin bərqərar olmasına xidmət edirdisə, bu cəhd islamın barışdırıcı və haqq din olaraq daha böyük nüfuz qazanmasına səbəb olacaq və Avropa üçün böyük təhlükə yaradan iki böyük imperiyanın mənəm-mənəmlik siyasətindən imtina edərək sülh şəraitində yaşamasına imkan yaradacaqdı.

II Şah İsmayılın dini reform həyata keçirməsi, eyni zamanda özbəklərlə də məzhəb qarşıdurmasını qaydaya qoya bilər, istər Anadolunun daxilində, istərsə də Şərqi Anadoluda məzhəb ayrımçılığına səbəb olacaq bütün maneələri aradan qaldırmış olcaqdı.

II Şah İsmayıl bu dini siyasəti həyata keçirməyə müvəffəq ola bilsəydi, üstəlik bu siyasət Osmanlı imperiyasında da layiqincə qiymətləndirilə və dəstəklənə bilsəydi, bəlkə də, XVI əsrin əvvəllərində Osmanlı və Səfəvi hökmdarlarının başlatdığı qardaş qırğını əsrin sonlarında, hətta digər əsrlərdə də davam etməyə bilərdi.

## ƏDƏBİYYAT

1. İsgəndər bəy Münşi Türkman. Abbasın dünyanı bəzəyən tarixi (Tarixe-aləmaraye-Abbasi), Bakı, "Şərq-Qərb”, 2010, 1144 s.
2. Əfəndiyev Oqtay. Azərbaycan Səfəvilər dövləti, Bakı, “Şərq-Qərb”, 2007, 344 s.
3. Rumlu Həsən bəy. Əhsənüt-təvarix. Kastamonu, Uzunlar, 2017, 661s.
4.Шараф-хан ибн Шамсаддин Бидлиси. Шараф-наме Том I Текст воспроизведен по изданию: Шараф-хан Бидлиси. Шараф-наме Москва, «Наука», 1976, 401с.
5. Şah İsmail dovvome Səfəvi, təlif Volter Hinz. Tərcüme Keykavusu Cahandari. Şerkəti entişarate elmi və fərhəngi, I çap, 1371 h/ş (1992), 176s.
6. Uzunçarşılı İsmail Hakkı. Osmanlı Tarihi, TTK, Ankara, 1995, c. 3, s.56.
7. Süleymanov Mehman. Səfəvilər VI. II Şah İsmayıl Səfəvi.Şah Məhəmməd Xudabəndə, Bakı, Maarif, 2021, 736 s.
8. Əzimli Dilavər. Şah II İsmayılın dini vəhdət uğrunda mübarizəsinə dair // Bakı İslam Universiteti. Elmi məcmuə, 2018 №13. s.79-85. - .https://www.elibrary.az/docs/jurnal/jrn2018_290.htm [27.12.2024].
9. Nəcəfli Tofiq. Səfəvi-Osmanlı münasibətləri (Türkiyə tarixşünaslığında). Bakı: Turxan NPB. 2014, 516 s.
10. Sümer Faruk. Safevi devletinin kuruluşu ve gelişmesinde Anadolu türklerinin rolu. Ankara: Türk Tarih Kurumu Basımevi, 1992, 266 s.
11. Arjomand S. A. “Religious Extremism, Sufism and Sunnism in Safavid Iran (1501-1722)”// Journal of Asian History, Vol. XV, No. 1, Wiesbaden, 1981, p. 1-35. Safevi dönemi İran’ında dini taşkınlık, sufilik ve sünnilik (1501-1722). Çeviri: Doç. Dr. Namiq Musalı. Cappadocia journal. On Jan 1, 2016, s.160-195. - https://www.academia.edu/29773988/_Safevi_D%C3%B6nemi_%C4%B0ran%C4%B1nda_Dini_Ta%C5%9Fk%C4%B1nl%C4%B1k_Gul%C3%BCvv_Sufilik_ve_S%C3%BCnnilik_1501_1722_Yazar_S_A_Arjomand_%C3%87eviren_Namiq_Musal%C4%B1 [27.12.2024].
12. Oruç Bey Bayat. İranlı Don Juan. İlişkiler: Bir Şiî Katolik, Tercüme ve Notlar: Tufan Gündüz, İstanbul: Yeditepe Yayınevi, 2014.

13. Aydoğmuşoğlu Cihat. Şah II İsmail (1576-1577) Devri Siyasî ve Dinî Hâdiseleri // The Journal of Academic Social Science Studies, 48 (2016): 60. - https://www.researchgate.net/publication/307622248_SAH_II_ISMAIL_1576-1577_DEVRI_SIYASI_VE_DINI_HADISELERI [27.12.2024].
14. Shohreh Gholsorkhi, Ismail II and Mirza Makhdum Sharifi: An Interlude in Safavid History // International journal of middle east studies, Vol:26, No. 3, 1994. s. 477-482. - https://www.cambridge.org/core/journals/international-journal-of-middle-east-studies/article/abs/ismail-ii-and-mirza-makhdum-sharifi-an-interlude-in-safavid-history/2F2C7DB8023377A9A300F275D9C660EC [27.12.2024].
15. Eravcı H. Mustafa. II Şah İsmail Döneminde Doğu Anadolu'da Safavi Tehdidi // Türkiye'nin Güvenliği Sempozyumu (Tarihten Günümüze İç ve Dış Tehditler, 17-19 Ekim 2001), s. 291-302.
16.Yazıcı Tahsin. Safevîler, İslâm Ansiklopedisi, 1967, c. 10, s.53-59.

**SHAFAG AZIMOVA**
*Second year Master's student of Azerbaijan University*
*on "Ancient and Medieval History of Azerbaijan"*

## SHAH ISMAIL II'S ATTEMPTS AT RELIGIOUS REFORM

Since the reign of Shah Ismail II was brief, there is limited information regarding the reforms he implemented as a statesman. However, his inclination toward Sunni creed from the early months of his rule has been a recurrent topic in sources discussing Safavid-Ottoman relations, and this issue has led scholars to draw various conclusions. The Qizilbash emirs perceived certain aspects of the Shah's speeches and religious reforms as directed against the Safavid tariqah (Safiyeh order). While they refrained from openly accusing the Shah, they were equally dissatisfied with the prevailing circumstances. In fact, the reasons behind Shah Ismail II's religious reforms remain a subject of debate in both historical sources and historiography.

The article primarily explores the causes behind these reforms, including the Shah's personality, his 20 year imprisonment in isolation from the outside world, the transformations in his worldview during that period, and his unexpected ascension to power. It also examines the steps he took after his accession and the decisions he made in this complex political environment. Nevertheless, it is important to note that Ismail II's religious reforms were not aligned with the religious and political ideology or interests of the Safavid state, which ultimately led to their rejection.

Overall, the incomplete nature of the religious reform that Shah Ismail II attempted to implement is considered one of the factors contributing to his demise. Additionally, it is regarded as one of the reasons behind the Ottoman military invasion of Azerbaijan in 1578.

*Keywords:* Safavid Empire, Shah Ismail II, religious reforms, Sufi orders, Safavid-Ottoman relations.

*Daxil olma tarixi*: 27.12.2024-cü il.
*Çapa imzalanma tarixi*: 31.01.2025-ci il.

UOT 94(479.24); UOT 371.39

**TARLAN TAHIRZADA**
*Baku State University*
*2nd year master's student of the department of*
*"Source studies, historiography and methodology"*
**terlantahirzade1802@gmail.com**

# THE SHUSHA FACTOR IN THE KARABAKH WAR AND ITS METHODOLOGY OF TEACHING IN HISTORY

*Scientific supervisor:*
Ph.D Aydın Mammadov

*Shusha is the city of the national soul. It is a source of pride for an Azerbaijani. Due to its geographical location, Shusha was of great strategic importance for the parties to the conflict during the Karabakh wars. During the first Karabakh war, Armenian military units occupied Shushan on May 8, 1992. In 2020, Azerbaijan liberated the city of Shusha from Armenian armed forces as a result of the heroism and bravery of the units and units of the Azerbaijan Army and the personnel of the Special Forces. Its history, culture, as well as its role in wars, are important aspects of teaching in the subject of history. The methodology of teaching the Shusha factor is aimed at strengthening the national identity of students, raising their sense of patriotism and increasing their historical knowledge. In this article, the methods used to teach the Shusha factor in history and their impact have been discussed.*

*Keywords:* Karabakh War, history, methodology, young generation, patriotism.

***İntroduction.*** Shusha is a city of strategic importance during the Karabakh War, and its history, culture, and role in wars are important aspects of teaching in history. The methodology of teaching the Shusha factor aims to strengthen students' national identity and increase their historical knowledge. This article will discuss the methodologies applied to teach the Shusha factor in history and their impact.

Shusha, as part of Azerbaijan's cultural and historical heritage, plays an important role in the education system. Shusha's history, culture, and role in wars are effective in shaping students' national identity and sense of patriotism. In this context, the methodology of teaching the Shusha factor affects students in several ways.

***The Shusha factor in the Karabakh War.*** Shusha is a city of historical and strategic importance in the context of the Karabakh War. Its history, culture and role in wars are important aspects of teaching in the subject of history. In this context, methodological approaches for teaching the Shusha factor can be organized as follows.

Teaching the Karabakh War and the Shusha factor in the subject of history should not consist only of presenting the chronology of events. Modern teaching methodologies require that historical events be taught using interactive, technological means and based on analytical thinking. In these lessons, students not only master historical facts, but also develop critical thinking, analytical analysis and problem-solving skills. The Shusha factor fits perfectly into these methodological approaches and ensures that lessons are conducted more interestingly and dynamically [2].

Thus, the relevance of the methodology for teaching the Shusha factor in the Karabakh War plays a key role in both preserving national history and identity and in students' mastering historical events in accordance with the requirements of modern educational methods.

Extensive information should be provided about the historical and cultural heritage of Shusha. This helps students understand the strategic importance of the city. For example, the analysis of the events of the occupation in 1992 and its liberation in 2020 is important in this context.

The socio-political situation in Azerbaijan on the eve of and after the collapse of the USSR is an important stage in the country's historical development. This period is characterized by the strengthe-

ning of national movements, increased political tensions, and the intensification of the struggle for independence.

The policy of "perestroika" that took place in the Soviet Union in the late 1980s also created conditions for the development of freedom of speech and national movements in Azerbaijan. During this period, the national feelings of the people revived and demands for independence came to the fore. Since 1988, Armenian separatism has been active in Nagorno-Karabakh, which led to the emergence of wide waves of protests in Azerbaijani society.

The "Freedom" rally held in Baku on November 17, 1988, became a symbol of Azerbaijan's struggle for independence. The number of people participating in this rally was in the millions, and this increased the political activism of the people [1].

The intervention of the USSR leadership in Azerbaijani affairs further increased the discontent of the local population. Moscow's support for Armenian separatism intensified the protests of the Azerbaijani people against the central government.

With the collapse of the USSR in 1991, Azerbaijan regained its independence. However, this period was accompanied by political instability and economic difficulties in the country.

After the restoration of independence, a struggle began between various forces in the political arena of Azerbaijan. The struggle between the Popular Front and other political organizations led to an increase in political tension.

The conflict that broke out in Nagorno-Karabakh during the period of independence threatened the territorial integrity of Azerbaijan. As a result of this conflict, thousands of people lost their lives and hundreds of thousands were forced to leave their homes.

Since 1992, with the coming to power of Heydar Aliyev, steps have been taken to restore political stability in the country. Under his leadership, Azerbaijan's foreign policy began to be reshaped and the country's position in the international arena strengthened.

The socio-political situation in Azerbaijan on the eve of and after the collapse of the USSR was characterized by the strengthening of national movements, increased political tensions, and the intensification of the struggle for independence. This period marked the beginning of a new stage in the history of Azerbaijani statehood. Along with the restoration of independence, serious efforts had to be made to restore political stability in the country, which became possible under the leadership of Heydar Aliyev.

The occupation of Shusha by the Armenian armed forces in 1992 changed the course of the war. This occupation led to the Armenians cutting off communication with Azerbaijan in Nagorno-Karabakh and opening the Lachin corridor. The loss of Shusha weakened Azerbaijan's position in the war and led to heavy casualties among the civilian population.

As a result of the occupation of Shusha, 195 Azerbaijani citizens were killed, 165 were injured, and 552 infants lost their parents.

Shusha was the cultural and political center of Nagorno-Karabakh. Its occupation increased Armenia's power in the region.

The liberation of the city of Shusha in November 2020 was one of the most decisive moments in Azerbaijan's Second Karabakh War. This event led to wide-ranging impacts not only on the military front, but also in the political, social, and economic spheres. The main directions of these impacts are noted below. The liberation of Shusha increased Azerbaijan's strategic advantage in the war. Since the city was located in Nagorno-Karabakh, the party controlling it could easily control military operations in the region [3]. The recapture of Shusha significantly limited the maneuverability of the Armenian army and changed the fate of the war. The liberation of Shusha was greeted with great pride and joy among the Azerbaijani people. This event led to an increase in national unity and a sense of patriotism in connection with the end of 28 years of occupation. The people widely celebrated this historic victory and demonstrated their joy by waving their flags. The liberation of Shusha strengthened Azerbaijan's position in the international community. This victory allowed the country to be recognized for its rightful position and play a more active role in resolving the conflict. At the same time, this event,

which resulted in the capitulation of Armenia, led to the emergence of new political realities in the region.

Along with the liberation of Shusha, new opportunities for the economic revitalization of the region have opened up. The restoration of this city, which is of strategic importance for the independent economic development of Azerbaijan, will also give impetus to the development of tourism and cultural sectors [5].

Shusha is part of the rich cultural heritage of Azerbaijan. With the liberation of the city, steps have been taken to protect and restore cultural monuments. This is important in terms of introducing its culture to the younger generations and teaching them their history.

This operation ensured Azerbaijan's victory in the war and cut off the Khankendi-Gorus road. This event is of strategic importance in terms of the return of Azerbaijan's historical lands and raised the national spirit of the country.

Shusha's strategic importance is connected not only with its geographical location, but also with its cultural heritage. Since the city is the center of the Nagorno-Karabakh region, the events taking place here directly affect the political situation in Azerbaijan. The liberation of Shusha is also considered a step towards establishing peace in the region.

The following methods can be used to teach the Shusha factor in history:

1. Presenting facts about the occupation and liberation of Shusha to students, conducting discussions.
2. Using images of historical battles, maps and documentaries.
3. Having students work in groups and prepare projects on the historical significance of Shusha [4].

Through these methods, students will have the opportunity not only to learn facts, but also to understand the deep meaning of historical events.

The history of Shusha is full of stories of heroes who lived here and fought for independence. Conducting lessons on the historical and cultural heritage of Shusha for students helps to increase their knowledge about national heroes. These lessons provide information about Molla Panah Vagif, Khurshidbanu Natavan and other well-known figures.

Discussions and group work should be organized that ensure the active participation of students. It is recommended to make lessons more attractive by using multimedia resources (video, slides). This approach develops students' analytical thinking skills.

Opportunities should be created for students to prepare projects related to Shusha in groups, research historical facts, and prepare presentations. This method helps students express their ideas and apply their historical knowledge.

Students should be provided with hands-on learning experiences by organizing excursions to historical sites. Such activities are important for increasing knowledge about the culture and history of Shusha [6].

Teaching about contemporary events related to the liberation of Shusha helps to form a sense of patriotism in young people. This approach strengthens the national identity of young people.

***Conclusion.*** The methodology of teaching the Shusha factor in history is important in terms of strengthening students' national identity, increasing historical knowledge and increasing commitment to cultural heritage.

The inclusion of Shusha in the curriculum helps to form a sense of patriotism in students. This approach is important in terms of strengthening national identity in the younger generation and increasing historical knowledge.

These methodologies allow students to not only learn facts, but also understand the deep meaning of historical events. The Shusha factor, as a part of education, plays an important role in raising the national spirit of young people. Thus, the Shusha factor is not only a historical place, but also an element with deep effects in the education system.

The theoretical and practical significance of the Shusha factor in the Karabakh war and the methodology of teaching it in history is of great importance both in terms of transferring historical knowledge and applying innovative approaches in the educational process.

REFERENCES

1. Jabrayilov I.H. (2008) “Theory and practice of teaching Azerbaijani history in higher education”. Monograph. Baku, Translated, p.174.
2. Nagorno-Karabakh: a chronicle of events (1988-1994). Baku, Çashioglu, 2005, p.11
3. Dowsett James. Revealed: the UK’s business links to Nagorno-Karabakh / Opendemocracy.net Corporate Web Page, 17.06.2021, https://www.opendemocracy.net/en/odr/revealed-the-uks-businesslinks-to-nagorno-karabakh/ [24.12.2024].
4. Amirov M.M. Methodology of active/interactive teaching of history in secondary school (Textbook for students of history faculties of higher education). Baku, 2011, 678 p.
5. Mammadova M.S. Actual problems of teaching history. Lesson plan. Baku, “Baku University Publishing House”, 2015, p.35.
6. History of the Patriotic War. Personality factor (September 27 - November 10, 2020) Baku, “East-West”, 2021, p.444.

**TƏRLAN TAHİRZADƏ**
*Bakı Dövlət Universitetinin*
*“Mənbəşünaslıq, tarixşünaslıq və metodika” kafedrasının II kurs magistrantı*

## QARABAĞ MÜHARİBƏSİNDƏ ŞUŞA FAKTORU VƏ ONUN TARİX FƏNNİNDƏ ÖYRƏDİLMƏSİ METODİKASI

Şuşa, Qarabağ müharibəsi zamanı strateji əhəmiyyətə malik bir şəhərdir və onun tarixi, mədəniyyəti, eləcə də müharibələrdəki rolu, tarix fənnində öyrədilməsinin vacib aspektləridir. Şuşa faktorunun öyrədilməsi metodikası, tələbələrin milli kimliyini gücləndirmək və tarixi biliklərini artırmaq məqsədini güdür. Bu məqalədə, Şuşa faktorunun tarix fənnində öyrədilməsi üçün tətbiq olunan metodikalar və onların təsiri müzakirə ediləcək.

Şuşa, Azərbaycanın mədəni və tarixi irsinin bir parçası olaraq, təhsil sistemində əhəmiyyətli rol oynayır. Şuşanın tarixi, mədəniyyəti və müharibələrdəki rolu, tələbələrin milli kimliyini və vətənpərvərlik hissini formalaşdırmaqda təsirli olur. Bu çərçivədə, Şuşa faktorunun öyrədilməsi metodikası tələbələrə bir neçə cəhətdən təsir edir.

*Açar sözlər:* Qarabağ müharibəsi, tarix fənni, metodika, gənc nəsil, vətənpərvərlik.

*Daxil olma tarixi*: 24.12.2024-cü il.
*Çapa imzalanma tarixi*: 31.01.2025-ci il.

*Türk dünyası gənc tədqiqatçılar dərnəyinin Araşdırmaları*
*Studies of the Turkic World Young Researchers Association*
*№1(11) 2025, 85-90*

**UOT 32.327**

**TƏRANƏ MÜTƏLLİMOVA**
*Bakı Dövlət Universitetinin magistrantı*
**mutallimova88@inbox.ru**

# TÜRKİYƏ-AZƏRBAYCAN ƏMƏKDAŞLIĞININ CƏNUBİ QAFQAZIN TƏHLÜKƏSİZLİYİNİN TƏMİN EDİLMƏSİNDƏ ROLU

*Elmi rəhbər:*
siyasi elmlər üzrə fəlsəfə doktoru Afət Güləliyeva

*Türkiyə və Azərbaycan arasında Azərbaycanın müstəqilliyi ilə başlayan ilə güclü strateji əməkdaşlıq, Cənubi Qafqazın təhlükəsizliyinin təmin edilməsində mühüm rol oynayır. Hər iki ölkə arasında uzunmüddətli dostluq və qarşılıqlı etimad əsasında qurulan əlaqələr, regionda stabilliyi artıran əsas faktorlardan biridir. Dağlıq Qarabağ münaqişəsində Türkiyənin göstərdiyi dəstək, regiondakı digər dövlətlərə qarşı da mühüm siyasi təsirlərə malik olmuşdur. Eyni zamanda, iki ölkə arasında enerji, ticarət və nəqliyyat sahələrindəki əməkdaşlıq, həm də Cənubi Qafqazın iqtisadi və strateji təhlükəsizliyinin möhkəmləndirilməsinə və Cənubi Qafqazda regional balansı qorumağa və bu regionda sabitlik yaratmağa xidmət edir.*

*Açar sözlər:* Dəhliz, Cənubi Qafqaz, Dağlıq Qarabağ münaqişəsi,strateji əməkdaşlıq, Şuşa bəyannaməsi, Üçtərəfli bəyannamə, BMT, TDT, ATƏT, TANAP, TAP, BTQ, Zəngəzur dəhlizi.

***Giriş***. Cənubi Qafqaz regionu, tarixi, strateji və geosiyasi baxımdan mühüm əhəmiyyətə malikdir. 1991-ci ildə Sovet İttifaqının dağılması ilə bu regionda yeni müstəqil dövlətlər yaranmış, xüsusilə Azərbaycan və Ermənistan arasında Qarabağ münaqişəsi, regional təhlükəsizlik məsələlərinin mərkəzində durmağa başlamışdır. Azərbaycan müstəqilliyini qazandıqdan sonra üzləşdiyi müxtəlif çağırışlarla mübarizə aparmağa başladı. Bu müddət ərzində Türkiyə, Azərbaycanın geosiyasi müstəqilliyini və təhlükəsizliyini təmin etmək məqsədilə güclü bir tərəfdaş kimi ortaya çıxmışdır. Sovet İttifaqının dağılmasından sonra, bu regionda yaranan yeni müstəqil dövlətlər arasında regional münaqişələr, xüsusilə Azərbaycan və Ermənistan arasındakı Qarabağ münaqişəsi, ciddi bir təhlükəsizlik probleminə çevrilmişdir. Ermənistanın işğalçı siyasəti və bu prosesdə Rusiyanın dəstəyi, Azərbaycanın müstəqillik və ərazi bütövlüyü məsələlərini təhlükəyə atmışdır. Türkiyə-Azərbaycan Strateji Əməkdaşlığı Türkiyə ilə Azərbaycan arasında münasibətlər, müstəqilliyin əldə edilməsindən sonra daha da güclənmişdir. Xüsusilə, 1990-cı illərdə iki ölkə arasında hərbi, iqtisadi və siyasi sahələrdə əməkdaşlığın əsasları qoyulmuşdur. 1994-cü ildə Bişkekdə imzalanan atəşkəs razılaşmasından sonra, Azərbaycan və Ermənistan arasında sülhün təmin olunmaması, Türkiyənin Azərbaycanın yanında olduğunu və Cənubi Qafqazın təhlükəsizliyi məsələlərində fəal iştirakını zəruri etmişdir. Türkiyə, Azərbaycanla olan strateji tərəfdaşlığını yalnız iqtisadi və hərbi sahələrdə deyil, həmçinin regional təhlükəsizliyi təmin etmək istiqamətində də gücləndirmişdir.

Bu tədqiqatda beynəlxalq münasibətlərin həm ümumi, həmdə tətbiqi metodlarından geniş istifadə olunmuşdur. Türkiyə-Azərbaycan əməkdaşlığını daha dərindən öyrənmək üçün istifadə edilən tarixi metod müstəqilliyini qazanan Azərbaycanla Türkiyənin günümüzədək tarixi faktlara söykənən dostluq və qardaşlıq münasibətlərini təsəvvür edərək izah etməyə kömək edir. Həmçinin tədqiqata daha dərindən baxış üçün situasiyanın təhlil metodlarından, o cümlədən sənədlərin öyrənilməsi və müqayisə metodlarından geniş istifadə edilmişdir. "Strateji Ortaqlıq və Qarşılıqlı Yardım Anlaşması, Vətən müharibəsinin nəticəsi olaraq imzalan Üçtərəfli bəyanat, Şuşa bəyamnaməsi və digər əməkdaşlıq çərçivəsində imzalanmış hüquqi baza sənədlərin öyrənilməsi metodunun köməyi ilə tədqiqatın sistemli şəkildə təhlil olunmasına imkan yaradır. Eksplikativ metodlara daxil olan ivent-analiz metoduna müraciət qarşılıqlı əməkdaşlıq çərçivəsində dövlət başçılarının bəyanatlarına, çıxışlarında səsləndirdikləri fikirlər, o cümlədən, siyasi xadimlərin, politoloqların səsləndirdikləri fikirlərin təhlili tədqiqatın gələcək proqnozunun təyin edilməsində əhəmiyyətli rol oynayır. Tədqiqatda həmçinin proqnoz metodlarına daxil olan

ssenarilərin qurulması metodundan istifadə mümkün fərziyyələrin təhlili əsasında ikitərəfli strateji əməkdaşlıq fonunda gələcək ssenarilərin qurulmasına imkan yaratmışdır.

***Postsovet dövründə Azərbaycan-Türkiyə əməkdaşlığının Cənubi Qafqazın təhlükəsizliyinin təmin edilməsində rolu.*** Türkiyə Respublikası ilə Azərbaycan arasında diplomatik əlaqələrinin qurulmasının əsasını həm hər iki dövlətin yerləşdiyi coğrafiya, həm də türk etnik tarixi köklərin bir-biri ilə bağlılığı müəyyən edir. 1991-ci ildə Azərbaycan müstəqilliyini qazandıqdan sonra hər iki dövlət arasında qarşılıqlı əlaqələr üçün geniş imkanlar açıldı. Eyni zamanda müstəqilliyini yenicə bərpa edən Azərbaycanın Ermənistanla 1988-ci ildən Ermənistanın işğalçı siyasətinin nəticəsində davam edən Dağlıq Qarabağ münaqişəsi bu əməkdaşlığı daha da gücləndirmişdir. Əməkdaşlıq istiqamətində ilk addımlar 1991-ci ilin əvvəlində Türkiyə Silahlı Qüvvələri Baş Qərargahının komandiri D. Güreşin Azərbaycana səfəri ilə başladı. Bu səfərin nəticəsində Azərbaycan ordusunda Türkiyə hərbi müşavirlərinin yerləşdirilməsi və Azərbaycanlı əsgər və zabitlərin Türkiyədə təhsil alması proqramı yaradıldı [1, s.96-97].

1990-cı illər ərzində Türkiyə, imkanları daxilində, Azərbaycanın transatlantik, Avropa və Asiya siyasi-iqtisadi institutlarına daxil olmasına dəstək verməyə çalışdı. Müstəqil olan Azərbaycan beynəlxalq təşkilatlarla əlaqələr qurmağa başlayaraq 1991-ci ildə İslam Əməkdaşlıq Təşkilatına, 1992-ci ildə BMT-yə üzv oldu və ATƏT ilə əlaqələrə başlandı. Azərbaycanın ilk prezidenti A. N. Mütəllibov pantürkizm ideyalarından uzaq olmasına baxmayaraq, Türkiyə kimi strateji müttəfiqlə strateji müttəfiqlə əməkdaşlığa başlayaraq, 1992-ci ildə Türkiyəyə rəsmi səfər etdi. Bu səfər çərçivəsində Türkiyə və Azərbaycan dövlətləri arasında əməkdaşlıq perspektivləri müəyyənləşdirildi. Eyni ildə Türkiyə prezidenti T.Özal və baş nazir S.Demirel də qarşılıqlı dostluq səfəri həyata keçirdilər. Diplomatik əlaqələrin qurulması real iqtisadi və siyasi ikitərəfli müqavilələrin sürətli imzalanmasına təkan verdi. Nəqliyyat və iqtisadiyyat sahələrində bir sıra razılaşmalar imzalandı [2, s.17-23].

Ankara məhz bu əməkdaşlıqdan ilhamlanaraq "Türk dünyası Adriatikdən Çinədək" şüarlarını səsləndirməyə başladı. 1992-ci ildə Türkiyə baş naziri Süleyman Dəmirəl "müstəqil türk dövlətlərinin birləşməsi" imkanını nəzərə alaraq türk dilli xalqların sammitini keçirdi. Bu sammitdə Azərbaycan əsas rol oynayaraq, keçmiş sovet respublikaları üçün presedent olaraq Türkiyənin təkliflərini dəstəkləmişdir. Lakin Rusiyanın postsovet məkanında təsir gücü səbəbindən, digər türk dövlətlərinin "böyük" qardaşlarına ehtiyac duymadığı və xarici siyasətlərini müstəqil şəkildə qurmağa yönəlitdiyinə görə bu çağırış Azərbaycandan başqa heç bir türk dövləti tərəfindən dəstəklənmədi. Buna görə də Türkiyə Xarici İşlər Nazirliyi hər hansı bir ittifaq və ya birlik qurmağa çalışmağı deyil, tez bir zamanda Azərbaycanla münasibətlərindəki mövqelərini dəyişdirərək, diqqətini əsasən enerji və ticarət layihələrinə yönəltdi [3, s.63-69]. Eyni zamanda Türkiyə Azərbaycan ilə Qərb arasında beynəlxalq əlaqələrdə vasitəçi rolunu oynayaraq, xüsusilə NATO strukturlarında və proqramlarında iştirakını gücləndirirdi. 1992-ci ilin iyun ayındakı prezident seçkilərindən sonra hakimiyyətə gələn Azərbaycan Xalq Cəbhəsinin lideri Əbülfəz Elçibəy "Türkçülük, islamçılıq, modernləşmə" şüarı Türkiyə-Azərbaycan münasibətlərinə yeni nəfəs gətirdi. Ə.Elçibəy özünü pantürkçü, Mustafa Kamal Atatürk və Məhəmməd Əmin Rəsulzadənin tərəfdarı kimi təqdim edərək, Türkiyə ilə xüsusi strateji tərəfdaşlıq əlaqələri yaradıldı.Qısa müddət ərzində ticarət əlaqələri quruldu və türk iş adamları üçün böyük güzəştlər əldə edildi [4, s.104-105].

Azərbaycanla qurulan bu əməkdaşlıq Türkiyəyə regionda davam edən hərbi münaqişədə sülh təşəbbüslərini həyata keçirmək şansını verdi. Bu məqsədilə RF və Türkiyənin xarici işlər nazirləri münaqişə bölgəsinə birgə səfəri baş tutsada təklif edilən atəşkəs təklifi ermənilər tərəfindən qəbul edilmədi. Türkiyə xarici işlər naziri Hikmət Çətin tərəfindən irəli sürülən təşəbbüs nəticəsiz qaldı [5]. Türkiyə prezidenti T.Özal da həmçinin Azərbaycanı Dağlıq Qarabağ münaqişəsində dəstəkləyərək, 1992-ci ildən bəri Türkiyə Ermənistanla iqtisadi əlaqələri kəsmiş və bütün sərhədlərini ona bağlamışdır [7, s.616-617].

Prezidentlik postunu 1993-2003-cü illər ərzində tutan Heydər Əliyevin "balans siyasəti"nin inkişafı Türkiyədə skeptik yanaşmalarla qarşılansada, bu narahatlıqlar 1993-cü ildə Azərbaycan Prezidenti H.Əliyev ilə Türkiyənin Xarici İşlər Naziri H.Çetinin görüşü nəticəsində yox oldu və Azərbaycan tərəfi ikitərəfli münasibətlərin inkişafını davam etdirməyi təsdiqlədi [6, s.17-23]. Məhz bu dövrdə Azərbaycanla Türkiyə arasında siyasi, diplomatik, hərbi və iqtisadi sahələrdə sürətlə genişlənən və getdikcə

yüksək strateji səviyyəyə çatan əlaqələr başlamışdır. 8 fevral 1994-cü ildə Azərbaycan Prezidenti Heydər Əliyev Türkiyəyə ilk rəsmi səfərini etmişdir. Üç gün davam edən səfər zamanı iki dövlət arasında strateji tərəfdaşlıq səviyyəsinə çatacaq əlaqələrin təməli qoyulmuşdur. Eyni ilin 20 sentyabrında, Cənubi Qafqazın enerji təhlükəsizliyi və Azərbaycanın müstəqilliyi və inkişafı baxımından böyük əhəmiyyət daşıyan "Əsrin Müqaviləsi"ndə Türkiyə Respublikası "Türkiyə Petrolları Anonim Şirkəti" ilə təmsil olunmuşdur [8]. 1996-cı ildə isə tərəflər arasında diplomatik, siyasi və hərbi sahələrdə bəzi mühüm əməkdaşlıq müqavilələrinin imzalanması ilə Azərbaycan ilə Türkiyə arasındakı strateji tərəfdaşlığın əsası qoyulmuşdur.

Bundan başqa, Azərbaycan ilə Türkiyə arasındakı 5 may 1997-ci ildə strateji əməkdaşlığı dərinləşdirmək məqsədilə yeni bir bəyanat qəbul olunmuşdur. Bu çərçivədə kiçik və orta ölçəkli sənaye müəssisələrinin inkişafına dair protokol və elektroenergetika sahəsində əməkdaşlıq müqaviləsi imzalanmışdır [9, s 469-470]. “Avropa-Kafkasya-Asiya Transkafkasya Proqramı” çərçivəsində 1998-ci ilin sentyabrında 32 dövlət və 13 beynəlxalq təşkilatın iştirak etdiyi “Böyük İpək Yolu”nun yenidən qurulmasına dair beynəlxalq konfrans Türkiyə-Azərbaycan əlaqələrinin daha da dərinləşməsinə töhfə vermişdir [10]. İki ölkə arasındakı əlaqələr son dərəcə dinamik şəkildə inkişaf etməyə davam edərək digər Cənubi Qafqaz ölkəsi Gürcüstanada sirayət etmişdir. 1999-cu ildə İstanbulda keçirilən ATƏT Zirvə toplantısında üç ölkənin iştirakı ilə Azərbaycan neftinin beynəlxalq bazarlara daşınması üzrə əsas nəqliyyat xətti haqqında Bakı-Tbilisi-Ceyhan Əsas Neft Kəməri Sazişi imzalanmışdır. Beləliklə, bu müqavilə ilə iki Cənubi Qafqaz ölkəsi ilə yanaşı Türkiyənin Cənubi Qafqazın mühüm enerji və kommunikasiya layihələrində iştirakı regionun yeni təhlükəsizlik meyarlarını formalaşdıraraq, bu ölkələrin regionun ən önəmli iqtisadi və siyasi aktorlarına çevrilməsinə səbəb olmuşdur [10, s.17-18].

İlham Əliyevin 2003-cü ildə Azərbaycan Prezidenti olması ilə Türkiyə-Azərbaycan əlaqələri yeni müstəviyə qədəm qoydu. 2006-cı il 13 iyulda isə Azərbaycan və Türkiyə əlaqələri üçün son dərəcə mühüm Bakı-Tbilisi-Ceyhan Neft Boru Kəməri 2006-cı ildə işə düşmüş və Bakıdan yola çıxan xam neft Ceyhan limanına doğru yola çıxmışdır. Eləcə də, 2007-ci ildə Türkiyə ilə Azərbaycan arasında Bakı-Tbilisi-Erzurum təbii qaz kəmərinin tikilməsi ilə bağlı layihə nəhayət tamamlanaraq, 980 km uzunluğunda təbii qaz kəməri fəaliyyətə başlamışdır. Bu xəttlə Şahdəniz yatağından çıxarılan Azərbaycan təbii qazı Türkiyəyə daşınmağa başlamışdır.

Lakin 2008-2009-cu illərdə "futbol diplomatiyası" adı ilə tanınan Ermənistan Prezidenti Serj Sarkisyan və Türkiyə Prezidenti Abdullah Gülün futbol matçlarında görüşmələri Azərbaycan dövlətinin kəskin narazılığına səbəb olmuşdu [11, s.179-183]. B görüşlər nəticəsində 2009-cu ildə "Yol Xəritəsi" imzalandı. Növbəti razılaşmalar "İkitərəfli Münasibətlərin İnkişafı Protokolu" və "Diplomatik Münasibətlərin Qurulması Protokolu" olmuşdur ki, bu razılaşmalar sərhədin açılması və siyasi nümayəndələrin mübadiləsini nəzərdə tuturdu. Lakin, hadisələrin gedişi göstərdi ki, danışıqlarda Dağlıq Qarabağ münaqişəsi nəzərə alınmamışdı. 2009-cu ildə Türkiyədə azərbaycanlı azarkeşlərin milli bayraqlarla arenaya girməsinə icazə verilməyən "bayraq tarixi” hadisəsinə Azərbaycan çox qəzəblə reaksiya verdi və nəticədə Türkiyəyə qaz ixracını iki il müddətinə dayandırdı [12, s.53].

Türkiyə - Azərbaycan münasibətləri 2010-cu ildən etibarən 16 avqust tarixində Türkiyə Prezidenti Abdullah Gülün Azərbaycana rəsmi səfəri zamanı imzalanan “Strateji Ortaqlıq və Qarşılıqlı Yardım Anlaşması” və 15 sentyabrda Yüksək Səviyyədə Strateji Əməkdaşlıq Şurası qurulması ilə yeni mərhələyə qədəm qoymuşdur. Bu anlaşma və qurulan şura, hər iki dövlət üçün də xarici əlaqələrində ən yüksək səviyyəli əməkdaşlıq modelini təşkil edir [13]. Anlaşmanın birinci maddəsində açıq şəkildə tərəflərdən birinin torpaq bütövlüyünə qarşı hər hansı bir təhdid ortaya çıxdıqda və ya bu istiqamətdə təhlükə ilə qarşılaşdıqda tərəflərin təcili konsultasiyalar aparacağı qeyd edilmişdir. İkinci maddəyə görə isə, tərəflərdən biri üçüncü bir dövlət və ya bir neçə dövlət tərəfindən silahlı hücum və ya hərbi təcavüzə məruz qalarsa, BMT Nizamnaməsinin 51-ci maddəsinə uyğun olaraq kollektiv müdafiə tədbirlərinin alınması çərçivəsində bir-birinə yardım edəcəklər [14].

2012-ci iyunun 16-sında ildə iki dövlət arasında imzalanan “Trans Anadolu Təbiqaz Kəməri Layihəsi” Anlaşması Azərbaycanı Türkiyə üçün əhəmiyyətli bir enerji tərəfdaşına və, Türkiyəni Azərbaycan qazının Avropaya ixracı üçün bufer zonaya çevirmişdir. 17 mart 2015-ci ildə Türkiyənin Kars vilayətinin Selim rayonunda AR Prezidenti İ.Əliyev, Türkiyə Prezidenti Ərdoğan və Gürcüstan Dövlət

Başçısı Giorgi Marqvelaşvilinin iştirakı ilə TANAP-ın təməlqoyma mərasimi keçirilmişdir. 2013-cü ilin fevralında Türkiyə ilə Azərbaycan arasında yeni bir enerji dəhlizinin yaradılması istiqamətində "Trans Adriatik Boru Kəməri Layihəsi" ilə bağlı müqavilə imzalanmışdır ki, bu layihənin həyata keçirilməsi ilə Azərbaycanın təbii qazı İtaliyaya daşınması nəzərdə tutulurdu. Bunun üçün Yunanıstan, Albaniya və İtaliya arasında təbii qaz kəmərinin marşrutu və tikintisi ilə bağlı bir bağlı müqavilə də imzalanmışdır. Nəticədə Azərbaycan və Türkiyəni Avropa dövlətləri üçün etibarlı bir strateji enerji tərəfdaşına çevirmişdir [15]. 2019-cu il 30 noyabr TANAP təbiqaz kəmərinin Avropa təbiqaz kəməri ilə birləşən hissəsinin açılış mərasimi keçirilərək, "Şahdəniz-2" quyusundan Türkiyəyə və Avropaya çatdırılan bu vacib layihədə təbii qaz nəql əməliyyatlarının əhəmiyyətli hissəsi tamamlanmış və 2020-ci ildə kəmər fəaliyyətə başlamışdır.

Azərbaycan - Türkiyə strateji tərəfdaşlığı Cənubi Qafqazın təhlükəsizliyinə xüsusilə enerji təhlükəsizliyinə verdiyi tövhəsi regionun digər güclü aktorların o cümlədən Rusiyanın da bölgədəki qlobal enerji layihələrinə qatılması baxımından çox əhəmiyyətlidir. 2014-cü ildə Rusiya Prezidenti Vladimir Putin tərəfindən təklif edilən "Türk Axını" adı verilən təbii qaz layihəsi Rusiyanın enerji ehtiyatlarının Türkiyə vasitəsilə Avropaya daşınmasını təmin edəcək bir layihəsi, Rusiya-Türkiyə-Azərbaycan üçlüyünün iştirak etdiyi yeni bir əməkdaşlıq prosesinin başlanğıcı qoymuşdur[16].

***Türkiyə-Azərbaycan əməkdaşlığının İkinci Qarabağ savaşında rolu.*** 44 günlük Vətən müharibəsi zamanı Türkiyə Cümhuriyyəti özünün bütün siyasi, diplomatik və hərbi imkanları ilə ən yüksək səviyyədə Azərbaycanı dəstəkləmiş, beynəlxalq hüququn tələbini yerinə yetirməkdə Azərbaycana heç bir şəkildə tək buraxmamışdır. Türkiyədən alınan inkişaf etmiş silah sistemlərinin birbaşa nəticəsi olaraq, Azərbaycanın hərbi gücü əhəmiyyətli dərəcədə artdı. Türkiyədən alınan dronlar və digər müasir hərbi avadanlıqlar müharibə boyunca Ermənistanın müdafiə mövqelərini və zirehli formalarını tapmaq, hədəfləmək və hücum etmək üçün geniş şəkildə istifadə olundu və Azərbaycanı sürətlə əraziyə nəzarət etməyə və Ermənistan qoşunları üzərində üstünlük əldə etməyə kömək etdi. 2020-ci ilin noyabrın əvvəlində Şuşanın itirilməsi ilə, Azərbaycanın qoşunlarının Xankəndini bir neçə saat ərzində ələ keçirəcəyi qorxusu Ermənistanı atəşkəs razılaşmasını qəbul etməyə məcbur etdi [17, s.213-218].

Bu razılaşma müharibənin hüquqi və siyasi nəticələri ilə müharibə sonrası bölgənin gələcəyi baxımından böyük əhəmiyyət kəsb edir. Dağlıq Qarabağa heç bir status verilməyəcəyi bəyannamədə açıq şəkildə yer almışdır. Əvvəlki sülh danışıqlarında isə Azərbaycan Ermənistanın işğala son verməsi müqabilində Dağlıq Qarabağa ən yüksək siyasi muxtariyyət verə biləcəyini bəyan edirdisə, lakin bunu qəbul etməyən Ermənistanın müharibədə ağır məğlubiyyət olması, sülh şərtlərinin Azərbaycanın müəyyən etməsi ilə bu iddia öz qüvvəsinin itirmiş oldu. Həmçinin bəyannamədə Azərbaycanla Naxçıvan arasında nəqliyyat və kommunikasiya əlaqələrinin yaradılması nəzərdə tutan bəyannamənin 9-cu maddəsinin yer alması Azərbaycan diplomatiyası ilə yanaşı Türkiyə-Azərbaycan əməkdaşlığının və dəstəyinin nəticəsi idi. Türkiyə və Azərbaycan əməkdaşlığının yeni bir uğuru isə, tərəflər arasında atəşkəs razılaşması əldə edildikdən sonra Türkiyə və Rusiyanın birgə atəşkəsin izlənməsi mərkəzini qurmaq üçün memorandum imzalanması olmuşdur.

***Cənubi Qafqazın təhlükəsizliyin təminində "Şuşa" bəyannaməsinin əhəmiyyəti***. Prezident İlham Əliyev və Prezident Rəcəb Tayyib Ərdoğan tərəfindən 2021-ci il iyun ayının 15-də imzalanan Şuşa Bəyannaməsi, dünya üçün barış və əməkdaşlığın əsasını qoyan tarixi bir addımdır. Əsas diqqət çəkən hərbi əməkdaşlıq və müttəfiqliqliyə köklənən bəyannamədə qeyd olunur ki, əgər hər hansı bir dövlətin ərazi bütövlüyünə, suverenliyinə və ya sərhədlərinə qarşı üçüncü bir ölkə tərəfindən təhdid və ya təcavüz baş verərsə, tərəflər bir-birini müdafiə edəcəklər. Həmçinin hər iki tərəf, müstəqillik və ərazi bütövlüyünə qarşı hər hansı bir təhdid və ya təcavüz meydana gəldikdə, BMT Nizamnaməsinin məqsəd və prinsiplərinə uyğun olaraq birgə müzakirələr keçirəcək və zəruri müdafiə tədbirləri görəcəklər. Şuşa Bəyannaməsi ilə Türkiyə, Azərbaycanın ərazi bütövlüyünü pozmağa çalışan hər hansı bir dövlətə qarşı açıq şəkildə ordu dəstəyi verəcəyini beynəlxalq aləmə bildirərək, xüsusilə, uzun müddət ərzində erməni məsələsi adı altında dövlət maraqlarını reallaşdıran aktorlara qarşı ciddi bir xəbərdarlıq etmişdir. Əks təqdirdə, Azərbaycanın dövlət suverenliyini təhdid etməyə cəhd edənlər yeni bir regional hərbi blokla üzləşəcəklər. Bəyannamədə, hər iki ölkənin Təhlükəsizlik Şuralarının müntəzəm iclaslar keçirərək, həm regional, həm də beynəlxalq təhlükəsizlik məsələlərini müzakirə etməsi qərara alın-

mışdır [17]. Eyni zamanda Bəyannamədə Zəngəzur dəhlizinin adı qeyd edilir, bu da tarixi gerçəkliyi və gələcək məqsədləri vurğulayan mühüm bir faktor olaraq önə çıxır.

***Nəticə***. Beləliklə müstəqilliyinin bərpasının ilk günlərindən Azərbaycanın ərazi bütövlüyünə, suverenliyinə dəstəyini əsirgəməyən Türkiyə Respublikası ilə Azərbaycanın istər siyasi, istər iqtisadi, istər hərbi sahədə strateji əməkdaşlığı təkcə Azərbaycanın deyil, bütövlükdə Cənubi Qafqazın təhlükəsizliyinin təminində böyük əhəmiyyət daşıyır. Azərbaycan-Türkiyə strateji ikiliyə digər Cənubi Qafqaz ölkəsi Gürcüstanın daxil olması və üçtərəfli strateji layihələrin həyata keçirilməsi Cənubi Qafqazın təhlükəsizliyinin təminində yeni strukturun formalaşmasına gətirib çıxarmışdır və Ermənistanında daxil olacağı 3+3 əməkdaşlıq platformasını həyata keçirilməsi ilə Cənubi Qafqazın yeni təhlükəsizlik arxitekturası qurulmasına zəmin yaradacaqdır.

## ƏDƏBİYYAT


1. Agayev R., Alizade Z. Azerbaijan end of the second republic(1988-1993). Moscow: Granitsa, 2006, 615 p.
2. Həsənov Ə. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Bakı: Azərbaycan Yayınları, 2005, 631 s.
3. Araz Aslanlı. 10 Yılında Azerbaycan-Türkiye Stratejik Ortaklık Anlaşması ve Ortak Askeri Tatbikatlar / Anadolu Ajansı, 10.08.2020
4. Covic-Lazic A. The Second Armed Conflict in Nagorno-Karabakh-Causesand İmplications. İn Coverengence and Confrontation: The Balkans and the Middle East in 21st Centry. Belgrade: İnstitute of İnternational Politics and Economics, 2021, p.240.
5. Azərbaycan və Türkiyə arasında strateji əməkdaşlıq şurasının qurulması haqqında bəyannamə imzalanmışdır / Azərbaycan Respublikasının Prezidenti, rəsmi səhifə, 15 sentyabr 2010. - https://president.az/articles/721?locale=az [30.12 2024].
6. Elçin A. Azərbaycan-Türkiyə Strateji Tərəfdaşlığı yeni və dinamik inkişaf mərhələsində // Azərbaycanda Atatürk Mərkəzi, 29.11.2020, s.13-15.
7. Yumatov K.V. Armenia in the context of the foreign policy of Turkey, the Russian Federation and the European Union countries // Вестник Кемеровскогогосударственного университета, 2013, №2-3, c.179-183.
8. Kavaz İ. Türkiyenin Enerji Merkezi Olma Sürecində TANAP Projesi. Ankara: Seta Perspektif, Haziran 2018, Sayı: 199, 6 s.
9. Trans-Atlantik Boru Kəməri: Qaz İxrac Boru Kəməri / Socar Midstream. - http//www.socarmidstream.az/az/projet/tap/cover [30.12 2024].
10. Пестрецов А.Р., Бабиров И.М. Азербайджано-Турецкие отношения: достижения и проблемы // Ученые записки. Электронный научный журнал Курского государственного университета, 2017, №1 (41), с.104-110.
11. İbrahimov R. Turkish-Azerbaijani relations and Turkey's Policy in the Central Caucasus // Caucasus and Globalization, Vol.5, No.3-4, 2011, pp.17-33.
12. Çernyavskiy S.İ. Formation of the foreign policy strategy of Azerbaijan (1988-2003). Moscow: 2004. Dr.History Science Dissertation Abstract. - https://www.dissercat.com/content/formirovanie-vneshnepoliticheskoi-strategii-azerbaidzhana-1988-2003 [30.12 2024].
13. Vladimir Kazimirov. Peace to Karabakh. Russians' Medition in the Settlement of the Nagorno-Karabakh Conflict. Moscow: Mezhdunar.otnoshenia, 2009, 608 p.
14. Vusal M. Enerji Sahəsində Yeni Emekdaşlıq Formatı Yaranır: Türkiyə-Azerbaycan / AzTv, 10.01.2020. - http://www.aztv.az/az/news/4384/enerji-sahəsində-yeni-əməkdaşlıq formatı-yaranır-türkiye-rusiya-azerbaycan-marktehlilmark [30.12 2024].
15. Коджаман О. Южный Кавказ в политике Турции и России в постсоветский период. Москва: М: Рус.Понорама, 2004, 296 с.

16. Колесниченко М.А. Азербайджан в системе международных отношений // Вестник Санкт-Петербургского университета, серия 6: Философия. Культурология. Политология. Право. Международные отношения, 2011, №3, с.63-69.
17. Насибова А.С. От А.Муталибова к Г.Алиеву: формирование внешней политики независимого Азербайджана // Известия Саратовского университета, Нов. Сер. Сер. История. Международные отношения. 2019, Т.19, Вып.1, с.81-86. doi:10.18500/1819-4907-2019-19-1 [30.12 2024].

**TARANA MUTALLİMOVA**
*Master student of Baku State University*

## THE ROLE OF TURKEY-AZERBAIJAN COOPERATION IN ENSURING THE SECURITY OF THE SOUTH CAUCASUS

The strong strategic cooperation between Turkey and Azerbaijan, which began with Azerbaijan's independence, plays a crucial role in ensuring the security of the South Caucasus. The long-term friendship and mutual trust between the two countries form the basis of their relations, which is one of the key factors in increasing stability in the region. Turkey's support during the Nagorno-Karabakh conflict had significant political impacts on other states in the region. Additionally, cooperation between the two countries in the fields of energy, trade, and transportation contributes to strengthening the economic and strategic security of the South Caucasus and helps maintain regional balance and stability in the region.

*Keywords:* Corridor, South Caucasus, Nagorno-Karabakh conflict, strategic cooperation, Shusha Declaration, Trilateral Declaration, UN, OIC, OSCE, TANAP, TAP, BTK, Zangezur Corridor.

*Daxil olma tarixi*: 30.12.2024-cü il.
*Çapa imzalanma tarixi*: 31.01.2025-ci il.

UOT 94

**ZENFİRA MANAFOVA**
*AzərbaycanUniversitetinin*
*Azərbaycanın qədim və orta əsrlər tarixi üzrə II kurs magistrantı*
**zemamanafova48@gmail.com**

# BÖYÜK SƏLCUQLU DÖVLƏTİNİN İDARƏ SİSTEMİ

*Elmi rəhbər:*
tarix elmləri doktoru, akademik Yaqub Mahmudov

*Səlcuqlar özlərinəqədərki türk dövlətlərinin ən geniş əraziyə malik olanı, Səlcuq idarə sistemi də ozamankı dövlət təşkilatlarının ən tərəqqiyə açıq forması idi. Səlcuq dövlət idarəçiliyi türk törəsi (qanunu), islam qanunları əsasında formalaşsa da, yenə də bu dövlət strukturu Abbasilər xilafətinin, Sasani imperiyasının, Buveyhi dövlətinin bəzi idari əsaslarını mənimsəmiş və öz idarəçiliyini bu əsaslar üzərində yenidən tənzimləmişdi. Toğrul bəyin (1038-1063) hakimiyyəti illərində formalaşmağa başlayan və ikihakimiyyətlilikdən yaxa qurtaran dövlət birliyi, Alp Arslan (1063-1072) və Məlik şahın ( 1063-1072) hakimiyyəti illərində inkişaf etdirilərək imperiyaya çevrilmişdir.*

*Açar sözlər:* Səlcuqlu dövləti, Nizamülmülk, türk dövlətçilik ənənələri, idarə sistemi.

***Giriş.*** Səlcuq dövlətinə 29 il vəzirlik etmiş böyük vəzir Xacə Nizamülümülkün "Siyasətnamə"-si səlcuqlar dövründən günümüzə gəlib çatmış ən mötəbər mənbə, misilsiz ədəbi-tarixi əsərdir. Nizamülmülk öz əsərində dövrün siyasi, ictimai və hərbi məsələlərini, ideal dövlət idarəçiliyinin necə olmasını dəqiqiliklə əks etdirməklə yanaşı, Böyük Səlcuqlu dövlətinin idarə sistemi haqqında da geniş məlumat verir.

Tarix boyunca bir çox dövlət qurmuş, öz adət və ənənələri əsasında hakimiyyət anlayışını formalaşdırmış türklər dövləti hökmdarın soyuna aid etsələr də, dövlət torpağının hökmdarın şəxsi malı olmadığını ifadə etmiş, lakin bu torpağın dövlət tərəfindən qorunmalı olduğu məsələsində yekdil fikirdə olmuşlar [1, s.236].

Türklərə görə, hökmdar adi insanlardan fərqlənir. Türk hökmdarlar Göy Tanrı tərəfindən seçildikləri inancına sahib olub özlərini " qutlu" anlayışı ilə şərəfləndirmiş, "Qutluq Təkin"."Qutluq Şah" kimi adlarla çağırılmaqdan qürur duymuşlar [2, s.448].

İslam dininin qəbul edilməsindən sonra türklər hökmdarı "Züllullahi-sil-arz" - "Allahın Yer üzündəki kölgəsi" hesab etmişlər. Nizamülmülk bu xüsusda öz əsərində: "Uca Allahın xalq içərisindən seçdiyi padşahın dünya işlərini, qullarının məsuliyyətini öz üzərinə almasını nəsib edir. Allah hökmdarı insanların gözündə əzəmət sahibi edir, hökmdar da Allah bəndələrinin rahatlığını təmin etməyi özünə borc bilir", – deyə ifadə etmişdir [3, s.28].

***Əsas hissə.*** Həm qədim türk, həm də müsəlman türk dövlətlərində hökmdarın xalq, xalqın isə hökmdar qarşısında məsuliyyət hissi var idi. Buna uyğun olaraq, hökmdar öz rəiyyətinin ehtiyaclarını ödəməli, xalq da öz hökmdarına itaətkar və sadiq olmalı idi.Səlcuq sultanları dövlət idarəçiliyində qanunlara əsaslanırdı. Hökmdar mərkəzi dövləti idarə edir, öz ailə üzvlərini (qardaşları, oğulları və qohum əqrəbalarını) mərkəzi hökümətə tabe olan vilayətlərə hakim təyin edirdi [4, s.29].

Nizamülmülk hökmdarların vəzifələrindən ən əsasının ölkəni abadlaşdırılması olduğunu ifadə edir. Ölkəni su kəmərləri ilə təmin etmək, su kanalları inşa etdirmək, böyük çaylar üzərində körpülər salmaq, kənd və obalar qurdurmaq, qalalar ucaltmaq, yeni şəhərlər salmaq, hündür binalar tikdirmək, yeni yaşayış məskənləri qurdurmaq, camilər ucaltmaq, eyni zamanda əsas yollarda karvansaralar tikilməsini, mədrəsələr yaradılmasını təmin etmək hökmdarın əsas vəzifələri sırasına daxil idi. Bundan başqa, sultanlar uca Allahın yaratdıqlarına mərhəmət göstərməli, vədə əməl etməli, mömin və dindar olmalı idi, adil hökmdarın təbəələri aclıq və susuzluq bilməməli idilər [3, s.28-29].

Əksər Səlcuq sultanları, həqiqətən də, xalq arasında "Əl-Sultan ül-Adil" (adil hökmdar) deyə adlandırılmış, mənbələr onlar haqqında ədalət mücəssəməsi kimi bəhs etmişlər.




*Dövlət təşkilatlarının strukturuna aid sxem*

Səlcuqlu dövlətinin başçısı hökmdar (Sultan) idi. Hökmdar saray təşkilatını, vəzir mülki təşkilatı idarə edirdi. İnzibati təşkilatların ən böyüyü Ali Divan idi. Sultan Böyük Divanın üzvləri olan vəziri və digər şura sədrlərini təyin edirdi [6, s.62].

Ali Divan dörd dərəcə əsasında bölünürdü: 1) Dövlətlərarası yazışmalara, 2) Təftişə; 3) Maliyyəyə; 4) Hərbi (əskəri) məsələlərlə məşğul olan qurumlar [6, s.61]. Vəzir Divani-Aliyə (Divani-Vəzarət) başçılıq edirdi. Ondan başqa bu divanda müstövfi (maliyyə işlərinə baxan), tuğrayi (yazışmalara nəzarət edən), müşrif (təftiş işlərinə baxan), arizul-ceyş (əskəri təşkilatı idarə edən) var idi [7, s.83].

Divani-inşa və Tuğra sultanın fərmanlarının, məmurların təyinat sənədlərinin, digər əyalət və vilayətlərlə yazışmaların tənzimlənməsi ilə məşğul olan qurum idi [8, s.541]. Tuğranın vəzifəsi sultanın verdiyi əmrlərə öz damğasını vurmaq idi. Tuğra sultan ova gedəndə, müharibə və səfər zamanı vəzir olmadığı zamanlar da sultana vəzir kimi xidmət edirdi [9, s.184].

Divani-istefa təşkilatı dövlət xəzinəsinin gəlir və xərclərinə nəzarət edən, maliyyə işlərinin məsuliyyətini yerinə yetirirdi. Dövlət xəzinəsindəki pulun miqdarı müstöfvinin nəzarətində idi [8, s.543].

Divanı-işraf dövlətin maliyyə və inzibati təşkilatının ən yüksək səviyyəli idarəçilər vasitəsilə yoxlanıldığı təşkilat idi. Vergilərin toplanmasına, gəlir və xərclərinə nəzarət edən divanın sədri "Sahibi-divani-işraf", "Müşrifi- məmalik" və ya "Müşrif" adlanırdı [8, s.545].

Müsriflər vilayətlərə (idarə və şəxslərə) nəzarət etmək üçün naiblər göndərirdilər. Bu naiblər məlumatları toplamaq və müşrifə hesabat vermək məcburiyyətində idilər. Bu yolla müşriflər bölgədəki məmurların hesablarına nəzarət edə bilirdilər. Müsriflərlər həm də kənd təsərrüfatı işlərinə, eyni zamanda sikkələrə nəzarət etməkdən (sikkə zərbində edilə biləcək hiylələrin qarşısını almaq üçün) məsul idilər [9, s.185].

"Divani-Arz"da ordunun ümumi işləri, sərkərdələrin, əmrlərini gəlirləri və maaşları təyin edilirdi. Əsgər toplamaq, əsgərlərin döyüş ləvazimatını yoxlamaq, ordunun maaş və məvacibini vermək,

dövlət iqtalarını idarə etmək Divani-Arzın idarəçiliyindən məsul şəxsin - "Sahibi-divani-arzın" vəzifəsi idi [6, s.80; 9, s.185].

"Divani-Arz" da əskərlərin müharibə zamanı hansı mövqedə hərəkət etməsi (əsgərlərin adı, onların şəxsi məlumatları və s.) haqda məlumatlar da yer alırdı. Divani-Arzın mühüm vəzifələrindən biri də iqtaları idarə etmək idi, lakin bunu təkbaşına həyata keçirmək mümkün deyildi və iqtanın miqdarı dövlətin ən yüksək qurumu tərəfindən müəyyən edilirdi. Səlcuq ordusunun əsgərlərinə üç aydan bir "bisteqani" (mevacib, mersubat, camegi) adlı maaş verilirdi. Sultan Məlikşahın dövründə əsgərlərə altı yüz min dinar maaş verildiyi qeyd edilir. Əsgərlərin maaş və iqta ilə bağlı istəkləri ancaq Arz məhkəməsinin məlumatı ilə həyata keçirilə bilərdi [10, s.129].

Böyük Divanda (şurada) şura başçısının sağında və solunda divan katibi adlanan münşilər və tərcüməçilər yer alırdı [11, s.38].

Səlcuq vəzirləri qəbul və mərasimlərdə, səfirlər və tabeli hökmdarlarla görüşlərdə, Divani-məzalimdə (mülki işlər üzrə məhkəmə), saray və ordu xərclərini təftişində nəzarəti öz üzərlərinə götürür, xəzinə gəlirlərindən məsul tutulurdular [12, s.84; 13, s.83].

Böyük Səlcuqlu dövlətində mülki vəzifələrdə iranlılar, hərbi vəzifələrdə türklər üstünlük təşkil edirdilər. Nüzamülmülk "Siyasətnamə"də iranlıların türk komandanlarının arxası ilə qaçaraq onların rəğbətini qazanıb mülki işlərdə vəzifəyə nail olduqlarını yazır [5, s.144].

Səlcuq Sultanı ədalət və bilik kimi məxsusi dəyərlər sahib olmalı idi. Hökmdarın fərmanı qanun qüvvəsində idi. Bu fərman və qərarlar, adətən, vəzir və əyanların məsləhəti ilə qüvvəyə minirdi. Bəzən Sultan ani qərarlar da qəbul edə bilərdi. Ancaq bu gözlənilməz qərarlar hansısa dövlət məmurunun ölümü və dövlətin torpaq itkisi ilə nəticələnə bilərdi. Hökmdar törə və qanuna zidd olmamaq şərti ilə hər cəhətdən mütləq hakim idi.

Böyük Səlcuq imperiyasının paytaxt şəhərləri müxtəlif dövrlərdə Nişapur, Rey, İsfahan və Mərv olmuşdur.

Səlcuq dövlətində Böyük Divana daxil olmayan digər divanlar da vardı. "Divani-Məzalim"də şikayətlər əsasında aşayişin qorunması, "Divani-Bərid"də əyalətlər arasındakı xəbərləşmələr (məktublar), dövlət kəşfiyyat ilə əlaqəli məsələlər, "Divani-Xass"da hökmdara aid ərazinin idarəçiliyi (bu işi vəkil həyata keçirirdi) məsələlərinə baxılır, Müsadirə divanında dövlət malı hesabına varlanmış şəxslərin mal və mülkü əlindən alınırdı [5, s.152].

Əyalət divanlarının sayı üç idi: "Qazı divanı" (Məhkəmə divanı), "Riyasət divanı", "Şahnə divanı". Qazı divanı şəriət məsələlərinə, Riyasət divanı şəhərləri idarə edən rəislərə (valilərə) aid dünyəvi məsələlərə, Şahnə divanı əyalətlərdəki qarnizonlara, əskəri idarəçiliyə, xalqın rifahının və əmniyyətin qorunmasına nəzarət edirdi [14, s.41].

Saray təşkilatı "Siyasətnamə" yə görə "həm hökmdarın ailəsi ilə birlikdə yaşadığı şəxsi ərazi, həm də dövlət işlərinin həyata keçirildiyi yer kimi əsas mərkəz" idi. Saray təşkilatı dərgah da adlanır. Burada məmurların səlahiyyət və vəzifələri də müəyyən edilirdi. M.A.Köymənin dediyinə görə, saray təşkilatının məmurları iki qrupa bölünürdü: "saray ağsaqqalları" və "kiçiklər"ə. "saray böyükləri" sultan və vəzirdən sonrakı məqam sahiblərini müəyyən edirdi. Buraya "Böyük hacib" (hacib hərbi təbəqəyə mənsub, qulam sistemi ilə yetişmiş, əmir rütbəsinə malik bir saray məmuru idi. Böyük hacib sarayın bütün işlərinə cavabdeh idi və saraydakı məmurları təftiş edirdi) və Böyük hacibin əmrində olan haciblər daxil idi. Növbəti məqam Əmiri- Haris (hökmdarın verdiyi cəzaları həyata keçirdi) idi [9, s.90-91].

Vəkili-Xass sarayın mətbəxinə, şərabxanaya, tövlələrə və saraylara nəzarət etməkdən məsul idi. Digər vəzifələr "kiçiklər" adı altında cəmləşən müxtəlif saray işçilərini nəzərdə tuturdu [8, s.526].

Səlcuq hökmdarı taxta çıxanda adına xütbə oxunar, hökmdarın adı sikkəyə həkk edilər və ya onun adına yeni sikkə zərb edilərdi. Səlcuqların ən qiymətli pulları "dinari-sorx" (qızıl pullar) hesab olunurdu. Xəlifə tərəfdən Səlcuqlu sultanlarına ləqəblər verilirdi. "Taxt" hakimiyyətin simvolu olaraq müharibələr vaxtı sultanla birgə daşınırdı. Səlcuq hökmdarı "tac"ı rəsmi günlərdə başına qoyurdu. Səyahətlər zamanı hökmdarın başı üzərində hakimiyyət əlaməti olan çətir tutulurdu. "Traz" hakimiyyət simvolu olan üst geyimi, yüksək sənətkarlıqla hazırlanmış əba idi. "Bayraq" maddi hakimiyyət simvolu idi. Səlcuqlu bayrağının qara rəngdə olub, üzərində ox və yay əlamətinin olduğu təxmin

edilir. Hökmdarın maddi əlamətərindən bir də sarayın və çadırın qarşısında "növbət"in tutulması hesab olunurdu. Növbətin dəyişilməsi təbil , zurna, kos və nağaranın müşayəti ilə yerinə yetirilirdi. "Tevki" sultanın (üstündə Quran ayələri yazılmış) möhürü idi [5, s.157-160].

***Nəticə.*** Səlcuqlar qədim türk ənənəsinə uyğun olaraq hökmdarın Allahın yardımı ilə təbəələrin xidmətində olması ideyasını davam etdirmiş, Səlcuq sultanları idarəçiliyini həyat keçirdiyi ölkələrdə yerli hakimlərin daxili işlərinə müdaxilə etməməyi qarşılarına məqsəd qoymuşlar. Bununla belə, idarəetmədə islam əsasları mərkəzi yer tutmuşdur. Yaxın Şərq ölkələrinin siyasi, iqtisadi, sosial və mədəni həyatı X-XIII yüzilliklərdə məhz Səlcuq imperiyasının varlığı səbəbindən ciddi dəyişikliyə uğramışdır. Lakin imperiyanı zəifləməsi və nəhayət, süqutu da məhz idarəçilik sistemindəki müəyyən çatışmazlıqların, xüsusilə iqta sisteminin hədsiz inkişafının, hakimiyyət uğrunda çəkişmələrin, feodal özbaşınalığının, məhəlli bölünmələrin və xarici müdaxilələrin nəticəsində baş vermişdir.

Nəticə etibarilə, Böyük Səlcuq imperiyası Yaxın və Orta Şərqə istiqamətlənən səlib yürüşlərinin qarşısını almaqla, Bizansa bel bağlayaraq Azərbaycanı qərb torpaqlarını istila etmək istəyən erməni və gürcü qəsbkarlarının istəklərini gözlərində qoymaqla, türk-islam mədəniyyətinin inkişafına yeni səhifə açmaqla, türk dilinin əhatə dairəsini genişlətməklə türklük və islam amilinin Cənubi Qafqazda və Ön Asiyada qəti şəkildə möhkəmlənməsini təmin etdi.

## ƏDƏBİYYAT


1. Kafesoğlu İbrahim. Türk Milli Kültürü. İstanbul, Ötüken Neşriyat, 1997, 421 s.
2. Refik Turan. Selçuklular Döneminde Devlet ve Teşkilat. Selçuklu Tarihi El Kitabı. Editör: R.Turan. Ankara, Grafiker Yayınları, 2018, 810 s.
3. Nizamülmülk. Siyasətnamə. Bakı, "Çıraq", 2007, 273 s.
4. Uzunçarşılı İsmail Hakkı. Osmanlı Devleti Teşkilâtına Medhal. Ankara, TTK, 2014, 507 s.
5. Məmmədov Eldəniz. Səlcuqlar. Dərs vəsaiti. Bakı, Mütərcim, 2015, 204 s.
6. Merçil Erdoğan. Selçuklular Zamanında Dîvân Teşkilâtı. İstanbul, Bilge Kültür Sanat Yay., 2015, 232 s.
7. Özaydın Abdülkerim. Müslüman Türk Devletinde Vezirlik. TDVİA, c. XLIII. İstanbul, 2013, s.83.
8. Merçil Erdoğan. Selçuklu Devletlerinde Hâkimiyet Anlayışı. İslam Tarihi ve Medeniyeti Külliyatı, c.X. İstanbul, Siyer Yayınları, 2018, s.503-569.
9. Köymen. Büyük Selçuklu İmparatorluğu Tarihi (Alp Arslan ve Zamanı). C.III. Ankara, TTK, 2016, 532 s.
10. İncekara Oğuzhan Büyük Selçuklu Devleti'nin Kurumsal Yapısının oluşumunda "Siyasetname" geleneğinin etkisi (Nizamülmülk "Siyasetname"si örneği). Yüksek Lisans Tezi. Kirikkale, 2022, 223s.
11. Bedirhan Atçeken, Yaşar Zeki. Selçuklu Müesseseleri ve Medeniyeti Tarihi. Konya, Eğitim Kitabevi, 2004, 368 s.
12. Kurpalidis G.M. Büyük Selçuklu Devletinin İdarî, Sosyal ve Ekonomik Tarihi. Çev. İlyas Kamalov. İstanbul, Ötüken Neşriyat, 2007, 183 s.
13. Özaydın Abdülkerim. Müslüman Türk Devletinde Vezirlik. TDVİA, c. XLIII, İstanbul, 2013.
14. Klausner Carla L. Selçuklularda Vezirlik Sivil İdare Üzerine Bir Araştırma 1055-1194. Çev. Mehmet Fatih Baş, Sinan Tarifci. İstanbul, Kronik Yay., 2019, 174 s.


**ZENFIRA MANAFOVA**
*2st year graduate student of the ancient and medieval history*
*of Azerbaijan University*

## ADMINISTRATIVE SYSTEM OF THE GREAT SELJUQ STATE

The Seljuks had the largest territory among the Turkic states before them, and the Seljuk administrative system was the most progressive form of state organizations at that time. Although the Sel-

juk state administration was formed on the basis of Turkish law and Islamic laws, this state structure adopted some of the administrative principles of the Abbasid caliphate, the Sasanian Empire, and the Buwayhi state and re-regulated its administration on these principles. The state union, which began to form during the reign of Togrul Bey (1038-1063) and got rid of dual power, was developed and turned into an empire during the reigns of Alp Arslan (1063-1072) and Malik Shah (1063-1072).

*Keywords:* Seljuk state, Nizamulmulk, traditions of Turkish statehood, administration system.

*Daxil olma tarixi*: 28.12.2024-cü il.
*Çapa imzalanma tarixi*: 31.01.2025-ci il.

Türk dünyası gənc tədqiqatçılar dərnəyinin Araşdırmaları
Studies of the Turkic World Young Researchers Association

№1(11) 2025, 96-100

UOT 32.327

ZƏHRA ƏSGƏROVA
*Bakı Dövlət Universitetinin magistrantı*
**asgarova.zahra@outlook.com**

# DAVAML İNKİŞAF ÜÇÜN KOSMİK TEXNOLOGİYALAR VƏ BU KONTEKSTDƏ BEYNƏLXALQ ƏMƏKDAŞLIĞIN FAYDALARI

*Elmi rəhbər:*
siyasi elmlər üzrə fəlsəfə doktoru Afət Güləliyeva

*Məqalədə davamlı inkişafın sürətləndirilməsində kosmik texnologiyaların rolu və bu sahədə beynəlxalq əməkdaşlığın təklif etdiyi üstünlüklər, həmçinin Davamlı İnkişaf Məqsədlərinə nail olmaq üçün kosmik elmlərin və texnologiyaların müxtəlif istifadə üsulları araşdırılır. Bunlara ərzaq təhlükəsizliyinin təmin edilməsi, humanitar böhranların qarşısının alınması, təbii ehtiyatların monitorinqi, telekommunikasiya və səhiyyə xidmətlərinin təkmilləşdirilməsi və təbii fəlakət risklərinin azaldılması kimi məsələlər daxildir. Məqalədə, həmçinin daha az xərclə texnologiyaların tətbiqinə imkan verən yeni texniki inkişafların, həmçinin yerli, milli, regional və beynəlxalq maraqlı tərəflər arasında əməkdaşlığın, xüsusən də inkişaf etməkdə olan ölkələrdə bu texnologiyaların daha geniş tətbiqinə necə töhfə verə biləcəyini təhlil edir. Burada qeyd olunur ki, kosmik texnologiyaların tətbiqinin təqdim etdiyi imkanlar barədə məlumatlılığın aşağı olması, maliyyə və texniki resursların məhdudluğu, ixtisaslı işçi qüvvəsinin olmaması kimi maneələr hələ də davam etməkdədir. Milli, beynəlxalq və regional səviyyələrdə qəbul edilmiş uğurlu siyasət və strategiyaları araşdıraraq, davamlı inkişaf məqsədlərinə nail olmaq üçün kosmik texnologiyalardan necə səmərəli istifadə oluna biləcəyi müzakirə edilir. Sonda üzv dövlətlər və beynəlxalq ictimaiyyət üçün tövsiyələr də təqdim edilir.*

*Açar sözlər:* Kosmik texnologiyalar, davamlı inkişaf, beynəlxalq əməkdaşlıq, texnoloji innovasiyalar, kosmik elmi tədqiqatlar.

***Giriş.*** Davamlı inkişaf bütün dünyada iqtisadi artımı, ətraf mühitin mühafizəsini və sosial bərabərliyi hədəfləyən bir konsepsiya kimi getdikcə daha çox əhəmiyyət kəsb edir. BMT-nin 2030-cu ilədək Davamlı İnkişaf Məqsədləri (DİM) dünyanın bütün ölkələrindən bu məqsədlərə nail olmaq üçün birgə səy göstərməyi tələb edir. Bu məqalə kosmik texnologiyaların davamlı inkişaf məqsədlərinə necə töhfə verdiyini və bu töhfənin beynəlxalq əməkdaşlıq çərçivəsində necə daha effektiv ola biləcəyini araşdırmaq məqsədi daşıyır. Birincisi, diqqət kosmik texnologiyalardan istifadənin müxtəlif sahələrinə yönəldiləcək. Daha sonra bu texnologiyaların xüsusilə inkişaf etməkdə olan ölkələrdə tətbiqi və qarşıya çıxan çətinliklər müzakirə ediləcək. Bundan əlavə, beynəlxalq səviyyədə bu texnologiyalardan səmərəli istifadənin artırılması üçün həyata keçirilməli olan siyasət və strategiyalar müzakirə olunacaq. Həmçinin beynəlxalq elmi tədqiqatların ən təsirli formaları və sahələri müəyyən edilir, tədqiqat və inkişaf sahəsində birgə müəssisələrin nümunə tədqiqatlarına xüsusi diqqət yetirilir. Sonda isə kosmik texnologiyaların daha geniş tətbiqi üçün tövsiyələr təqdim olunacaq.

***Davamlı inkişaf məqsədlərinə nail olmaq üçün kosmik texnologiyaların tətbiqi.*** Kosmik elm, texnologiya və məlumatlar bütün Dayanıqlı İnkişaf Məqsədlərinin əldə edilməsinə birbaşa və ya dolayı yolla töhfə verə bilər. Kosmik texnologiyalara adətən peyk müşahidəsi, peyk rabitəsi və Yerin müşahidəsi üçün peyk yerləşdirmə sistemləri daxildir. Hava proqnozu və uzaqdan zondlamanın istifadəsi, qlobal yerləşdirmə sistemləri və peyk televiziya və rabitə sistemləri kimi texnologiyalar bütün kosmik elm və texnologiyalara əsaslanır.

Son illərdə coğrafi məlumatlara, informasiya məhsullarına və xidmətlərinə açıq çıxış və aşağı qiymət xüsusilə inkişaf etməkdə olan ölkələrdə kosmik texnologiyaların tətbiqini təşviq etmişdir. Bu, "Açıq məlumat kubu" kimi təşəbbüslər sayəsində mümkün olmuşdur [14, 3]. Kosmik texnologiyalar vasitəsilə əldə edilən kənd təsərrüfatı məhsulları və xidmətləri milli kənd təsərrüfatı nazirliklərinə, beynəlxalq təşkilatlara və fermerlərə dəstək ola bilər. Məsələn, Türkiyədə "Həssas-2" dəqiq kənd təsər-

rüfatı təşəbbüsü çərçivəsində gübrə tətbiqi məlumatlarını ehtiva edən xəritələr hazırlanır və peyk şəkilləri və analiz məlumatları internet vasitəsilə fermerlərə çatdırılır [12; 13, 37].

Milli səviyyədə tətbiqi proqramlar açıq mənbəli peyk məlumatlarından və torpaqdan, bitki örtüyünün alqoritmlərindən istifadə etməklə sahələrin kosmosda monitorinqini təşviq edir. Məsələn, 2016-cı ildə Kanada Statistika Agentliyi ölkənin kənd təsərrüfatı məhuldarlığını qiymətləndirmək üçün məsafədən zondlama model əsaslı yanaşma tətbiq edən ilk milli statistika agentliyi oldu [2, 50].

Son illərdə kosmik texnologiyalar qlobal sağlamlıq məqsədlərinə çatmaqda getdikcə mühüm rol oynayır. Uzaqdan zondlama texnologiyalarından istifadə etməklə əldə edilən məlumatlar xəstəliyin dinamikasını izləmək, xəstəliklərin yayılmasına səbəb olan ekoloji amilləri anlamaq, risk sahələrini proqnozlaşdırmaq və xəstəliklərə qarşı mübarizənin planlaşdırılmasını müəyyən etmək üçün istifadə olunur [14, 4]. Məsələn, coğrafi məlumatlara əsasən malyariya ilə bağlı erkən xəbərdarlıq sistemi 28 ölkədə yeni halların sayını 500 min azaltmağa nail olmuşdur [5]. 2018-ci ildə NASA-nın peyk məlumatlarından Yəmənə vəbanın təxmin edilməsi üçün istifadə edilmişdir (təxminən 92% dəqiqliklə) [8]. Səhiyyə sektoru peyk rabitəsi və uzaqdan zondlama texnologiyalarının həyati əhəmiyyət kəsb etdiyi bir nümunədir. Bu sahədə peyk texnologiyalarından istifadənin əsas sahələrinə teletibb, telesəhiyyə, xəstəliklərin monitorinqi sistemləri və sağlamlıq xəritəsi daxildir [1]. Kosmik texnologiyanın tətbiqi yerli, regional və milli fəlakət risklərinin azaldılması strategiyalarının mühüm elementinə çevrilmişdir. 1998-2018-ci illər arasında dünya üzrə 1,3 milyon insan həyatını itirib, 4,4 milyard insan isə iqlim və geofiziki təbii fəlakətlər səbəbindən evlərindən didərgin düşüb, yaralanıb və sığınacaqsız qalıb [11]. Qlobal miqyasda, 2015-2030-cu illəri əhatə edən Fəlakət Riskinin Azaldılamsı üzrə Sendai Çərçivə Proqramında etibarlı məlumatlara çıxışın təmin edilməsi, kosmos və quru əsaslı məlumatlardan istifadənin dəstəklənməsi, yerin müşahidəsi və iqlimin müşahidəsi üçün geoməkan və kosmik texnologiyalardan və məsafədən zondlama metodlarından istifadə bacibdir. Banqladeş və Hindistan kimi siklon riski olan ölkələr erkən xəbərdarlıq sistemlərini təkmilləşdirmək və siklon sığınacaqlarının və sahil xətlərinin vəziyyətini yaxşılaşdırmaq üçün müasir meteroloji xidmətlərə sərmayə qoyurlar [16].

Yerin müşahidəsi həm də qeyri-qanuni mədən işlərinin monitorinqi üçün bir vasitədir. Avropa Birliyinin "Kopernik" xammal monitorinq proqramı təbii ehtiyatların və xammal sektorunun monitorinqinə və idarə olunmasına kömək etmək üçün peyk görüntülərindən istifadə edir [14, 6]. Yerin müşahidəsi bəzi ölkələrdə ekoloji vəziyyətə və qar, buzlaqlarla bağlı problemlərə nəzarət etmək üçün də istifadə olunur. Məsələn, Avropa İttifaqının "Horizon 2020" proqramının dəstəyi ilə Avstraliyada bir şirkət "Kopernik" Yerin müşahidəsi proqramı çərçivəsində standart Avropa xidməti kimi qar və quruda monitorinq xidmətlərinin hazırlanması və həyata keçirilməsi üzərində işləyir [6].

***Sürətli texnoloji dəyişiklik və mövcud məhdudiyyətlər.*** Müasir texnoloji yeniliklər kosmik elmin və texnologiyanın tətbiqinin və istifadəsinin xərclərini azalda bilər. Peyklərin yeni funksional imkanları, məqsədlərə çatmaq üçün yeni tətbiqi texnologiyaların istifadəsinə töhfə verə bilər. Bununla belə, bəzi kosmik texnologiyaların dəyərinin azalması və açıq mənbəli məlumatlara çıxış imkanlarının genişlənməsinə baxmayaraq, onların müxtəlif sahələrdə istifadəsi və müəyyən bölgələrdə tətbiqi bir sıra problemlərlə qarşılaşır.

Süni intellekt, Yer müşahidəsi məlumatlarının daha sürətli və effektiv təhlil edilməsinə imkan verir. Yer səthinin monitorinqi istifadə edilən təsvirlərin tanınması və təsnifatının avtomatlaşdırılması üçün konvulyasiya neyron şəbəkələrindən istifadə etmək mümkündür. Süni intellektin məqsədyönlü istifadəsini genişləndirmək üçün müxtəlif qlobal innovasiyalar həyata keçirilir. Məsələn, Beynəlxalq Kənd Təsərrüfatı Araşdırmaları üzrə Məsləhətçi Qrupun böyük məlumat bazaları üzrə platforması, kənd təsərrüfatında maşın öyrənməsi və dəqiq əkinçilik texnologiyalarının tətbiqini təşviq edərək, dünya üzrə aqrar sahədəki problemlərin həllinə yönəlmiş addımlar atır [4]. Bulud əsaslı modellər, xüsusilə orta və böyük həcmli qlobal məlumat dəstlərinin işlənməsində əsas metod kimi qəbul olunur. Bunun səbəbi, peyklər tərəfindən toplanan böyük məlumat kütləsinin bulud xidmətləri vasitəsilə saxlanılması və emalı imkanlarının genişlənməsidir. Belə platformalara "Earth on Amazon", "Google Erth Engine", "NASA Earth Exchange", Avropa Orta Müddətli Hava Proqnozları Mərkəzinin iqlim məlumat anbarı daxildir [14, 9].

Yer müşahidəsi üçün alternativ məlumat mənbəyi kimi pilotsuz uçuş aparatları (PUA) da getdikcə daha çox istifadə olunur. Peyklərlə müqayisədə daha aşağı xərci olan bu cihazlar, xüsusilə kənd təsərrüfatında məhsuldarlıq proqnozlarının hazırlanması və ərzaq təhlükəsizliyinin təmin olunması üçün geniş tətbiq edilir [7].

Kosmik texnologiyalarda sürətli inkişafın əsas səbəblərindən biri, bu sahədə özəl sektorun fəal iştirakıdır. Xüsusilə, özəl şirkətlərin peyklərin hazırlanması və istismarı üçün innovativ yanaşmalar tətbiq etməsi nəticəsində orbitə buraxılış xərcləri əhəmiyyətli dərəcədə azalmışdır. Bu dəyişiklik, dövlət qurumları və özəl kosmik şirkətlərin rolunu yenidən formalaşdıraraq, dövlət-özəl əməkdaşlığı və tərəfdaşlıq modelləri üçün yeni imkanlar yaradır.

Kosmik texnologiyalar sahəsində baş verən sürətli inkişaf, sahəyə bələd olmayan şəxslər üçün yenilikləri izləməyi çətinləşdirir. Məsələn, Avropa Kosmik Agentliyinin təcrübəsi göstərir ki, humanitar yardım təşkilatları və bəzi dövlətlər peyk texnologiyalarının təqdim etdiyi imkanlardan tam xəbərdar deyillər, həmçinin bu məlumatların istifadəsi, xərcləri və potensial faydaları barədə kifayət qədər biliklərə malik deyillər [3].

Bir çox dövlətlərdə peyk məlumatlarının işlənməsi və istifadəçilərə dəstək göstərilməsi üçün yerli mütəxəssislərin və kosmik texnologiyalara əsaslanan proqramlar hazırlaya bilən kadrların kifayət qədər olmaması bu sahədə boşluqlar yaradır. Kosmik texnologiyaların geniş tətbiqinə mane olan digər amillər arasında məlumatlara çıxışın məhdudluğu, analiz üçün hazır məlumatların azlığı və müşahidələrin qeyri-müntəzəm aparılması yer alır.

***Kosmosda beynəlxalq elmi tədqiqatlar və dayanıqlı inkişaf məqsədlərinə nail olmaq.*** Dünyanın ən böyük elmi-texniki əməkdaşlıq layihələrindən biri olan Beynəlxalq Kosmik Stansiya (BKS) 1998-ci ildən etibarən fasiləsiz fəaliyyət göstərir. Bu layihə Kanada, Rusiya, ABŞ və Avropa kosmik agentliklərinin birgə əməkdaşlığının nəticəsidir və onlar həm bu stansiyanın yaradılmasında, həm də hazırki idarə edilmə prosesində iştirak edirlər. Stansiyada elmi araşdırmaların aparılması üçün üç əsas laboratoriya modulu mövcuddur: “Destiny” (ABŞ, 2001), “Kibo” (Yaponiya, 2008) və “Columbus” (Avropa, 2008) [9].

Avropa Kosmik Agentliyi (AKA) kosmos elmi sahəsində beynəlxalq əməkdaşlığı inkişaf etdirmək üçün uzunmüddətli və effektiv platforma rolunu oynayır. AKA tərəfindən həyata keçirilən kosmos elmi missiyaları Yerə yaxın orbitdə müşahidələr, Kainat və Günəş sistemi araşdırmaları, fundamental fizika tədqiqatları kimi istiqamətləri əhatə edir. Hal-hazırda “Hubble” kosmik teleskopu bu agentliyin NASA ilə birgə 1990-cı ildən icra etdiyi mühüm birgə layihələrdən biridir.

BMT-nin fövqəladə vəziyyətlərə reaksiya və fəlakətlərin qarşısının alınması üçün kosmik məlumatlardan istifadə etmə platforması, kosmik məlumatların fəlakətlərin qarşısının alınması və aradan qaldırılması işlərində istifadə edilməsi sahəsində üzv dövlətlərə dəstək verir. ABŞ-ın NASA tərəfindən hazırlanmış və Geoloji Xidmətlər Agentliyi (GXA) tərəfindən istifadə edilən “Landsat” peykləri, “Servir” şəbəkəsi çərçivəsində fəlakət yardımına və dayanıqlı torpaq istifadəsi planlamasına kömək edən xəritələr hazırlayır.

Bir sıra beynəlxalq təşəbbüslər, xüsusilə inkişaf etməkdə olan və keçid iqtisadiyyatına malik ölkələr üçün kosmik məkana çıxış imkanlarını genişləndirməyə yönəlib. BMT-nin Kosmik Məsələlər üzrə İdarəsi ilə JAXA birgə təşəbbüsü olan “Kibo Cube” proqramı inkişaf edən ölkələrə Kibo laboratoriyasından kiçik kub-satellitlərin BKS-a buraxılması imkanı yaradır [10]. Elmi-texniki tədqiqatların inkişafına dövlət və özəl sektorun iştirakı ilə ikitərəfli əməkdaşlıq sazişləri də öz töhfəsini vermişdir. Bu sazişlər çərçivəsində peyklərə çıxış, avadanlıq təchizatı və potensialın artırılması üzrə dəstək nəzərdə tutulur.

***Kosmik texnologiyaların hədəflərinə nail olunmasında istifadə strategiyaları.*** Kosmik texnologiyaların hədəflərinə çatmaq üçün tətbiqi prosesində mütləq kosmos sahəsindəki ixtisaslaşmış mütəxəssislərə ehtiyac yoxdur. Daha vacib olan, peyk məlumatlarını praktiki hallərə çevirə bilən geoməkan məlumat mütəxəssisləri və mühəndislərdir. İnkişaf etməkdə olan ölkələrdə hökumətlər fərqli motivlərlə kosmik fəaliyyətlərə qoşulur və müxtəlif çətinliklərlə üzləşə bilirlər. Bostvana hökuməti peyk xidmətlərindən regional planlaşdırma və infrastrukturun gücləndirilməsi üçün istifadə edir [15]. Bəzi ölkələr kosmik proqramlarını iqtisadi, elmi və texnoloji inkişaf strategiyaları ilə əlaqələndirirlər, Rusi-

yanın "Rəqəmsal İqtisadiyyat" proqramı çərçivəsində 2022-ci ilə qədər "Rəqəmsal Yer" layihəsi üçün milli rərəmsal platformanın yaradılması planlaşdırılmışdır [14, 15].

Asiya-sakit Okean regionunda Kosmik Texnologiyanın Dayanıqlı İnkişaf Məqsədlərinin tətbiqi üzrə Nazirliklərarası Üçüncü Konfransda 2018-2030-cu illər üçün Tətbiqi Fəaliyyət Planı qəbul edilmişdir. Bu plan, regionda kosmik texnologiyaların və geosərhəd məlumatlarının tətbiqini genişləndirmək üçün kollektiv öhdəlikdir və 2030 Gündəliyi üzrə ESCAP-ın regional "yol xəritəsi"nin həyata keçirilməsi üçün rəhbərlik edəcək [14, 17].

Kosmik elm və texnologiyalar bulud hesablamaları, süni intellekt və kütləvi məlumat paylaşımı vasitəsilə inkişaf edərək, özəl sektor və qeyi-kommersiya təşkilatları Yer müşahidəsi məlumatları, modellər və digər uyğun rəqəmsal resursların mübadiləsində öz rolunu oynamağa davam edəcəkdir.

***Nəticə.*** Kosmos texnologiyalarının müxtəlif sahələrdə tətbiqi, ətraf mühitin qorunmasından tutmuş kənd təsrrüfatı və şəhər inkişafına qədər geniş bir sahəni əhatə edir. Yeni texnoloji inkişaflar və yerli, reginal və beynəlxalq səviyyədəki əməkdaşlıq, kosmik elm və texnologiyanın daha geniş miqyasda istifadə edilməsini təmin edir. Əməkdaşlıq nəticəsində xərclər azalmış və resursların daha effektiv istifadəsi mümkün olmuşdur. Lakin inkişafın qarşısını alan bir neçə maneə mövcuddur. Bunlar arasında kosmik texnologiyaların faydaları barədə maariflәndirmənin az olması, maliyyə və texnoloji resursların məhdudiyyəti və mütəxəssis çatışmazlığı xüsusilə diqqət çəkir.

Kosmik texnologiyalardan istifadə edərək ciddi problemlərin həllinə yönəlmiş milli siyasət və strategiyalar müəyyənləşdirilməlidir. Eyni zamanda, özəl sektorla əməkdaşlıq edərək bu texnologiyaların istifadəsinə daha geniş miqyasda əlçatanlıq təmin edilməlidir. Kosmik elmlə əlaqəli siyasətlərin inkişafı, kosmik proqramların hazırlanması və məqsədlərə çatmaq üçün kosmik elmi, texnologiya və məlumatlardan istifadə məsələlərində ən yaxşı təcrübələrin paylaşılması və dərslərin mübadiləsi beynəlxalq əməkdaşlığın gücləndirilməsi üçün vacibdir. Həmçinin kosmik texnologiyaların dayanıqlı inkişaf məqsədlərinə töhfə verməsi üçün dövlətlər və beynəlxalq ictimaiyyət arasında əməkdaşlıq daha da möhkəmlədirilməli, mütəxəssis hazırlığı və təcrübə mübadiləsi gücləndirilməlidir.

## ƏDƏBİYYAT

1. Birləşmiş Millətlər Təşkilatı. (2020). Qlobal sağlamlıq üçün kosmik elm və texnologiyalardan istifadə siyasətləri, təcrübələri ilə bağlı bir sıra suallara cavablar. A/AC.105/C.1/119
2. Buchanan P. & Mitchell A. J. (2016). Satellite-based crop monitoring: A new direction in agricultural statistics. Agricultural Systems Journal, 139 (1), 47-60.
3. Caribou Space. (2018). Satellite environmental information and development aid: An analysis of longer-term prospects. Farnham, United Kingdom: ESA-Space-for-IDA-v3.pdf – Yandex Documents
4. CGIAR Platform for Big Data in Agriculture. (n.d.). Three ways that machine learning can bring precision agriculture to small-scale farms. CGIAR: https://www.cgiar.org/news-events/news/three-ways-that-machine-learning-can-bring-precision-agriculture-to-small-scale-farms/ [30.12.2024].
5. CropWatch Research Team. (2021, Yanvar 16). CropWatch monitoring system. GEO Knowledge Hub: https://gkhub.earthobservations.org/packages/pps5h-ea276 [30.12.2024].
6. Enveo. (n.d.). CryoLand: Standard European Service for Snow and Land Ice Monitoring. Enveo. Baxıldı February 25, 2025 http://www.enveo.at/euprojects/89-cryoland [30.12.2024].
7. International Telecommunication Union. (2018). Drones in agriculture: Training workshop. ITU. https://www.itu.int/en/ITU-D/Regional-Presence/AsiaPacific/Pages/Events/2018/Drones-in-agriculture/asptraining.aspx [30.12.2024].
8. NASA. (2018, August 29). NASA's Satellite Data Help Save Lives. NASA: NASA - NASA's Satellite Data Help Save Lives [30.12.2024].
9. NASA. (n.d.). International Space Station: Facts and figures. NASA: https://www.nasa.gov/feature/facts-and-figures [30.12.2024].
10. NASA. (n.d.). What are smallsats and cubesats? NASA: https://www.nasa.gov/content/what-are-smallsats-and-cubesats [30.12.2024].

11. Sherg.az. (2023, mart 23). Son 50 il: Təbii fəlakətlər 2 milyondan çox insanın ölümü... / Sherg.az. - https://sherg.az/dunya/228015?utm_source m [30.12.2024].
12. TÜBİTAK. (2017, Dekabr 19). Second Phase of HASSAS Project. Bu TÜBİTAK UZAY: Second Phase of HASSAS Project Started - TUBITAK SPACE
13. Türkiye Bilimsel ve Teknoloji Araştırma Kurumu. (2021). Faaliyyet Raporu. Ankara: TÜBİKAT. 35-45 aqWI4 TUBITAK_21_FR.pdf – Yandex Belgeler [30.12.2024].
14. United Nations Economic and Social Council. (2020). Study on space technologies for sustainable development and the benefits of international research cooperation in this context (E/CN.16/2020/3). Internal document: ecn162020d3_ru.pdf [30.12.2024].
15. Wikipedia Contributors. (2024, November 7). Science and technology in Botswana. Wikipedia. https://en.wikipedia.org/wiki/Science_and_technology_in_Botswana [30.12.2024].
16. World Bank. (2016, August 9). Modernising weather forecats and disaster planning to save lives. World Bank Blogs: . https://blogs.worldbank.org/en/voices/modernizing-weather-forecasts-and-disaster-planning-save-lives [30.12.2024].

**ZAHRA ASGAROVA**
*Master student of Baku State University*

## SPACE TECHNOLOGIES FOR SUSTAINABLE DEVELOPMENT AND THE BENEFITS OF INTERNATIONAL COOPERATION IN THIS CONTEXT

This article examines the role of space technologies in accelerating sustainable development and the advantages of international cooperation in this field. Various applications of space science and technology for achieving the Sustainable Development Goals (SDGs) are explored. These include ensuring food security, preventing humanitarian crises, monitoring natural resources, improving telecommunications and healthcare services, and reducing the risks of natural disasters. The article also analyzes how new technological advancements, which enable the application of technologies at a lower cost, and collaboration among local, national, regional, and international stakeholders can contribute to the wider implementation of these technologies, particularly in developing countries. It is noted that barriers persist, such as low awareness about the opportunities presented by space technologies, limited financial and technical resources, and the lack of a skilled workforce. By reviewing successful policies and strategies adopted at national, international, and regional levels, the article discusses how space technologies can be used effectively to achieve sustainable development goals. Recommendations for member states and the international community are also provided.

*Keywords:* Space technologies, sustainable development, international cooperation, technological innovations, space scientific research, policies and strategies, economic and social development.

*Daxil olma tarixi*: 30.12.2024-cü il.
*Çapa imzalanma tarixi*: 31.01.2025-ci il.

***Çapa hazırlayan:*** **Lamiyə Ruintən**

Çapa imzalanmışdır: 31.01.2025.
Kağız formatı: 60x84 1/8 Həcmi: 12,5 ç.v.
Sayı: 120 ədəd

“Elm və təhsil nəşriyyatı”nın mətbəəsində hazır pozitivlərdən çap olunmuşdur